

HEYDƏR ƏLİYEV FONDU

ELDAR MANSUROV

MANSUROVLAR

Azərbaycan Respublikasının
xalq artisti, görkəmli tarzən
Bəhram Mansurovun anadan olmasının
100 illiyinə ithaf edilir.

BAKI
2011

«Mansurovlar» kitabının müəllifi və «Xatirələr» kitabının tərtibçisi: **Eldar Mansurov**.
«Ömür qıysa...» kitabının tərtibçisi: **Münəvvər Mansurova**.

Elmi redaktor: İlham Rəhimli, sənətşünaslıq doktoru, professor

Rəyçilər: Vasim Məmmədəliyev, akademik
Rafael Hüseynov, AMEA-nın müxbir üzvü, professor

Redaktorlar: Pənah Rüstəmzadə
İsmayıl Dadaşov

ISBN 978-9952-27-280-2

© Eldar Mansurov, 2011

KİTAB KİTAB İÇİNDƏ

1. Eldar Mansurov — «Mansurovlar»
2. Məşədi Süleyman bəy Mansurov — «Xatirələr»
3. Bəhram Mansurov — «Ömür qıysa...»

REDAKTORDAN

Möhtərəm oxucu!

Qarşınızdakı kitab üç müxtəlif əsərin toplusudur. Burada Məşədi Süleyman bəy Mansurovun «Xatirələr», Bəhram Mansurovun «Ömür qıysa...» (xatirələr) və Eldar Mansurovun «Mansurovlar» kitabları toplanıb. Mansurovların üç nümayəndəsi: baba, oğul, nəvə.

Sual oluna bilər: Nə üçün üç kitab «Mansurovlar» adı ilə bir əsər kimi təqdim olunub?

Cavab verirəm. Bakının görkəmli bəy nəsli olan Mansurovlar bütün Azərbaycanda məşhur idi. Bu nəsildən məşhur şəxsiyyətlər çıxmışdır: Ağa Hacı Kərim bəy Hacı Məlik Məhəmməd bəy oğlu (1694 – 1768), Ağa Hacı Mansur bəy Ağa Hacı Kərim bəy oğlu (1731 – 1796), Ağa Hacı Qasım bəy Mansurbəyov (1766 – 1835), Ağa Hüseyn bəy Ağa Hacı Mansur bəy oğlu (1767 – 1829), Ağa Salah bəy Ağa Hüseyn bəy oğlu Mansurov (1800 – 1848), Ağa Hacı Əli bəy Ağa Hüseyn bəy oğlu Mansurov (1810 – 1879), Məşədi Məlik Məhəmməd bəy Ağa Salah bəy oğlu Mansurov (1845 – 1909), Məşədi Süleyman bəy Məşədi Məlik bəy oğlu Mansurov (1872 – 1955), Mirzə Mansur bəy Məşədi Məlik bəy oğlu Mansurov (1887 – 1967), Bəhram Məşədi Süleyman bəy oğlu Mansurov (1911 – 1985)...

Mansurovların xeyirxahlıqlarının, halallıqla iş qurmaq səriştələrinin, tacirlik bacarıqlarının xoş sorağı Fransaya, Almaniyaya, Avstriyaya, Rusiyaya, İrana, İtaliyaya, Polşaya, Macarıstana, İspaniyaya da çatmışdı. Mansurovların ailə gerblərində «xeyirxahlıq, şərəf, ləyaqət» sözləri yazılıb. Bu üç kəlmənin dərin məna tutumu həmin ailənin həyat tərzi, ömür amalı, insanlıq məqsədi olub. El arasında onlara «kefkom Mansurovlar» da deyilib. Heç vaxt siyasətə qarışmayıblar. Bəlkə də buna və böyük xeyirxahlıqlarına görə 1920 – 1937-ci il represiyalarında var-dövlətləri, mülkləri əllərindən alınsa da, onlardan heç kim həbs edilməyib.

Mansurovlar bir də musiqisevərlikləri ilə məşhur idilər. Özü də nəinki Bakıda, bütün Azərbaycanda, həmçinin İranda, Tiflisdə və İrəvanda bu nəslin musiqiyə rəğbətini yaxşı bilirdilər. Kitabı oxuduqca görəcəksiniz ki, milli musiqi mədəniyyətimizin, nəcabətli əsilzadə kökün nadir və möhtəşəm nəsil şəcərəsi olan nümayəndələrindən biri də Mansurovlardır.

Məşədi Süleyman bəy Mansurovun «Xatirələr» kitabında çox zəngin faktlar var. Həmin faktlarla biz XIX əsrin ikinci yarısını və XX əsrin birinci yarısını əhatə edən bir əsrlik dövrdə Azərbaycan musiqisinin inkişaf mərhələləri və oxucuların az tanıdıqları sənətkarların həyat və yaradıcılıqları barədə zəngin məlumatlar verilib.

İyirminci əsr Azərbaycan tar sənətinin görkəmli nümayəndələrindən olan, xalq artisti, Opera və Balet Teatrının solisti, uzun illər muğam operalarında tarzənlik etmiş Bəhram Mansurovdur. Bəhram Mansurov «Ömür qıysa...» adlı xatirələrini yazıb. Ustad sənətkar bu kitabda özünün keçdiyi əzəmətli sənət yolunun geniş və son dərəcə zəngin faktlarla süslənmiş mənzərəsini yaradıb. Bu kitabda həm Bəhram Mansurovun ömür yolunu izləmək, həm də onun sənət və sənətkarlıq barədə, tar ifaçılığının incəlikləri haqqında nəzəri düşüncə və xatirələrini oxuyuruq.

Çağdaş dövrümüzün məşhur bəstəkarlarından olan Eldar Mansurovun yazdığı «Mansurovlar» adlı kitab isə nəslin 300 illik bir zaman kəsiyində keçdiyi şöhrətli və şərəfli ləyaqət və sənət yolunu özündə təcəssüm etdirib. Eldar Mansurovun ağır zəhmət bahasına topladığı faktları publisist məharətlə təqdim etmək bacarığı bir redaktor kimi qəlbimdə qürur duyğusu oyatdı.

İnamla qeyd edim ki, üç kitabdan ibarət bu əsər nəinki oxucular, hətta musiqi tarixi ilə məşğul olan nəzəriyyəçi alimlər və mədəniyyətimizin tədqiqatçıları üçün də zəngin mənbə olacaq.

İlham Rəhimli

Ön söz

Diqqətinizə təqdim olunan «Mansurovlar» kitabı nəslimizin tarixini XVII əsrin ortalarından bu günə kimi əks etdirir. Azərbaycanda nəcabətli bəy nəsli olan Mansurovlar ölkənin mədəni tarixində silinməz iz qoymuş, musiqinin, daha doğrusu muğamlarımızın inkişafı və formalaşması, dünyada tanınmasında müstəsna rol oynamışlar. Kitab 3 hissədən ibarətdir.

Birinci hissədə nəslin tarixi haqqında məlumat verilir. Bakının qədim bəy ailəsi olan Mansurovlar İçərişəhərin ən tanınmış və hörmətli sakinlərindəndir. Bu nəslin nümayəndələri arasında sahibkarlığın əsasını qoyanlardan Ağa Hacı Kərim bəy, adı soyadımızın əsası olmuş Ağa Hacı Mansurxan bəy, dünyada ilk dəfə dənizdən neft çıxaran Ağa Hacı Qasım bəy, Rusiya ilə ticarət əlaqələri quran ilk azərbaycanlı tacir Ağa Salah bəy, Bakı muğam məclisləririn yaradıcısı və rəhbəri Məşədi Məlik bəy haqqında faktlar əsasında yazılmış materiallar kitabın birinci hissəsində toplanıb.

Nəslin layiqli nümayəndələrindən olan Məşədi Süleyman bəyin xatirələri ikinci hissədə verilib. Zəmanəsinin ziyalılarından biri Məşədi Süleyman bəy musiqi, söz, sənət bilicisi olmaqla yanaşı, həm də böyük iş adamı, dövrünün savadlı şəxslərindən idi, bir neçə xarici dildə sərbəst danışır və yazırdı.

Səyahəti çox sevər, müxtəlif ölkələri gəzərdi. Milyonçu Musa Nağıyevin oğlu İsmayıl onun yaxın dostlarından olub. Məşədi Süleyman muğamın kamil bilicisi kimi tarixdə qalıb. Atası Məşədi Məliyin vəfatından sonra onun musiqi məclislərini oğlu Süleyman davam etdirib.

Sonuncu, üçüncü hissədə tanınmış tarzən Bəhram Mansurovun xatirələri yer alıb. Mahir tarzən yaşadığı şərəfli həyat, keçdiyi sənət yolu barədə maraqlı faktları qələmə alıb. İfaçılıq sənətində zirvələrə ucalmış sənətkar musiqi tariximizdə muğam bilicisi, virtuoz sənətkar kimi yadda qalıb. Məhz Bəhram Mansurovun ifasında Azərbaycan muğamları ilk dəfə YUNESKO-nun xətti ilə 1971 və 1975-ci illərdə «Phillips» və «Baren Reiter» şirkətləri tərəfindən 2 val şəklində buraxılmışdır. Görkəmli tarzən 50 ildən artıq opera teatrında çalışmış, muğam operalarında xanəndələri müşayiət etmişdir.

Beləliklə, Sizi bir nəslin tarixi ilə yaxından tanış olmaq üçün qarşınızdakı kitabla baş-başa buraxıram…

Eldar Mansurov



NƏSLİN TARİXİ

Nəslimizin nümayəndəsi kimi Mansurovların tarixi ilə yaxından maraqlandım. Müxtəlif arxiv və muzeylərdən nadir sənədlər topladım. Amma kitabın əsas hissəsini Mansurovlar nəslinin şəxsi arxivi təşkil edir. Bir də bəxtim onda gətirdi ki, atam və ulu babalarım bir çox sənədləri qoruyub saxlamış, öz xatirələrini yazmış, gördüklərini və eşitdiklərini nəsildən-nəslə ötürmüşlər.

Mansurovlar nəsli qədim köklərə malikdir. İlk dəfə olaraq, bu kitabda tarixi materiallara əsaslanan, XVII əsrdən başlayaraq bu günə qədər nəsil haqqında həqiqi faktlar bir yerdə toplanıb.

Bəs, Mansurovlar kimdir?

Onlar Bakının qədim bəy nəslindəndirlər. Adətən bəylər xanın qohumu, yaxud ona yaxın olan, ya da xüsusi xidmətlərinə görə xan tərəfindən bu rütbəyə layiq görülürdülər. Bəylərə əhali yaşayan mülklərə sahib olmaq hüququ verilirdi.

Bu baxımdan 1860-cı ilin dekabrında kameral yazıdakı qeyd xüsusi maraq kəsb edir. Belə ki, «Vergiyə cəlb olunmayan təbəqəyə aid edilən ailə üzvləri və şəxslər haqqında» siyahıda «Mansurbəyovlar» bölməsinin «Xüsusi qeydlər» guşəsində (Azərbaycan Mərkəzi Dövlət Tarix Arxivi, fond 10, siyahıyaalma 1, iş 80) aşağıdakılar yazılıb:

«Bəylərin və möhtərəm şəxslərin rütbəsini təsdiq edən siyahıda» 225, 381, 1000, 3997, 3998, 3999 nömrəli sənədlərə malik olduqlarına görə 68 nəfər şəxs xanlıq dövründən bəy rütbəsi və fəxri addan istifadə etmək hüququna malikdir və vergi ödəyən təbəqəyə mənsub deyildir». Bu fakt bilavasitə yalnız Mansurovlar nəslinə aid edilir, çünki bütün kameral siyahıda belə qeydlərə təsadüf olunmur.

1806-cı ildə ruslar Bakını alandan sonra işğal zonasının ilk komendantı mayor Afanasyev (sonralar - podpolkovnik) şəhərin və ətrafdakı kəndlərdə yaşayan əhalinin siyahısını (kameral) tərtib edir.

Списокъ

О лицахъ и семействахъ не принадлежащихъ податному сословію, какъ то: о чиновникахъ бекахъ, почетныхъ гражданахъ и Армяно-григоріянскомъ и магометанскомъ духовенствѣ.

Составленъ въ Декабрѣ 1860 г.

№№ семействъ по порядку.	№№ подъ которымъ записаны по послѣднему.	Имена, отчества и прозванія лицъ мужескаго пола	Лѣта.	Объясненіе прибыли послѣ послѣдняго описанія.	Число душъ женскаго пола въ семействѣ	914 Какой вѣры.
94.		Аджи Али бекъ		По удостовѣренію бековъ и почетныхъ лицъ числомъ 68 человѣкъ, современъ ханскихъ пользуются почетомъ и бекскимъ званіемъ и не принадлежатъ къ податному сословію, въ чемъ имѣютъ документы за №№ 225, 381, 1000, 3997, 3998 и 3999.	Семейство подъ № 94 исключено по сему списку 4 вовсе счета по протоколу Палаты 30 Іюля 1863 года состоявшемуся утвержденному Великимъ Княземъ Намѣстникомъ Кавказскимъ. Какъ это видно изъ предложенія Начальника Главнаго Управленія отъ 28 октября 1863 года за № 6077.	
		Аджи Мансуръ бековъ	40.			
		племянники его: Исмаилъ бекъ	15.			
		Меликъ Мамедъ бекъ	16.			
		Ага Мамедъ бекъ.	40			
		сынъ его Али Мурадъ	2.			

Bakı şəhərinin əslən fəxri vətəndaşlarının siyahısı, Mansurbəyovlar qrafası (1860)

Xanlıq dövrünün sənədlərinə əsasən, eləcə də Mansurovların cəmiyyətdəki nüfuzunu nəzərə alaraq Afanasyev onların bəy rütbəsini və Qafqaz canişinin dəftərxanası tərəfindən 1806-cı ildə verilmiş 225, 381, 1000, 3997, 3998, 3999 nömrəli sənədlərdə göstərilən bütün daşınan və daşınmaz əmlakın sənədlərini təsdiq edir. Bu dövrdə (1806-cı il) Mansurovlar nəsli kişi xətti ilə 68 nəfərdən ibarət idi. Onlar bəy və möhtərəm şəxslər kimi vergidən azad olunan təbəqə kimi göstərilir.



Bakı. Naməlum rəssamın qravürası (1855)

Lakin, sonrakı siyahılarda Mansurovlar əhalinin digər təbəqələrinə aid edilir. Belə ki, «Bakı şəhər və əyalətlərində bəylərin sayı» haqqında 1 nömrəli siyahıda, 22 dekabr 1816-cı il tarixli və 67 səhifədən ibarət olan sənədin kameral şöbəsinin qeydinə əsasən, Ağa Hüseyn Hacı Mansur oğlu 15-ci səhifədə, 4-cü nömrə altında tacirlər təbəqəsinə aid edilir.

Gəlin növbəti suala aydınlıq gətirək: nə üçün əslən bəy nəslinə mənsub olan Mansurovlar 1816-cı ilin siyahısında «Tacir» və «Digər təbəqələr» bəndində göstərilib.

1860-cı ilin kameral siyahısında 225, 381, 1000, 3997, 3998, 3999 nömrəli sənədlərə əsaslanaraq Mansurbəyovlar xan dövründən bəri vergiyə cəlb olunmayan təbəqə kimi «möhtərəm şəxslər» və «bəy» rütbəsinə mənsub idilər. Lakin elə həmin sənəddə göstərilir ki, son siyahıya alınmaya görə, bu ailə 1123, 1124 və 1273 nömrəli qeydə əsasən «əhalinin sadə» təbəqəsinə aid edilir.

94-cü nömrə altında qeyd olunan bu ailə siyahıda Qafqaz valisi Böyük Knyaz tərəfindən tərtib edilən və təsdiqlənən Palatanın 1863-cü il 30 iyul tarixli protokoluna əsasən bu ailə nəsillikcə



Bakı. XIX əsrin ortaları

bütün imtiyazlardan məhrum edilir. Bu məsələ Baş İdarə rəisinin 1863-cü il, 28 oktyabr tarixli, 6077 nömrəli təqdimatında əksini tapır.

Qəribə vəziyyət alınır. Rusiya imperiyasının Bakı qəzası üzrə bir sıra kameral sənədlərində və bəylərin siyahılarında Mansurbəyovlar ailəsi müxtəlif şəkildə göstərilir – birində bəy, digərində - sadə vətəndaş və nəhayət, nəsillikcə Bakının fəxri vətəndaşı.

Nəslimizin taleyi həm maraqlı, həm də təzadlıdır. Bu, familiyamızda da özünü göstərir. Bəy rütbəsini almaqla yanaşı, soyadımızı da sadələşdirdilər.

Hərdən düşünürəm ki, gərək nə qədər qəddar olasan ki, bir nadanın cızma–qarasıyla mənsub olduğun bəy rütbəsindən məhrum olasan. Digər tərəfdən, babalarımın əsrlər boyu halallıqla qazandığı varidata kimlərsə acgözlüklə sahib olsunlar. Bu elə-belə deyil. 1806-cı ildə ruslar Bakını tutandan sonra, bəylərdən bir çoxu rejimin dəyişməsini sevinclə qəbul etdilər. Bu adamlar yeni hakimiyyətdə vəzifə və xanın yaxınlarının var-dövlətinə sahib olmaq üçün hər vasitəyə əl atır, yeni ağalarına yaltaqlanırdılar.

Möhtərəm nəsil olan Mansurovlar bəzi Bakı bəylərinin onlara qarşı mübarizənin qurbanı oldu. Onlar Mansurovların daşınmaz əmlakına sahib çıxmaq üçün amansız mübarizəyə qalxmışdılar. Qara niyyətlərinə çatmaları üçün əsas məqsəd nəsli bəy rütbəsindən məhrum etmək idi. Buna da nail oldular.

Fikrimizin təsdiqi üçün tarixi sənədlərə müraciət edək. Belə bir sənəd «Bakı quberniyasında yüksək təbəqənin şəxsi hüquqlarının müəyyən edilməsi haqqında» Bakı bəylər komissiyasının 1873-cü il 31 may tarixli iclasının jurnalıdır (Azərbaycan MDTA, fond-55, qeydiyyat 1, iş 11). Sənədə uyğun olaraq, bəy rütbəsinin tanınması haqqında Məşədi İsmayıl bəy Ağa Salah bəy oğlu Mansurov (əlavə 16 sənəd), Fatmayi kəndindən Əbdulkərim bəy Qulu bəy oğlu, Ələsgər bəy Dərgah bəy oğlu (6 sənəd), Nardaran kəndindən İsgəndər bəy Əliqulu bəy oğlu, Əbdürrəhim bəy Ocaqbəy oğlu, Məşədi Kərim bəy Hacı Məmmədhüseyn oğlu, Ağabala bəy Məşədi Mahmud oğlu Məlikov (5 sənəd), Fərəculla bəy Baba bəy oğlu, Masazır kəndindən Kərbəlayi Şahbaz bəy Rza bəy oğlunun müraciətləri əsasında 9 işə baxılmışdır.

İclasın protokolunu diqqətlə öyrənəndə bu nəticəyə gəlmək olar. Komissiya üzvləri tərəfindən işlərə baxılarkən, onların bəy mənşəli olması, rütbəsi və torpağa sahib olmaları barədə təqdim edilmiş rəsmi sənədlər nəzərə alınmamışdır.

Komissiyanın tərkibi:
Sədr – stat-müşavir Məlik Bəylərov
Üzvlər – kargüzar, stat-müşavir Relitski
Bakı qəzası üzrə seçicilər:

Kornet – Süleyman bəy İsgəndərbəyov, İbrahim bəy Məşədi Kərim bəy oğlu, Əbdülsalam bəy Sadıq bəy oğlu, podporuçik - Kərim bəy Səlimxanov, praporşik – Hacı Kərim bəy Səlimxanov, Əhməd bəy Hacı İsa bəy oğlu, Ağabala bəy Məmmədrza bəy oğlu, ştabs-kapitan – Əziz bəy Hacinski, Məlikməmməd bəy Hacı bəy oğlu, ştabs-rotmistr Hacı Hüseynəli bəy Xanlarov, Hacı Ağa bəy Səlim bəy oğlu, quberniya katibi Cəfərqulu bəy Səlimxanov, iddiaçıların hələ valideynlərinə 30–40 il əvvəl məxsus olan sənədlərə baxsalar da, onların həqiqiliyini qəbul etmədilər. Komissiya sənədlərin həqiqi olmadığını bildirərək qərar çıxartdı: «Bütün iddiaçıların ali təbəqəyə mənsub olmasından imtina edilsin».

Əgər komissiya düzgün qərar çıxarsaydı, onda hakimiyyət həm bəylik rütbəsini. həm də torpağı həqiqi sahiblərinə qaytarmalı idi. Təbii ki, belə olan halda əsil və indiki torpaq sahibləri arasında uzun müddətli məhkəmə çəkişməsi qaçılmaz olacaqdı. Hakimiyyət nüfuzunu itirməmək



Bakı. 1885-cü il qravürü

xatirinə hətta bir çox illər keçəndən sonra da bilərəkdən, öz yanlış qərarını, əvvəlki kimi bir daha təsdiq etmişdir.

Gəlin bu komissiyanın beynəlmiləl tərkibinin iş prinsipinə diqqət yetirək. Komissiya üzvləri ilk növbədə çar məmuru olaraq rejimin siyasi sifarişini icra edirlər. Hakimiyyət dəyişikliyini qəbul etməyən bəylərin soyadları ilk gündən Rusiya imperiyasının qara siyahısına düşürdü. Beləliklə, onlar çar rejiminə uyğun olmayan, hətta təhlükəli şəxslər hesab edilirdi. Onlara etibar edilmir, hətta övladlarını da orduya çağırmırdılar. Komissiyanın özü hakimiyyətin əlində oyuncaqdan başqa bir şey deyildi. Beləliklə, onlar çar rejiminə uyğun olmayan bəyləri seçib meşşan, tacir, sadə təbəqəyə və s. aid edirdilər.

Gəlin buna bənzər tarixi hadisələrə nəzər yetirək. Rusiyada 1825-ci ildə baş vermiş dekabristlər üsyanı yatırıldıqdan sonra inqilabçılar bütün imtiyazlardan – dvoryan rütbəsi, zadəganlıq, mülkiyyət və s. məhrum olunmuş və sürgün edilmişlər. Dekabristlərin övladları və yaxın qohumları isə Rusiya ordusunda hərbi xidmətə çağırılmırdı. Məhz Mansurovlar da çar hakimiyyəti zamanı buna bənzər çətinlik və məhrumiyyətlərlə üzləşdilər. Daha bir maraqlı fakt: Mansurovlardan heç kim çar ordusunda hərbi xidmətdə olmayıb.

Türkan kəndi nəslimizin ağsaqqalı Ağa Hacı Kərim bəyin mülkü olub.Bu kənd XVIII əsrin ortalarında I Mirzə Məhəmməd xan tərəfindən ona bağışlanmışdı. 1803-cü ildə Bakının son hakimi Hüseynqulu xanın əmri ilə Türkan kəndinin bir hissəsi xana sədaqətlə qulluq etdiyinə görə müvəqqəti istifadə üçün Hacı Qasım bəyə verilir. Yeri gəlmişkən, o zamanlar Hüseynqulu xan bir çox bəy-



Bakı. 1800-cü il qravürü



Bakı. XIX əsrin sonları

lərdən kəndləri alaraq idarə etmək üçün başqa şəxslərə verirdi. Məsələn, Fatmayi kəndinin idarəçiliyini Ələsgər bəy Dərgah bəy oğluna tapşırdı. Bu o Ələsgər bəydir ki, bəy titulunu geri almaq üçün 1873-cü ildə Bakı bəy komissiyasına ərizə vermişdi. Lakin 1806-cı ildə rusların gəlişi ilə əlaqədar Ağa Hacı Kərim bəyin nəvəsi Ağa Hüseyn bəy Türkana yenidən sahib çıxır. 1810-cu ilin sənədlərinə əsasən, kameral siyahıda Türkanda 37 kişi adı qeyd olunub. Demək, həmin vaxtlar Türkanda 37 ev olub. 1832-ci il tarixli, 30 nömrəli kameral siyahının 466-cı səhifəsində Türkan kəndi artıq Zeynal bəyin – Hacı Qasım bəyin oğlunun idarəçiliyində qeyd olunur. Zeynal bəy komissiya üzvü olan Hacı Kazım bəy Səlimxanovun qardaşıdır.

Mansurovların bəy titulundan məhrum edilməsi bilavasitə Türkanla bağlı olub. Sənədlərdən görünür ki, kənd uğrunda mübahisə həmişə bu iki nəsil – Mansurbəyovlarla Səlimxanovlar arasında gedib.

Səlimxanovlar nəsli əvvəlcə xana, sonra da ruslara xidmət etmişlər. Görünür, yeni rejim dövründə seçki komissiyasının üzvü olandan sonra Hacı Kazım bəy mövqeyindən istifadə edərək Türkan kəndini öz nəslinə qaytarmağı qərara alır.

Xatırladaq ki, 1803-cü ildə Hüseynqulu xanın əmrinə əsasən Türkan kəndinin bir hissəsi müvəqqəti idarəçilik üçün Hacı Qasım bəyə verilmişdi. Rejim dəyişəndən sonra Səlimxanovlar nəsli bütün kəndi həmişəlik olaraq ələ keçirməyi qərara almışlar. Məqsədlərinə çatmaq üçün kəndin sahibi kimi öz nəslinə qaytarılması qərarı hüquqi təsdiqini tapmalıydı.

1816-cı ildə Mansurovları bəy titulundan məhrum edirlər. İstisna deyil ki, seçki komissiyasının üzvü Hacı Kazım bəy yuxarılarla əlaqəsindən istifadə edərək, yaxın qohumu Əliverdi bəyə faktiki olaraq kəndin idarəçiliyini həvalə edir. Bu təyinat sənədlərdə «kəndin sahibi» ifadəsi ilə qeyd olunur. Səbəb budur ki, qardaşı Hacı Kazım bəyin oğlu Zeynal bəy hələ o zaman yetkinlik yaşına çatmamışdı.



II Rozen Qriqoriy Vladimiroviç. (alm. Georq Andreas von Rosenan) (1872 – 1871), baron, infanteriya generalı (1826), general adyutant (1818)



Böyük Knyaz Mixail Nikolayeviç (1832–1909). İmperator birinci Nikolayın dördüncü oğlu. Qafqazın valisi və Qafqaz ordusunun Baş komandanı (1863–81), General-feldmarşal (1878)

1832-ci ildə Zeynal bəy Türkan kəndinin hüquqi sahibi olur. Elə bu ildə Ağa Hüseyn bəyin oğlu Ağa Salah bəy Mansurbəyov bəy rütbəsinin qaytarılması xahişi ilə Bakı bəy komissiyasına müraciət edir. Lakin Gürcüstandakı Baş İdarə rəisi, general - adyutant baron ikinci Rozenin Dağıstan hərbi vilayətinin rəisinə yazdığı 583 nömrəli, 19 yanvar 1838-ci il tarixli təlimatından görünür ki, Ağa Salah bəyin xahişindən imtina edilir. Təlimatda yazılır: «Bir neçə adamın şahidliyi və keçmiş komendant, podpolkovnik Afanasyevin əmri onun bəy nəslindən olduğuna inandırıcı əsas vermir».

Mansurovlar uzun müddət öz mülklərinin və bəy rütbəsinin qaytarılması üçün mübarizə aparmışlar. Belə ki, Ağa Salah bəyin böyük oğlu Məşədi İsmayıl bəy 1 noyabr 1872-ci il tarixdə bəy rütbəsinin bərpa olunması üçün bəy komissiyasına müraciət edir. Onun da xahişi rədd edilir. Baxmayaraq ki, onların təqdim etdiyi 16 sənəddə, o cümlədən xanlıq dövründə verilən bəylik rütbəsi və daşınmaz əmlakın siyahısında aydın göstərilir ki, hələ Hacı Mansur bəy və onun oğlu Ağa Hüseyn bəyin vaxtında Türkənd (Türkan) Mansurbəyovlara məxsus olub. Sənədlərdə qeyd olunur ki, «Bakı qəzasının Türkənd (Türkan) kəndi 1836-cı ilə qədər Ağa Hüseyn bəyin oğulları, ata və ana tərəfindən doğma olan Ağa Salah bəy və Hacı Əli bəylə, ana tərəfdən isə, ögey olan Əli Murad bəy arasında bölünməz mülk olub. Şəhərdə yaşayan Ağa Salah bəy və Hacı Əli bəy qardaşları Əli Murad bəyin vəfatından sonra bu kənddə yalnız evlərini, xırman və samanlıqlarını saxlamaqdan savayı hər hansı gəlir götürməmişlər».

Mansurovlar bəy rütbəsini geri almaq üçün dövlət orqanlarına, Bakı bəy komissiyasına ərizə ilə 5 dəfə müraciət etmişlər. Birinci dəfə – 1816-cı ildə Ağa Hüseyn bəy onun ailəsinin bəy siyahısına deyil, tacirlər siyahısına salınmasına etiraz əlaməti olaraq müraciət etmişdir. İkinci dəfə – 1832-ci ildə Ağa Hüseyn bəyin oğlu Ağa Salah bəy onu vergiyə cəlb etdiklərinə görə Bakı cəmiyyətinə şikayət etmiş və bəy rütbəsinin geri qaytarılmasını istəmişdir. Üçüncü dəfə – 1836-cı ildə, o, bu barədə yenidən müraciət etmiş, bir müddət keçəndən sonra - 19 yanvar 1839-cu ildə, Gürcüstandakı Baş İda-

rənin rəisi, general-adyutant Baron II Rozendən rədd cavabı almışdır. Dördüncü dəfə – 1860-cı ildə, Ağa Salah bəyin qardaşı Hacı Əli bəy eyni xahişlə komissiyaya müraciət etmişdir. Xahiş 28 oktyabr 1863-cü il tarixdə Qafqazın valisi imperator I Nikolayın 4-cü oğlu Böyük knyaz Mixail Nikolayeviç tərəfindən növbəti dəfə rədd edilmişdir. Nəhayət, 1 noyabr 1872-ci il tarixdə Ağa Salah bəyin böyük oğlu Məşədi İsmayıl bəy komissiyaya 16 sənəd təqdim etmişdir. Bu, Mansurovların bəy komissiyasına 5-ci və sonuncu müraciəti olmuşdur.

Türkan kəndinin bizim nəslə qaytarılmasının qeyri-mümkünlüyü Mansurovların bəy titulundan məhrum edilməsinə səbəb olmuşdur. Sizə qəribə görünmürmü?.. 1 noyabr 1872-ci ildə Bakı bəy komissiyasının üzvləri sırasında bir nəsildən 3 nümayəndə – podporuçik Kərim bəy Səlimxanov, praporşik Hacı Kərim bəy Səlimxanov, quberniya katibi Nəcəfqulu bəy Səlimxanov daxil idi.

Taleyin oyununa baxmayaraq Mansurovlar həmişə Bakının hörmətli, sayılan – seçilən vətəndaşları olmuşlar. XIX əsrin ortalarında 10 aprel 1832-ci il tarixdə imperator I Nikolay Xüsusi manifestlə «fəxri vətəndaşlar təbəqəsi» titulunu təsis etdi. Bu titula zadəganlar və tacirlər arasında ictimai mövqeyi yüksək olan şəxslər layiq görülürdü. Fəxri vətəndaşlıq hüququ ya şəxsən ömürlük, ya da nəslən həmişəlik verilirdi. İkinci halda, ictimai vəziyyətindən asılı olmayaraq, bu hüquq həmin şəxsin bütün qanuni övladlarına da aid edilirdi. Fəxri vətəndaşların zadəganlar kimi «əlahəzrət» adından istifadə etmək hüququ vardı.

Vergiyə aid edilməyən təbəqəyə mənsub olan məmurların, bəylərin və fəxri vətəndaşların 1860-cı ilin dekabrında tərtib edilən kameral siyahısında Mansurbəyovlar «Bakının əslən fəxri vətəndaşı» bölməsinə aid edilir. Mansurovlardan ilk olaraq bu yüksək ada Ağa Salah bəy «Şəhər qarşısında böyük xidmətlərinə görə» layiq görülüb.



Bakı. 1858-ci il. Rəssam M.Mounet

Soyadımızın tarixi

Ağa Salah bəy Ağa Hüseyn bəy oğlu vəfat edəndən sonra nəslin ağsaqqalı onun kiçik qardaşı Ağa Hacı Əli bəy oldu. Nəslin ağsaqqalı kimi qardaşının ölümündən sonra onun övladlarına böyüklük etdi. 15 il qardaşı uşaqları Ağa Hacı Əli bəyin ailə üzvü sayılırdı. O zamanlar çoxunun soyadı yox idi.

Tarix boyu azərbaycanlıların soyadı, demək olar ki, olmurdu. Adətən atanın adından sonra «oğlu» sözü deyilirdi. Rusların gəlişindən sonra azərbaycanlılar «ov», «yev» şəkilçiləri ilə qurtaran soyadlar almağa başladılar. Zadəgan təbəqəsindən olan vətəndaşların soyadlarına «bəy» sözü əlavə edilirdi. Lakin bu heç də o demək deyildi ki, bütün zadəganların soyadlarına «bəy» sözü əlavə edilməli idi. Onlardan bəziləri öz soyadlarını ruslaşdıraraq «ski» sonluğu əlavə edirdi. Məsələn, Hacınskilər. XIX əsrin əvvəlindən bəzi vətəndaşlar doğulduğu, ya da yaşadığı yerin adıyla soyadlarını qəbul edirdilər. Məsələn, Şuşinski, Şəkinski, Talışinski.

XIX əsrin birinci yarısında soyadımız «Mansurbəyov» idi. Sonra «Mansurov» oldu. Sovet hakimiyyətinin gəlişi ilə əlaqədar sənədlərdə soyadımızı «Mansurzadə» yazırdılar. Lakin babam Məşədi Süleyman bəy keçmiş soyadımızın – Mansurovlar kimi saxlanmasına nail oldu.

Çar dövründə siyahı və digər sənədlər tərtib edən rus məmurları tez-tez yanlışlığa yol verirdilər. Azərbaycan adlarına ənənəvi rus sonluqları «ov», «yev» artıraraq yeni soyadlar yaradırdılar.

Beləliklə, Azərbaycan soyadlarının rus şəkilçiləri ilə yazılışı adi hal aldı. Zaman keçdikcə bəzi ailələr bununla razılaşmayıb, lazım bildikləri soyadları qəbul edirdilər. Görün məmurların biganəliyi nəyə gətirib çıxarırdı. Bu günə kimi bir çox ailələr öz soyadlarının tarixini bilmir. Məsələn, bizim nəsildən olan Məşədi Məlikməmmədin ikinci oğlu Soltan 1873-74-cü illərin kameral siyahısına səhv olaraq Salman kimi yazılıb. Daha bir misal, Bəhram Mansurovun ana babası Hacı Haşım bəyin adı və soyadı bəylərin kameral siyahısında «Hacı Haşımbəyov» kimi yazılıb. Baxmayaraq ki, onun uşaqları «Kərimov» soyadını daşımışlar. Belə misallar saysız – hesabsızdır.

Hələ 1860-cı ildə «Bakının nəsillikcə fəxri vətəndaşları» kameral siyahısında soyadımız Mansurbəyovlar kimi göstərilir. Belə ki, ağsaqqalımız Ağa Hacı Əli bəy familiya məsələsi ortaya çıxanda fikirləşmədən nəslimizdə ən nüfuzlu şəxs - babası Ağa Hacı Mansur bəyin adını nəslin soy adı kimi təsdiq etdirir.

Mansurovların taleyində təzadlı dövrlər çox olub. Lakin onlar bu çətinliklərə qarşı sinə gərib, öz mənliyini, alicənablığını, ləyaqətini qoruyub saxlamış, müdrikliyini göstərmişlər.



Ağa Hacı Kərim bəy
Hacı Məlik Məhəmməd bəy oğlu
(1694 – 1768)

Ağa Hacı Kərim bəy mənşə etibarı ilə o dövrün varlı Bakı bəylərinin nəslindən olan ən sayılan və hörmətli şəxslərindən olub. O, 1110-cu ildə (1694) zilhiccə ayının 28-də anadan olub. Ağa Hacı Kərim bəy geniş ərazisi olan əkin sahələrinə, Mərdəkan və Şüvəlanda meyvə bağlarına, Balaxanı və Bibiheybətdə bir neçə neft quyusuna, çoxlu sayda iribuynuzlu mal-qara və qoyun sürülərinə, eləcə də at və dəvə ilxılarına malik idi. Onun Xəzərdəki gəmiləri müxtəlif yüklər daşıyırdı. Bakının hökmdarı I Mirzə Məhəmməd xan yaxın qohumu kimi Türkan kəndini ona nəsillikcə bağışlamışdı.



Bakı. Qmelinin qravürü (1769)



Bakı (1850)

Ağa Hacı Kərim bəy Şirvanın ən varlı və mötəbər şəxslərindən sayılan bəy qızı Bikə xanımla evlənmişdi. Bu nigahdan onların dörd oğlu və iki qızı olmuşdur. Böyük oğlunun adı Ağa Hacı Mansur bəy, digərləri Ağa Hacı İskəndər bəy, Ağa Hacı Hüseyn bəy, Ağa Hacı Məhəmməd bəy idi.

Ağa Hacı Kərim bəyin təsərrüfatlarında xeyli sayda rəncbərlər işləyirdi. Fars dilindən «rəncbər» sözünü tərcümə etdikdə təhkimli kəndlilərin xüsusi kateqoriyası sayılan, zəhmətkeş kəndli mənasını verir.

Kəndlilər mülkədardan torpaq, su, toxum və mal-qara alır, əvəzində məhsulun böyük hissəsini bəyə verirdilər. Rəncbərlər sahibinə, özü də nəsillikcə təhkim edilirdilər. Xanın əmrinə görə, hər hansı rəiyyət rəncbər ola bilərdi. Rəncbərlərin sayı digər xanlıqlardan qaçan insanlar və əsirlərin hesabına çoxalırdı. Ağa Hacı Kərim bəy 1184-cü ilin (1768) cümədə - sani ayının 5-də, 74 yaşında vəfat etmişdir.



Bakı. Rəssam A.P. Boqolyubovun əsəri (1861)

Ağa Hacı Mansurxan bəy Ağa Hacı Kərim bəy oğlu (1731 – 1796)

Bakı xanlığının ən ləyaqətli və mötəbər adamlarından sayılan Ağa Hacı Mansur bəyə şəhərlilər böyük hörmət və ehtiramla yanaşırdılar. Atası Ağa Hacı Kərim bəy kimi o da Bakı xanlarının yaxın qohumu idi. Xanlıqda yüksək nüfuzuna görə, saray və şəhər əhli onu hörmət əlaməti olaraq «Mansur-xan bəy» deyə çağırardı. Bu səbəbdən də bəzi sənədlərdə onun adına Hacı Mansur-xan və ya sadəcə Hacı Mansur bəy kimi rast gəlirik.

O, 1147-ci il (1731) cümada-əvvəl ayının 26-da doğulmuşdur. Mövqeyindən asılı olmayaraq, onun kökü hamıya xeyirxah münasibət göstərən nəsillə bağlıdır. Səmimiyyəti, səxavəti, insanlarla xoş rəftarına görə o, hamının hörmətini qazanmışdı. Elə buna görə də, neçə illər keçəndən sonra nəslimiz hörmət əlaməti olaraq məhz Ağa Hacı Mansur bəyin adını familiyamızda əks etdirdi.

O, atası Ağa Hacı Kərim bəydən miras qalan böyük təsərrüfatı məharətlə idarə etmişdir. Geniş torpaq sahəsi, neft quyuları, naxır və qoyun sürüləri, bir neçə gəmi, çoxlu sayda daşınmaz əmlak və Türkan kəndi ona məxsus idi. Ağa Hacı Mansur bəyin 2 nigahdan 5 oğlu və 3 qızı var idi. Oğulları – Ağa Hüseyn bəy, Hacı Qasım bəy, Məşədi Məlik bəy, Məşədi Süleyman bəy və Ağa Həsən bəy.

Ağa Hacı Mansur bəy 1212-ci il (1796) zülqəddə ayının 12-də, 65 yaşında vəfat etmişdir.



Xan sarayı. Divanxana (1840)

Ağa Hacı Qasım bəy Ağa Hacı Mansurxan bəy oğlu Mansurbəyov (1766 – 1835)

Ağa Hacı Mansurxan bəyin böyük oğlu və Ağa Hüseyn bəyin böyük qardaşı olan Ağa Hacı Qasım bəyin tərcümeyi-halında Mansurovların xan nəslinə mənsub olmasını sübut edən və bu nəslin Bakı xanlığının tarixindəki məxsusi rolunu təsdiqləyən maraqlı faktlar az deyil. Belə ki, Hacı Qasım bəy sonuncu Bakı xanı Hüseyn Qulu xanın həm doğma dayısı oğlu, həm də yeznəsi idi. Onu da qeyd edək ki, məhz Hacı Qasım bəy digər zadəganlarla bərabər Hüseyn Qulu bəyi 1792-ci ildə Bakı xanlığının taxt-tacına gətirdilər. Bu faktı Abbasqulu ağa Bakıxanov özünün «Gülüstani İrəm» kitabında təsdiq edir.



Bakı. Sınıq-qala məscidi (1861)



Bakı. XIX əsrin qravürü

Bəzi nəşrlərdə isə Bakı sakinləri olan Səlimxanovların əsassız və məntiqsiz iddiasına rast gəlirik. Onların dediyinə görə, guya Hacı Qasım bəy Səlimxanovlar nəslindəndir. Lakin faktlar bunun tam əksini - əsil həqiqəti deyir. Belə ki, 2001-ci ildə «Möminin intişaratı» nəşriyyatında çap olunmuş Abbasqulu ağa Bakıxanovun «Gülüstani-İrəm» kitabının 202-ci səhifəsindəki yazını olduğu kimi təqdim edirik:

«Həmin ildə Ustar xan Üsmi vəfat etdi. Əli bəy Əmir Həmzə oğlu Üsmi oldu. Səxavətli, lakin bərk ürəkli bir əmir olan bakılı Məhəmmədqulu xan da vəfat etdi. Qardaşı oğlu Hüseynqulu ağa Hacı Əliqulu ağa oğlu, bir neçə bəyin - dayısı oğlu və damadı Qasım bəy Mansurxan bəy oğlunun və sair tərəfdarlarının səyilə hökumət başına keçdi. Mirzə Məhəmməd xan, Quba qoşunu ilə yenə Bakı üzərinə gəldi. Hüseynqulu xan şəhərdə, Mirzə Məhəmməd xan isə kəndlərdə gah müharibə, gah da sülh edib, ölkəni və mədənləri öz aralarında bölüşdürdülər».

Bir məsələni də qeyd etmək yerinə düşərdi, söhbət familiyadan gedir. Məlumdur ki, XIX əsrin əvvəllərində azərbaycanlılar arasında familiya anlayışı yox idi. O dövrün bütün rəsmi sənədlərində hər kəsi öz adı və atasının adı ilə qeyd edirdilər. Lakin yeni hakimiyyətə qulluq edən azərbaycanlılar könüllü surətdə öz familiyalarına ruslaşdırıb – ov, -yev sonluqlarını əlavə etdilər.

Göründüyü kimi, Abbasqulu ağa Bakıxanovun «Gülüstani-İrəm» kitabında Səlimxanovların iddiası təsdiqini tapmır. Niyə? Ona görə ki, Abbasqulu ağa öz kitabında Hacı Qasım bəyi məhz Mansurxan bəyin oğlu kimi təqdim edir. Mansurxan bəyin də kim olduğunu bütün Bakı əhli yaxşı bilirdi. Onun el arasında o qədər hörmət və nüfuzu var idi ki, sonralar nəvələri onun adını nəslin familiyasında həkk etdirdi. İllər ötdükcə familiyamız, kökü qalmaq şərtilə, əvvəl Mansurbəyov, sonralar isə, və bu günə kimi Mansurov şəklini aldı.

Ağa Hacı Mansurxan bəyin oğlu Ağa Hacı Qasım bəy də atasından xeyirxahlıq, mərhəmət kimi xüsusiyyətləri əxz etmişdir. Bakıda bu günə kimi onun tikdirdiyi binalar qalır, ən məşhuru İçərişəhərdəki «Qasım bəy hamamı»dır.

Mansurxan bəyin nəslini yaxşı tanıyan Abbasqulu ağa «Gülüstani-İrəm» kitabında Hacı Qasım bəyin daha bir xeyirxahlığını qələmə alıb. Belə ki, əvvəllər indiki Təzə pir məscidinin ərazisində XIV əsrdə yaşamış dərviş Əbu Səid Abdal Bakuyinin (Bakuvi) hücrə və məzarı yerləşirdi. Şəhərdə bu yer daha çox «Xəlifə damı» kimi tanınır. Bakılılar buraya pir deyər və səcdəgah kimi hörmət edərmiş. Xeyirxahlığı və qonaqpərvərliyi ilə tanınan Əbu Səid Abdal Bakuyi Bakının kənarında yaşayırdı. O, kasıblara yardımı ilə seçilirdi, qapısına gələn heç bir məzlumu naümid qaytarmazdı. Deyilənə görə, padşah və sultanların fərmanlarından göründüyü kimi, neft quyusu və Şubanıdakı torpaqlardan əldə olunan gəlir Əbu Səidin ölümündən sonra xeyirxah məqsədlərə, məzarına qulluq edən şəxslərə xərclənirdi.

Vaxt keçdikcə məscid və hücrələr dağılmış, Əbu Səidin məzarı və hücrəsi qumla örtülmüşdür. Abbasqulu ağa Bakıxanov «Gülüstani-İrəm»də («Möminin intişaratı» nəşriyyatı, 2001, səhifə 245) yazır ki, «Hicri 1232-ci (1817) ildə, bakılı Hacı Qasım bəy Mansurxan bəy oğlu onun qəbrini və məssidini təmir etdirmişdir».

Əsl müsəlman və zadəgan kimi məscidin öz vəsaiti ilə bərpası Ağa Hacı Qasım bəyin humanistliyini bir daha sübut edir. Hacı Qasım bəy bu qədim dini abidəni yenidən xalqa qaytardı. Təbii ki, imkanlı şəxs olduğundan o, Əbu Səidin pirini söküb, başqaları kimi yerində təzəsini tikə bilərdi, hətta tarixdə qalmaq üçün öz adını da əbədiləşdirə bilərdi. Amma Ağa Hacı Qasım bəy bunu etmədi! Alicənab və dindar olduğundan, o bu barədə heç düşünmədi də.



Bakı. XIX əsrin ortaları. M.Teylorun qravürü



Hacı Qasım bəyin gördüyü işlər onun adını təkcə Bakıda deyil, ondan çox-çox uzaqlarda tanıtdırmışdır. Belə ki, dünyada ilk dəfə dənizin dibindən neft çıxaran məhz Ağa Hacı Qasım bəy olmuşdur. «Consulting & Business» jurnalının 2006-cı il 8-ci nömrəsində «Qara qızılın tarixi» adlı məqalədə bu fakt təsdiq olunur. Sənədlərə və elmi nəşrlərə əsasən məhz o, 1803-cü ildə (digər məlumatda 1798-ci ildə) Xəzər dənizinin Bibi Heybət buxtasında sahildən 18 və 30 metr məsafədə olan 2 neft quyusu qazdırmışdır. Quyular möhkəm, kip bərkidilmiş taxta tirlər vasitəsilə sudan qorunurdu. Bu quyulardan uzun illər neft hasil edilirdi.

İlk neft sənayesinin formalaşması 1825-ci ilə qədər davam etmişdir. Həmin il Xəzərdə güclü tufan qoparaq quyuları dağıtmış, nəticədə onlar batmışdır.

Rus alimləri «Neft yataqlarının istismarı ilə bağlı elmin yaranması» referatında qeyd edirlər ki, Xəzər dənizi sahillərində, həmin Bibi Heybətdə dünyada sənaye üsulu ilə ilk neft buruğu qazılarkən artıq orada 25 quyu neft verirdi. İstisna deyil ki, həmin quyular da Qasım bəyə məxsus olub.

Mansurovların mülkləri, dükan və anbarları əsasən Cümə və Sınıq qala məscidləri arasında yerləşdiyinə görə, həmin ərazidə gediş-gəliş çox sıx idi. Bunu görən Hacı Qasım bəy qardaşı oğlu Ağa Salaha İçəri şəhərdə dar küçələrin genişləndirilməsi məqsədilə dəyərli məsləhətlər vermişdi.

Hacı Qasım bəy özü də o dövrün tanınmış sahibkarı idi. Hələ 1803-cü ildə Hacı Qasım bəy Xəzərdən neft çıxarmaq üçün quyular qazmışdı. Lakin 3 ildən sonra Rusiya imperiyası Bakını işğal edir.

Məşədi Süleyman xatirələrində danışardı ki, Hacı Qasım bəy, öz torpaqlarında quyuları qazmaq üçün artıq yeni hökumətdən icazə almalıydı. Buna görə də o, Tiflisə, Rusiyanın Qafqazdakı canişinin yanına gedir. Hacı Qasım bəy sahibkarlıq fəaliyyətini daim genişləndirər, yeni əlaqələr qurar, öz işini çox yaxşı bilərdi. Onun Tiflisdə də dükanları var idi.

Ağa Hüseyn bəy
Ağa Hacı Mansurxan bəy oğlu Mansurbəyov
(1767 – 1829)

Ağa Hüseyn bəy Ağa Hacı Mansur bəy oğlu Bakının zəngin adamlarından olub. O, 1183-cü il (1767) şəvval ayının 22-də doğulub. O zamanın dəyərlərinə görə o, 1-ci Gildiyaya aid tacir olub. 1816-cı il 22 dekabr tarixdə Bakı bəylərinin kameral siyahısında Ağa Hüseyn bəyin adı tacirlər siyahısında çəkilir. Ona məxsus əmlakın siyahısında İçərişəhərdə Böyük Qala küçəsindəki ikimərtəbəli evi və şəhərin müxtəlif yerlərində dükanları vardır. Ağa Hüseyn Türkan kəndinin, eləcə də, Keşlədə və Abşeronun digər kəndlərində əkinə yararlı torpaq sahələri, Mərdəkanda və Şüvəlanda meyvə bağları, çoxlu sayda mal-qara, 300 baş qoyun sürüsü və at ilxısı ona məxsus idi. Varis kimi atası Ağa Hacı Mansurdan ona bir neçə neft quyusu da qalmışdı. Ağa Hüseyn bəyin bir neçə rəncbər ailəsi vardı. Varidatı o zamanın varlı tacirlərinin var-dövlətiylə müqayisədə çoxlarını üstələyirdi.



Bakı. Cümə məscidi və şəhərdən bir görünüş

Ağa Hüseyn bəyin iki nigahdan 2 qızı və 3 oğlu vardı. Birinci arvadı Törə xanım Kərbəlayı Dadaş qızından oğlu Əlimurad bəy (1788 – 1838) və qızı Şəhrəbanu xanım (1792 – 1847) doğulmuşlar.

İkinci arvadı Anaxanım Hacı İbrahim qızından 2 oğlu: Ağa Salah (1800 – 1848), Ağa Hacı Əli (1810 – 1879) və qızı Kübra xanım (1804 – 1866) dünyaya gəlmişlər.

Eləcə də Ağa Hüseyn bəyin 4 qardaşı, 3 bacısı vardı. Böyük qardaşı tacir Hacı Qasım bəy Mansurbəyov dünyada ilk dəfə dənizin dibindən neft çıxarmağa nail olmuşdur. Sənədlərə və elmi nəşrlərə əsasən məhz o, 1803-cü ildə (digər məlumatda–1798-ci ildə) Xəzər dənizinin Bibi Heybət buxtası sahilində bir-birindən 18-30 metr məsafədə olan iki neft buruğu qazdırmışdır. Quyular biri-birinə möhkəm, kip bərkidilmiş taxta tirlər vasitəsilə sudan qorunurdu. O quyulardan uzun illər neft hasil edilirdi.



Перепись

Учиненная въ Крепости Баку и Нафарштатъ жителямъ, всякаго званія людямъ совсею подробностію, ихъ имущества, двиглимаво, и недвижимаво имѣнія.
1816.го года декабря 22

№	Званіе жителей	Число домовъ	Душъ: мужеска	Душъ: женска	Верблюдовъ	Лошадей	Скота: рогатаго	Скота: овецъ	Садовъ: фруктовыхъ	Садовъ: шафранныхъ	Отмѣтки
	Разныхъ судовщиковъ										
71	Мамадъ Рагимъ	1	3	1							
72	Калбалай Касимъ	1 наемной	3	1							
73	Керимъ Енземчи	наемной 1	2	деревенской 2							
74	Аликперъ Калпаліовъ	1	7	6					1		
75	Керимъ Мухтаровъ	1	3	3		3		1			
76	Ага Ѣръ	1	2	3							
77	Мешады Меликъ	1	3	4				1	1		
78	Альгули	1	2	2							
79	Гайбетъ	1	2	2							
80	Бедель.	1	4	2							
81	Мешады Мехти	1	2	5							
82	Меликъ Топчи	1	2	2		1	2		1	1	
83	Мешады Сулейман	1	5	1							
84	Мешады Усеинъ Ха	1	1	3							
85	Мешады Иманы	1	3	3					1		
86	Куламъ Усеинъ	наемной 1	1	деревенской 5							
87	Абдулла Сальянской	наемной 1	2	деревенской 3							

Bakı və əyalət bəylərinin kameral siyahısı (1816-cı il)



İlk neft sənayesinin formalaşması 1825-ci ilə qədər davam etmişdir. Həmin il Xəzərdə güclü tufan qoparaq quyuları dağıtmış, nəticədə buruqlar suda batmışdır.

Rus alimlərinin «Neft yataqlarının istismarı ilə bağlı elmin yaranması» mövzulu referatlarında müəlliflər qeyd edirlər ki, Xəzər dənizi sahillərində, həmin Bibi Heybətdə dünyada sənaye üsulu ilə ilk neft buruğu qazılarkən artıq orada 25 quyu neft verirdi. İstisna deyil ki, həmin quyular Qasım bəyə məxsus olub.

Ağa Hüseyn bəyin o biri qardaşları – Məşədi Məlik və Məşədi Süleyman, gəmiçiliklə məşğul olurdular. Onlar babaları Ağa Hacı Kərim bəy kimi, öz gəmilərində müxtəlif malları Bakı buxtasından Rusiya və İrana daşıyırdılar.

Qardaşların hər birinin «Kirjim» və «Şkout» tipli bir neçə yelkənli qayıqları vardı. «Kirjim» adlanan yelkənli qayıqlar çox sürətli olub, yalnız sahil sularında üzməyə yararlı idilər. Onların vasitəsilə yüklər daşınır, Xəzərin cənub sahillərində balıq ovlayırdılar. Adətən bu gəmilərin uzunluğu 4,5 – 8,5 m, heyəti isə 3 – 4 nəfərdən ibarət olurdu.

Kiçik qardaşı Ağa Həsən bəy də tacirlik edirdi. Onun böyük qardaşı Ağa Hüseynlə Bakıda, Karvansarada bir neçə dükanları vardı. Ağa Həsən bəy İçərişəhərdə 2-mərtəbəli mülkündə yaşayırdı. Həmçinin Şüvəlanda böyük meyvə bağına sahib idi. Ailəsi həyat yoldaşı, 4 oğlu və 2 qızından ibarət idi.

Ağa Hüseyn bəy 1245 (1829)-ci il rəcəb ayının 6-da, 62 yaşında vəfat etmiş və Bibiheybət qəbristanlığında dəfn edilmişdir.

Ağa Salah bəy
Ağa Hüseyn bəy oğlu Mansurbəyov (Mansurov)
(1800 – 1848)

Ağa Salah bəy Ağa Hüsyen bəy oğlu Mansurov bu nəsildə ən nüfuzlu və bacarıqlı, sərişt-təli iş adamı olub. Babalarından ona çoxlu var-dövlət qalmışdı. O, çox az - cəmi 48 il yaşadı, lakin Ağa Salah bəy özündən sonra xeyli var dövlət və təmiz ad qoyub getdi. Bu gün, İçərişəhərdə, Mansurovların evinin qabağında yerləşən Tut ağacı meydanı, hələ özünün sağlığında «Ağa Salah» meydanı adlanırdı. Bu meydanda çoxlu xırda evlər yerləşirdi. Ağa Salah bəy həmin evləri alıb, söküb və yerində geniş meydan saldı. Bundan sonra şəhərin bu hisssəsində fayton və qazalağların hərəkəti xeyli asanlaşdı.

O vaxtkı şəhərin görünüşü necə idi?

Bir anlığa tarixə dönək. Bakı tarixinin bilicisi, həqiqi stat-müşavir K. F. Spasski-Avtonomov xatirələrində belə yazır: «Şəhər həddən artıq əyri-üyrü küçələrdən ibarətdir. Keçidlərdən yalnız piyada, yaxud da bir atlı çətinliklə keçir. Meydançalar kiçik və gediş-gəliş üçün narahatdır. «Bazarnaya» küçəsi də çox dardır. Ordakı piştaxtalar da necə gəldi qoyulub».

Əsil bakılı olan Ağa Salah bəy şəhərin yenidən qurulması üçün xeyli güc və vəsait sərf etmişdir. Belə ki, XIX əsrin 30-cu illərində İçəri şəhərin müxtəlif yerlərində öz puluyla köhnə evləri almış, söküb yerində yeni meydanlar salmışdır. Məhz bu xidmətlərinə görə şəhər rəhbərliyi Ağa Salah bəyə «Bakının əslən fəxri vətəndaşı» adını vermişdir.

Ağa Salah bəy 1218-ci il, (1800-cü il) şaban ayının 1-də Bakıda doğulmuşdur. O, hündürboylu, yaraşıqlı kişi idi. O vaxtın dəbinə uyğun qalın və burma bığları vardı. Xalq arasına belələrinə «bığıburma» deyərlər. Ağa Salah bəyin 3 arvadı vardı. Birincisi – Qızxanım Məşədi Əhməd qızı, ikincisi – Qızxanım Hacı Ələkbər qızı (1813 – 1898), üçüncüsü isə Qızxanım Kərbəlayi Qasım qızı. Birinci arvadından onun Raziyyə adlı qızı olub (1823 – 1901). İkinci arvadından 2 qızı



Ağa Salah bəy Mansurov (Sankt-Peterburq, 1848)



Şəhrəbanu xanım Ağa Salah bəy qızının ölüm şəhadətnaməsi (1848)

və 2 oğlu var idi. Məhbubə xanım (1841 – 1902), Şəhrəbanu xanım (1847 – 1848), İsmayıl bəy (1842 – 1889) və Məlikməmməd bəy (1845 – 1909). Üçüncü arvadından isə övladı olmayıb.

Böyük qızı Raziyyə xanım 1820-ci il təvəllüdlü Ağa Məmməd bəyə ərə getmişdir. Ağa Məmməd bəyin atası Əlimurad bəy (1788 – 1838) Ağa Hüseyn bəyin birinci arvadından olan oğlu idi. O, Ağa Salah bəylə ata tərəfdən doğma, ana tərəfdən ögey idi. Ağa Məmməd bəylə Raziyyə xanımın 2 oğlu var idi – Məşədi Əlimurad (1858-ci il) və Məmməd Qasım (1861-ci il).

1860-cı ildə Ağa Salah bəyin 2-ci qızı Məhbubə xanım Hacı Zeynal bəy Ramazan oğluna (sonralar - Ramazanov) ərə getmişdir. Bu nigahdan Hacı Məmməd Kərim, Məşədi Qasım, Məşədi Tağı, Nurcahan xanım, Bilqeyis xanım dünyaya gəlmişlər.

Kiçik qızı Şəhrəbanu xanım 6 aylığında vəfat etmişdir. Təəssüf ki, böyük oğlu Məşədi İsmayılın övladı olmadı. Ağa Salah bəyin arvadları hər biri öz evində yaşayırdı. Yeri gəlmişkən, onların evləri bir küçədə yerləşirdi. Bağ evində isə bir yerdə yaşayardılar.

Ağa Salah bəy 1266-cı il rəcəb ayında (12 aprel 1848-ci il) qəflətən ürək çatışmazlığından vəfat etmiş və Bibi Heybət qəbristanlığında dəfn edilmişdir.

Ağa Salah bəyin çoxlu sayda daşınan və daşınmaz əmlakı olub. Siyahı çox uzun olduğundan onlardan bəzilərinin adını çəkək. Bazarda daşdan tikilmiş iki dükanı şimaldan – «Bazarnaya» küçəsinə, qərbdən – Müqəddəs Nikolay kilsəsinə, şərqdən – «Donanma həyətinə», cənubdan - Ağarza ağa Rəşid oğlunun və Abdulsalam Məşədi Rza Quliyevin dükanlarına söykənirdi. Hər iki dükanın dəyəri 100 gümüş rubl idi.

Digər dükan Yegizarın karvansarasında yerləşirdi. O, girişdən həyətlə, qərbdən - Nikolay İmnadzenin, şərqdən - Abdulrza, Ağarəhim və Mirzəbaba Əhmədoğlu qardaşlarının dükanları ilə əhatələnirdi. Bu dükanın da qiyməti 60 gümüş rublla dəyərləndirilirdi. Buraya ümumi dəyəri 800 gümüş rubl olan 612 pud 5 funt dəmir və 45 pud müxtəlif köhnə gəmi mismarları yığılmışdı.

Ağa Salah bəy yelkənli və təknəli gəmilərə – «şkout» və «rasşivaya» də sahib idi. «Süleyman» adlı şkout atası Ağa Hüseyn bəydən miras qalmışdı. Bu gəmi hər cür alət və ləvazimatlarla təchiz edilmişdi. Uzunluğu 67, eni 19, dərinliyi 7,5 ingilis futuna bərabər idi. Təxmini qiyməti 1500 gümüş pula dəyərləndirilirdi.



بسم الله الرحمن الرحيم

اللهم الف بينهما وطهر نسلهما

الحمد لله الذي احل التزويج والنكاح وحرم الزنا والسفاح وصلى الله على اشرف الانبيا

محمد وعترته الذين اذهب الله عنهم الرجس وطهرهم تطهيرا اما بعد

فالناكح

عاليشان عزت نشان سلالة العظام والكرام آقا صالح خلف رضوان مكان آقا حسين مرحوم تاجر معروف

والمنكوحة

البالغة العاقلة الرشيدة الكاملة عفت وجلالت پناه المسماة به باله خانم صبيه مرضيه مرحوم حاجي علي اكبر ساليانى الاصل

متوطن قلعه محروسه بادكوبه

وكيله

عالیحضرت آقا مرتضی قلی بن مرحوم حاجی حسن

وكيلها

عالیحضرت رفعت مراتب آقا سلطان بن مرحوم مشهدی علی محمد

الصداق التاريخ

معادل سی و نه عدد اشرفی بجاغی طلای احمر دینا علی الناکح ۱۴ شهر ذیقعدة الحرام مطابق تخاقوی ئیل سنه ۱۲۵۳

Ağa Salah bəy Mansurovun Qızxanım Hacı Ələkbər qızı ilə kəbin kağızı. Zülqədə ayının 14-ü, 1253-cü il (1835-ci il)



Yelkənli gəmi. Şkout

İkinci, dənizdə üzən gəmi – rasşiva, bütün lazımi alətlərlə təchiz olunmuşdu. Onun uzunluğu 66, eni 21 və dərinliyi 8 fut idi. Gəminin dəyəri 800 gümüş rubl idi. Dənizin sahilində isə Ağa Salah bəyin hər birinin qiyməti 6 gümüş rubla bərabər 30 qayığı var idi.

Şkout nə deməkdir? Holland dilindən tərcümədə bu, yelkənli hərbi və yaxud nəqliyyat gəmisidir. Bəzən balıq ovunda da istifadə edilirdi. Bu gəmilərdən XVIII –XIX əsrlərdə Baltik və Xəzər dənizlərində istifadə olunurdu.

Şkoutların hazırlanmasında şam, küknar, bəzən də Azərbaycanda bitən nadir dəmir ağacından istifadə olunurdu. Gəminin hissələrini bərkidərkən dəmir boltlar və ağaclardan istifadə olunur. Böyük şkoutlar isə xüsusi yelkənlərlə təchiz olunurdu. Onların uzunluğu 17 - 45 metr, eni 4,5 - 8,5 metr, suya oturma dərəcəsi 1,2 - 1,6 metr idi. Şkoutların qeyri-adi yükgötürmə qabiliyyəti vardı: 150 - 500 ton. Gəminin heyəti 12 - 18 adamdan ibarət idi.

İndi də digər gəmi – rasşiva, barəsində qısa məlumat.

Rasşiva – iti burnu və göyərtəsi, adətən yastıdibli, böyük ağac dorları olan yelkənli yük gəmisidir. XVIII əsrin sonları - XIX əsrin əvvəllərində Volqa çayı hövzəsində və Xəzərdə bu gəmilərdən yük daşımaq üçün əlverişli idi. Paroxodlar meydana gələnə qədər çay gəmiləri kimi rasşivadan geniş istifadə olunurdu. Bu gəmilər yonulmuş küknar və şam ağaclarından hazırlanırdı.

Yüksək keyfiyyətli materialdan hazırlanmasıdır. Gəminin ölçüləri diqqəti çəkir. Uzunluğu 30–50 metr, eni 10–12 metr, bortun hündülüyü 2,7 metr, suya oturması 1,2 – 1,8 metr, yükgötürmə imkanı 100 tondan 500 tona qədər və daha yüksək idi. Yelkənin eni gəminin uzunluğuna bərabər olurdu, hündürlüyü isə 15-20 sajendir. Korpusun hamarlığı rasşivaya asan üzmək imkanı verir. Bu gəmini yedəkçi fəhlələr - «burlaklar», çayın axarına qarşı sutkada 10-12 verst sürətlə çəkirdilər. Bəzən külək əsən istiqamətdə rasşivanı çəkəndə gəminin sürəti sutkada 200 verstə çatırdı. Yeri gəlmişkən, İlya Repinin «Burlaki na Volqe» məşhur rəsm əsərində haqqında danışdığımız rasşiva təsvir edilmişdir.

Bu gəminin xarici görkəmi çox qəşəng olurdu. Gəminin bortunda Misir fironlarının ağacdan yonulmuş təsvirləri, bəzən də «Allah ümid yerimdir» ifadəsi, arxasında gəmi sahibinin adı, soyadı yazılırdı. Dor ağacının üstündə Georgi Pobedonosetsin təsviri olan dəmir lövhə bərkidilirdi.



Dorlu gəmi. Rasşiva

Ağa Salah bəyin Bakıda çoxlu mülkləri olub. Belə ki, şəhərin 3 –cü hissəsində qırla örtülmüş 2 ikimərtəbəli daş evləri yerləşirdi. Birinci evin yuxarı mərtəbəsində 6, aşağıda isə 5 otaq və zirzəmisi vardı. Ev aşağıdakı qaydada yerləşmişdi. Şimal və qərb tərəfləri küçə, cənubda Mahmud bəyin, şərqdə isə Molla Qasımın evi yerləşirdi. Evin təxmini dəyəri 150 gümüş rubl təşkil edirdi.



Bakı. Böyük Qala küçəsi, Ağa Salah meydanı

İkinci ev birincinin yanında tikilmişdi. Bu evin yuxarı mərtəbəsində 3 otaq, aşağı mərtəbədə isə 2 dükan və yuxarı mərtəbəyə qalxmaq üçün artırma vardı. Ev aşağıdakı qaydada yerləşmişdi: şərqdə elə həmin Mahmud bəyin evi, cənub və qərbdə küçə, şimalda Ağa Salah bəyin yuxarıda haqqında danışdığımız evi. Mülkün təxmini dəyəri 500 gümüş rublla qiymətləndirilirdi.

Ağa Salah bəyin şəhərin girəcəyində də evləri olub. Onlardan biri fasadı küçəyə çıxan ikimərtəbəli, qırla örtülmüş daş evdir. Yuxarı mərtəbədə 3 otaq, aşağıda isə anbar yerləşirdi. Həyətdə mətbəx və nökərlərin otağı vardı. Onun sərhəddi şərqdən və cənubdan küçəylə, qərbdən Dadaş Qaragedovun eviylə, şimaldan Ağa Salah bəyin başqa eviylə yanaşı idi. Bu evin dəyəri 300 gümüş rublla qiymətləndirilirdi.

Bu binaya bitişik daşdan tikilmiş digər ikimərtəbəli ev də var idi. Yuxarı mərtəbədə 7 otaq və bir dəhliz, aşağıda isə mətbəx və digər tikililər olub. Bu bina şimaldan küçəylə, cənubdan Ağa Salah bəyin yuxarıda haqqında danışdığımız eviylə, qərbdən Xaçatur Şahgedanovun eviylə həmsərhəd idi. Bu ev 500 gümüş pulla qiymətləndirilirdi.

Ağa Salah bəyin daşınmaz əmlakı təkcə Bakıda deyil, şəhərin ətrafında da olub. Məsələn, onun Şüvəlanda və Mərdəkanda bir çox bağları və evləri vardı. Şüvəlanın səfalı yerində salınan üzüm və meyvə bağları da ona məxsus idi. Yeri gəlmişkən, onu da qeyd edək ki, Ağa Salah bəyin 1823-cü ildə tikilən bağ evi vaxtilə Şüvəlanda yeganə ikimərtəbəli mülk olub. Maraqlıdır ki, yaşı 2 əsri haqlayan həmin mülk bu gün də Abşeronda nadir tikililərdən sayılır.

Ağa Salah bəyin birici bağının uzunluğu 300 arşın, eni isə 205 arşın idi. Bu bağ cənubdan və şərqdən - yolla, şimaldan - Suraxanı kəndinin sakini Məşədi Salahın bağı ilə, qərbdən - Məşədi Şıxməmməd Hacı oğlu və Molla Hacağa Molla Ağababa oğlunun bağı ilə əhatə olunmuşu. Bağda üstü qırla örtülmüş 2 daş ev vardı. Birinci ev 2 otaqdan, mətbəxdən, həyətində hovuzdan, at töv-

ləsi və talvardan ibarət idi. İkinci ev üçotaqlıydı, həyətində talvar tikilmişdi. Bağ tikililərlə birgə 500 gümüş pul dəyərində idi.

İkinci bağın uzunluğu 133 arşın, eni 115 arşın idi. Bu bağ cənubdan, şərqdən, qərbdən və şimaldan 4 küçə ilə əhatələnmişdi. Bağda 1 quyu, daşdan tikilmiş hamam və talvar var idi. Qiyməti 40 gümüş rublla dəyərləndirilirdi.

Üçüncü bağın uzunluğu 250 arşın, eni 150 arşın idi. Bağ qərbdən -bakılı Mirbaba Mirhaşim oğlunun, şərqdən - Qala kəndinin sakini Şahkərim Əmiroğlunun bağı, cənubdan - yol və çöllüklə, şimaldan - yolla əhatələnmişdi. Orada 3 daş ev tikilmişdi. Birinci 3 otaqdan, mətbəxdən və at tövləsindən ibarət idi. İkinci ikiotaqlı, talvarlı ev, üçüncünün isə bir otağı vardı. Həyətdə bağı suvarmaq üçün 8 quyu qazılmışdı. Bağ bütün tikililərlə birgə 150 gümüş rublla qiymətlənirilirdi.

Bağlarda 3 at saxlanırdı. Birinci 6 yaşlı dayça - qiyməti 30 gümüş rubl, ikinci 15 yaşlı boz at – qiyməti 6 gümüş rubl, üçüncüsü isə madyan, qiyməti 16 gümüş rubl. Atların ümumi dəyəri 52 gümüş rublla qiymətləndirilirdi.

Mərdəkan kəndində onun birmərtəbəli, ikiotaqı daş evi var idi. Evin ümumi sahəsi: uzunluğu 22,5, eni 20 arşın. Ev şimaldan - Kərbəlayı Qasım Məmmədəli oğlunun, şərqdən - Vahab bəy Hacı Məmmədqulu oğlunun, cənubdan - Səlim Kələntər oğlunun evi, qərbdən -isə yolla əhatələnirdi. Bu ev 30 gümüş rubl dəyərində idi.

Bağın uzunluğu 106 sajen, eni isə 58 sajen və bir arşın idi. Bu bağ şərqdən - yolla, cənubdan - Mərdəkan sakini Ağa baba Əmin oğlunun və şəhər sakini Məşədi Kərim Molla İmamqulu oğlunun bağıyla, qərbdən - Suraxanı sakini Ağa Əlinin və Şıx kəndinin sakini Gülməmmədin bağları ilə, şimaldan - Şağan kənd sakini Baloğlan bəy Hacı Murad bəy oğlunun və Mərdəkan sakini Məm-



Ağa Salah bəyin Şüvəlandakı bağ evi (№ 1012, 1823-cü ilin tikintisi)

mədqulu Mustafa oğlunun bağı ilə həmsərhəd idi. Bağın qiyməti 55 gümüş pula dəyərləndirilirdi.

Digər bağın uzunluğu 70 sajen, eni isə 58 sajen və bir arşın idi. Bağ şərqdən - yolla, cənubdan Aslan Rzaqulu oğlunun, qərbdən - Ağaəli Novruz oğlunun bağı ilə həmsərhəd idi, şimaldan - yol. Bağın qiyməti 45 gümüş rublla ölçülürdü.

Şıx kəndində Ağa Salah bəyin çoxlu mal-qarası var idi. 41 baş qoyun sürüsünün qiyməti 50 gümüş rublla dəyərləndirilirdi. Onun şəhərin kənarında 15 əkin sahəsi olub. Əkinə yararlı 12 xalvar sahəsinin qiyməti 150 gümüş rublla hesablanırdı. Eləcə də Ağa Salah bəyin Keşlə və Qara şəhərdə də torpaq sahələri vardı. Bakı quberniyasının və qəzasının yararlı torpaqlarının bir hissəsi də ona məxsus idi.

Ağa Salah bəyin vaxtsız ölümü ilə bağlı olaraq onun daşınan və daşınmaz əmlakının siyahısı 9 iyul 1848-ci ildə titulyar müşavir Qrisenko tərəfindən tərtib edildi. Ağa Salah bəyin əmlakı 1848-ci ilə qədər o dövrün qiyməti ilə dəyərləndirilir. Sənədə əsasən, siyahıdakı bütün əmlakın dəyəri, nəqd pul, veksel və qəbzdən başqa, 8 min 350 gümüş rubl təşkil edir.

Özündən sonra Ağa Salah bəyin 22 min 387 rubl nəqd pulu qalmışdı:

1. Kredit biletləri – dəyəri 10 min 853 rubl.
2. Yarımimperial – 670 ədəd.

Dəyəri – 3 min 450 rubl 50 qəpik.

3. İmperial – 1 ədəd.

Dəyəri – 10 rubl 30 qəpik.

4. Holland çervonu – 1743 ədəd,

təqribən hər birinin qiyməti – 3 gümüş rubl, cəmi – 5 min 229 rubl.

5. Fars tüməni – 40 ədəd, təqribən

hər biri – 3 gümüş rubl, cəmi – 120 rubl.

6. Fars sabkuranı – 46 ədəd, təqribən

hər biri – 30 qəpik, cəmi – 13 rubl, 20 qəpik.

7. Gümüş pullar – 2 min 710 rubl, 65 qəpik.
8. Gümüş üzərində mis – 35 qəpik.

37 funt ağırlığında 5 gümüş qəlib, təxmini qiyməti – 651 rubl 20 qəpik gümüş pul dəyərində.

КОПІЯ

Съ описи имѣнія умершаго Бакинскаго жителя Ага Салы Мансурова, составленной 9 Іюля 1848 года, составленной титулярнымъ совѣтникомъ Грисенко, присланной Кубино-Бакинскою уѣздною опекою при отношеніи 13 Іюля 1864 г. № 1050 въ Бакинскій Шаріатъ Аліевой секты велѣдствіе его просьбы изложенной въ отношеніи къ опекѣ 26-го Сентября 1863 г. № 155-й.

№ по порядку	Наименованіе предметовъ	Серебр. Руб.	К.
	Наличныхъ денегъ:		
1	Кредитными билетами	10853	„
2	Полуимперіаловъ 670 шт. на сумму	3450	50
3	Империалъ одинъ	10	30
4	Голландскихъ червонцовъ 1743 шт. полагая каждую по 3 руб серебромъ	5229	„
5	Тумановъ персидскихъ 40 штукъ полагая каждый по 3 руб. серебромъ	120	„
6	Персидскими сабкуранами 46 шт. полагая по 30 коп. каждый	13	20
7	Серебряною монетою	2710	65
8	Мѣдью на серебро	„	35
	ИТОГО	22387	-
9	Серебра въ 5-ти слиткахъ вѣсомъ 37 фунтовъ на сумму по примѣрной оцѣнкѣ 651 р. 20 коп. сер.	651	20
10	Векселя разныхъ лицъ данные покойному Ага Салѣ Мансурову на должные ему деньги Бакинскихъ жителей Мамедъ Наима Кербалай Шарифова, данной 25 Іюля 1834 года на сто шестьдесятъ два червонца состоящіе на серебро	486	„
11	Молла Мамедъ Багиръ Мирзаевъ на восемь сотъ семь руб. пятьдесятъ пять коп. данный 16-го января 1847 года срокомъ на три мѣсяца	807	55
12	**Примѣчаніе:** на семь векселѣ сдѣлана надпись въ полученіи 630 руб. рукою прикасчика Ага Салы Кербалай Самеда Уѣсинъ Али оглы.		
13	Ага Мехти Мешади Мамедъ Багиръ оглы на 277 р. 50 коп., данный 31 Іюня 1842 года срокомъ на два года	277	50
14	Прапорщика Касымъ бека Селимханова на 345 р., данный 5 Августа 1842 года срокомъ на одинъ годъ	345	„
15	Али Аскеръ Оруджъ оглы на 150 руб., данный 12 Ноября 1847 года срокомъ на 6 мѣсяцевъ	150	„
16	Мирь Фейзуллы Аджи Мирь Ягубъ оглы 150 руб. сер., данный 21 Октября 1847 г. безъ срока	150	„
17	Ага Мамедъ Гасана Кербелай Назыръ оглы на 230 руб., данный 1-го Декабря 1846 года, срокомъ на одинъ годъ	230	„
18	Тифлисскаго гражданина Николая Иманджева на 1180 р., данный 15 Мая 1846 г. срокомъ на одинъ годъ	1180	„
19	При этомъ векселѣ имѣется особая записка писанная рукой прикасчика Кербалай Самеда въ уплатѣ Имандзевымъ 677 руб. серебромъ	„	„
20	Житель сел Джорать Зейналъ Абдинъ бека Юнусъ бекъ оглы на 27 руб., данный 12 Сентября 1842 года, срокомъ на два мѣсяца	27	„
21	Ага Мамедъ Гасана Кербалай Назыръ оглы на 412 р., данный 20 го Сентября 1847 года срокомъ на четыре мѣсяца	412	„
22	Житель сел. Кала Меликъ Мамеда Али Мамедъ оглы на 55 р. сер., данный 24-го Января 1846 года, срокомъ на семь мѣсяцевъ и пятнадцать дней	55	„
23	**При этомъ векселѣ находится росписка прикасчика Кербелай Самеда въ полученіи 21 руб. сер.**	„	„
24	**Житель того же селенія Абдулъ Меджида Кербелай Али Гаа оглы, на 46 р., данный 10-го Сентября 1843 г. срокомъ на одинъ годъ**	46	„
25	На этомъ векселѣ сдѣлана надпись рукою неизвѣстнаго въ полученіи 31 р. 10 к. сереб.	„	„
26	Житель сел. Гокмали Хачи бека Пирьева на 375 р., данный 27-го Октября 1846 г. срокомъ на семь мѣсяцевъ	375	„
27	На этомъ векселѣ сдѣлана надпись рукою прикасчика Кербелай Самеда въ полученіи 240 р. серебр.	„	„
28	Чиновника 12 класса Мирза Абдулъ Рагимъ Ахундова на 318 руб. сер., данный по мусульманскому исчисленію 12 мѣсяца Зильгады 1263 / 1845 года срокомъ на четыре мѣсяца	318	„
29	Жителей сел. Кала Мешади Новрузъ Али Агаджанъ оглы, Али Рза Насибъ Аллахъ оглы, Кербалай Аширъ Аславъ Магомедъ Усейнъ оглы, и Молла Бабабекъ Ахверды оглы на 180 руб. сер., данный 21 Августа 1847 года, срокомъ на одинъ годъ	180	„
30	Деревни Балаханы Мешади Рашидъ Кербелай Али Акперъ оглы на 566 руб. сер., данный 6-го Января 1846 года срокомъ на одинъ годъ	566	„
31	Бакинца Мешади Магомедъ Усейнъ Уста Джафаръ оглы на 55 р. сер., данный 8 Октября 1847 года срокомъ на одинъ мѣсяцъ и 7 дней.	55	„

Müxtəlif şəxslər tərəfindən mərhum Ağa Salah bəy Mansurova verilən veksellərdə göstərilən borcun qiyməti gümüş pulla 50 min rubldan artıq təşkil edir.

Bakı xanlığı ruslar tərəfindən işğal edildikdən sonra XIX əsrin əvvəllərində Rusiya ilə ilk kommersiya əlaqələri quran tacirlərdən biri də Ağa Salah bəy Mansurov olmuşdur. Sənədə əsasən, qayını Hacı Ağakişi Hacı Ələkbər oğlu Rusiyadan müxtəlif çeşiddə mal gətirmək üçün Ağa Salah bəydən 2500 çervon alır. Aralarındakı danışığa görə, əldə olunacaq gəliri - təxminən 7 min 500 rublu, yarı-yarıya bölsünlər. Hacı Ağakişinin Moskvadan göndərdiyi mallar Ağa Salah bəyin dükanlarında satılırdı. Onların çeşidi geniş idi. Qızıl və gümüşdən bəzək əşyaları, qiymətli daş-qaşlar, xəzlər, qadın baş geyimləri, bahalı parçalar, qab-qacaq, sandıqlar, mücrülər, mebel, məişət əşyaları, kitablar və s.

Ümumiyyətlə, Ağa Salah bəyin Bakıdakı dükanlarında zərgərlik məmulatları, çini və şüşə qablar, İran və Azərbaycan xalçaları, inşaat və gəmi tikintisi üçün ağac materialları, Həştərxandan gətirilən metal və bişmiş kərpic satılırdı.

Ağa Salah bəyin dükanlarının piştaxtalarında çox sayda kitablar da satılırdı, onların arasında dini mövzuya aid nəşrlər də var idi.

Mansurovlar nəslində Ağa Salah bəy sonuncu tacir oldu. Vəfatından sonra oğulları və qardaşı Ağa Hacı Əli bəy onun işini davam etdirmədilər. Ağa Salah bəydən qalan torpaqları, bağları, ev, dükanları və s. onlar yalnız icarəyə verməklə gəlir götürürdülər.



Bakı. Qala divarları (XIX əsrin sonları)

Ağa Hacı Əli bəy
Ağa Hüseyn bəy oğlu Mansurbəyov (Mansurov)
(1810 – 1879)

Ağa Hacı Əli bəy 1228-ci ildə (1810) doğulub. Qardaşı Ağa Salah bəyin vəfatından sonra kişi xətti ilə yeganə nümayəndə olduğuna görə Mansurovlar nəslinin başçısı oldu. Onun ikimərtəbəli evi böyük qardaşı Ağa Salahın mülkü ilə yanaşı, Cümə məscidin yanında yerləşirdi. Ev şimaldan - meydanla, cənubdan - Ağa Salah bəyin evi ilə, şərqdən - küçəylə, qərbdən isə piyadalar üçün döngə ilə əhatələnirdi.

Ağa Hacı Əli bəyin Keşlədə torpaqları vardı. Yerli camaat torpaqlarını zəbt etdikləri üçün o, 1870-ci ilin dekabrında məhkəməyə müraciət edir və bir ildən sonra məhkəmə onun xeyrinə qərar çıxarır.

Ağa Hacı Əli bəyin ailəsi arvadı və iki qızından ibarət idi. Ağa Salah bəyin ölümündən sonra o, qardaşının işini müəyyən qədər davam etdirmişdir. Bir müddətdən sonra, qardaşı oğlanları da onun kimi, yalnız icarəçiliklə məşğul oldular. Ağa Hacı Əli bəy Mansurov 69 yaşında 1297-ci ildə (1897-ci ildə) vəfat etmiş və Bibi Heybət qəbristanlığında dəfn edilmişdir.



Bakı. Xan sarayı və Məscid (XIX əsrin sonları)



Bakı gömrükxanası

Ağa Salah bəy 1848-ci ildə vəfat etdikdən sonra onun 3 uşağı – İsmayıl, Məlikməmməd və Məhbubə xanım yetim qaldılar. Şamaxı - Bakı qəzasının qərarı ilə Ağa Salah bəyin əmlakını idarə etmək və uşaqlarına qəyyumluq məsələsinə görə komissiya yaradıldı. Çar Rusiyasının qanunlarına əsasən, qəyyumluq etmək Bakı sakinləri Hacı Molla Qasım Qasım oğluna, Kərbəlayi Hacıbaba Məşədi Ələkbər oğluna, mərhumun iki dul arvadı – Qızxanım Məşədi Əhməd qızına və Qızxanım Hacı Ələkbər qızına həvalə edildi.



Bakı
(XIX əsrin sonu)



Bakı. Qala divarları (XIX əsrin sonları)

7 ildən sonra qəyyumların tərkibi dəyişir. Ağa Salah bəyin əmlakını düzgün idarə etmək, uşaqlarına himayəçiliyi yaxşılaşdırmaq məqsədilə qəyyumların sırası yaxın qohumlar: mərhumun qardaşı Ağa Hacı Əli bəy, qayını Hacı Ağakişi Hacı Ələkbər oğlu, iki dul arvadı - Qızxanım Hacı Ələkbər qızı və Qızxanım Məşədi Əhməd qızı ilə əvəzlənirlər.

Şəriət qanunlarına uyğun olaraq, yetkinlik yaşına çatandan sonra bütün varislər bölgü zamanı öz paylarını aldılar. Yetkinlik yaşına çatmayan yetimlərin payını saxlamaq qəyyumlara tapşırıldı. Həmin uşaqlara çatan əmlakın siyahısının bir surəti qəyyumlara verildi. Ağa Hacı Əli bəyin dediyinə görə, ölümündən əvvəl Ağa Salah bəy ona evdə olan nəqd pulun üçdə bir hissəsini dəfnə xərcləməsini vəsiyyət etmişdi. Ağa Hacı Əli bəy qardaşının vəsiyyətinə əməl edərək dəfn və yas mərasiminə özünün 851 gümüş rubl pulunu xərcləmişdir. Bu xərcləri Ağa Salah bəyin yetkinlik yaşına çatan varisləri də təsdiq etmişlər. Məsləhətləşdikdən sonra xərclənən məbləği ödəmək üçün onlar öz paylarına düşən daşınmaz əmlakdan əmilərinə verərək borclarını ödəmişlər. Beləliklə, Ağa Hacı Əli bəyə Mərdəkan kəndinin arxasındakı 2 bağ verildi. Bağların biri Aslan Əcəm oğlunun bağına bitişik idi. Bağın uzunluğu 175, eni 144 xan arşınıydı. Digər bağ Ağababa Əmir oğlunun bağına bitişik idi. Uzunluğu 222, eni 175 xan arşını olmaqla 300 gümüş rublla dəyərləndirildi. 85 batman əkin sahəsi 85 gümüş rublla, «Rostbazarda»kı dükan 133 gümüş rublla, Türkan kəndində birotaqlı ev, mətbəx, at tövləsi, samanlıq, qaz damı – 30 gümüş rublla dəyərləndirildi. Bütün əmlakın qiyməti 548 gümüş rublla, nəqd pul isə 303 gümüş rubl təşkil etdi.



Xan sarayına gedən küçə (1890)

Ağa Salah bəyin uşaqları İsmayıl, Məlikməmməd və Məhbubə xanım arasında əmlak bölündükdən sonra Bakı ətrafındakı 13 əkin sahəsini qəyyumluq komissiyasının sədri Axund Molla Məmməd 1856-cı ildə 12 il müddətinə uşaqların əmisi Ağa Hacı Əli bəy Mansurova icarəyə verdi. İcarə müddəti qurtaranda, şifahi razılaşma daha 2 il – 1871-ci ilə qədər artırıldı.

Bu əkin sahələrinin 8-i Bakı ətrafında, Hövsan və Keşlə kəndlərinə aparan yolların arasındaydı. Sərhəd: Şərqdə Ağamirzə Keşlinskinin və Şahməmməd uşaqlarının sahəsi, qərbdə - Bakı sakini Rəcəbin sahəsi idi. 9-cu sahə Keşlə və Bülbüləyə gedən yolların arasındaydı. Qərbdən - Pirverdinin, şərqdən - Mirbağır Hacı Səid Əhməd oğlnun əkin sahələri ilə həmsərhəd idi. 10, 11 və 12-ci əkin sahələri Bülbüləyə gedən yolun şimal tərəfindəydi. Qərbdən - Kərbəlayi Hacı Kərbəlayi Hacıağa oğluyla, şərqdən - keşləlilərlə, şimaldan - Həsən Bakinski ilə qonşu idi. 13-cü sahə Qanlı Təpənin şimal tərəfində yerləşirdi. Şimaldan və qərbdən - yolla, şərqdən - Baba Əbdul Hüseyn oğluyla, cənubdan - Hacı Seyfullanın varisləriylə qonşu idi. İcarədar ildə oğlanların hər birinə 20, qıza isə 10 batman buğda ödəməyi öhdəsinə götürmüşdü. İcarə haqqından oğlanların hər birinə 2/5, qıza isə 1/5 hissə çatırdı.

Qalan əkin sahələri Ağa Salah bəyin böyük qızı Rəziyyə xanıma miras qalmışdı.

Ağa Hacı Əli bəy 28 noyabr 1873-cü il tarixdə Bakı şəhər polis idarəsinə müraciət etmişdir ki, onu bu əkin sahələrinə görə, 10 faizli vergidən azad etsinlər. Belə ki, həmin sahələr artıq 1871-ci ildən Ağa Salah bəyin övladları – İsmayılın, Məlik Məmmədin və Məhbubə xanımın qanuni əmlakı sayılırdı.

Ağa Hacı Əli bəyin nəsil qarşısında ən böyük xidməti bütün sənədlərdə Mansurov soyadımızın təsdiq etməsindədir.



Bakı. İçəri şəhərin küçələri

Məşədi Məlik Məmməd bəy
Ağa Salah bəy oğlu Mansurbəyov (Mansurov)
(1845 – 1909)

1845-ci ildə Bakıda doğulmuş Məşədi Məlik Məmməd bəy Mansurov Ağa Salah bəyin kiçik oğludur. Üç yaşında atasını itirdikdən sonra onun tərbiyəsi ilə əsasən anası Qızxanım Hacı Ələkbər qızı və əmisi Ağa Hacı Əli bəy məşğul olmuşdur. O, yazmağı və oxumağı mədrəsədə öyrənmişdir. Məşədi Məlik və böyük qardaşı Məşədi İsmayıl poeziyaya, xüsusilə musiqiyə böyük həvəs göstərirdilər. Hələ kiçik yaşlarından Məşədi Məlik tar, kamança, cürə sazı, qarmon və dəfdə çalmağı bacarırdı. Məşədi Məlik 18 yaşında ikən öz evində musiqili poeziya məclisləri keçirməyə başlayır. Sonralar bu məclislər daimi keçirilir. Beləliklə, Mansurovların evi Abşeronda yeganə musiqi-maarifçilik mərkəzinə çevrilir.

Yeri gəlmişkən, Məşədi Məlik Mansurovu hamı qısaca olaraq «Məşədi Məlik» deyə çağırardılar. həyatda qısaldılmış formada səslənən adlar adətən, bütöv şəkildə yazılır. Məşədi Məlik bəyin adının ikinci hissəsi ixtisara düşdü və gələcəkdə, demək olar ki, bütün sənədlərdə «Məşədi Məlik bəy» yazılırdı.



Məşədi Məlikməmməd bəy Mansurov (1900)



شهادت نامه

ویریلور بوشهادت نامه‌زاقافقازڭ شیعه مذهب
مسلمانلرینک ادارهٔ روحانیه سندن اولخصوصده که
باکو ~~غوبرنیه‌سنک~~ شهرینک ساکنی
مشهدی ملک آقا صالح اغلی منصوروف
تولد ایدوبدر اوزصلبی آتاسی آقا
صالح آقا حسین اغلی منصوروفک منکوحهٔ
شرعیه‌سی قزخانم حاجی علی اکبر قزیندن
مین سکز یوز قرخ التنجی ئیلده
وتولدینک آیی وکونی معلوم دکلدر
فلهذا ادارهٔ روحانیه بوشهادتنامه‌نی امضا
ایدوب پادشاهلق مهر ایله ممهور ایتدی.
یازلدی مارت آینک ۶ مجی کوننده ۱۹۰۱ مجی
ایلده. تفلیس شهرنده نمره ۵۳۸
بوشهاتنامه‌دن اوتری کیربوو ایامارقه اداره‌یه یتشوبدر
صدر ادارهٔ روحانیه شیخ الاسلام ممالک
زاقافقاس

عضوهای ادارهٔ روحانیه

СВИДѢТЕЛЬСТВО.

Дано сіе изъ Закавказскаго Шіитскаго Духовнаго Правленія въ томъ, что житель гор. Баку Мешади-Меликъ-Ага-Салехъ оглы Мансуровъ родился отъ законной жены отца своего, Ага-Салеха Ага-Гусейнъ оглы Мансурова, — Кызъ-Ханумы Гаджи-Алекберъ-кизы, въ тысяча восемьсотъ сорокъ шестомъ (1846) году. Мѣсяцъ и число его рожденія неизвѣстны,

въ чемъ Духовное Правленіе подписью и приложеніемъ казенной печати удостовѣряетъ. Февраля дня 1901 г. гор. Тифлисъ. № 538

Гербовымъ сборомъ оплачено.

Предсѣдатель Духовнаго Правленія, Закавказскій шейхъ-уль-исламъ А. Ахундъ заде

Члены: Султанъ-Гусейнбековъ, Кази-заде

Секретарь

Перевелъ: Мл. помощникъ Секретаря Г. Гасанзад

Məşədi Məlik Məmməd bəyin doğum haqqında şəhadətnaməsi



Bakı. İçərişəhərdə Böyük Qala küçəsi

Azərbaycanda muğam sənətinin inkişafında Şuşa və Şamaxı məclisləriylə yanaşı, Bakı məclisinin də böyük rolu olmuşdur. Bu barədə 1863-cü ilin yazılarında göstərilir ki, Bakı məclisinin əsasını qoyan və ona rəhbərlik edən Məşədi Məlik bəy Mansurov olmuşdur. O, istedadlı musiqişünas və mahir ifaçı idi. Onun evində musiqi gecələri keçirilərdi. Burda muğam dəstgahlarının ifaçılıq məsələləri müzakirə edilirdi. Muğamın müəyyən hissələrinin ifası barədə musiqiçilər arasında mübahisə düşəndə onlar yalnız Məşədi Məliyə müraciət edərdilər. Savadlı və nüfuzlu şəxs olduğundan hamı onun fikri ilə razılışardı.

Məşədi Məlik bəyin musiqi məclislərində Mirzə Səttar, Seyid Mirbabayev, Ağa Said oğlu Ağabala, Mirzə Ağakərim Hacı Zeynal oğlu, Əli Zühab, Mirzə Fərəc, Məşədi Baldadaş, Cabbar Qaryağdıoğlu, Şəkili Ələsgər, Əbdül Qədir Cabbarov, Keçəçioğlu Məhəmməd, Mərdinka, Məşədi Zeynal, şamaxılı Mirzə Məhəmmədhəsən, qarabağlı Mirzə Dadaş, Seyid Şuşinski, o vaxtlar hələ gənc olan Üzeyir Hacıbəyov, Müslüm Maqomayev və başqaları iştirak edərdilər. Həmin məclislərdə musiqiçilərlə yanaşı, şairlər də iştirak edərdilər. Onlar ifa olunan qəzəllərin düzgün tələffüzünə diqqət yetirərdilər. Şairlər Ağakərim Salik, Şətir Abbas Səbuhi Tehrani, Mirzə Əbdül Xaliq Bad-kubeyi, Cəfər Həşim Kərimov, Hüseyn Qarabağı, Məşədi Əyyub Qarabağı, Şahin Məxfi, Nuruş, Buzovnalı Məşədi Azər məclislərdə daim iştirak edərdilər.

Yeri gəlmişkən, Ağakərim Salik – Məşədi Məliyin əmisi oğlu idi. Ağakərimin anası Kubra xanım Ağa Salah bəyin doğma bacısıydı. «Salik» Ağakərimin şair təxəllüsü idi.

Bakı məclisi bütün Qafqazda böyük şöhrət tapmışdı. Bu məclisə Şamaxıdan, Qarabağdan, İrəvandan, Tiflisdən, eləcə də İrandan musiqiçilər təşrif gətirirdilər. Onlar Məşədi Məliyin qonaqpərvərliyindən istifadə edərək aylarla onun qonağı olurdular. Mahir musiqiçilərdən Hacı Hüsü, Mirzə Sadıq (Sadıqcan), Məşədi Zeynal, Ala Palaz oğlu Molla Rza, Əbdülbaqi Zülalov (Bülbülcan) təkcə məclisin daimi ifaçıları deyil, həm də Məşədi Məliyin yaxın dostları idilər.

Məşədi Məlik bəy musiqiyə heyran idi. O, gəmi limanında və vağzalda xüsusi adamlara tapşırıq vermişdi ki, şəhərdə əlində musiqi aləti olan adam görsələr, onun evinə gətirsinlər.

Abşeronda musiqi mədəniyyətinin inkişafında Bakı məclisinin müstəsna rolu olmuşdur. Bakı məclisi, demək olar ki, o dövrün ilk konservatoriyası idi. Məşədi Məliyin oğulları - Məşədi Süleyman, Mirzə Mansur, nəvələri Bəhram, Nadir, Ənvər, kötükcələri Eldar və Elxan Mansurovlar nəinki onun irsini mənimsədilər, həm də bu mənəvi xəzinəni daha da inkişaf etdirdilər.

Bu məclislər ifaçılıq sənətini yüksəltməklə yanaşı, xalq arasında muğamı təbliğ edirdi. Bir muğam bəzən bir neçə xanəndə tərəfindən ifa olunurdu. Peşəkar və həvəskar dinləyicilər yeri gəldikdə ifaçıları tənqid də edirdilər. İradlar çox vaxt mübahisələrə səbəb olur, bəzən də gərgin və-



Soldan: Məşədi Süleyman bəy, Talıbxanov, Mirzə Mansur, Məşədi Məlik bəy, Qorçavodski xanımıyla Mansurovların Şüvəlandakı bağında (1900)

ziyyət yaranırdı. Belə olduqda müsabiqə elan olunurdu, və ən yaxşı muğam ifaçıları burda öz məharətini göstərirdilər. Dinləyicilər qalibləri alqışlayırdı, uduzanlar isə məclisi tərk edirdilər. Məşədi Məlik bəy ilin yarısını Şüvəlan və Mərdəkandakı bağlarında yaşayırdı. Burda da, şəhərdə olduğu kimi, musiqiçilər, xanəndə və şairlərin iştirakı ilə Bakı məclisi davam edirdi.



Məşədi İsmayıl bəy Mansurov (1867)

Məşədi Məliyin böyük qardaşı Məşədi İsmayıl bəy poeziyanın və musiqinin vurğunu idi. O da qardaşı kimi yaxşı tar çalırdı. Elə-belə deyildi ki, onun musiqiçi dostları özlərinin ifa etdikləri musiqi alətlərini məhz Məşədi İsmayıl bəyə verilməsini vəsiyyət edərdilər. Bütün Mansurovlar kimi o da çox qürurlu və güclü xarakterə malik idi. Ucaboy, gözəl görkəmi olan Məşədi İsmayıl bəy zahirən atası Ağa Salah bəyi xatırladırdı. O, çox qəşəng və son dəbdə geyinərdi. Qardaşından fərqli olaraq, Məşədi İsmayıl bəy səyahət etməyi çox xoşlayırdı. O, Rusiyanın bir çox şəhərlərini və Avropanın demək olar ki, hər yerini gəzmişdi. Onun ətrafında daima incəsənət adamları – şairlər, musiqiçilər, artistlər, rəssamlar olardı. Təəssüf ki, belə bir adamın övladı, davamçısı olmadı. O, qardaşı uşaqlarını çox sevər və həmişə onlara kömək edərdi. Məşədi İsmayıl bəy 1889-cu ildə 47 yaşında vəfat etmiş, Bibi Heybət qəbristanlığında, valideynlərinin yanında dəfn edilib.

Məşədi Məlik bəyin dostlarının dairəsi beynəlmiləl idi. Onun sadiq dostları arasında milliyyətcə alman olan Aleksandr Teodoroviç Fon Velke də vardı. Məşədi Məliyin məhkəmə işlərində Fon Velke daim onun vəkili idi. O, peşəkarlığı sayəsində Mansurovların bütün məhkəmə proseslərini udurdu.

Aleksandr Teodoroviç Fon Velke I gildiya tacir və titullu müşavir idi. Neft maqnatı, ixtisasca hüquqşünas və vəkil olan Fon Velke bütün gücünü həqiqəti axtarmağa sərf etmişdi. Onun özünəməxsus fikirləri bəzilərində qısqanclıq yaradırdı. Buna görə də çalışırdılar ki, onu böhtançı kimi qələmə versinlər.



Aleksandr Teodroviç Fon Velke (1865)

O, Bakı üçün az iş görməyib. Belə ki, 18 ay müddətində sərnişinləri və yükləri daşımaq məqsədilə Bakıda at qoşulan vaqonların – «konka» hərəkəti üçün dəmir yolunun çəkilməsinə icazə almağa şəhər Duması qarşısında vəsatət qaldırır. Onun təklifi birmənalı qarşılanmadı, hətta bu işi ləngitmək üçün koalisiya da yarandı. Belə ki, bir çoxları iddia edirdilər ki, Fon Velkeyə ehtiyac yoxdur, şəhər özü bu işin öhdəsindən gələ bilər. Duma fikir ayrılığında qalmışdı. Bir çoxları, hətta milyoçu Hacı Zeynalabdin Tağıyev də bu təşəbbüsün əleyhinə çıxaraq, elə təklif irəli sürdülər ki, Fon Velke bununla razılaşa bilməzdi.

Məşədi Məlik bəyin öz puluna Bakıda bir neçə ev tikdirmişdi. Hətta indi də, İçəri şəhərdə, Tsitsianov küçəsində onun tikdiyi evlər qalmaqdadır. Məşədi Məlik bəyin evi qonaq - qaralı idi. Evin hörmətli qonaqları arasında milliyətcə polyak olan şəhər meri Stanislav İvanoviç Despot-Zenoviç, memar İosif Qoslavski, mənşəcə alman olan mühəndis, polkovnik Nikolay Avqustoviç fon der None də vardır. Yeri gəlmişkən onu da qeyd edək ki, evlərin tikintisi zamanı Məşədi Məlik bəylə fon der None arasında yaranan işgüzar münasibət sonralar dostluğa çevrildi.

Daha bir maraqlı fakt. Məşədi Süleyman bəy xatirələrində yazır ki, neft maqnatları Robert və Lüdviq Nobel qardaşları, Alfons de Rotşild və şəhərin bir çox görkəmli şəxsləri və ziyalıları atası Məşədi Məlik bəyin şəhərdəki mülkündə və bağ evində tez - tez qonaq olurdu. Anaxanım Mansurovanın nəvəsi – Kamil Kələntərov xatırlayır ki, Nobel qardaşları və Rotşildin Məşədi Məlik bəy və onun oğulları ilə birgə çəkdirdikləri fotoşəkilləri sonralar Mirzə Mansurun evində divardan asılı görmüşdü.

Bakı özünün memarlıq görkəmi ilə «Qafqazın Rostrellisi»nə – İosif Vikentiyeviç Qoslavskiyə borcludur. Necə deyərlər, Bakı memarın taleyi oldu. 1891-ci ildə I Nikolay adına Sankt-Peterburq institutunun mülki mühəndislik fakültəsinin məzunu olan gənc mütəxəssisi Bakıya, Aleksandr Nevski kilsəsini tikməyə göndərirlər. Qoslavski sadəcə memar deyil, həm də rəssam idi. Onun ucaltdığı kilsə o qədər möhtəşəm idi ki, bakılılar onu «Qızıl kilsə» adlandırırdılar.

Kilsənin qübbəsi xalis qızılla örtülmüşdü. Görənlərin dediyinə görə, kilsə müsəlmanların verdiyi ianə hesabına tikilmişdir.



Stanislav İvanoviç Despot-Zenoviç (1892)

Belə ki, inşasına tələb olunan 200 min qızıl rublun 75%, yəni 150 min rublu müsəlmanlar tərəfindən verilmişdir. Məşədi Süleyman bəyin dediyinə görə, «Qızıl kilsə»nin tikilməsinə onun atası Məşədi Məlik bəy Mansurov da ianə vermişdir.

Məşədi Məlik bəyin evinin digər polyak qonağı, məşhur memar İosif Kasperoviç Ploşko idi. O, Məşədi Məliyin oğlu - Məşədi Süleyman bəylə dostluq edirdi. Ailə arxivimizdə Ploşko və arvadı Sabina Vladislavnayanın birgə şəkli saxlanılır. Fotoşəkilin üstündə xatirə avtoqrafı yazılıb: «Ürək dostum Süleyman Mansurova hədiyyə edirəm». Tarix: 22 may 1903-cü il.

Peterburq institutunun mülki mühəndislik fakültəsini 1895-ci ildə bitirən kimi Ploşko, S. Qoslavskinin dəvətilə Bakıya gələrək Bakı şəhər İdarəsinin inşaat şöbəsində sahə memarı, sonra isə Bakı şəhərinin memarı vəzifəsinə irəli çəkilir.



İosif Kasperoviç Ploşko həyat yoldaşıyla (1903)



Nikolay Avqustoviç Fon der None

Burada da Kazimir Skureviç, Yevgeni Skibinski, İ. Edel, A. Eyxler, Nikolay fon der Nonne, Qafar İzmayılov kimi memarlarla tanış olur. Yeri gəlmişkən Məşədi Məlik bəyin bir neçə evi məhz Məşədi Mirzə Qafar İzmayılov tərəfindən inşa olunub. Böyük Qala küçəsi № 5, Karantinnı və Tsitsianovski № 19 küçələrinin kəsişməsindəki bina həmin tikililərdəndir.

Ploşko özünün monumental və yaraşıqlı binalarıyla Bakını fəth etdi. Bu yaşayış mənzilləri, ictimai evlər, mülki binalar, dini məbədlər idi. Ploşkonun memarlıq əsərlərinin üslubu Avropanın klassik ənənələrini, orta əsrlər, Venesiya və Fransız yüksək səviyyəli qotikasını müasir dəbə – modernə uyğunlaşdırırdı. Onun yaradıcılıq fantaziyasından heyran qalmış yerli milyonçular Ploşkoya sifariş verməyə başladılar. Onu da qeyd edək ki, Ploşko Bakı milyonçusu Musa Nağıyevə ən yaxın olan memarlardan idi.

Ulu babam – Məşədi Məlik bəy, təbiətən çox istedadlı, yüksək mədəni səviyyəyə malik ziyalı, təhsil görmüş bir şəxs idi. O, fars və ərəb dilərini mükəmməl bilirdi, rusca sərbəst danışırdı. Müasir baxışlara malik bir ziyalı kimi, onunla ünsiyyətdə olmaq xaricilər üçün çox maraqlıydı.



Kərbəlayi Ağa Hüseyn bəy Mansurov (1864 – 1937)

Məşədi Məliyin iki arvadı vardı. Birincisi Üm-Leyla xanım Hacı Mirzağa qızıydı. Ondan 2 oğlu: Kərbəlayi Ağahüseyn (1864 – 1937) və Soltan (1867 – ölüm tarixi məlum deyil) dünyaya gəlmişdilər. Soltan çox gənc yaşlarında vəfat etmişdir.

Kərbəlayi Ağahüseyn 1898-ci il aprelin 28-də Üm-Səlimə Məşədi Abduldayan qızıyla evlənir (1884 – 1949). Onların bu nigahdan oğlanları – Ağa Salah (1901 – 1928), Ağa İsmayıl (13 iyul 1904 – 1975), Ağa Mehdi (1903 – 1970), Ağa Sadıq (15 may 1907 – 1954) və qızı Üm- Leyla (21 yanvar 1909 – 1987) dünyaya gəlmişdir.
Kərbəlayi Ağahüseyn 1937-ci ildə 73 yaşında və İkinci arvadı Soltanbəyim Mirzə Baxış bəy qızı Ələkbərova (1855 – 1906) ilə nigahdan 2 oğlan, 2 qız dünyaya gəlib. Oğlanları – Məşədi Süleyman (1872 – 1955), Mirzə Mansur (1887 – 1967), qızları Anaxanım (1881 – 1944) və Şəhrəbanu xanım (1879). Şəhrəbanu 1893-cü il oktyabrnın 29-da 14 yaşında vəfat etmişdir.

Soltanbəyim xanım Bakının tanınmış şəxslərindən olan Mirzə Baxış bəy Ələkbər oğlunun (sonralar - Ələkbərov) qızıydı. O, 1906-cı il aprelin 26-da, 51 yaşında vəfat etmişdir.



Məşədi Məlik Məmməd bəyin Soltanbəyim xanımla kəbin kağızı

Məşədi Məlik bəyə bir neçə miras qalmışdı. O, atası Ağa Salah bəyin və anası Qızxanım Hacı Ələkbər qızının varidatına sahib oldu. Qeyd edək ki, Qızxanım Hacı Ələkbər qızı, uzun ömür sürərək, 1898-ci il oktyabrın 21-də, 85 yaşında vəfat etdi. Yeri gəlmişkən, Qızxanıma 1889-cu ildə vaxtsız dünyadan köçən böyük oğlu Məşədi Ağa İsmayıl bəyin əmlakı qalmışdı. Sonuncu miras Məşədi Məlik bəyə mərhum arvadı Soltanbəyim xanımdan qaldı.



Məşədi Məlik bəyin anası Qızxanım Hacı Ələkbər qızı Mansurova (1813 – 1898)

Yetkinlik yaşına çatan Məşədi Məlik bəy 1871-ci ildən başlayaraq varis kimi atası Ağa Salah bəyin əmlakını idarə edir. O, gənc yaşlarından səriştəli sahibkar kimi təsərrüfatını idarə edirdi. Məşədi Məlik bəyin Bakının mərkəzində daşınmaz əmlaka – mülklərə və şəhərin ətrafındakı torpaq sahələrinə sahibliyini təsdiqləyən, 1907-ci ilin dekabr tarixindəki sənədlərə nəzər yetirək.

1. İçərişəhər, Böyük Qala küçəsindəki 30 nömrəli ev (qiyməti 3660 qızıl rubl). Bu ev şimaldan – Rüstəm Molla Qasım oğlunun, qərbdən – Rəziyyə xanım Mansurovanın eviylə, cənub və şərqdən – küçəylə əhatələnmişdi.

2. Elə orada, ev № 37 (5940 qızıl rubl).

3. Elə orada, ev № 953, dükanla birgə (381 qızıl rubl). Bu ev şərqdən – Dənizçilik idarəsinin anbarıyla, cənubdan – meydan və kilsəylə, qərbdən – «Tyomnıy ryad» keçidi, şimaldan – Məmməd Həşim Hacı Dadaş oğlu və Hacı Ağaəli Məlikməmmməd oğlunun dükanlarıyla qonşu idi.

4. Elə orada, ev № 39 həyətyanı sahəsi ilə (2220 qızıl rubl).

5. Elə orada, ev № 418 (399 qızıl rubl). Bu ev şimaldan – Hacı Əli bəy Mansurovun evi ilə, şərqdən – küçəylə, cənubdan – Məşədi Məlik bəy Mansurovun evi ilə, qərbdən – Hacı Ağa bəy Zamməd bəy oğlunun evi və döngə ilə əhatələnmişdi.

6. Elə orada, ev № 618 (400 qızıl rubl).

7. «Tverskaya» küçəsində yerləşən 28 nömrəli ev (6000 qızıl rubl).

8. «Bolşaya Minaretskaya» küçəsində yerləşən 224 və 226 nömrəli, ümumi sahəsi 160 kv.m olan evlər.

9. «Buxarskaya» küçəsi, 41 №-li ev.

10. Sisianov və Karantin küçələrinin kəsişməsində yerləşən 19 №-li ev (15840 qızıl rubl). Sənədlərə görə, bu ev 1908-ci ildə yenidən qiymətləndirilərək 28 min qızıl rublla dəyərləndirilmişdir.

11. Qara şəhərdə 5784 kv. sajen torpaq sahəsi (144 min qızıl rubl).

12. Şəhərətrafı ərazidə 6 desyatin «vıqonnıy» torpaq sahəsi (1700 qızıl rubl).

13. Şüvəlan kəndində 2 desyatin, 1 min. kv. sajen ölçüdə meyvə və üzüm bağı (5200 rubl).

14. Mərdəkan kəndində 3 desyatin 430 kv. sajen ərazisi olan meyvə və üzüm bağı (5160 qızıl rubl).



Məşədi Məlik bəy Mansurovun Sisianov küçəsi – 19, Karantin keçidindəki xüsusi evi. Memar Qafar İzmaylov (1889)

15. Qala kəndində 2 desyatin 1 min kv. sajen ərazisi olan 235 №-li meyvə və üzüm bağı (4200 qızıl pul).

16. Qaraşəhərdə 3890 kv. sajen sahəsi olan 7780 qızıl rubl dəyərində əkinə yararsız torpaq.

17. Qaraşəhərdə 5786 kv. sajen sahəsi olan və 12050 qızıl rubl dəyərində torpaq sahəsi.

18. Bakı şəhərində daşınan ev əmlakı (1 min qızıl rubl).

Sənəddə göstərilən bütün varidatın ümumi qiyməti
228 min 870 qızıl rubl təşkil edir.



Məşədi Məlik bəy Mansurovun Sisianov küçəsi -19, Karantin keçidində yerləşən xüsusi evinin layihəsi. Memar Qafar İzmayılov (1889)

Məşədi Məlik, onun böyük qardaşı Məşədi İsmayıl və bacısı Məhbubə xanım (həyat yoldaşı tərəfdən - Ramazanova) Bakı şəhərində əkinə yararlı torpaq sahələri və daşınmaz əmlaka malik idilər. Bakı və Bakı qəzası daxil olmaqla onların payları aşağıdakı kimidir.

Qardaşların hər biri 2/5, bacı – 1/5 paya malik idilər. Şəriət qaydalarına görə, ailə üzvləri arasında əmlakı məhz bu üsulla aparılırdı. Məşədi Məlik, Məşədi İsmayıl və Məhbubə xanımın ümumi əmlakına aşağıdakılar daxil idi.


Предсѣдательствующій
Завѣдывающій Межеваніемъ
Закавказскаго края:
Члены: Начальникъ Чертежной:
Межевой Ревизоръ:
М. П.
Выкопировка
Г. Ткачевъ.
Н. Пантелѣевъ.
Н. Скрыцкій.

Межевой планъ участка земли подъ №125 дачи „Выгонныя земли города Баку", Бакинской губерніи и уѣзда, владѣніе жителей гор. Баку Исмаила и Меликъ Мамеда Мансуровыхъ и сестры ихъ Мегбудъ Ханумы Рамазановой. Всей земли въ участкѣ двѣ десятины одна тысяча восемьсотъ шестьдесятъ квадратныхъ саженъ.

Масштабъ въ Англійскомъ дюймѣ 100 саженъ.

Смежныя земли плана:

Участка №125.

Отъ А до б } Земли дачи „Выгонныя земли гор
и б „ в } Баку", владѣнія города.
Отъ в „ А земли дачи дер. Кишле, владѣніе Казеннаго вѣдомства и част. лицъ

Экспликація:

№№ участ.	Названіе угодій и общее количество ихъ	Десятин	Квад. саж.
125.	Подъ нефтянымъ амбаромъ	2.	1830.
	„ дорогой	„	30.
	Итого	2.	1860

Сія выкопировка съ, имѣющейся въ Межевомъ Округѣ, копіей съ утвержденнаго, 19 мая 1906 года, оригинальнаго плана на дачу „Выгонныя земли города Баку", вѣрна и выдана Сулейману Мансурову, согласно его просьбы и Свидѣтельства Мироваго Судьи Бакинскаго Уѣздно-Городскаго Мироваго участка, отъ 10 декабря 1912 года за №4772-мъ. Гербовымъ сборомъ и канцелярскими пошлинами оплачена. Подписью и приложеніемъ казенной печати удостовѣряется 16-го декабря 1919 года, городъ Баку.

№ 442

Планъ составилъ: Диновъ

Повѣрялъ: Землемѣръ А. Соколовъ

Məşədi Məlik Məmməd, Məşədi İsmayıl və Məhbubə xanımın şəxsi torpaq sahələrinin mülkiyyət sənədi (1906-cı il)



Bakı şəhərində, Bakı quberniyasında və qəzasında yerləşən, 1321 №-li əkinə yararlı – «vıqonnaya zemlya»: 3 desyatin 570 kv. sajen sahə. Dəyəri 15540 qızıl rubl.

Bakı və Bakı qəzasının Keşlə yaşayış sahəsində ərazisi 1 desyatin 1990 kv. sajen olan 330 №-li əkinə yararlı sahə. Bu sahədə Məşədi Məlik bəyin payı 7/8 hissədən ibarət idi. Dəyəri 2195 qızıl rubl. Bakı, Bakı qəzası və quberniyasında, Qara şəhərdə 4 desyatin 1910 kv sajin əkinə yararlı sahə. Bu sahədə Məşədi Məlik bəyin payı 1 desyatin 713 kv. sajendən ibarət və dəyəri 6226 qızıl rubl idi.

Keşlə kəndində 2 desyatin 1860 kv. sajen 125 №-li əkinə yararlı sahə və 2 desyatin, 1830 kv.sajen torpaq sahəsi neft anbarı üçün icarəyə verilmişdir.

Mərdəkanda 2 desyatin 940 kv. sajen sahəsi olan 174 №-li bağ evi. Bu bağın bir tərəfində Kərbəlayi Vahab bəy Məmmədqulu bəy oğlu Hacınski, Həmid bəy Hadı bəy oğlu Hacınski (müvafiq olaraq 175 № -li və 176 №-li sahələr), Məşədi Məlikrza Kərbəlayi Ağaəli oğlunun (177 №-li sahə) sahəsi ilə əhatə olunmuşdu.

Məşədi Məlik, Məşədi İsmayıl və böyük bacısı Raziyə xanımın ümumi istifadəsində aşağıdakı sahələr var idi.

Bakı şəhərində 2143 №-li, 1590 kv. sajen otlaq sahəsi;
Bakı şəhərində 2144 №-li, 1 desyatin 310 kv. sajen otlaq sahəsi;
2145 №-li, 4 desyatin 980 kv. sajen otlaq sahələri;
Bakı şəhərində 2146 №-li, 4 desyatin 1070 kv. sajen otlaq sahələri;
Bakı şəhərində 2147 №-li, 2 desyatin 290 kv. sajen otlaq otlaq sahələri;
Bakı şəhərində 61 №-li, 15 desyatin 1480 kv. sajen otlaq səhəsi;
Bakı şəhərində 126 №-li, 3 desyatin 1180 kv. sajen otlaq sahəsi;
Bakı şəhərində 259 №-li ərazidə 7 desyatin 2280 kv. sajen otlaq sahəsi;
Bakı şəhərində 330 №-li, 1 desyatin 1970 kv. sajen otlaq sahəsi;
Bakı şəhərində 1321 №-li, ərazisi 3 desyatin 570 kv. sajen otlaq sahəsi.
Mərdəkanda 2 desyatin 940 kv. sajen olan, 174 №-li sahə;
Elə orada 235 №-li, 3 desyatin kv. sajen ərazisi olan sahə;
Qala kəndində 334 №-li, 2 desyatin 960 kv. sajen torpaq sahəsi;
Elə orada 1 desyatin 100 kv. sajen olan torpaq sahəsi.

Desyatin *(metr sisteminin tətbiqindən əvvəl işlənmiş 1,092 hektara bərabər yer ölçüsü).*
Sajen *(2,134 m-ə bərabər uzunluq ölçüsü)*



Məşədi Məlik Məmməd bəy Mansurovun vəfat şəhadətnaməsi (1909)

Məşədi Məlik bəy 1909-cu il yanvarın 22-də, 64 yaşında (Məhərrəm ayının 12-si 1327-ci il) ürək çatışmazlığından vəfat edib, atası Ağa Salah bəy və anası Qızxanım Ələkbər qızının yanında Bibi Heybət qəbristanlığında dəfn olunub.

Məni həmişə bir sual düşündürürdü: Nəyə görə kökü bəylərdən olan Mansurovlar dədə-babadan miras qalmış var-dövlətlə neft sənayesi ilə məşğul olmadılar? Zənnimcə, sahibkar olan ulu babam məhz həmin vaxt bu işlə fəal məşğul olub, öndə gedən Bakı neft maqnatlarından biri olmalıydı. Axı, Məşədi Məlik bəyin o vaxtlar cəmi 25 yaşı vardı...

Amma taleyin hökmü başqa idi, Onun payına mesenat olub xalq musiqisi və muğamları təbliğ etmək missiyası düşdü.

Məşədi Məlik bəy əslən zadəgan idi, heç nədən korluq çəkmirdi. Sadəcə olaraq, onun neft biznesinə marağı yox idi. Müdrik və uzaqgörən Məşədi Məlik bəy neft biznesi ilə məşğul olanların aqibətini sanki qabaqcadan görürdü. Kimlərsə birdən-birə varlanır, kimlərsə müflisləşir... Bir sözlə, neft təkcə xoşbəxtlik yox, həm də faciəyə çevrilirdi.

Məşədi Məlik bəy istəsəydi özünün var – dövləti ilə elə öz torpaqlarındaca quyular qazdırıb neft çıxarardı, və gündəlik qazancı 3 - 5 qəpiklə yüksəlişini başlayan o dövrün milyonçuları ilə bir cərgədə olardı.

Məşədi Məlik bəy özünü incəsənətə həsr etdi və bu sahədə xeyriyyəçilik missiyasını üzərinə götürdü. Bu xeyirxahlığın sayəsində o, tarixdə Bakıda musiqi məclislərinin əsasını qoyan görkəmli şəxsiyyət kimi qaldı. O vaxtdan əsr yarım keçməsinə baxmayaraq, bir daha əmin oluruq ki, Məşədi Məlik bəy o zaman düzgün yol seçmişdi.

Məşədi Süleyman bəy
Məşədi Məlik bəy oğlu Mansurov
(1872 – 1955)

Köklü Bakı bəylərinin nəslindən olan Məşədi Süleyman bəy Mansurov 1872-ci il oktyabrın 15-də doğulmuşdur. Təhsilini Sınıq Qala məscidindəki mədrəsədə almışdır. Məşədi Süleyman bəy sonralar rus-tatar məktəbində təhsilini davam etdirmişdir. Bir çox Şərq və Avropa xalqlarını, o cümlədən fars, ərəb, türk, rus dillərini mükəmməl bilirdi. O, həmçinin fransız, alman, ingiliscə sərbəst, müəyyən qədər də italyanca danışırdı.



Məşədi Süleyman bəy Mansurov (1900)

Məşədi Süleyman bəy 1909-cu ildə Hacı Haşım bəy Kərimovun qızı Həcər xanımla ailə qurmuşdur. Bu nigahdan 3 oğlu: Ağa Məlik (4 fevral 1910-cu il – 25 fevral 1926-cı il), Ağa Bəhram (12 fevral 1911-ci il – 14 may 1985-ci il), Ağa Nadir (1916 – 1972) və qızı Sara xanım (1913 –1995) dünyaya gəlmişlər.



شهادت‌نامه

ویرولور بو شهادت‌نامه زاقافقاسڭ شیعه مذهب
مسلمانلارینڭ ادارهٔ روحانیه‌سندن اولخصوصده‌که

باکو غوبرنیه‌سڭ و شهرینگ ساکنی
سلیمان مشهدی ملك اغلی اوزصلبی آقاسی
مشهدی ملك منصور وفگ منکوحهٔ
شرعیه‌سی سلطان بیکم میرزا بخش قیزیندن
مین سکز یوز یتمش ایکنجی ییلگ اوکتابر آینگ
اون بشنجی کوننده تولد ایدوب

فلهذا ادارهٔ روحانیه بو شهادت‌نامه‌نی امضا
ایدوب پادشاهلق مهریله ممهور ایتدی یازیلدی
نوبابر آینڭ ۲۸ مجی کوننده ۱۸۸۹ مجی ئیلده
تفلیس شهرینده نمره ۱۷۹۸

مدیر صدارت ادارهٔ روحانیه عوض شیخ الاسلام ممالك زاقافقاسیه

عضوهای ادارهٔ روحانیه
آخوند مصطفی طالبزاده
آخوند حاجی محمد آقا نظرزاده

СВИДѢТЕЛЬСТВО.

Дано сіе изъ Закавказскаго Шіитскаго
Духовнаго Правленія въ томъ, что житель
города Баку
Бакинской Губерніи
Сулейманъ Машади Ма-
ликъ оглы родился отъ закон-
ной жены отца своего Машади
Малика Мансурова Солтанъ-
Бекумы Мирза Бахишъ кизы
въ тысяча восемьсотъ
семьдесятъ второмъ году
пятнадцатаго Октября
въ чемъ Духовное Правленіе подписью и при-
ложеніемъ казенной печати удостовѣряетъ
Ноября 28 дня 1889 года гор.
Тифлисъ № 1798.

Предсѣдатель Духовнаго Правленія Закав-
казскій Шейхъ-уль-Исламъ Аф. Г. М. Г.
Мовлазаде

Члены: Аф. М. Тимибидзаде
Аф. Г. М. Назарзаде

И. д. Секретаря Гасанбеков

Məşədi Süleyman bəy Mansurovun doğum haqqında şəhadətnaməsi

Məşədi Süleyman bəyin qaynatası Hacı Haşım bəy Kərimov Bakının ən varlı tacirlərindən idi. Onun bir çox neft mədənləri, iri torpaq sahələri, daşınmaz əmlakı vardı. Bakı bəy komissiyası 1888-ci ildə görkəmli adamlar siyahısında onu 115 № ilə əsilzadə bəylər və ağalar nəslinə aid etmişdi. O, əslən bəy nəslindən olan Anaxanımla evlənmişdi. Bu nigahdan 3 qızı - Məsmə xanım (1892 – 1976), Şəhrəbanu xanım (1897 – 1983), Həcər xanım (1898 – 1916) və oğlu Əliheydər bəy (1896 – 1972) dünyaya gəlmişdi. Yeri gəlmişkən, indiki Rus Dram Teatrının yerində vaxtilə Hacı Haşım bəyin daşdan tikilmiş böyük bir anbarı var idi. Yaponiyaya səfər edən Əliheydər bəy Bakıya dönəndən sonra həmin anbarın görkəmini yapon memarlığı üslubunda dəyişmiş və nəticədə «Sinematoqraf Mikado» binası yaranmışdı.



Hacı Haşım bəy Kərimov

Əliheydər bəy 2 dəfə evlənmişdi. Hələ cavan yaşlarında rəhmətə gedən birinci həyat yoldaşından oğlu Əkrəm və qızı Səyyarə, ikinci nigahdan isə oğlu Ramiz və 2 qızı – Rəfiqə, Mənsurə dünyaya gəlmişdi.



Əliheydər bəy Kərimov (1896 – 1972)

Hacı Haşım bəyin böyük qızı Məsmə xanımın əri Ağabəy ağa Rəhim bəy oğlu Səfərəliyev idi. Ağabəy Bakı şəhər bankını idarə edirdi. O, həm də «A.B.Səfərəliyev və K» və «Neft sənayesi Yoldaşlıq Ticarət Şirkətləri»nin sahibi idi. Həyat yoldaşı Məsmə xanımın anası Nurcahan xanım və Ağabəyin anası Cəvahir xanım bacıydılar. Məsmə xanım atam Bəhram Mansurovun doğma xalasıydı. Məşhur memar Mikayıl Hüseynov ana tərəfdən Məsmə xanımla əmiuşağı sayılırdı. Kiçik vaxtlarımda Məsmə xanımı evimizdə görərdim. O, bizə tez - tez qonaq gələrdi. Onun nurlu, mehriban siması indiyə kimi yadımdadır.

Hacı Haşım bəyin ortancıl qızı Şəhrəbanu xanım Ağa Mehdi bəy Xanlarovun həyat yoldaşıydı. Bu evlilikdən onların 4 oğlu: Tofiq (1919 – 1941), Rauf (1926 – 1954), İsmayıl (1928 – 1955), Hacıağa (1924 – 1985) və qızı Rəhilə (1920 – 1990) dünyaya gəlmişdilər. Atam Bəhram Mansurov onların dayısı oğlu idi.

СВОДНЫЙ ИМЕННОЙ СПИСОКЪ

родамъ и лицамъ высшаго сословія въ мусульманскихъ частяхъ Закавказскаго края, причисленнымъ къ сословіямъ *потомственныхъ бековъ* и *родовыхъ агаларовъ*, которымъ, по проэкту о личныхъ правахъ этого сословія, предполагается сохранить званіе *бековъ* и *агаларовъ*, съ предоставленіемъ имъ правъ потомственнаго дворянства Россійской Имперіи.

Составленъ на основаніи журнальныхъ опредѣленій бывшаго Совѣта Главнаго Управленія Намѣстника Кавказскаго и Совѣта Главноначальствующаго гражданскою частью на Кавказѣ, по разсмотрѣніи ими повѣрочныхъ списковъ, изготовленныхъ по протоколамъ бывшихъ четырехъ Бекскихъ Коммисій и по составленнымъ сими послѣдними посемейнымъ спискамъ бековъ и агаларовъ.

№№ по порядку, по сему списку.	ФАМИЛІИ.	№№ по спискамъ Бекскихъ Коммисій и №№ ихъ протоколовъ	№№ по сводному спискамъ бывшаго Совѣта Намѣстника Кавказскаго и Совѣта Главноначальствующаго гражданскою частью на Кавказѣ.
	Г. По Бакинской Бекской Коммисіи		
	(Составлена по журнальному постановленію Совѣта Главноначальствующаго гражданскою частію на Кавказѣ, 26 и 27 Мая 1888 года).		
	1) По уѣздамъ Шемахинскому и Геокчайскому (по бывшему ханству Ширванскому).		
114	Фейзула бекъ	$\frac{86}{284}$	88
115	Гаджи Гашимъ-бекъ	$\frac{59}{288}$	59
116	Мамедъ бекова	$\frac{68}{288}$	63

Bakı əsilzadə bəylər siyahısı (1888-ci il)

Mansuroolar

Nənəm Həcər xanım Məşədi Süleyman bəyə ərə gedəndə cəmi 11 yaşı vardı. Həyata yenicə qədəm qoyan nənəm təəssüf ki, çox tez – 16 avqust 1918-ci ildə, 18 yaşında ikən vəfat etdi. Onun 4 uşağı Məşədi Süleymanın himayəsində qaldı. Babam bundan sonra bir daha evlənmədi, övladlarını özü böyütdü. Ev-eşiyə və uşaqlara baxmaq üçün Məşədi Süleyman bəy milliyyətcə alman olan quvernant qadın saxlayırdı.

Babam özü uşaqlarına həyatın hər üzünü öyrədirdi. Nə deyirsən de, uşaqlara baxmaq tək kişinin işi deyil - üç oğul və bir qıza baxmaq çox çətin idi. Bir ata kimi, o istəyirdi ki, evlənəcəyi qadın hardasa uşaqların anasını əvəz edə bilsin. Hətta ona çətin və ağır olan bu addımı da atdı…

Bir dəfə evə gələndə gördü ki, uşaqlar ağlayır. Məşədi Süleyman bu qadına bir söz demədən onları götürüb evdən çıxdı.

Məşədi Süleyman bəy icarədar və iş adamıydı. O, Qara şəhərdəki torpaqlarını yerli və xarici şirkətlərə neft boruları çəkmək üçün icarə müqavilələri bağlayır. Bu şirkətlər arasında «Şərq yoldaşlıq», «Rusiya Neft», «Nobel qardaşları», «Mirzəyev qardaşları və K», «Aramazd», «Rusiya Neft cəmiyyəti», «Born», «Rusiya Neft Sənayesi cəmiyyəti», «Mal anbarlarının Şərq cəmiyyəti» və s. var idi:



Ağabəy ağa Rəhimbəy oğlu Səfərəliyev və həyat yoldaşı Məsmə xanım Hacı Həşim bəy qızı (1907)



Məşədi Süleyman bəy Mansurov (Moskva, 1905)

1909-cu ildə atası Məşədi Məlik bəy vəfat edəndən sonra, nəslin bütün işlərini Məşədi Süleyman bəy idarə edir. Qardaşları, bacısı, həyat yoldaşı əmlakının idarəçiliyini bacarıqlı və bilikli olduğuna görə məhz ona etibar edirlər. Bunu bir çox notarius sənədləri də təsdiqləyir.

Musiqiyə gəldikdə isə, o Mansurovların qanındadır. Məşədi Süleyman bəy atası Məşədi Məlik bəyin yaratdığı Bakı muğam məclislərini davam etdirdi. Mansurovların İçərişəhərdə, Böyük Qala küçəsi 5 nömrəli evində, eləcə də Şüvələndakı bağında nəinki Azərbaycanın hər yerindən, hətta İran, Tiflisdən xanəndələr, musiqiçilər, şairlər, ümumiyyətlə ziyalıların nümayəndələri yenidən yığışaraq unudulmaz musiqi gecələri təşkil edirdilər.

Məşədi Süleyman bəyin xatirələrindən:

– Hacı Hacıağanın karvansarasında Yusif bəy Dadaşovla nərd oynayırdıq. Birdən qardaşım Mansur tənginəfəs gəldi və dedi: «Məşədi Süleyman, tələs, yoxsa Məşədi Zeynal xanəndəni öldürəcək». Ora gedib, nə görsək yaxşıdı. İçərişəhərdə milyonçulardan birinin oğlunun toyudur. Məşədi Zeynal da tapançanı xanəndənin boğazına sıxıb qışqırır: «Haçana kimi xaric oxuyacaqsan?» Onu birtəhər sakitləşdirdim, xanəndəni də məclisdən yola saldım. O vaxtlar Bakı toylarında yaxşı adət vardı – belə savadsız xanəndələri məclisdən qovardılar. Onlar özləri də utanıb bir-iki ay camaat arasına çıxmazdılar.



Tarzən Sadıqcan

Məşhur tarzən Sadıqcanı ilk dəfə Tiflisdə, bir məclisdə gördüm. Onun ifa tərzi heyran oldum. Sözün həqiqi mənasında Sadıqcan mahir sənətkar - əsl virtuoz idi. O, tarı sinəsinə qaldırıb saxlayır və onu çənəsinə sıxırdı. Tarın qolunu mümkün qədər yuxarı qaldırardı ki, sol əli yorulmasın. Arada tamaşaçıları cuşa gətirmək üçün yalnız sol əlinin barmaqları ilə çalardı, yəni mizrabı simlərə toxundurmazdı. Bəzən də tarı başının üzərindən qaldırıb çalardı. Adətən bu üsuldan aşıqlar istifadə edir. Beləliklə, Sadıqcan həm öz məharətini, həm də tarın imkanlarını nümayiş etdirirdi. O qədər gözəl çalardı ki, hətta onun ifasına quşlar da cavab verərdi.

Bakıya qayıdandan sonra Sadıqcan haqda atama danışdım. Bu, Məşədi Məlik bəyi çox maraqlandırdı. Bir müddətdən sonra Sadıqcan konsert vermək üçün Bakıya gəlir. Atamla onun konsertinə getdik. O, məharətlə çalırdı. Konsertdən sonra atam dedi ki, onu hökmən bizim evə gətir. Ertəsi gün Sadıqcanı qonaq çağırdım. O vaxtdan Sadıqcan ailəmizin ən hörmətli və yaxın adamı oldu. Hər dəfə Bakıya gələndə aylarla bizdə qalardı. Sadıqcanla Məşədi Məliyin söhbətləri çox maraqlı olardı.

Məşədi Süleyman məşhur polyak memarı İosif Kasperoviç Ploşko ilə dostluq edirdi. Arxivimizdə iki şəkil saxlanılır. Süleyman bəyə avtoqrafla bağışlanan birinci şəkildə İosif Ploşko və xanımı Sabina Vladislavovna, ikinci şəkildə isə onların oğlu balaca Yuzef əks olunub.



İsmayıl bəy Nağıyev (1898)

Məşədi Süleymanın dostları arasında milyonçu Musa Nağıyevin oğlu İsmayıl da vardı. O, vərəm xəstəliyindən əziyyət çəkirdi. Həkim Məmmədrza Vəkilov Ağa İsmayılı müayinə edəndən sonra onun atasına dedi: «Oğlunun vəziyyəti çox ağırdır, təcili tədbir görmək lazımdır, yoxsa uşaq əldən gedər. İstəyirsənsə, özüm Ağa İsmayılı İsveçrəyə apararam. Bir il müalicə edib, sonra onu sağ-salamat evə gətirərəm. Bu işə 50 minə yaxın pul lazımdır». Ağa Musa isə deyir ki, ancaq 10 min verə bilər. Bununla da söhbət bitir. Amma Ağa İsmayılın səhhəti daha da ağırlaşır. Belə olduqda Ağa Musa oğlunun müalicəsinə 50 min pul ayırır və yenidən onu həkimlə




CARTE POSTALE

La Correspondance au recto n'est pas acceptée par tous les pays étrangers. (Se renseigner à la l

Correspondance.

Adresse.





İsmayıl bəy Nağıyevin Süleyman bəy Mansurova yazdığı məktublar. İsveçrə, 1905-ci il

İsveçrəyə göndərir. Orda İsmayılı ikinci dəfə müayinə edirlər. həkim Məmmədrza Vəkilov Ağa Musaya deyir ki, «artıq gecdir, indi onu milyonlar da xilas edə bilməz».

Şəxsi arxivimizdə Ağa İsmayılın çox nadir şəkilləri və babam Məşədi Süleymana yazdığı məktublar saxlanılır. İlk dəfə olaraq bu məktubları açıqlayırıq.

Davosdan gələn ilk məktubda İsmayılın xanımı Yuliya yazır: «Əziz Mansurov! Bu, İsmayılın şəklidir. O, gündə iki dəfə bu kresloda açıq havada uzanır». Şəklin üstündə İsmayıl öz xətti ilə yazır: «Özündə saxla, heç kimə vermə». Çox güman ki, Ağa İsmayıl istəmirdi ki, dostları və yaxınları onu bu vəziyyətdə görsünlər.



İsveçrə. Davos–«Belveder» oteli (1905)

İkinci məktub Yeni il ərəfəsində - 1905-ci ilin dekabrın 30-da Berndən Bakıya göndərilib: «Əziz Süleyman və Hüseyn! (Hüseyn bəy Xanlarov nəzərdə tutulur - E.M) Sizi burada görmək istəyirəm. Siz gələn kimi «Belveder» otelinə köçəcəyəm, istəməzdim ki, orda tək qalam. Buralar çox gözəldir. Yuliyanın salamı var. Dostunuz İsmayıl».



Məşədi Süleyman bəy Mansurov (1908)

İsmayıl Yelizavetpolda (indiki Gəncə) baş verən hadisələrdən çox narahat idi. Buna görə də üçüncü məktubunda Məşədi Süleymandan xahiş edir ki, bu hadisələr barədə ətraflı məlumat versin. «Peterburqdan yazırlar ki, Yelizavetpolda tatarlarla ermənilər arasında qırğın gedir. Süleyman, bu belədir ya yox? Yelizavetpolda vəziyyət necədir, yoxsa hələ də qarışıqlıqdır? Ətraflı yaz, Bakıda sakitlikdir, yoxsa orda da qırğın davam edir? Süleyman, qohumlar, tanışlarımız arasında salamatçılıqdırmı?». Bu məktubudan aydın olur ki, söhbət 1905-ci ilin hadisələrindən gedir.

İsveçrədə müalicə olunarkən yazdığı dördüncü məktubda o dostuna yazır:

«Əziz Süleyman, bağışla ki, az-az yazıram. Xalıq və Arşakdan mənim yerimə üzr istə, izah elə ki, çox istəyirəm yazım, amma mənim üçün çətindir, qoy onlar yazsın.

Əzizim Süleyman, çox heyifsilənirəm ki, atamı bura çağırdım. Bilsəydim ki, ona bu qədər ağır təsir göstərəcək, heç çağırmazdım. Onu belə vəziyyətdə görməkdənsə, kaş öləydim. Atam bu dərəcədə sarsılmışdı. Yuliya xidmətçidən atamı necə tanıdığını soruşanda o dedi: «Divanda oturan balaca kişini deyirsiniz?» Doğrudan da bir neçə saat ərzində o yumağa dönmüşdü. Atam gecənin bu vaxtında həkim Berinqin yanına getmək istəyirdi. Biz ona səhər getməsini məsləhət gördük. Səhər saat 8-də Tağı bəyi və həkim Məmmədrza Vəkilovu da özü ilə götürüb Berinqin yanına getdilər. Elə indicə onlardan teleqram aldım. «Yaxşı qarşılandıq. Cəhd edəcəyinə söz verdi. Ümidimiz böyükdür. Musa, Tağı.» Sonrakı vəziyyətdən hələlik xəbərim yoxdur. Vəziyyətimə gəldikdə isə gördüyünüzdən indi yaxşıyam. Səmimi salamlarımı Hüseynə çatdır. Bu məktubu ona göstər, bağışlasınlar ki, hamıya ayrıca məktub yaza bilmirəm. Amma xahiş edirəm ki, sizin ikinizdən başqa bu məktub barədə heç kəs xəbər tutmasın. Əvvəla, ona görə ki, atamla nə vəziyyətdə görüşdüyümü heç kim bilməməlidir. İkincisi, ola bilsin, Berinq məni gizli müalicə edəcək. Hüseynin ünvanını mənə yaz. Ehtiramlı salamlarımı atana, Mansura, Ağa Hüseynə və anana çatdır. Yuliya hər ikinizə salam göndərir. Qardaşın İsmayıl».



Məşədi Süleyman bəy və Ağahuseyn bəy Xanlarov. Vyana, 1910-cu il

1906-cı il 6 fevral tarixli beşinci məktubda İsmayıl sağalacağına ümidli olduğu barədə dostuna yazır:

«Əzizim Süleyman! Bağışla ki, az yazıram. Yalnız Berinq barədə bildirmək istəyirəm. Atamla görüşündə Berinq deyib ki, heyvanlar üzərində apardığı sınaqlar uğurlu alınıb. Bu gün o sınağın nəticələrini Strasburqa, klinikada çalışan məşhur professora göndərib, onun insanlar üzərində də aparılmasını məsləhət görəcək. Bir də professordan məni müalicə etməsini xahiş edib. Sabah ora yola düşəcəyəm. Nə olacaqsa sənə bildirərəm. Allah kömək olsun!!! Yeni ünvanımı idarədən öyrənərsən. Dostun İsmayıl».

Bu da sonuncu, altıncı məktub. İsmayıl artıq ağır vəziyyətdədir. Onun yerinə həyat yoldaşı yazır: «Çox hörmətli cənab Mansurov, İsmayıl xahiş edir ki, yaza bilmədiyi üçün onu bağışlayasınız. O yataqda uzanıb, qızdırması yüksəkdir. Vəziyyəti yaxşılaşan kimi özü sizə yazar. Başında bərk ağrılar var. Cənab Xanlarova salamı var. Gələn dəfə daha çox şəkil göndərərəm. Sağ olun, Yuliya».

Müalicədən sonra İsmayıl Bakıya qayıdır və çox keçmir ki, gənc ikən, 27 yaşında vəfat edir. Musa Nağıyev oğlunun cənazəsini Kərbəlaya aparır və bu müqəddəs yerdə onu dəfn edir...

İsmayılın şərəfinə ucaldılan və adı ilə adlandırılan, Nikolayevski, indiki İstiqlaliyyət küçəsindəki əzəmətli bina – «İsmailiyyə», Musa Nağıyevə oğlundan qalan yeganə xatirə oldu.



Mirzə Şəmsi bəy oğlu Əsədullayev (1898)

Digər Bakı milyonçusu Şəmsi Əsədullayevlə Mansurovlar ailəvi yaxın idilər. Babam onun oğlu Mirzə ilə dostluq edirdi. Musa Nağıyevin qızı ilə evlənən Mirzənin toyunda maraqlı hadisə baş verir. Məclisə musiqiçilərdən xanəndə Bülbülcan və tarzən Sadıqcan dəvət olunmuşdular. Muğamların mahir bilicisi olan Məşədi Süleyman bəy Sadıqcanın virtuoz ifasından heyrətlənib, özü də bilmədən gözləri yaşarır. Bunu görən Şəmsi Əsədullayev ondan soruşur: «Niyə ağlayırsan? Axı, toyda sevinmək lazımdır». Məşədi Süleyman cavab verir: «Şəmsi əmi, sən bilmirsən, o necə ifa edir. Bu çalğı aləmdir!»

Onda Şəmsi soruşur: «Onlar üçün nə edə bilərəm?». «Hərəsinə bir dənə brilyant üzük bağışla», – deyə babam ona məsləhət verir. Şəmsi bəy elə də edir.

Bəlkə də çoxları bilmir ki, Parisdə vəfat edən Azərbaycan yazıçısı Ümbülbanu Mirzə Əsədullayevin qızıdır. İki milyonçunun – Şəmsi Əsədullayev və Musa Nağıyevin nəvəsi, əsərlərini fransız dilində yazırdı.

Məşədi Süleyman dünyanı çox gəzmişdi. Səyahət etmək ona musiqi qədər əziz idi. Əbəs yerə atalar deməyib ki, çox gəzən, çox bilər. Atamın dediyinə görə, babam

düz 11 dəfə bütün Avropanı, şərq ölkələrini, eləcə də Rusiyanı səyahət etmişdi. Məşədi Süleyman bəy bütün ölkələr arasında ən çox Fransa, İsveçrə və Avstriyanı bəyənirdi. Amma bir musiqiçi kimi, Avstriyanı daha çox sevirdi. Axı, bura Avropanın musiqi və mədəniyyət mərkəzi idi...

Paris, Strasburq, Marsel, Versal, Monte-Karlo, Lüksemburq, Milan, Roma, Neapol, Turin, Verona, Vyana, Zaltsburq, Helsinki, Tampere, Oslo, Höteborq, Krakov, Varşava, London, Berlin, Hamburq, Köln, Kopenhagen, Madrid, Barselona, Afina, Bern, Cenevrə, Lütsern, Davos, Sürix, İstanbul, Qahirə, Sankt-Peterburq, Moskva, Kazan, Kislovodsk, Kiyev, Yesentuki, Pyatiqorsk … Məşədi Süleyman bəy bu yerləri qarış-qarış gəzib.

Onun Parisdən də çox xoşu gəlirdi. Hər dəfə Bakıya qayıtmazdan əvvəl Məşədi Süleyman Eyfel qülləsinə qalxıb Parisi ordan seyr etməkdən həzz alardı. Təbiətən söhbətcil olan Məşədi Süleymanın xaricdə də çoxlu dostları var idi. Onların arasında iş adamları, zadəganlar, ziyalılar, musiqi həvəskarları - bir sözlə, cəmiyyətin müxtəlif təbəqələrinin nümayəndələri vardı.



Məşədi Süleyman bəy Mansurov (Bakı, 1906)



Emiliya Svillinq (Vyana, 1906)

Bu tanışlar arasında hətta gözəl qadınlara da rast gəlmək olardı. Məşədi Süleyman onlarla səyahətdə tanış olmuş, Bakıya dönəndən sonra onlarla məktublaşırdı. Zənnimcə, bu yazışmaların bəziləri oxucuya maraqlı olar. Misal üçün, mademuazel Emiliya Svillinqin Vyanadan yazdığı iki məktub: «Hörmətli cənab Mansurov, təəccüb edirəm ki, xeyli vaxtdır ki, sizdən xəbər yoxdur. Yoxsa köhnə dostlarınızı unutmusunuz? İstəyirəm biləsiniz ki, hələ də mənim xatirimdəsiniz. Səhhətiniz, mehriban ailəniz necədir, nə yeniliklər var? Yeni il bayramında bizim gözəl şəhərə gəlmək fikriniz varmı? Cavabınızı səbirsizliklə gözləyirəm. Hörmətlə, Emiliya Svillinq. 31.07.1906»

Məşədi Süleyman hörmət əlaməti olaraq xaricdə yaşayan dostlarına Bakıdan orijinal hədiyyələr edirdi. Məsələn, Emiliya Svilinqə Abşeronun qızıl güllərini göndərirdi.

Xanım isə, öz növbəsində Məşədi Süleymana diqqətinə görə təşəkkürünü bildirir: «Hörmətli Süleyman, göndərdiyiniz qızıl güllərə görə çox minnətdaram. Mən də sizin üçün bu mey-



Emiliya Reynqold (Tampere, 1906)

vələri seçmişəm. Əlbəttə, bilirəm, Qafqazda bunlardan da yaxşısı var. Ümid edirəm ki, xanımdan aldığınız meyvələrin sizinçün xüsusi dadı olacaq. Ən xoş arzularla, Emiliya»

İsveçdən Luiza Reynqold yazır: «Əziz cənab Mansurov, ən xoş arzularla Yeni ilinizi təbrik edirəm. Dünən ikinci məktubunuzu aldım, birinciyə artıq cavab yazmışam. Bu məktuba da cavab gözləyirəm. Hörmətlə, Luiza Reynqold».

Məşədi Süleyman hər ay xaricdəki dostlarından məktub alırdı. Ona Finlandiyadan Emiliya Ernstovna Reynqold və onun bacısı Vera Ernstovna Madera, Rusiyadan İ.M. İvanovna, E.V. Zabaluyeva, əslən kazak olan xanım Anna İvanovna Stelmaçenko, Liza Vasilevskaya, Ekaterina Çeşkova, İ. N. Aleksandrova, sirk artisti Marqo Nikitina, Yuliya Andreeva, İtaliyadan primadonna S. Toni, Tiflisdən knyaginya Tamara Aleksandrovna, Yunanıstandan Alxoviç və bir çox ölkələrdən xanımlar ona yazırdılar.

Bütün məktublarda bizim üçün qəribə görünən poçt ünvanı göstərilirdi. Məsələn, «Bakı. Rusland. Böyük Qala küçəsi, ev № 5, Zati-Aliləri cənab Süleyman Mansurova. 31.12.1906». Bəzən belə də yazırdılar: «Zati-Aliləri Süleyman Mansurova. Bakı. İçəri şəhər. Şəxsi mülk».

Məşədi Süleyman həyatı, yumoru çox sevən, hazırcavab bir şəxs idi. Atamın dediyinə görə, səyahətlərdə Məşədi Süleyman və dostları ilə bağlı qəribə hadisələr baş verərdi. Misal üçün, qardaşı Mirzə Mansur və Hüseyn bəy Xanlarovla Helsinkidə olarkən Məşədinin könlünə plov düşür. Qaldıqları otelin restoranında soruşurlar ki, plov üçün lazım olan ərzaqlar varmı. Kişmişdən başqa hər şeyin olduğunu söylədilər. Dostlar qərara gəldilər ki, kişmiş dalınca aralarında ən kiçik olan Mirzə Mansuru Peterburqa göndərsinlər.

Buna bənzər bir əhvalat da Romada baş vermişdi. Məşədi Süleyman bibisi oğlu İbrahim bəy Abdinov, qardaşı Mirzə Mansur və dostu Hüseyn bəy Xanlarovun ürəyinə kabab yemək düşür. Senat meydanında gəzişərkən elə



Məşədi Süleyman bəy Mansurov (Sankt-Peterburq, 1905)

ordakı restoranların birinə gedirlər. Ofisiantı çağırıb kabab sifariş verirlər. O da deyir ki, «Bizim menyuda bu adda yemək yoxdur. O, nə olan şeydir?».

Dostlar tənbəllik eləməyib, restoranın sahibinə bir qoyun alıb gətirməsini sifariş edirlər. Bir qədər keçəndən sonra artıq bakılılar mətbəxdə əti doğrayıb hazırlamışdılar. Bir də məlum olur ki, restoranda şiş yoxdur. İbrahim bəy hardansa qalın məftil tapır və onu şiş kimi istifadə edir. Restoranın həyətində tonqal qalayıb başlayırlar kabab bişirməyə. Yaxınlıqda yaşayan qonşular elə bilirlər ki, restoranda yanğın baş verib və təcili yanğınsöndürən dəstəsi çağırırlar. Yanğınsöndürənlər restoranın həyətinə girəndə tonqal ətrafında bir neçə kişinin nə isə bişirdiyini görürlər. Onların «burda nə baş verib?» sualına restoranın müdiri cavab verir: «Qafqazdan vəhşilər gəlib kabab bişirirlər».

Hər bir qafqazlı kimi, Mansurovlar da dadlı və ləzzətli yeməklər xoşlayırdılar. Yeri gəlmişkən, bu barədə Məşədi Süleymanın çox sevdiyi Parisdə də bir əhvalat baş verir.

Günlərin bir günü o, qardaşı Mirzə Mansurla nahar etmək üçün restorana gəlirlər. Deyirlər ki, hazır nə varsa gətirsinlər. Hər bir aristokrat kimi, Məşədi Süleyman bəy də Kuba siqarını çəkməkdən xüsusi zövq alırdı. Odur ki, yemək gələnə kimi Məşədi Süleyman bir siqar yandırır. Babamın xalis dəridən tikilmiş siqar qabı ondan mənə qalan ən əziz xatirədir...



Mirzə Mansur bəy Mansurov



Vyana. Qrand Opera teatrı. XX əsrin əvvəlləri

Ofisiant kiçik qabda bir neçə buterbrod gətirir. Məşədi Süleyman ona güləgülə baxıb deyir: «Bu hara çatar, bununla bizi doydurmaq istəyirsən?. Get bundan 100 dənə gətir«. Xidmətçi əvvəl qulaqlarına inanmır. Amma görəndə ki, qardaşlar zarafat etmir, sifarişi yerinə yetirirlər. Heç bir saat keçmir ki, Məşədi Süleyman və Mirzə Mansur buterbrodları yeyib qurtarırlar. Birdən baxıb görürlər ki, fotomüxbirlər onların şəklini buterbrod yeyən zaman çəkirlər. Sən demə, restoranın müdiri fotomüxbirləri çağırıb ki, Qafqazdan gələn iki





Zelma Kurts (Vyana, 1904)

nəfərin 100 buterbrodu necə yediyinin şəklini qəzet üçün çəksin. Onlar təsəvvürünə belə gətirə bilməzdilər ki, Mansurov qardaşları bir bulud plovu bir oturuma yeyə bilərlər.

Atamın dediklərinə görə, Məşədi Süleymanın Parisdə ən çox sevdiyi yer «Mulen Ruj» idi. Dəfələrlə orda olan babam bir gün özüylə qardaşı Mansuru da ora, varyeteyə baxmağa aparır. «Kan-kan» ifa edən rəqqasələrdən biri onlara yaxınlaşır. Rəqqasənin ətrindən məst olan Mirzə Mansur onunla tanış olur. Sonralar Mirzə Mansur da həmin bu kabareyə tez-tez gəlməyi xoşlayır.

. Xarici səfərlər zamanı Məşədi Süleyman tez-tez teatr və konsert salonlarına gedir, bir premyeranı belə buraxmazdı. Belə ki, 1904-cü il noyabrın 28-də Vyanadakı «Qrand Opera» Teatrında tamaşaya baxandan sonra dostları onu primadonna Zelma Kurtsla tanış edirlər. Hər dəfə Vyanada olanda babam onunla görüşərdi. Belə görüşlərin birində, o, Məşədi Süleymana avtoqraflı fotoşəklini və öz ifasında yazılmış qrammofon valını bağışlamışdı. Həmin valda Zelma Kurts Baxın, Qunonun, Bellininin əsərlərini və italyan operalarından ariyaları ifa edir.

Şüvəlanın 80 yaşlı qocaman sakini Cümşüd Muradov xatırlayır ki, Mansurovların bağı kənddə yeganə ikimərtəbəli bina idi. Gündüzlər balkona heç kim çıxmazdı, çünki yuxarı mərtəbədən qonşuların həyəti görünürdü. Şəriət qaydalarına görə, özgə həyətlərinə baxmaq yaxşı hal sayılmırdı. Üstəlik Mansurovların mədəni səviyyəsi buna imkan verməzdi.

Hava qaralandan sonra Məşədi Süleyman və Mirzə Mansur eyvana çıxıb tar çalardılar. Hər axşam qonşular və kəndə gələn qonaqlar yığışıb bu «konsertə» qulaq asardılar.

Mansurovların Şüvəlandakı bağında Bakı ziyalılarının nümayəndələri tez-tez qonaq olardılar. Onların arasında milyonçulardan Yusif Dadaşov, İsmayıl Nağıyev, Mirzə Əsədullayev, şəhərin varlı şəxslərindən olan dağlı Abbas, notarius Georgi Somov, şəhər jandarm idarəsinin rəisi Qorçaqovski, polismeyster Talıbxanov, Ələsgər bəy, Vasid bəy və Hüseyn bəy Xanlarovlar, Mirzə Kazım bəy, Əbülfəz bəy, İbrahim bəy və Mirzə Abbas bəy Abdinovlar, Ağabəy, Sadıq bəy, İbrahim bəy və Tağı bəy Səfərəliyevlər, Əbdülmanaf Ələkbərov (Məşədi Süleymanın qohumu), Ağahüseyn Ağarza oğlu Mövsümov, musiqiçilərdən Ağabala Ağasəid oğlu, Sadıqcan, Mirzə Hacı



Süleyman bəy Mansurovun Şüvəlandakı bağ evi (1915)

Ağababa oğlu, Mirzə Fərəc Rzayev, Əbülqədir Cabbarov (Qədirbala), şəkili Ələsgər Abdullayev, Əbdülbağı Zülalov (Bülbülcan), Qarabağdan Məşədi Dadaş, Qurban Primov, Seyid Şuşinski, Cabbar Qaryağdıoğlu, Keçəçioğlu Məhəmməd, Məşədi Zeynal, Saşa Oqanezaşvili, Şirin Axundov və bir çox başqaları var idi.



Lazar Ter-Vartanesov (1903)

Bütün bakılılar kimi, Mansurovlar da beynəlmiləlçi idilər. Nəslimiz digər xalqların nümayəndələri ilə yaxşı münasibəti həm də dostluq xarakteri daşıyırdı. Mansurovların dostları sırasında ruslar, gürcülər, yəhudilər, o cümlədən ermənilər də az deyildi. Onlardan biri tanınmış tarzən Qarabağ rahibinin oğlu Lazar Ter–Vartanesov idi. Bakıya gələndən sonra o, muğamın sirlərini tarzən Mirzə Fərəcdən, xanəndələr Ağabala Ağasəid oğlu və Mirzə Ağakərim Zeynal oğlu kimi ustad sənətkarlardan öyrənməyə başlayır. Lazarın peşəkar musiqiçi olmasında Məşədi



Məşədi Süleyman bəy Mansurov (1906)

Süleyman bəyin xüsusi rolu oldu. Məhz babam onu Sadıqcanla tanış etdi. Sonralar Lazar ondan çox şey öyrəndi. 1905-ci ildə isə o, notları öyrənməyə başlayır və bu məqsədlə müəllim tutur. Lazarın bir arzusu var idi. Bu barədə ilk dəfə Məşədi Süleymanla məsləhətləşir. «İstəyirəm xalq çalğı alətlərindən ibarət peşəkar orkestr yaradım və konsertlərlə çıxış edim«. Məşədi Süleyman ondan soruşur: «Bunun üçün sənə na lazımdır?». Lazar cavab verir : «Pul və yer». «Nə qədər?» – deyə babam soruşur. Lazar deyir ki, «başlanğıc üçün 500 rubl bəs edər».

Məşədi Süleyman Balaxanski küçəsində birbirinin yanında 4 dükan alır. Onların arasındakı divarları sökür və bura böyük bir zala çevrilir. Lazar bu zalda 23 ay müddətində öz orkestri ilə məşq edir. Məşədi Süleyman afişa sifariş verib, Tağıyev teatrında konsert təşkil edir. Konsert günü teatrda adam əlindən yer yox idi, hətta Məşədi Məlik bəy də konsertə gəlmişdi. Orkestrin müşayiəti ilə Lazar «Çahargah» və «Şüştər» muğamlarını ifa etdi. Orkestrin ilk konserti uğurla keçdi.

Bu orkestri yaratmaqla Məşədi Süleyman musiqiyə olan böyük məhəbbətini, həm də bu yolda özünü bir daha xeyriyyəçi – mesenat kimi göstərdi. Belə ki, bilavasitə onun iştirakı və vəsaiti hesabına Bakıda 25 musiqiçidən ibarət ilk peşəkar xalq çalğı alətləri orkestri yaradılır. Şərqdə birinci olan bu orkestr sonralar Bakının teatr və konsert salonlarında çoxlu çıxışlar etdi.

Məşədi Süleymanın dediklərinə görə, günlərin birində Lazar xəstələnir. Babam ona baş çəkməyə gedir. Gəlib görür ki, ona Davud adlı bir qohumu qulluq edir. O, deyir ki, dünən Lazar keşişi çağırtdırıb, ona vəsiyyət edib ki, ölümündən sonra bütün əmlakı Məşədi Süleymana verilsin. Keşiş soruşanda ki, «niyə doğmalarına yox, məhz Məşədi Süleymana?», Lazar belə cavab verir: «O mənim üçün həm qardaş, həm qohum və ümumiyyətlə ən yaxın adamdır. Nə qazanmışamsa, ancaq o kişiyə - Süleyman Mansurova borcluyam». Keşiş də Lazarın dediklərini yazıb təsdiq edir.

Lazarın bu hərəkətindən hirslənən Məşədi Süleyman vəsiyyətnaməni cırır və Lazarı da Şüvəlandakı bağına aparır. Vəziyyəti atasına danışır. Məşədi Məlik bəy Lazara ən yaxşı otağı ayırır. O, yatalaq xəstəliyinə tutulmuşdu. Mansurovlar onu iki aya sağaldıb ayağa qaldırırlar. Əlavə bir

ay da bağda saxlayırlar ki, o, tam sağalsın. Bundan sonra Məşədi Süleyman Lazarı şəhərdəki evinə yola salır.

Bir müddət keçəndən sonra daşnaklar Lazara məktub göndərirlər, ondan 3 min rubl tələb edirlər. Lazar bu məktuba çox qəzəblənir və onlara belə cavab göndərir: «Mən Bakıda oturub müsəlmanların çörəyini yeyirəm. Hər şey üçün də onlara borcluyam. Onlardan gördüyüm hörməti, səxavəti heç kim mənimçün etməyib. Həm kasıb adamam, o qədər pulum da yoxdur. Əgər olsaydı belə, yenə də sizə verməzdim».

Bundan sonra daşnaklar onu güdməyə başlayırlar. Təhlükəni hiss edən Lazar Bakıdın getməyi qərara alır. Məşədi Məlik bəy ona təklif edir ki, onun evində qalsın: «Sənə heç kim toxuna bilməz». Lazar təşəkkür edib deyir: «Sağ ol, Məşədi. Onsuz da sizə çox borcluyam. Doqquz aydır ki, evinizdə qalıram. Burdan gedib özümə bir gün ağlamalıyam. Məşədi Məlik soruşur, «hara gedəcəksən?» Lazar deyir: «Kiyevə».



Bakı. Kalyubakinskaya küçəsi (1900)

Məşədi Məlik 1500 rubl oğlu Məşədi Süleymana verib deyir: «Onunla get. Orda Lazarçün bir ev al, yanında dükanı da olsun ki, mağazanın qazancı ilə dolana bilsin».

Məşədi Süleyman elə də edir. O, Kiyevdə Lazarçün bir baqqal dükanı alır. Həmin dükanın ikinci mərtəbəsində isə Lazar özü yaşayır.

Məşədi Süleyman danışır ki, «Lazar vağzalda məni ötürəndə göz yaşlarını saxlaya bilmədi. Mən jandarmlardan xahiş etdim ki, onu evinə qədər ötürsünlər. Sonra qardaşım Mansurla iki dəfə də Kiyevə onu yanına getmişdik. Lazar hər gəlişimizə çox sevinir, bizi ən əziz adamları kimi qarşılayardı. O, həmişə deyirdi: «Mən bakılıyam, azərbaycanlılardan yaxşılıqdan başqa bir şey görməmişəm. Onların çörəyini yemişəm və heç vaxt o çörəyi tapdalaya bilmərəm».

Bakını bolşeviklər işğal edəndən sonra Mansurovların bütün əmlakı müsadirə olunur. Vaxtilə Üzeyir Hacıbəyov Mansurovların musiqi məclislərinə tez-tez gələr, orda Məşədi Süleyman bəyin nüfuzunu görərdi. Şura hökuməti qurulandan sonra Üzeyir bəy varidatı əlindən alınan Məşədi Süleyman bəyə 20-ci illərin əvvəllərində hörmət əlaməti olaraq musiqi alətləri mağazasına direktorluq vəzifəsini təklif edir. Bu mağaza Tağıyev passajın girişində, sağ tərəfdən ikinci salonda yerləşirdi.

Məşədi Süleyman mağazada 3-4 gün işləyəndən sonra ordan gedəsi olur. Buna səbəb aşağıdakı hadisə olur. Mağazaya gələn müştəri tar almaq istəyir. Satıcılar ona bir neçə alət göstərirlər. O isə nə istədiyini özü də bilmir. Müştərinin əlindən cana gələn satıcılar Məşədi Süleymana ondan şikayət edirlər: «Ağa, bir nəfər tarlara baxır, nə istədiyini bilmirik». Məşədi Süleyman ona



Bakı. Tağıyev passajı (1915)

yaxınlaşıb soruşur: «Sənə nə lazımdır?». Alıcı da ondan soruşur: «Sizdə yaxşı tar var?». Məşədi Süleyman ona yaxşı bir tar təklif edir. O tarı götürüb bir qədər ora-burasına baxır və yenə də Məşədi Süleymana qaytarıb deyir: «Bəlkə bundan da yaxşısı var?». Babam heç nə demədən başqa tarı ona gətirir. Həmin adam bu tarı da götürüb bir qədər çalır və yenə həmin sualla Məşədi Süleymana müraciət edir: «Bəlkə sizdə daha yaxşı tar var?». Bunu deyəndən sonra Məşədi Süleyman əsəbiləşir, özünü saxlaya bilməyib tarı alıb onun başına vurur və dükandan çıxıb bir daha ora qayıtmır.

Məşədi Süleyman bəy elə bir mühitdə böyüyüb tərbiyə almışdı ki, orada öz işini bilən adamlara hörmət və etimad bəsləyirdilər. Təəssüf ki, elə bir zaman gəlmişdi ki, artıq belə adamlar yox idi. Onların əvəzinə yeni rejimdə yeni növ - ədəbsiz, savadsız, laqeyd vətəndaşlar peyda olmuşdu. Belələri hətta ən yaxın adamlarını da satmağa hazır idilər. Həyatın bu reallığı ilə barışmayan Məşədi Süleyman bəy qərara gəlir ki, ömrünün sonuna kimi bu quruluşa qulluq etməyəcək.

Babam Məşədi Süleyman Üzeyir Hacıbəyovu hələ gənc yaşlarından, onun musiqiyə təzə-təzə yiyələnməyə başladığı vaxtdan tanıyırdı. Gənc Üzeyir hələ Məşədi Məliyin muğam məclislərinə də gələrdi. 30-cu illərin əvvəlində kommunist rejimli Şura hökumətinin İranla arası yox idi. Bundan sui-istifadə edən bolşeviklər İranla bağlı muğam adlarını da dəyişmək qərarına gəlirlər.

Kommunistlərin bu fikrindən xəbərdar olan Məşədi Süleyman qəzəblənir və elə həmin gecə Üzeyir bəyin evinə gəlib yarızarafat-yarıciddi şəkildə ona deyir: «Eşitmişəm ki, muğamların adlarını dəyişirsiniz? Buyurun, mən sizinçün onların qarşılığını tapmışam».

Gəlin «Bayatı-İsfahan»ı «Bayatı-Stalin», «Bayatı-Şiraz»ı isə «Bayatı-Molotov» adlandıraq. Bəlkə «Bayatı-kürd»ə «Bayatı-Voroşilov» deyək? Nə etdiyinizi bilirsiniz? Məgər bu adları siz qoymusunuz ki, siz də dəyişəsiniz? Bir utanın!!!».

1920-ci ildə Bakıda ilk Musiqi Texnikumu açılır. Bu texnikum «Gimnaziçeskaya» küçəsində, indiki Tolstoy və Qoqol küçələrinin kəsişdiyi yerdəki binanın üçüncü mərtəbəsində yerləşirdi. Burada muğamat üzrə komissiya yaradılır. Onun tərkibinə muğam biliciləri - Mirzə Fərəc Rzayev, Məşədi Süleyman Mansurov, Şirin Axundov, Mansur Mansurov, Qurban Primov, kamançaçalan Saşa Oqanezaşvili, xanəndələr Cabbar Qaryağdıoğlu, Ağabala Ağasəid oğlu, Şəkili Ələsgər daxil idilər.

Bu məktəbdə tez-tez konsertlər verilirdi. Atam danışardı ki, muğam gecələrinə o və böyük qardaşı Ağa Məlik ataları Məşədi Süleymanla birgə gedərdilər. Babam istəyirdi ki, bütün Mansurovlar kimi onun oğulları da xalq musiqisini sevsin, muğamlara istedadlı və tanınmış musiqiçilərin ifasında qulaq assınlar.

Üzeyir bəy çox istəyirdi ki, bu məktəbdə Məşədi Süleymanda da dərs desin. O, həmişə babama deyərdi: «Sənin biliyin və təcrübən gənclərə lazımdır. İstəyirəm bildiklərini onlara öyrədə-



Bakı. «Fenomen» teatr binası (1919)



Məşədi Süleyman bəy nəvəsi Eldarla (1952)

sən». Amma Məşədi Süleyman bu təklifə etiraz edir: «Qoy mənim yerimə Mansur dərs desin, ona arxayınam».

Babam vəfat edəndə 3 yaşım var idi. Əlbəttə mən heç nə xatırlamıram. O vaxtdan çox illər keçib. Bütün bu illər boyu babam Məşədi Süleyman bəyin necə adam olduğunu bilmək istəmişəm. Onun xatirələrini dəfələrlə oxumuşam, onunla bağlı xeyli sənəd toplamışam, çoxlu şəkillərə baxmışam. Qohum və onu tanıyanlardan çoxlu xatirələr eşitmişəm. Babamın mütaliə etdiyi kitabları dəfələrlə oxumuşam. Lakin Məşədi Süleyman bəyi başa düşmək, onun xarakterini öyrənmək, fikirlərindəki məntiqi anlamaq, daxili və mənəvi dünyasına baş vurmaq üçün bunlar az imiş. Həmişə nə isə çatışmırdı. Görünür, bunun üçün ən azından heç olmazsa bir qədər ona oxşamalıyam. Amma onu dəqiq dərk etmişəm ki, babamın 30-cu illərin ortalarında qələmə aldığı xatirələri bolşeviklərin hakimiyyətə gəlişi ilə sona yetir.

1920-ci ildə Məşədi Süleymanın 48 yaşı var idi. Kişi üçün bu yaş dövrü yetkinlik, həyat haqqında dolğun fikirlər söyləmək, müdrikliyin başlanğıcı olan ən yaxşı illərdir.

Rejimin dəyişməsi, yeni hakimiyyətin gəlişi, bolşevikların fərsizliyi, onların kobudluğu, naşılığı ziyalıları onlardan uzaqlaşdırırdı. Bakı ziyalılarının görkəmli nümayəndələrindən olan Məşədi Süleyman bəy bu rejimlə barışa bilməzdi. Demək olar ki, 48 yaşında, o keçmiş həyatının axarını saxladı. Xeyirxahlıq, öz işinə sevgi ilə dolu olan həyatın.

Həyatının yeni dövründə Üzeyir bəy Hacıbəyov onu bir neçə dəfə işə dəvət etdi - əvvəlcə musiqi alətləri mağazasına müdir, sonra muğamdan konservatoriyada dərs deməyə. Məşədi Süleyman yenə etiraz edərək dedi: «Mənim yerimə qardaşım Mansuru götür. O da muğamları yaxşı bilir».

Düz 35 il babam sovet hakimiyyəti illərində yaşadı. Bəli, az müddət deyil. O, bu qədər vaxta çox işlər görə bilərdi. Amma naşılıq, ziyalılara hörmətsizliklə rastlaşan babam qərara aldı ki, heç kəsdən asılı olmayan öz dünyasına qapılsın.



Məşədi Süleyman bəy Mansurov (1914)

Nəyə görə? Nəslimizdə Məşədi Süleyman bəy ən ağıllı, bir qədər çılğın, xeyirxah, səxavətli və qürurlu adam idi. Amma o heç vaxt özündən razı olmayıb. Özünə, nəslinə hörmət etməyi bacaran şəxsiyyət idi. Həmişə soyadı, kökü ilə fəxr edərdi. Məhz buna görə də sovet rejiminin ən ağır illərində belə, babam onlara xidmət etmədi, bütün təkliflərə rədd cavabı verdi. Öz yerinə həmişə kiçik qardaşı Mansuru göndərərdi. Məşədi Süleyman uşaqlıqdan Mansuru himayə edirdi. Onlar təkcə qardaş deyil, həm də yaxın dost idilər. Süleyman Mansurdan 15 yaş böyük idi. Bütün xarici səfərlərə onu özü ilə aparardı.



Məşədi Süleyman bəy Mansurov (Bakı, 1908)

«Qırmızı» rejim illərində babamın sevimli məşğuliyyəti atası Məşədi Məlik bəyin təməlini qoyduğu muğam məclislərini davam etdirməyi oldu. Həmin məclislərdən biri Məşədi Süleyman bəyin xatirələrində 1925-ci il tarixi ilə göstərilir. Burda o, ifa olunan muğamlar və gecədə iştirak edən musiqiçilər barədə yazıb.

Onu da qeyd edim ki, şəhərdəki evləri müsadirə olunduğuna görə, Məşədi Süleyman məclislərini Şüvəlandakı bağında keçirirərdi. O, müntəzəm olaraq oğulları Ağa Məlik, Ağa Bəhram və Ağa Nadirə tar çalmağı və muğamları öyrədirdi. Məşədi Süleyman özü də gözəl tar çalırdı. O bütün muğam məclislərində həm özü tar çalır, həm də xanəndələri müşayiət edərdi.



Bakı. İçərişəhər. XX əsrin əvvəli

Hələ Məşədi Məliyin məclislərində Məşədi Süleyman Sadıqcanla tar çalmaqda yarışardılar. Atam Bəhram Mansurov həmişə deyərdi: «Nə bilirəmsə atama borcluyam». Yeri gəlmişkən, Sadıqcandan sonra Azərbaycanda sol əli ilə tarda çalmağı bacaran yalnız Mansurovlar idi. Məşədi Süleyman və Mirzə Mansurdan sonra Bəhram Mansurov bu üsuldan ustalıqla istifadə edirdi. Bu gün həmin ənənəni Məşədi Süleymanın nəvəsi, qardaşım Elxan davam etdirir.



Məşədi Süleyman bəy oğullarıyla –
Ağa Bəhram (solda) və Ağa Məlik (1914)

Repressiya illərində Mansurovlara toxunmadılar. Bolşeviklərin elitası - Nəriman Nərimanov, Qəzənfər Musabəyov, Məşədi Əzizbəyov və başqaları bizim nəsli yaxşı tanıyırdılar. Mansurovlar istər çar dövründə, istər sovet rejimində və sonrakı vaxtlarda heç vaxt siyasətlə məşğul olmayıblar. Məşədi Süleyman «Balaxanskiy» küçəsindəki balaca emalatxanasında musiqi alətləri, əsasən tar təmir edərdi. O, dörd övladı ilə «Suraxanskiy» -111 (sonralar - «Pervomayskiy» -111), 15 kv. metr sahəsi olan mənzildə yaşayırdı. Məşədi Süleymanın dediyinə görə, 1920-ci ilə qədər onun ailəsi «Naberejnaya» küçəsindəki 59 nömrəli, 3-mərtəbəli, Qız qalasının yanındakı evdə yaşayırdılar. O vaxt çox az adamın evində telefon olardı. Babamın hələ o zamanlar şəxsi nömrəsi 18-65 olan telefonu var idi. Yeri gəlmişkən, həmin ev indi də elə tikildiyi yerdə durur.

Bolşeviklər hakimiyyətə gələndən sonra matros və əsgərlər evə soxularaq əmr edirlər ki, heç nəyə toxunmadan geyinib uşaqları da götürüb həmişəlik evi tərk etsinlər. Babamın dediyinə görə, evdə çox qiymətli şeylər qaldı. Dörd uşaqla küçədə evsiz-eşiksiz, pulsuz-parasız qalan Məşədi Süleyman Şüvəlandakı bağına yollandı. Bir neçə gündən sonra İnqilabi Komitənin sədri N.Nərimanovun qəbuluna düşərək baş verənlər barədə ona danışır. O, babama deyir ki, şəxsi mülkiyyət ləğv olunub. Ona görə də heç cür kömək edə bilməyəcək. Nərimanov Süleyman bəyə «Suraxanskiy» küçəsindəki 111 nömrəli evdə yaşamağı təklif etdi. Çarəsiz qalan Məşədi Süleyman bu təkliflə razılaşmalı olur. Taleyin bu kədərli oyununa nə deyəsən? Halbuki Nəriman Nərimanov həm inqilaba qədər, həm də inqilabdan sonra həftələrlə Mansurovların bağında qonaq olardı.

Məşədi Süleyman bəyin xatirələrindən:

– Biz N.Nərimanovla xeyli söhbət etdik. Ortancıl oğlum Bəhram bizə çay, yemək gətirdi. O vaxt onun 9 yaşı var idi. Səhərlər Nəriman öz faytonuyla işə yollanırdı. Bir dəfə o mənə dedi:

«Hər şeyə görə sağ olun, sizdən çox razıyam. Mənə hər cür şərait yaratdınız, minnətdaram sizə. Bura çox hündürdür, nəfəsim daralır. İncimə, ona görə istəyirəm Rza bəy Səlimxanovun bağına köçəm. Həm də ora işimə yaxındır».

Məşədi Süleymanın bağının daimi qonaqlar arasında Qəzənfər Musabəyov və Məşədi Əzizbəyov da var idi. Vaxtilə babam Məşədi Əzizbəyova pulla çox kömək etmişdi. Məşədi Əzizbəyovun əmisi neft maqnatı idi. Qardaşı oğlu inqilabi fəaliyyətlə məşğul olanda əmisi ona maliyyə köməyini saxladı.



Bakı. Şəhər Duması və Nikolayevsk küçəsi (1916)

İnqilabçı Əzizbəyov bir neçə dəfə Məşədi Süleymana pul yardımı üçün müraciət etmişdi. O vəsaiti üsyançı fəhlələrin ailələrinə acından ölməməsi üçün istəyirdi. Babam ona hər dəfə kömək edirdi. Amma bir şərt də qoymuşdu ki, pul mütləq öz təyinatı üzrə xərclənsin, yəni bu vəsait silah alınmasına və dövlət əleyhinə fəaliyyətə istifadə olunmasın. Lakin bu o demək deyildi ki, babam bolşeviklərə rəğbət bəsləyirdi. O öz xalqını, millətini sevirdi. Sadəcə istəmirdi ki, kimsə aclıq çəksin.

Mənə elə gəlir ki, əgər hər şeyin əksinə olacağını əvvəlcədən bilsəydi, başqa cür hərəkət edərdi. Bu bir daha onun ziyalılığını, alicənablığını sübut edir.



Eldar Mansurov və Kamil Kələntərov (Şüvəlan, 2006)

30-cu illərin ortalarında yerli hakimiyyətin qərarıyla Süleymanın 2 hektar sahəsi olan bağını əlindən alırlar. Bolşeviklər əvvəlcə burada MTS (Maşın Traktor Stansiyası), sonra müxtəlif kənd təşkilatları yaratdılar. 40-cı illərin sonunda «Əzizbəyovneft» birliyinin pioner düşərgəsinə çevirdilər. 1990-cı illərin əvvəllərində, Sovet İttifaqı dağılandan sonra, «yeni azərbaycanlılar»dan biri qanunsuz olaraq Mansurovların bağını xüsusi mülkiyyət kimi özəlləşdirdi.

2001-ci ildə kəndin ağsaqqalarından biri – 80 yaşlı Əbulfəz kişi, babamın bağına baxmaq üçün məni Şüvəlana çağırdı. Mən bu bağ haqqında atamın söhbətlərindən çox eşitmişəm. Şəkildə görmək ayrı, həyatda tam başqa. Nə isə, gəldim kəndə. Əbülfəz kişiylə qapını nə qədər döydüksə, açan olmadı, ancaq it hürürdü. Haçandan - haçana bir qadın qapını araladı. Məni görən kimi o dərhal qışqırdı: «Biz bağı satmırıq!». Onun nadanlığına mat qaldım. Əbülfəz kişi ona dedi: «Ayıb deyilmi, bəyəm bu adamı tanımırsız? O mülk almaq üçün yox, doğma yerlərini ziyarətə gəlib». Qadın dedi: «Tanıdım, bilirəm ki, bu Mansurovların bağıdır. Nə olsun ki… Bizim də çox şeylərimiz olub. Bolşeviklər bizdən də çox şeyləri alıblar. İndi bu bağ bizimdir və onu satmaq fikrimiz yoxdur!».

Ağsaqqal bir daha onu utandırdı: «Heç utanırsız? Bu malikanə onun babalarınındır. Bu ev 150 il Mansurovların mülkü olub. Şüvəlanda bunu hamı bilir. Siz isə onu hətta qapıdan içəri buraxmırsınız».

O qadına dedim: «Mən bura ürəyimin istəyi ilə gəlmişəm ki, bir daha babalarımı yad edim, onların yaşadığı yerləri gözlərimlə görüm. Düşünürəm ki, mənim bura gəlişimdən onların da ruhları şad olardı. Sonra da sağollaşıb gedərdim. Bu bağı almaq fikrim də yoxdur. Həm də hardandı məndə o qədər pul? Pul sizdədi».

Əbülfəz kişi sözümü kəsdi: «Qızım, sənin yerinə olsaydım, belə hörmətli adamı evə dəvət edərdim, mehribanlıq göstərib süfrə açardım. Axı, o sizdən heç nə tələb etmir». Qadının cavabı çox qısa oldu. «Onu bura buraxmaram, bağı da satmıram», - deyib qapını çırpdı.

Bu cür adamları görəndə Məşədi Süleymanın söhbətlərini xatırlayıram. Bir vaxtlar bolşeviklər onu həyasızcasına evindən çıxartmışdılar. O vaxtdan xeyli müddət keçsə də heç nə dəyişməyib. Bu gün hər şey əvvəlki ssenaridəki kimi davam edir. Yalnız zaman o zaman deyil. Artıq o vaxtdan 90 il ötüb.

O dövrün bir çox varlıları «qırmızı« rejim illərində səfalətə dözməyərək bir çoxları ürək ağrısı ilə dünyasını dəyişdi. Bəzisi də ağlını itirib dəli oldu. Babamın dəyanətinə və qüruruna heyran qalmışam. O bu əzablara necə tab gətirib? Bu dözülməz çətinliklərə baxmayaraq övladlarını böyütdü. Böyük oğlu Ağa Məlik 1926-cı ildə ağ ciyər iltihabından 16 yaşında vəfat edib. Məktəbdə ciyərlərinə soyuq dəymişdi. Oğlunu müalicə etdirməyə vəsaiti olmadığından Məşədi Süleymanın əlindən bir şey gəlmədi.

Məşədi Süleymanın təbiətində və xarakterində xeyirxahlıq və səxavət var idi. O, son tikəsini də dostu və yaxınları ilə bölərdi, onları darda qoymazdı.

Bəhram Mansurovun xatirələrindən:

– İkinci dünya müharibəsi illərində konsert briqadasının tərkibində tarzən kimi qospitallarda, yaralılar qarşısında çıxış edərdim. O vaxt kiçik qardaşım Nadir də cəbhədəydi. Atamla bir yerdə yaşayırdıq.

Bir dəfə qışda atama palto aldım. Bir neçə gündən sonra atam evə gələndə gördüm ki, soyuqdan titrəyir. Təəccüblə soruşdum: «Məşədi, bəs palton hanı?» O dedi: «Küçədə tanışıma rast gəldim, yazıq soyuqdan əsirdi. Mən də paltomu əynimdən çıxarıb ona verdim. Sən mənə təzəsini alarsan».

Atama həmişə xərclik verərdim. Amma Məşədi Süleyman evə hər zaman pulsuz qayıdardı. Soruşanda ki, pulu hara xərcləyib, cavab verərdi: «Yoxsullara payladım ki, uşaqlarına çörək alsınlar».



Bakı.
İçərişəhər
(1917)



Məşədi Süleyman bəy Mansurov (1952)

Əl tutmaq nəslimizin fərqli cəhətidir. Mansurovlar həmişə çətin anlarda yoxsullara yardım əlini uzadıblar. Məşədi Süleyman bizim nəslin ən görkəmli nümayəndələrindən biriydi.

Yazıçı Qılman İlkinin xatirələrindən:

– Məşədi Süleymanı yaşlı vaxtlarında görmüşəm. Mən onda cavan idim, texnikumda oxuyurdum və Mirzə Mansurun oğlu Ənvərlə dostluq edirdik. Tez-tez «Balaxanskiy» küçəsində gəzişirdik. Orada Məşədi Süleymanın musiqi alətləri təmir olunan kiçik emalatxanası vardı. Xalq arasında buraya «Kiçik Filarmoniya» da deyərdilələr. Hər gün bura keçmiş vaxtlardan Məşədi Süleymanı tanıyan məşhur xanəndələr və musiqiçilər, şəhərin ziyalıları gələrdilər. Mən şəxsən orada Hüseynqulu Sarabskini, Qurban Pirimovu, Hüseynağa Hacıbabəyovu və bir çox başqalarını görmüşəm. Onları gözümüzlə görmək bizimçün çox maraqlıydı. Buradan həmişə musiqi səsləri eşidilərdi. Mən və dostlarım onların oxumağının, ifalarının, ürəkdən gülməklərinin dəfələrlə şahidi olmuşuq. Yerin darısqal olmasına baxmayaraq, qonaqlar özünü rahat hiss edərdilər. Yadımdadır, Məşədi Süleyman dostların gəlişinə çox sevinər, onları çaya qonaq edərdi. Onun keçmişdə çəkdirdiyi şəkillərə baxanda məni heyrət bürüyür. İnsan zahirən necə də dəyişərmiş. Axı o, bambaşqa həyat yaşamışdı...



Məşədi Süleyman bəyin məzarı

Sovet hakimiyyəti Mansurovların əlindən hətta hər şeyi alandan sonra da Məşədi Süleyman ruhdan düşmədi. Ən başlıcası Məşədi Süleyman ləyaqətini, insanlığını qoruyub saxladı. Bu onun yaşadığı və tərbiyə aldığı keçmiş mühitdə, ətrafdakılara münasibətdə, musiqiyə ilahi məhəbbətdə zadəganlığını həmişə büruzə verərdi.

İndi İçərişəhərdə demək olar ki, Mansurovlar nəsli kimi ailələr qalmayıb. Bu xeyirxah nəsil Bakının, xüsusilə İçərişəhərin canlı tarixidir. Artıq 96 yaşım var, həyatda çox şey görmüşəm. İstəyirəm ki, İçərişəhərdə yaşayan ailələr Mansurovlara bənzəsin…» Məşədi Süleyman bəy Mansurov 1955-ci il aprelin 19-da, 83 yaşında ürək çatışmazlığı xəstəliyindən vəfat etmiş və Yasamaldakı Köhnə qəbristanlıqda dəfn olunmuşdur.

Mirzə Mansur bəy Məşədi Məlik bəy oğlu Mansurov (1887 – 1967)

Mirzə Mansur 1887-ci il yanvarın 5-də (köhnə tarixlə yanvarın 17-də) Bakıda anadan olmuşdur. Hələ uşaq vaxtından o, musiqinin vurğunu idi. Məşədi Süleymanın dedikləri: «Tez-tez ailəliklə musiqi ilə məşğul olardıq. Məşədi Məlik kamançada, anam Soltanbəyim qavalda, mənsə tarda ifa edərdik. Mansur yeniyetmə yaşına çatanda atam onun üçün «cürə saz» - qoltuq sazı sifariş etdi. Bundan sonra artıq dördümüz çalıb - oxuyardıq. İlk dəfə o, sazda «Kəsmə-şikəstə»ni öyrəndi. Məşədi Məlik oğlu Mansuru təhsil almaq üçün «Sınıq-qala» məscidindəki mədrəsəyə göndərdi. Bir dəfə Mansur dərsdə xətkeşi tar kimi sinəsinə basıb «Uzundərə» ifa etdiyinə görə molla Mirzə Xasiq onun ayaqlarını falaqqaya salaraq 20 çubuq vurdurub. Bu əhvalatdan sonra Məşədi Məlik oğlunu mədrəsədən götürüb rus-tatar məktəbinə qoydu. Mansur orada 4 il oxudu və sonra tarda çalmağa başladı. İfa etdiyi ilk muğamlar da «Rast» və «Şur» oldu. Mirzə Mansuru haqlı olaraq Azərbaycan muğam sənətinin tanınmış nəzəriyyəçisi kimi qəbul edilib. Peşəkar tarzən kimi o, Sadıqcan məktəbinin layiqli davamçılarından biri idi.

Mirzə Mansur hər zaman çalışırdı tələbələrinə muğam və ifaçılıq sənətinin sirlərini açsın, ümumiyyətlə, bildiklərini onlara öyrətsin. Sovet dövründə Konservatoriyada dərs deyən Mirzə Mansur muğamların tədris proqramının tərtibçilərindən biri idi. Təəssüf ki, bu proqram sonralar bəzi musiqiçilərin təşəbbüsü ilə sadələşdirildi. Amma buna baxmayaraq, neçə onilliklər keçəndən sonra bu proqramdan yenidən istifadə etməyə başladılar. 1920-ci ildən başlayaraq Mirzə Mansur ilk Azərbaycan Dövlət Türk Musiqi məktəbində dərs deməyə başlayır. 1926–46-cı illərdə Azərbaycan Dövlət Konservatoriyasında muğam kursunu aparır. Ü. Hacıbəyov Mirzə Mansuru istedadlı tarzən, müəllim, muğam sənətinin sirlərini incəliyinə qədər bilən ifaçı kimi qiymətləndirmişdir. Muğamla bağlı bir çox məsələlərdə o, yalnız Mirzə Mansurla məsləhətləşərdi. Belə ki, muğamların nota salınmasında Üzeyir bəy məhz Mirzə Mansur yaradıcılığına müraciət etdi. Bu da təsadüfi deyildi. Axı, məhz Mansurovlar klassik muğamların ifaçılıq ənənələrini qoruyub saxlamışdılar. 30-cu illərdə Üzeyir bəy tanınmış musiqi xa-



Mirzə Mansur Mansurov (1928)



Mirzə Mansur bəy Mansurov (1909)

dimi Xurşid xanım Qacara tapşırır ki, Mirzə Mansurun ifasında muğamlar nota salınsın. Xurşid xanım bu işi o vaxt hələ gənc bəstəkarlar Tofiq Quliyev və Zakir Bağırova həvalə etdi. Onların nota saldığı «Rast», «Zabul-Segah» və «Dügah» muğamları bu sahədə atılan ilk addımlar idi. O dövrün bəstəkarları muğamı incəliklərinə qədər öyrəndiklərinə görə məhz Mirzə Mansura minnətdar olmalıdırlar.

Musiqi sahəsindəki böyük xidmətlərinə görə, 1940-cı ildə Mirzə Mansur «Azərbaycanın əməkdar incəsənət xadimi» fəxri adına layiq görüldü.

Mirzə Mansur həm də tarın bütün incəliklərinə bələd idi. Onun tarın rekonstruksiyasına gətirdiyi yeniliklər ifaçıların işini xeyli asanlaşdırmışdı. Mirzə Mansurun yenilik verdiyi 4 tardan biri Ermitaj, ikincisi Luvr, üçüncüsünü isə İstanbul muzeylərində saxlanılır. Sonuncu - dördüncü tarı isə özündə saxlamışdı.

Mirzə Mansur 3 dəfə ailə qurmuşdu. Birinci həyat yoldaşı Asya xanım milliyyətcə osetin idi. Bu nigahdan olan oğlu Tələt İkinci dünya müharibəsində cəbhədə həlak oldu. İkinci həyat yoldaşı Bilqeyis xanım milyonçu Yusif Dadaşovun bacısı idi. Bu nigah Bilqeyis xanımın da ikinci ailə həyatı idi. Birinci evlilikdən onun Yaqub adlı oğlu vardı. Mirzə Mansurdan isə Ənvər adlı oğlu dünyaya gəldi. Ənvər 1941-ci ildə müharibənin ilk günlərində həlak oldu. Yeri gəlmişkən, keçmiş ekologiya naziri, 1939-cu ildə anadan olan Arif Mansurov Ənvərin oğludur. Üçüncü həyat yoldaşı Fatma xanımdan Mirzə Mansurun övladı olmadı.



Ənvər Mirzə Mansur oğlu Mansurov (1917–1941)

Mirzə Mansurun oğlu Ənvər də çox yaxşı tarzən idi. O zamanlar yeni ifaçılar nəsli meydana gəlmişdi. Onlar bir qədər klassikadan uzaqlaşır, üstünlüyü tarda texniki ifaçılığa verirdilər. Onu da qeydək ki, Azərbaycanın mahir tarzənlərindən biri Əhsən Dadaşov Ənvərin şagirdi idi.

1938-ci ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti dekadasında respublika nümayəndə heyətinin tərkibində Ənvər də var idi. Ümumittifaq miqyaslı tədbirdən sonra Ənvər Moskvada «Çahargah» və «Segah» muğamlarını «Noginski» fabrikasında vala yazdırır. Bir ildən sonra isə onu hərbi xidmətə çağırdılar. Əvvəlcə Fin müharibəsində iştirak edən Ənvər, İkinci dünya müharibəsinin ilk günlərində həlak oldu.

1939-cu ildə Ənvərin üzünü görmədiyi oğlu Arif dünyaya gəldi. Mansurovlar nəslinin ləyaqətli nümayəndəsi olan Arif hələ sağlığında böyük hörmət qazanmışdı. O, respublikanın tanınmış təsərrüfat rəhbərlərindən sayılırdı. Arif Mansurov Nazirlər Sovetinin aparatında işlədik-



Arif Ənvər oğlu Mansurov

dən sonra «Sənaye–Tikinti mexanikləşdirmə» trestinə və Tikinti Materialları Nazirliyinə rəhbərlik edib. Daha sonra isə Dövlət Ekologiya və Təbiəti Mühafizə Komitəsinin sədri vəzifəsində çalışıb.

Arif Mansurov müstəqil Azərbaycanda mədəniyyəti qiymətləndirən və ona xeyriyyəçilik edən ilk mesenat idi. Mansurovlar musiqi ilə yanaşı, poeziyaya da böyük qiymət verirdilər. Təsadüfi deyil ki, Mansurovların muğam məclislərində şairlər də iştirak edərdilər. Bu ənənəni davam etdirən Arif Mansurov keçmiş Qubernator bağında qoyulan qəzəlxan Əliağa Vahidin abidəsini şəhərə bəxş etdi. O zaman məhz onun ideya və təşəbbüsü ilə həmin abidə yaranmış və paytaxtın görməli guşələrinin birində layiqli yerini tutmuşdu. İndi həmin abidə İçərişəhərin meydanlarından birini bəzəyir. Bir xeyriyyəçi kimi, o həm də Hacı Zeynəlabdin Tağıyevin Mərdəkandakı qəbrinin yanında abidə ucaltdı.

2003-cü ildə Bakıda dünyasını dəyişən Arif Mansurov Yasamaldakı köhnə qəbristanlıqda dəfn olunub.

Arifin oğlu Ənvər 30 oktyabr 1969-cu ildə dünyaya gəldi. O, ilk təhsilini Bülbül adına musiqi məktəbində alıb. Hətta bir neçə musiqi parçalarının da müəllifidir. Ənvər Azərbaycan Texniki Universitetinin, İqtisad Universitetinin xarici iqtisadi əlaqələr fakültəsinin, eləcə də Rusiya Televiziya və Radioyayımı Akademiyasının məzunudur. Məşhur «Şən və hazırcavablar klubu»nun (KVN) üzvlərindən olan Ənvər bu komandanın tərkibində MDB üzrə çempion oldu. Hazırda Moskvada yaşayır. Ənvərin bacısı Fəridə isə 1973-cü ildə anadan olub, hazırda ABŞ-da yaşayır.

Yaradıcı ziyalılar arasında Arif Mansurov həmişə hörmət və diqqət mərkəzində olub. Onun hansı nəsildən olduğunu hamı bilirdi. O həmişə fəxr edirdi ki, Ənvərin və Mirzə Mansurun nəslindəndir.

Mirzə Mansur sözün əsl mənasında yüksək biliyə malik, təhsil görmüş ziyalı idi. Fars və ərəb dillərini mükəmməl bilirdi. Bu dillərdə yazılan klassiklərin – Sədi, Firdovsi, Ömər Xəyyam, Füzulinin əsərlərini orijinaldan oxuyardı. Mirzə Mansur eləcə də rus və fransız dillərində təmiz danışardı.



Ənvər Arif oğlu Mansurov

Mirzə Mansurun mənzilinin divarlarında xeyli sayda tarixi fotoşəkillər asılmışdı. Bu fotolardan biri daha çox yaddaşımda qalıb. Məşədi Süleyman bəyin, Mirzə Mansur bəyin, o vaxtın neft maqnatları Nobel və Rotşildlə birgə çəkdirdikləri foto indi də gözümün qabağındadır. Mansurovlarda belə nadir tarixi şəkillər az deyildi, onlardan çox şey öyrənmək olardı. Təəssüf ki, Mirzə Mansurun və həyat yoldaşı Fatma xanımın vəfatından sonra, nədənsə bu nadir şəkilləri və bir çox sənədləri, o cümlədən Mirzə Mansurun öz əlilə düzəltdiyi iki tarı da Fatma xanımın qardaşı oğlu yığışdırıb özü ilə apardı. Halbuki, bu nadir əşyaların daimi yeri muzey və arxivlər olmalı idi.



Mirzə Mansur tələbələri ilə (5 may 1924)

Məşədi Məlik bəyin vəfatından sonra böyük oğlu Məşədi Süleyman «Naberejnaya» küçəsindəki 59 №-li evə köçdü. Kiçik oğlu Mirzə Mansur isə Böyük Qala küçəsi № 5-də, atasının evində qaldı. Bolşeviklər hakimiyyətə gələndən sonra Mirzə Mansura öz mülklərində yalnız bir otaq saxladılar. Ömrünün sonuna kimi də elə həmin o evdə yaşadı.

İllər keçdikdən sonra da Mirzə Mansurun adı xatirələrdə qaldı. 80-ci illərdə yaşadığı evə xatirə lövhəsi vuruldu. 90-cı illərdə isə «Tverskaya» küçəsinə Mirzə Mansurun adı verildi.

Mirzə Mansur o vaxtlar məşhur tarzən Mirzə Fərəc Rzayevdən dərs almışdı. Mirzə Fərəc Mansurovlar ailəsinin yaxın dostu idi. O, şagirdlərindən dərsə görə 25 qızıl rubl alırdı. Amma Mirzə Mansuru pulsuz öyrədirdi. Kamil Kələntərovun dediyinə görə Mirzə Fərəc tar çalarkən kürəyini şagirdə tərəf çevirirdi ki, tələbələr barmaqlarını hansı simə qoyduğunu görməsinlər. O deyərdi: «Qoy yadda saxlayıb ifa etsinlər».



Mirzə Fərəc Rzayev (1915)

Mirzə Fərəc evinin birinci mərtəbəsində bir nəfər qoyub tapşırmışdı: «Görsən ki, Məşədi Süleymanla Mirzə Mansur gəlir, mənə bildir ki, çalmayım. Onlarda elə duyum var ki, o saat götürürlər».

Mirzə Fərəc biliyini özgələrinə öyrətməkdə qısqanc idi. Tanınmış bəstəkar Ağabacı Rzayeva Mirzə Fərəcin nəvəsi idi.

Eyni familiyadan olan Mansurovlar da az deyil. Onların bəziləri çox vaxt özlərini nəslimizin nümayəndəsi kimi təqdim edir. Bunun şahidi olmuşam. Bir gün taksiyə mindim və gözüm şüşəyə taxılmış sürücünün vəsiqəsinə dəydi. Gördüm ki, orada «Mansurov» yazılıb. Soruşanda ki, «hansı Mansurovlardansan», dedi ki, «Mirzə Mansurun qohumuyam». O, hündürboylu sarıbəniz bir adam idi, Mən nəslimizin bir çox tanınmış adamlarının adını çəkdim. Amma o heç birini tanımadı, dedi ki, «hər şeyi nənəm bilirdi».

Bu görüş barədə bibim Sara xanıma danışdım. O mənə dedi ki, «əvvəllər Mirzə Mansurun evində uzun müddət bir xidmətçi qadın işləyib. Sən gördüyün oğlan da onun nəvəsidir. Mansurovlar təmiz və səmimi nəsil olduğuna görə, bu qadın sovet dövründə pasportlar dəyişən zaman Mir-



Mirzə Mansur Mansurov (1967)



Mirzə Mansur Mansurov (1960)

zə Mansurdan xahiş edir ki, icazə versin «Mansurov» familiyasını öz soyadı kimi yazdırsın. Alicənab olduğuna görə, Mirzə Mansur da buna etiraz etmir».

Mirzə Mansurun tarda ifa etdiyi iki maqnitofon yazısı qalıb: «Xocəstə» və «Mahur-hindi» muğamları. 1967-ci ildə Mirzə Mansur bizim Hüsü Hacıyev küçəsindəki (keçmiş «Bazarnaya», indiki Azərbaycan prospekti) evimizə gəldi. Qolu sınandan sonra ilk dəfə idi ki, bizə gəlirdi. Atamla bir xeyli söhbət etdilər. Sonra atam ona dedi: «Tarı götürüb bir şey çal, maqnitofona yazaq. Qoy həmişəlik qalsın».

Mirzə Mansur dedi ki, «qolum sınandan sonra hələ əlimə tar almamışam». Atam təkid elədi ki, «çal», məni də çağırdı ki, onun çalğısını lentə yazım. İndi görürəm ki, atam haqlı imiş. Bu lent yazısı Mirzə Mansurun 80 illik ömrü ərzində yeganə canlı ifası oldu. Mənə isə bu ifa ona görə əzizdir ki, onu özüm lentə almışam.

Bu, Mirzə Mansurun bizim evə son gəlişiydi. Təxminən ay yarım sonra o, dünyasını dəyişdi. Mirzə Mansur 1967-ci il iyunun 30-da, 80 yaşında vəfat etdi və Yasamaldakı köhnə qəbristanlıqda dəfn olundu.



Böyük Qala-5 küçəsində Mirzə Mansur Mansurovun evinin qarşısında vurulmuş xatirə lövhəsi

Anaxanım Məşədi Məlik bəy qızı Mansurova (1881 – 1944)

Anaxanım Məşədi Məlikməmməd bəy qızı Mansurova 1881-ci ildə Bakıda doğulub. Məşədi Məlik və Soltanbəyim Mirzə baxış bəy qızı Ələkbərovanın ailəsində Anaxanım ikinci qız idi. Böyük bacısı Şəhrəbanu xanım 1893-cü il oktyabrın 29-da xəstələnərək 14 yaşında vəfat etmişdi. Anaxanım 1895-ci il dekabrın 16-da, 15 yaşında İranın Bakıdakı vergi məmuru Əbdulmütəllib Kərbəlayi Əbdülbağı oğlu Kələntərovla ailə qurub.



Anaxanım Məşədi Məlik bəy qızı Mansurova

Əbdülmütəllibin babası Hacı Səlim Bakının ən varlı şəxslərindən idi. Onun 7 gəmisi vardı. Bir dəfə Rusiyanın poçt gəmisi İrana gedərkən qəzaya uğrayır. Yaxınlıqda olan Hacı Səlimin gəmilərindən biri ona köməyə tələsir. Batan gəmini yedəyinə alıb sağ-salamat Bakı buxtasına çatdırır. Bu barədə Rusiyaya xəbər çatır, Hacı Səlimi Peterburqa dəvət edirlər. Çar onu qəbul edir, Georgi xaçı ilə mükafatlandırır və samur dərisindən tikilmiş şuba bağışlayır və Hacı Səlimə deyir ki, «səni Peterburqda görməyə həmişə şadıq».

Anaxanımın Keşlədə böyük torpaq sahəsi vardı. O, bu sahəni «Nobel qardaşları şirkətinə» icarəyə vermiş və hər il onlardan 400 qızıl rubl alırdı. Mansurovların Şüvəlandakı bağı Məşədi Məliyin vəfatından sonra 3 qardaş və bacı arasında 4 hissəyə bölündü. Məşədi Süleyman və Mirzə Mansur tez-tez bacıları Anaxanımın bağına qonaq gedərdilər.



Kamil Kələntərov (2006)

Anaxanımın nəvəsi Kamil Ağasəlim oğlu Kələntərovun dediklərindən:

– Anam danışardı ki, Anaxanım nənəm tez-tez qardaşlarını bağa qutab yeməyə çağırardı. Bir dəfə Məşədi Süleyman və Mirzə Mansur həyətdəki ağacın altında oturmuşdu. Anam böyük qabda qutab gətirərkən gördü ki, qardaşlar qutabın qırağını kəsib başqa qaba yığıblar. Sən demə, onlar bu üsulla nə qədər qutab yediklərini sayırdılar...

Hacı Səlimin İçərişəhərdə karvansaranın yanında ikimərtəbəli evi var idi. Əbdülmütəllib və Anaxanım 1932-ci ilə qədər bolşeviklər evi müsadirə edənə kimi orda yaşamışlar. 1965-ci ildə karvansaranı restoran etmək qərara alınır. Ona görə Hacı Səlimin evini uçurdub onun yerində restoran üçün mətbəx tikirlər. Evi uçuranda fəhlələr yerə basdırılmış 8 pud gümüş pul tapırlar. Vaxtilə Hacı Səlim bu pulu «qara gün» üçün saxlayırmış. O zaman bütün varlılar tikdirdikləri mülklərin altında pul basdırardılar. Fikirləşərdilər ki, birdən zəlzələ və yaxud yanğın ola bilər.



Bakı. Sinematoqraf «Mikado»

Tapılmış pulun bir hissəsini fəhlələr yığdı, qalan hissəsini muzeyə verdilər. 1932-ci ildə Əbdülmütəllib ailəsi ilə küçədə qalanda tanış faytonçular ona kömək etdilər. Çəmbərəkənddəki at tövləsinin birini ona verdilər. Əbdülmütəllibin oğulları tövləni təmir edib mənzilə çevirdilər və 1965-ci ilə kimi burada yaşadılar.

Sovet dövründə Bakının keçmiş elitası «Qırmızı rejim»dən ehtiyatlanaraq, bəzən də qorxudan köhnə fotoşəkilləri, sənədləri məhv edir, şəxsi mülkləri və evləri barədə danışmaqdan çəkinirdilər ki, ali təbəqəyə mənsub olduqlarından xəbər tutmasınlar. Qorxurdular ki, sabah onları «kulak» adlandırıb sürgünə göndərərlər, övladları institutda təhsil ala bilməz, onlara burjuy «boyunduruğu» yapışdırıb sürgünə göndərərlər…



Bakı. İçərişəhər

Əbdülmütəllibin və Anaxanımın 4 oğlu: Ağasəlim (1897) Ağakərim (1903), Əbdülbağı (1907), Ağacavad (1910) və Şəhrəbanu (1920) adlı qızı var idi.

Anaxanım Məşədi Məlik qızı Mansurova (Kələntərova) 1944-cü ilin martında, 63 yaşında vəfat etmişdir.

Bəhram Məşədi Süleyman bəy oğlu Mansurov (1911 – 1985)

Mansurovlar nəslinin musiqi ənənəsini ləyaqətlə davam etdirən istedadlı tarzən, Azərbaycanın xalq artisti Bəhram Məşədi Süleyman oğlu Mansurov 1911-ci il fevralın 12-də İçərişəhərdə doğulmuşdur. Bəhramın gələcəyini tale özü təyin etmişdi. Axı o, musiqini sevən, onu dərindən və qədrini bilən bir ailədə dünyaya gəlmişdi. Tar Mansurovlar ailəsinin bir növ simvoluna çevrilmişdi. Bu alətdə hələ Bəhramın babası, böyük muğam bilicisi, Bakıda klassik muğam məclislərinin əsasını qoyan Məşədi Məlik bəy ifa etmişdi.



Bəhram Məşədi Süleyman bəy oğlu Mansurov (1971)

Məşədi Məlik bəy Mansurov xalq musiqisini Abşeronda təbliğ edən ilk şəxs olmuşdu. Bəhramın əmisi - Mirzə Mansurun da ifaçılıq sənətinin inkişafında böyük xidmətləri olmuşdu. O, uzun müddət Konservatoriyada muğamdan dərs demişdi. Bəhram Mansurovun atası Məşədi Süleyman bəy də mahir tarzən idi. Muğamın incəliklərinə bələd olan babam onu oğullarına da sevdirmişdi. Bəhram məhz belə bir mühitdə böyüyüb boya-başa çatmışdır.

Bəzən atası evdə olmayanda balaca Bəhram onun tarında çalmağı öyrənərdi. Məşədi Süleyman evə qayıdanda görərdi ki, tar kökdən düşüb, o saat bilərdi ki, bu Bəhramın işidir. Həmişə oğluna deyərdi: «Tar çalmağı birdən başlayacaqsan, çünki muğam sənin qanında, qulağında, ruhundadır».

Atamın dediklərinə görə, «Məşədi Məlik bəyin XIX əsrin ikinci yarısında Tiflisdə düzəldilmiş böyük çanaqlı bir tarı vardı. Sonralar Məşədi Süleyman bu tarı təkmilləşdirib simlərin sayını 22-yə çatdırır. Atam bu tarı az çalardı və ona görə də o, çox vaxt divardan asılı qalardı. Bir dəfə tarı götürmək istəyəndə əlimdən düşüb qırıldı. Bunu görən atam çox qəzəbləndi, məni danladı:

«Tarı niyə sındırdın. Axı, o mənə atamdan qalan bir xatirə idi».

Bir neçə onilliklər keçəndən sonra eyni hadisə mənim də başıma gəldi. Uşaq ikən atam evdə olmayanda mən həmin bu tarın üstündəki sədəfləri qoparıb çıxarırdım. Təbii ki, o vax kiçik olduğumdan anlamırdım ki, bu adi tar deyil – nəslimizin yadigarıdır. Tarix təkrar olundu. Vaxtilə həmin bu tara görə babam atamı danladı. İndi isə eynilə atam məni danladı...

İlk təhsilini Bəhram mədrəsədə, sonra isə rus-tatar məktəbində aldı. Azərbaycan sovetləşəndən sonra, 1921-ci ildə 10 yaşlı Bəhram böyük qardaşı Ağa Məliklə 10 №-li birinci dərəcəli məktəbə qəbul olunurlar.



Bəhram Məşədi Süleyman oğlu Mansurov (1912)

Bəhram Mansurovun xatirələrindən:

– Qardaşım Ağa Məlik tarda çalmağı çox sevərdi. Hər gün atamın tarlarından birini götürüb muğamları öyrənərdi. Elə ilk öyrəndiyi muğam da «Şur» və «Səbayi-şəms» zərb muğamı idi. O, tarı və muğamları o qədər sevirdi ki, yaşasaydı, bəlkə də gələcəkdə yaxşı tarzən olardı. Amma vaxtsız ölüm onu arzularına çatmağa aman vermədi.



Ağa Məlik və Bəhram Mansurov (1912)

Bizim ailədə hamı, hətta bacım Sara da tar çalardı. Məndən 5 yaş kiçik olan qardaşım Nadir də yaxşı tarzən idi. Müharibəyə qədər «Azkonsert» Birliyinin solisti olan Nadiri 1940-cı ildə orduya çağırdılar. İkinci Dünya müharibəsindən sonra o, yenə tarı əlinə alıb Filarmoniyanın və «Azkonsert»in solisti olur.

Uzun illər Nadir respublikanı qastrol səfərlərində qarış-qarış gəzib, xanəndələri öz tarı ilə müşayiət etmişdir. O, 1972-ci ildə vəfat edir. Məzarı atası ilə yanaşı Yasamaldakı köhnə qəbristanlıqdadır.

Bəhram məktəb konsertlərində tez-tez çıxış edərdi. İfaçılıq baxımından mürəkkəb olan «Rast» «Çahargah», «Bayatı-Şiraz», «Qatar» kimi muğamları yaşına görə yüksək səviyyədə solo ifa edərdi. O vaxt onun 12-13 yaşı vardı. Yarım ilini bağda, yarım ilini isə şəhərdə yaşayan Bəhram tez-



Nadir Məşədi Süleyman bəy oğlu Mansurov

tez məktəb dəyişirdi. 1925-ci ildə orta məktəbi bitirəndən sonra o, bir müddət xeyli təhsil ocaqlarını dəyişməli olur - iqtisad, əczaçılıq, inşaat texnikumları, fəhlələr üçün nümunəvi məktəb. 1927-ci ildə Bəhram Mehdi bəy Hacınskinin direktor olduğu 33 №-li məktəbdə təhsilini davam etdirir. Burda o, Abdulla Qarayevin yaratdığı ansamblla məktəbin böyük zalında məşq edir. Yeri gəlmişkən, onu da qeyd edim ki, Abdullanın özü Asəf Zeynallı ilə birgə musiqi texnikumunda Mirzə Mansurdan muğam dərsi almışdılar.

Bəhramın oxuduğu son təhsil ocağı Pedaqoji texnikum oldu. 1929-cu ildə texnikumun tələbələri Məhərrəm Haşımov, Ağasəf Bakıxanov, Süleyman Məmmədovla birgə hamiliyə götürdükləri Salyan kazarmasında tez-tez konsert verərdilər.

1929-30-cu illərdə Zülfüqar Hacıbəyov və Qriqor Mədətov ilk dəfə olaraq «Azkonsert» Birliyi yaradırlar və Bəhramı onun nəzdində olan orkestrə dəvət edirlər. Orkestrin tərkibində görkəmli musiqiçilərdən Cabbar Qaryağdıoğlu, Xan Şuşinski, Hüseynağa Hacıbabəyov, Qurban Pirimov və başqaları çıxış edirdilər. Orkestrdə uzun müddət işləyən Bəhram təşviqat qrupunun tərkibində Azərbaycanın rayonlarında, eləcə də Sovet İttifaqının bir neçə respublikalarında konsertlərlə çıxış etdi.



Bəhram Mansurov (1920)

1931-ci ildə Üzeyir Hacıbəyov və Müslüm Maqomayevin təşəbbüsü ilə xalq musiqi alətlərinin ilk notlu orkestri yarandı. Müslüm Maqomayev orkestr üçün gənc ifaçılar axtarırdı. O, konsertlərin birində Bəhramın ifasını eşidəndən sonra gənc tarzəni bu kollektivə dəvət edir. Yeni yaranmış orkestrin tərkibi 24 nəfərdən ibarət idi. Bir müddət keçəndən sonra Müslüm Maqomayevin təklifi ilə Bəhramı Radio Komitəsində birinci dərəcəli tar ifaçısı kimi işə götürürlər.

Burada o həm solist, həm də müşayiətçi kimi çıxış edir. Bəhramın üçlüyü kamançaçı Qılman Salahov və qavalçalan Xalıq Babayevdən ibarət idi. Bu üçlük o vaxtlar «Rote–Fane» (indiki Nizami parkı) parkında, Müdafiə evində (indiki Filarmoniya) və bir çox sənaye müəssisələrində tez-tez təşkil olunan açıq konsertlərdə çıxış edərdi. Bəzən hətta bu konsertləri radio ilə də efirə verərdilər.



İlk notlu orkestr. Yuxarı cərgədə soldan dördüncü Bəhram Mansurov (1931)

1930-35-ci illərdə Bakının musiqi həyatı çox rəngarəng idi. Şərq etnoqrafik musiqisindən ibarət ədəbi–bədii gecələr, konsertlər təşkil olunardı. Bu konsertlərə Özbəkistan, Türkmənistan və başqa respublikalardan da ifaçılar dəvət olunardı.

Bəhram Mansurov yaradıcılığının böyük bir hissəsi Opera və Balet teatrı ilə bağlıdır. İlk dəfə Bəhram «Leyli və Məcnun» operasına 1922-ci ildə baxdı. Bu tamaşaya onu atası Məşədi Süleyman aparmışdı. Bəhram o tamaşanı həmişə xatırlayırdı. Sona Hacıyeva və Hüseynqulu Sarabskinin təsirli oyunu, Qurban Pirimovun tarının ecazkar sədası gənc Bəhramı valeh etmişdi. Bu tamaşadan sonra onun ürəyində bir arzu yaranır: «Mən bu teatrda işləyəcəyəm!».

Tale belə gətirdi ki, 1932-ci ildə bəstəkar M. Maqomayev gənc Bəhramı Opera və Balet Teatrına solist-müşayiətçi vəzifəsinə dəvət edir. Müslüm Maqomayev o vaxt Opera və Balet Teatrının bədii rəhbəri və dirijoru idi. Həmin il Bəhramın uşaqlıq arzuları həyata keçdi. Artıq məşhur Hüseynqulu Sarabskini Məcnun rolunda o özü müşayiət edirdi.

Bəhram Mansurov 54 il - ömrünün sonuna qədər, muğam operalarını müşayiət etdi. Teatr onun üçün sözün əsl mənasında doğma evi kimi əziz idi. Bəhram çox vaxtını bu incəsənət məbədinə həsr edir, neçə nəsil müğənniləri rollara hazırlayırdı. Onun fantastik musiqi yaddaşı tamaşadakı bütün mizanları dəqiqliklə müşayiət etməyə imkan verirdi. Belə ki, «Leyli və Məcnun»



Bəhram Mansurov (1935)

operasında muğam hissələri Üzeyir Hacıbəyovun ciddi nəzarəti altında ifa olunurdu.

Rejissorun verdiyi quruluşda «Şur» muğamının «Sarənc» şöbəsi 3 dəfə təkrar olunurdu. Rejissor bu halı belə izah edirdi. Mizan dəyişən zaman aktyorlar səhnədə hərəkət edirlər. «Sarənc» qısa olduğundan rejissor həmin şöbənin 3 dəfə təkrarına yol verir.

Bu məsələ Bəhramı narahat edir: «Nə üçün «Sarənc» təkrar olunmalıdır? Məgər digər şöbələrdən istifadə etmək olmazdı? Axı, rus və Avrora operalarında buna yol verilmir». Bəhram fikrini tamaşanın rejissoru Soltan Dadaşova danışır, o da deyilənlərlə razılaşır. Təkrarçılıq olmasın deyə Bəhram «Sarənc»ə qədər «Mirzə Hüseyn segahı»nın «Manəndi-müxalif» hissəsini çalır və bundan sonra «Sarənc»ə gəlib çıxır. Bununla da təkrarçılıq aradan qaldırılır

Yeniliyi görən Üzeyir bəy maraqlandı ki, bu orijinal fikir kimin ağlına gəlib. Rejissor dedi ki, bunu Bəhram fikirləşib. Üzeyir bəy Bəhramı yanına çağırıb deyir: «Çox sağ ol, xoşum gəldi. Mən sənin ideyanı qiymətləndirməyə bilmərəm». Üzeyir bəy Bəhrama 20 manat verib deyir: «Bufetdən nə istəyirsən al, etdiyin yeniliyin şirinliyi olsun». Sonra üzünü rejissora tutub dedi: «Soltan, o biri tarzənlərə de ki, bundan sonra bu hissəni Bəhram kimi ifa etsinlər».

1934-35-ci illərdə Bakıdakı Azərbaycan Hərbi Diviziyasının siyasi şöbəsinin rəisi Məmmədəli Əliyev Bəhram Mansurova hərbi özfəaliyyət ansamblına rəhbərlik etməyi təklif edir. O, 1936-cı ildə Tbilisidə keçiriləcək hərbi orkestrlərin Zaqafqaziya musiqi olimpiadasında iştirak etmək üçün kollektivi hazırlamağa başlayır. Bəhramın rəhbərlik etdiyi ansambl Gürcüstanın paytaxtında uğurla çıxış edib fəxri fərmanlarla Vətənə qayıdır. Bu uğura görə Azərbaycan diviziyasının rəhbərliyi tərəfindən Bəhram Mansurova təşəkkür elan edildi.

1938-ci ildə Moskvada keçirilən Azərbaycan incəsənəti ongünlüyündə paytaxt tamaşaçıları da Bəhram Mansurovun istedadının şahidi oldular. O, konsertlərin birində «Mahur-hindi» muğamını solo, digər konsertdə isə «Əraq» muğamını ifa edən Əlövsət Sadıqovu üçlüyün tərkibində müşayiət etdi.

Bəhram Mansurov müharibəyə qədərki konsert fəaliyyətini uğurla keçirdi. 1939-cu il noyabrın 17-də qəzetlərdə yazılmışdı ki, Bülbülün rəhbərliyi ilə mədəniyyət xadimləri Samur - Dəvəçi kanalının inşaatçıları qarşısında çıxış etmişlər. 3 gün ərzində artistlər 15 min kolxozçu və inşaatçılar qarşısında 30-dan çox konsert vermişlər.

1941-ci ildə Moskvada estrada artistlərinin festivalı keçirilirdi. Azərbaycandan dəvət olunan konsert qrupunun tərkibində müğənnilər və aktyorlarla yanaşı Bəhram Mansurov da var idi.

Bəhram Mansurovun xatirələrindən:

– İyunun 21-də bizim qatar Moskvaya yola düşdü. Səhər Rostova çatanda dəhşətli xəbər eşitdik: «Müharibə başlayıb!». Bir neçə gündən sonra Moskvaya çatdıq. Hərbi vəziyyətlə əlaqədar Bakıya qayıtdıq. Bir çox mədəniyyət işçiləri, o cümlədən mən də «bron» alıb, xüsusi təşviqat qruplarının sərəncamına göndərildim. İncəsənət adamları cəbhə xəttində döyüşçülər, arxada isə qospitalda yaralılar qarşısında konsertlərlə çıxış edirdilər.

1941-ci ildə M.F.Axundov adına teatrın böyük bir qrupunu İrana ezamiyyətə göndərdilər. Qonşu ölkədə onlar opera tamaşaları, muğam konsertləri ilə çıxış edirdilər. Bəhram Mansurov həm solist, həm də xalq çalğı alətləri ansamblının üzvü kimi qrupa daxil idi. Burada o, «Leyli və Məcnun», «Əsli və Kərəm», «Şah İsmayıl» operalarında oxuyanları müşayiət edirdi.

İran musiqisevərləri Bəhramın ifası ilə yalnız radio vasitəsilə tanış idilər. Bu qastrol zamanı isə onun ifaçılıq istedadını əyani surətdə görüb, yüksək qiymətləndirdilər.

1941-ci ilin oktyabrında Bakıya qayıdandan sonra muğam dərsini tədris etmək üçün Bəhram Mansurovu Bakı Musiqi Texnikumuna dəvət edirlər. Bu, vaxtdan pedaqoji fəaliyyətini başlayan Bəhram ömrünün sonuna qədər həmin texnikumda dərs demişdir. Yeri gəlmişkən, Bəhram Mansurov muğamın tədrisi metodikasında atası Məşədi Süleymanın və əmisi Mirzə Mansurun məsləhətlərinə istinad edərək özünün orijinal tədris metodunu yaratdı. O, tələbələrinə muğamın yaranma tarixindən və adları barədə geniş izahat verirdi. Beləliklə, tələbələrin yaddaşında muğamın tam obrazını yaradırdı.



Bəhram Mansurov Azərbaycan nümayəndə heyətinin tərkibində İranda qastrol səfərində (Təbriz, 1 noyabr 1944-cü il)



Bəhram Mansurov (1941)

1942-ci il oktyabrın 31-də 47-ci ordunun hərbi şurasının üzvü Əziz Əliyev onu yanına çağırır. O zamanlar Azərbaycan Ordusunun qərargahı Qubada yerləşirdi. Bəhram və digər musiqiçilər bir ay ərzində buradan 416-cı Taqanroq diviziyasına yollanan döyüşçülər qarşısında çıxış etdilər. Müharibənin ən ağır dövründə, 1941–43-cü illərdə yaşı 80-ni ötmüş məşhur xanəndə Cabbar Qaryağdıoğlu ilə Bəhramın üçlüyü hərbi hissələr və qospitallarda çoxlu konsertlər vermişdilər. 1941-ci ildə musiqi briqadasının tərkibində Bəhram 3 ay ərzində Kislovodsk, Jeleznovodsk, Yessentuki, Minvod və Lermontovka qospitallarında yaralı əsgərlər qarşısında müntəzəm çıxışlar etdi. Müharibə illərində Bəhram Mansurov bütün Azərbaycanı gəzib konsertlər verirdi.

1944-cü ildə Bəhram Mansurov yenə də İrana ezam olundu. Bu dəfə o, Tehran, Təbriz, Qəzvin, Rəşt, Ənzəli, Ərdəbil, Nəmin Sərab, Mərənd, Xoy, Mani, Şapur, Rezayi, Üşno, Mehabad, Miyanə, Marağa, Azərşəhr və digər şəhərlərdə sovet əsgərləri və yerli camaat qarşısında konsertlərlə çıxış etdi.

– Tehranın «Laləzar» xiyabanında Mirseyid Mirbabayevə rast gəldim. Əvvəllər atam mənə danışardı ki, Mirseyid çox məşhur xanəndə idi, əslən də bakılıydı. Vaxtilə onun səsini bülbülün oxumağı ilə müqayisə edərdilər. Mirseyid artıq məşhur xanəndə olandan sonra, Bakı milyonçularından biri ona torpaq sahəsi bağışlayır və buradan neft çıxır. Beləliklə, Mirseyid milyonçu olur, oxumaqdan əl çəkir. Artıq xanəndəliyi özünə yaraşdırmayan Mirseyid çoxsaylı vallarını bir - bir alıb məhv etməyə başlayır, sonra isə həmişəlik xaricə gedir.

O bizim konsertlərə gələndə ona deyiblər ki, Məşədi Süleymanın oğlu burdadır, tar çalır. Mən onunla görüşəndə artıq çox qocalmışdı. O atam haqqında, Bakı barəsində sorğu-sual edəndə gözü yaşardı. Söhbətimiz uzun çəkmədi. Bir neçə ildən sonra eşitdim ki, Mirseyid vəfat edib.

Nəhayət, müharibə sona yetdi, qələbə günü yetişdi. Bəhram Mansurov müharibə illərində çəkdiyi zəhmət layiqincə qiymətləndirildi. O, bir çox dövlət mükafatlarına - «Qafqazın müdafiəsinə görə», «Böyük Vətən müharibəsi illərində fədakar əməyinə görə» medalları ilə, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanları ilə təltif olundu. Bir musiqi xadimi kimi, Bəhram hələ 30-cu illərdən başlayaraq sovet ordusunun keçirdiyi bütün tədbirlərdə fəal iştirak edirdi. O, gərgin və fədakar əməyinə görə «SSRİ Hərbi qüvvələrinə mədəni hamilik əlaçısı» döş nişanı, eləcə də Mədəniyyət İşçiləri Mərkəzi Həmkarlar Komitəsinin fəxri fərmanları ilə dəfələrlə mükafatlandırılmışdı.



Sara Qədimova, Qurban Pirimov, Bəhram Mansurov, Əbülfət Əliyev, Qulu Əsgərov Opera və Balet Teatrının yubileyində (25 aprel 1958-ci il)

Bəhram 50-ci illərin sonu– 60-cı illərin əvvəllərində Opera və Balet Teatrının tərkibində Aşqabad, Naxçıvan, Yerevanda qastrol səfərlərində olub. O, 60-cı illərdə solistlərdən ibarət ansambl yaradır. Peşəkarlardan ibarət bu kollektivin fərqli xüsusiyyəti onda idi ki, ayrı-ayrılıqda solist olan mahir ifaçılar bu ansamlda bir vəhdət təşkil edirdi.

1971-ci il aprelin 12-də Opera və Balet Teatrı Bəhram Mansurovun yubileyini - anadan olmasının 60, yaradıcılıq fəaliyyətinin 40 illiyini qeyd etdi. Həmin gecə yubilyarın müşayiəti ilə müğənnilər bütün muğam operalarından parçalar ifa etdilər. Yubiley geçəsi səmimi çıxışlar və rəngarəng konsert proqramı ilə yadda qaldı.

İlk dəfə YUNESKO-da Azərbaycan muğamlarını təmsil edən musiqiçi məhz Bəhram Mansurov olmuşdur. 1967-ci ildə Bakıya gələn bu nüfuzlu beynəlxalq təşkilatın rəsmi nümayəndələri Alen Daniyelu və Jak Klark bir çox musiqiçilərin ifasında Azərbaycan muğamlarını dinləmiş və yalnız Bəhram Mansurovun çalğısını bəyənmişlər. O vaxtdan YUNESKO-nun rəsmiləri Bəhram Mansurovla sıx əməkdaşlıq etməyə başlayırlar. Bu təşkilatın xətti ilə Bəhramın ifasında 2 val buraxılır.

Birincisi 1971-ci ildə «Baren Reyter» firması, ikincisi isə 1975-ci ildə «Filips» şirkəti tərəfindən istehsal olunmuşdu. Bu qrammofon valları işıq üzü görəndən sonra dünyanın Azərbaycan muğamları haqqında daha çox məlumatı oldu.

М.Ф. Ахундов адына Ленин орденли Азәрбајчан Дөвләт академик

ОПЕРА вә БАЛЕТ ТЕАТРЫ





Базар ертәси **12** апрел

Азәрбајчан ССР әмәкдар артисти, тарзән

БӘҺРАМ МАНСУРОВУН ЈАРАДЫЧЫЛЫГ КЕЧӘСИ

I РӘСМИ ҺИССӘ

Мә`рузәчи - Азәрбајчан ССР әмәкдар инчәсәнәт хадими професор **Әшрәф АББАСОВ**

II БӘДИИ ҺИССӘ

Програмда:

Үзејир Һачыбәјовун *"ЈЕЛЛИ вә МӨЧҮНҮН"*, *"ӨСЛИ вә КӘРӨМ"*, Мүслүм Магомајевин *"ШАҺ ИСМАЈЫЛ"*, Зүлфүгар Һачыбәјовун *"АШЫГ ГӘРИБ"* операларындан сәһнәләр.

ИШТИРАК ЕДИРЛӘР:

Азәрбајчан ССР әмәкдар артистләри

Рүбабә МУРАДОВА — **Күлхар ҺӘСӘНОВА**

Нахчыван МССР әмәкдар артистләри

Симузәр ҺӘТӘМОВА — **Һүснү ГУБАДОВ**

Солистләр.

Нәзакәт МӘММӘДОВА	**Рәсмијјә ГУЛИЈЕВА**	**Мајис САЛМАНОВ**
Ариф БАБАЈЕВ	**Бакир ҺАШЫМОВ**	**Әли МЕҺДИЈЕВ**
Баба МИРЗӘЈЕВ	**Гулу ӘСКӘРОВ**	**Камил ҺҮСЕЈНОВ**

Соло тарда ифа едир - **ЈУБИЛЈАР**

III Халг маһнылары вә мүгамлар

Ифа едир:

Азәрбајчан ССР әмәкдар артисти **ЗЕЈНӘБ ХАНЛАРОВА**

Мүшаиҷәт едир:

Азәрбајчан ССР әмәкдар инчәсәнәт хадими **Әһмәд БАКЫХАНОВУН** идарәсилә

ХАЛГ ЧАЛҒЫ АЛӘТЛӘРИ АНСАМБЛЫ

Bəhram Mansurovun Yubiley gecəsinin afişası (12 aprel, 1971-ci il)

Bəhram Mansurovun şöhrəti Azərbaycan milli musiqisinin bilicisi və mahir ifaçısı kimi dünyaya yayıldı. Onu da qeyd edək ki, YUNESKO tərəfindən buraxılan həmin vallar və disklər bu günə kimi dünyanın hər yerində satılır.



«Filips» şirkətinin 1975-ci ildə buraxdığı qrammofon valı



«Baren Reyter» firmasının 1971-ci ildə buraxdığı qrammofon valı

YUNESKO-nun xətti ilə Bəhram Mansurov dəfələrlə Fransa, Almaniya, İraq, Yaponiya, Hindistan, İtaliya, Hollandiya, Çexoslovakiya, Venesuelada keçirilən beynəlxalq simpozium və konsertlərə dəvət alırdı. Lakin səhhətinə görə o, yalnız iki dəfə - 1978 və 1983-cü illərdə, nisbətən yaxın olan Səmərqənddə keçirilən beynəlxalq simpoziumda iştirak edib.

Vaxtilə tanınmış bəstəkar Fikrət Əmirov «Şur» və «Kürd-ovşarı» simfonik muğamlarının yazarkən qocaman musiqiçilər Seyid Şuşinski və Qurban Pirimovla məsləhətləşərdi. Sonuncu simfonik muğamı olan «Gülüstan-Bayatı–Şiraz»ı isə Bəhram Mansurovun ifası əsasında yaratdı.

60-70-ci illərdə bəstəkar Nəriman Məmmədov «Çahargah» və «Rast» muğamlarını Bəhram Mansurovun ifasından nota yazdı. Azərbaycan xalq musiqisi nümunələri olan dəramədlər, rənglər, diringilər, təsniflər, zərblər, şikəstələr, saqinamələr, marşlar, saz havaları və s. tarzənin oğlu, bəstəkar Eldar Mansurov tərəfindən nota salınmışdır.

Ailə ənənəsinin davamı kimi, Bəhram Mansurovun evində tez-tez musiqi məclisləri keçirilərdi. Yerli ifaçılırla yanaşı xarici ölkələrdən bəstəkar, musiqişünas, dirijor və digər musiqiçilər də evin qonağı olardı. Məsələn, Macarıstandan İştvan Rayç, İraqdan Xəlil İbrahim, Moskvadan Andrey Eşpay, Gürcüstandan musiqişünaslar Vaja Qvaxariya və G. Orconikidze, Almaniyadan Həbib Tuma, Fransadan Alen Danielu, Jak Klark, X. Xayneman, Jan Klod Şabriye, Berlindən Yurgen Elsner, Daşkənddən Fərzulla Kəramətov, Moskvadan Viktor və Svetlana Vinoqradovlar, Mixail Tarakanov, İ. Boqdanov, E. Alekseyev, Vyaçeslav Şurov, Vladimir Zak, Tamilla Cənizadə, Tunisdən Mahmud Gettat, Tallindən Kuldar Sink; Hindistanlı musiqiçi Satya Narayana, İraqdan Salah Əl-Mehdi, dirijorlardan: moskvalı Dmitri Kitayenko, Tallindən Leo Nermet və Roman Matsov, Pol-

şadan estrada ansamblları: «Skaldoviye», «Ekstra Bal», «Koman band»; yazıçılardan: samaralı Viktor Balaşov, Bolqarıstandan Rza Mollov, İrandan tarzən Əliağa Təbrizi və jurnalist Fəraməz Berazendeh və bir çox başqaları.

Bəhram Mansurov SSRİ-də və xarici ölkələrdə olan bir çox muzey və arxivlərlə yaxından əməkdaşlıq edirdi. O, ailə arxivindən təmənnasız olaraq Azərbaycan, Ermənistan, Leninqrad, Moskva, Almaniya muzey və arxivlərinə Azərbaycan xalq musiqi mədəniyyətinin tarixinə aid qiymətli materiallar, foto və sənədlər vermişdir. Yaponiyanın Osaka şəhərinin muzeyinə isə öz tarlarından birini hədiyyə etmişdir.

Muğam sənətinin nüfuzlu bilicisi kimi, Bəhram Mansurov radioda «Muğam» və televiziyada «Məktəblilərin musiqi klubu» verilişlərinin məsləhətçisi idi. Bir çox özfəaliyyət müsabiqələrində münsiflər heyətinin üzvü olmuşdur. O, dəfələrlə müxtəlif auditoriya qarşısında muğamlar haqqında çıxışlar edərdi, dövri mətbuatda mütəmadi olaraq muğamın tarixi və bu günü barədə fikrini bildirərdi.



Fikrət Əmirov və Bəhram Mansurov «Gülüstan Bayatı-Şiraz» simfonik muğamı üzərində işləyərkən

Azərbaycan musiqi mədəniyyətinin inkişafında görkəmli xidmətlərinə görə, Bəhram Mansurov bir neçə dəfə yüksək dövlət mükafatlarına layiq görülüb. O, iki dəfə «Şərəf nişanı» ordeni və SSRİ-nin bir çox medalları ilə təltif olunmuşdur. 1956-cı ildə ona əməkdar artist, 1978-ci ildə isə xalq artisti fəxri adı verilmişdir.



Bəhram Mansurov (1970)

Azərbaycan musiqi mədəniyyətinin qorunması və inkişafı yolunda Bəhram Mansurov yaradıcılığının xüsusi xidmətləri həqiqətən danılmazdır. O, tarın texniki imkanlarını mükəmməl bilən, klassik muğamları ustalıqla ifa edən böyük sənətkar idi. Tarda yalnız sol əllə, mizrab vurmadan çalmaq üsuluna «mizrabi - dəstkəri» deyilir. Azərbaycanda bu üsuldan əvvəllər yalnız Sadıqcan, Məşədi Süleyman və Mirzə Mansur kimi korifeylər istifadə edib. Öz dövrünün ifaçıları arasında «mizrabi-dəstkəri»dən istifadə edən yeganə tarzən Bəhram Mansurov olmuşdur.

80-ci illərin sonu, 90-cı illərin əvvəllərində YUNESKO yenidən Bəhram Mansurovun lent yazılarına müraciət edərək onları kompakt disk şəklində buraxdı. Görkəmli tarzənin yaradıcılığı ali məktəb tələbələrin diplom işlərinin, namizədlik və doktorluq elmi dərəcələrini müdafiə edən alimlərin mövzusu oldu. Bəhram Mansurovun yaradıcılığı bu günə qədər musiqişünaslar tərəfindən tədqiq olunur, onun haqqında çap olunmuş bir çox kitab, monoqrafiya və məqalələr bunu təsdiq edir.

Bəhram Mansurovunun özündən sonra böyük arxivi qalıb. Bu irsi toplayıb sistemləşdirən həyat yoldaşı Münəvvər xanım oldu. Onun gərgin zəhməti sayəsində tarzənin bütün arxivi qorunub saxlanılıb.

Bəhram Mansurovun oğulları da nəslin musiqi ənənələrini. davam etdirdilər. Böyük oğlu Eldar bəstəkar, ortancıl oğlu Aydın xor dirijoru, kiçik oğlu Elxan isə atasının yolunu seçdi. Hələ tələbəlik illərindən o, atası ilə bərabər Opera və Balet Teatrında çalışırdı. Vaxtilə Bəhramın dilləndirdiyi tar, bu gün oğlu Elxanın ifasında yeni nəsil müğənniləri müşayiət edir.

Görkəmli tarzən 1985-ci il mayın 14-də, yaradıcılığının kamil dövründə, 74 yaşında, Bakıda vəfat etdi. Bəhram Mansurov Yasamaldakı köhnə qəbristanlıqda dəfn olunub.

Məşədi Süleyman bəy Mansurov



XATİRƏLƏR

...Payız günlərinin biri idi. Qamətli, bığıburma bir kişi İçərişəhərin əyri-üyrü küçələri ilə evinə gedirdi. Nəzərləri hər kəsdən gizlənməyə çalışan, çarşabının altında tir-tir əsən bir qadını tutdu. Qeyri-ixtiyari qadının dalınca getdi. Qadın zibilliyə yaxınlaşdı. Ora-bura baxıb, atılan zibilləri eşələməyə başladı. Ölü bir toyuq tapdı. Onu çarşabının altına qoyub, tələsik uzaqlaşdı. Şəhərin kənarında uçuq-sökük bir daxmaya girdi. Kişi qadının arxasınca daxmaya girmək istədi. Tərəddüd etdi. Amma marağı tərəddüdünü üstələdi. Daxmada həmin qadın və üst-başı nimdaş üç körpə vardı.

- Bacı, uşaqlarını da götür, gəl dalımca!

Qadın çaşmışdı. Amma bu hökmlü çağırışa yox deyə bilmədi. Kişi onları öz mülkünə gətirdi. Nökər-qaravaşı çağırdı.

- Bu uşaqları aparın hamama. Yaxşıca çimizdirin, əyin-başlarını dəyişdirin, yemək verin.

Üzünü nökərlərdən birinə tutdu:

- Bu arada bir ev tap.

Nökərə pul verdi.

...İki gündən sonra həmin kişi yuxuda qeybdən bir səs eşitdi. Dəqiq anlamasa da, bu səsin İlahidən gəldiyini hiss etdi.

Səhər oyanıb, heç kəsə bir söz demədi. Küçəyə çıxdı. Hər gün görüşdüyü adamlarla salamlaşdı. Salamlaşmalar adi idi. Amma kişini çağıranlar onun adının qarşısında bir söz işlədirdi: MƏŞƏDİ...

Bu şəxs Badi-Kubənin sayılan mülkədarlarından, məşhur Mansurovlar nəslindən - Məşədi Məliyin oğlu Süleyman Mansurov idi...

...Məşədi Süleymanın kimliyi haqda fikirləşəndə, bir sıra qəribəliklərlə qarşılaşırsan. İndiki reallıqla o vaxtkı xətir-hörmət, təmizlik, halallıq təzadlı görünür. Onu tanıyanların və tanımayanların bu halal kişiyə böyük inamı insanı riqqətə gətirir. Bir daha dərk edirsən ki, dünyada sözün böyük anlamında KİŞİLƏR olub.

Məşədi Süleyman musiqi, söz, sənət bilicisi olmaqla yanaşı, həm də böyük iş adamı idi. Nəvəsi



Məşədi Süleyma bəy Mansurov
(Vyana, 1915)



Məşədi Süleyman bəy Mansurov
(10 oktyabr 1911)

Eldar Bəhram oğlu Mansurovun min bir qayğı və əziyyətlə qoruduğu sənədlər buna bir daha sübutdur. Aydın olur ki, Mansurovlar nəslinin ən işgüzar, ən səriştəli üzvü Məşədi Süleyman olub.

Qohumlarının bir çoxu bütün varidatının məhz onun tərəfindən idarə olunmasını sənədləşdirib. Maraqlısı və əslində indiki gündən baxanda, qəribəsi odur ki, o vaxtkı Bakının bir çox mülkədarları da öz torpaqlarının, mülklərinin Məşədi Süleyman tərəfindən idarə olunmasını onun özündən xahiş ediblər... Xahiş ediblər. Kiçik bir örnək. İçərişəhərli mülkədar Mirzə Ağa İsgəndərov notariusun təsdiqlədiyi sənəddə Məşədi Süleymandan xahiş edir ki, onun (Mirzə Ağa İsgəndərovun – red.) torpaqlarının idarə olunması ilə məşğul olsun. Torpaqları Məşədi Süleyman özü məsləhət bildiyi şəxsə və münasib bildiyi qiymətə icarəyə versin. Bu işlərin bütün haqları da Məşədi Süleymana verilib.

Məşədi Süleymanın həyat yoldaşı Həcər xanım, bacısı Anaxanım, qardaşları Mansur və Ağahüseyn də öz varidatlarını ona həvalə ediblər. Bu siyahını çox uzatmaq olar.



İsmayıl bəy Nağıyev
(1906)

Məşədi Süleymanın özünün də bir çox mülkləri və torpaq sahələri olub. O vaxtlar onun kimi işinə diqqətli, işində səliqəli adamlar az olub. O, vergiləri vaxtlı-vaxtında ödəyib, sahibi olduğu və ona həvalə edilən torpaqların təmizliyinə diqqət yetirib. Hətta bir dəfə torpaqların təmizlənməməsi üstündə Bakı milyonçusu Musa Nağıyevi məhkəməyə verib (arxiv sənədləri var – red.) və məhkəməni udub.

Məşədi Süleyman dövrünün savadlı şəxslərindən olub - alman, fransız, ingilis, italyan, rus, fars, türk dillərində sərbəst danışıb və yazıb.

Dünyanın bir çox ölkələrini gəzib. Ona gələn məktubların coğrafiyası buna əyani sübutdur. Diqqət edək: Vyanadan, Davos-



Həcər xanım Mansurovanın vəfatı haqqında şəhadətnamə (1916-cı il)

dan, Tamperedən, Parisdən, Peterburqdan, Moskvadan, Pyatiqorskdan və bir çox başqa şəhərlərdən dostlarının göndərdiyi məktublar Məşədi Süleymanın sadiq dost olduğunu göstərir. Avstriyada xəstələnən bir dostuna gül dəstəsi göndərən şəxsin mənəviyyatı və sadiqliyi göz qabağındadır.

Məşədi Süleymanın yaxın dostlarından biri Bakı milyonçusu Musa Nağıyevin oğlu İsmayıl olub. Uzun müddət İsveçrədə – Davosda müalicə alan İsmayılın Süleymanla məktublaşması onların pak dostluğuna, ülvi sadiqliyinə bir nümunədir. İsmayılın məktublarında Məşədi Süleymana bir qardaş sevgisi hiss olunur. Əli qələm tutmayan vaxtlarında məktublarını həyat yoldaşı Yuliya yazırmış : «Çox hörmətli cənab Mansurov, İsmayıl üzr istəyir ki, məktubu özü yaza bilmir. Onun hərarəti yüksəkdir və güclü başağrıları var. Özünə gələn kimi Sizə məktub yazacaq. Cənab Xanlarova da salam göndərir. Elə indicə Vyanadan və Bakıdan məktublarınızı aldıq. Cavab yazırıq. Hörmətlə, Yuliya». Bu məktub 1916-cı il fevralın 21-də göndərilib. Bundan 15 gün əvvəl, fevralın 6-da İsmayıl özü də ona məktub göndərmişdi.



Hacı Haşım bəy Kərimov (1890)

Məşədi Süleyman bütün bu keyfiyyətləri ilə yanaşı həm də çox yaraşıqlı kişi olub. Şəkillər də bunu sübut edir. Deyirlər ki, Məşədi Süleyman və qardaşı Mansur küçədən keçəndə evlərin pəncərələrindən qadınlar gizlincə onlara baxarlarmış. Azərbaycan kişisinə xas olan qamət, boy-buxun, dürüst yeriş - bütün bunlar Məşədi Süleymanın xasiyyəti ilə də uzlaşırdı.

Amma Məşədi Süleyman özü çox qısqanc kişi olub. Nə qədər axtardıqsa, nə ailənin arxivində, nə də qohum-əqrəbada onun həyat yoldaşı Həcərxanımın şəklini tapa bilmədik. Həcərxanım çox gözəl olduğundan Məşədi Süleyman ona şəkil çəkdirməyə icazə vermirmiş və sözsüz ki, evdən də həmişə bir yerdə çıxarlarmış.



Əliheydər Hacı Haşım oğlu Kərimov (1915)

Həcərxanımdan söz düşmüşkən... Çox varlı bir ailənin qızı imiş. Atası Hacı Haşım dövrünün zəngin kişilərindəndi - bir neçə neft mədəninin, böyük torpaq sahələrinin və mülklərin sahibi idi. Həcərxanımın iki bacısı – Məsməxanım, Şəhrəbanu xanım və bir qardaşı – Əliheydər olub. İndiki Rus Dram Teatrının yerində Əliheydərin tikdirdiyi başqa bir teatr olub – Sinematoqraf Mikado«. Sonradan o teatrı rekonstruksiya ediblər.

Məsməxanımın həyat yoldaşı Ağabəy Ağarəhimbəy oğlu Səfərəliyev həm də onun xalası oğludur. Ağabəyin anası Nurcahan xanım Məsməxanımın anası Cəvahir xanımla doğma bacı olublar. Məsməxanım Bəhram Mansurovun xalasıdır.

Məşədi Süleyman muğamın dərin bilicilərindən biri kimi də tarixdə qalıb. O vaxtkı Azərbaycanın elə bir sənətkarı, elə bir musiqiçisi tapılmaz ki, Məşədi Süleymanla dostluq etməsin, onun evinin qonağı olmasın. Atası Məşədi Məliyin vəfatından sonra onun musiqi məclislərini oğlu Süleyman davam etdirib. Nəhəng sənətkarların, muğam bilicilərinin bu ocaqdan ayağının kəsilməməsinin səbəbi, məhz Məşədi Süleymanın dürüst muğam biliyi və dostluğu olub. Hər bir muğamı incə çalarlarına kimi bilən, onun mahiyyətini başa düşən bu kişi sözün əsl mənasında sənət sərrafı olub. Əlimizdə olan muğam cədvəlləri, bütün muğamların şöbələrinin aydınlıqla, ardıcıl düzülüşlə tərtibi Məşədi Süleymanın bizlərə çox qiymətli mirasıdır.

Bu BÖYÜK KİŞİNİN həyatı və yaradıcılığı bizim üçün, gələcək nəsillər üçün bir meyardır. Onun haqqında bildiklərimizi, eşitdiklərimizi və nəvəsi, görkəmli bəstəkarımız Eldar Mansurovun öz şəxsi arxivindən bizə təqdim etdiyi materialları, Məşədi Süleymanın xatirələrini, onun müxtəlif sənədlərini, fotoşəkillərini, məktublarını təqdim edir, bu sənət fədaisinin, sadiq dostun və gözəl ailə başçısının həyatının müəyyən fraqmetlərini Sizinlə baş-başa buraxırıq.

Fikrimizcə, tariximizi, mədəniyyətimizi və tariximizin, mədəniyyətimizin MAGİKANLARINI unutmasaq, gələcəkdə bizim də unudulmaq qorxumuz yoxdur...

Məşədi Süleymanın xatirələri

Mən, Məşədi Süleyman Məşədi Məlik Məmməd oğlu 15 oktyabr 1872-ci ildə Badi-Kubədə doğulmuşam. Badi-Kubə ancaq qala içərisindəki şəhər idi. Bütün ömrüm də elə orda keçib. Dünyanın çox yerində olmuşam. Amma heç bir ölkə, heç bir şəhər mənə əcdadlarımın yatdığı bu torpaq qədər əziz olmayıb.

İçərişəhərdə düz evimizin qabağında «Ağa Salah meydanı» adında məşhur bir yer var. Oranı mənim babam Ağa Salah düzəldib, kiçik evləri sökdürüb yerində böyük bir meydan yaradıb, ortasında da tut ağacı əkdirib. Camaat da bu meydana o vaxtdan babamın adını verib.

Babamdan söz düşmüşkən… Babamın ulu babasına qədər nəslimizin böyükləri haqda az da olsa, bilirəm. Babam Ağa Salahın ulu babası Hacı Kərim Badi - Kubənin ən varlı mülkədarlarından biri idi. Onun çoxlu əkin torpaqları və mal-qarası vardı. Hacı Kərimin oğlu Hacı Mansur da atasından qalan vardövləti daha da artırıb, şəhərin ən varlı və hörmətli adamlarından biri olub.

Onun dörd oğlu vardı – Ağa Hüseyn , Məşədi Süleyman, Məşədi Məlik və Ağa Həsən. Ağa Hüseyn və qardaşı Ağa Həsən əsasən ticarətlə məşğul idilər. O biri qardaşları Məşədi Süleyman və Məşədi Məlikin isə çoxlu gəmiləri var idi. Ulu babam Ağa Hüseynin İçərişəhərdə və forştatda bir çox mülkləri və dükanları olub...

Babam Ağa Salah (1800-1848) öz dövrünün sayılan kişilərindən idi. Nəsillikcə mülkədar və zadəgan olan Ağa Salahın əsas işi gəmiçilik və ticarət olub. Özündən sonra onun çoxlu mülkləri və vardövləti qalıb.

Atam Məşədi Məlik Məmməd mənə deyərdi ki, hələ uşaq olanda, atası Ağa Salah xəstəlikdən rəhmətə gedib və onlara Ağa Salahın kiçik qardaşı Hacı Əli 1848-ci ildən 1855-ci ilə qədər himayədarlıq edib.



Məşədi Süleyman bəy Mansurov
(Dekabr, 1908)

Hacı Əli 1810-cu ildə doğulmuşdu. O, əsasən ticarətlə məşğul olurdu. Qardaşı uşaqlarının həddi - buluğa çatanacan bütün işlərini Hacı Əli aparırdı. Onun özünün də iki qızı vardı. Nəslimizin tarixini də atam Məşədi Məlik Məmmədə məhz Hacı Əli danışmışdı.

Bizim kökümüzün bir ucu çox qədimlərə gedib çıxır. Onun dediyinə görə Bakı xanı Məlik Məhəmməd xanla bir nəsildənik. O deyirdi ki, hələ xanlıq dövründən Badi-Kubədə rəsmən 68 nəfər bəy, ağa və fəxri vətəndaş olub. Onların arasında bizim nəslin – Mansurovların da adı çəkilib. (Bu fakt Rus İmperiyasının əsilzadələr haqqında olan hüquqi sənədlərində də öz təsdiqini tapıb-red).



Soldan: Mirzə Kazım bəy Abdinov və Məşədi İsmayıl bəy Mansurov (1861)



МЕТРИЧЕСКОЕ СВИДѢТЕЛЬСТВО.

Дано сіе изъ Закавказскаго Шейтскаго духовнаго Правленія въ томъ, что — какъ видно изъ IV части метрической книги шейтского прихода Мечети Дуранн города Баку за 1898 годъ — жительницы г. Баку Ханума Хадиджи Ахундовой Казиевой, на «85» году отъ роду, вдовы Ага Садыха, сего числа отъ [illegible] скончалась и [illegible] дня мѣсяца Декабря 11 тысяча [illegible] года Гиджры, соотвѣтствующій двадцатому Октября тысяча восемьсотъ девяносто восьмого (1898) года христіанскаго лѣтосчисленія и похоронена на кладбищѣ Сиях Тябят приходскимъ муллою прихода Мечети Дуранн, коимъ контина сія занесена въ метрическую книгу своего прихода подъ №26 за подписью его-Прихдскаго муллы Ахунда Мамеда Ахундз-заде.

Въ чемъ Духовное Правленіе подписью и приложеніемъ казенной печати удостовѣряетъ. Февраля дня 1901 года гор. Тифлисъ.

Гербовымъ сборомъ оплачено.

Предсѣдатель Правленія,

Закавказскій Шейхъ-уль-Исламъ.

Члены

Секретарь

Въ Засѣданіи Тифлисскаго [illegible] Комитета Бакинскому Комитету Общества Спасенія на Водахъ 16 Марта 1901 года, по [illegible] записи 1835 и 1837

Qızxanım Hacı Ələkbər qızı Mansurovanın vəfatı haqqında şəhadətnamə (1898-ci il)

Babam Ağa Salahın kəbin ilə üç arvadı olub: Qızxanım Məşədi Əhməd qızı, Qızxanım Hacı Ələkbər qızı (1813-12 oktyabr 1898), Qızxanım Kərbəlayi Qasım qızı.

Onun birinci arvadından bir qızı olub – Raziyyə xanım (1823-1901).

İkinci arvadından isə iki oğul və iki qız övladı olub – Məhbubə xanım (1841-1902), Məşədi İsmayıl (1842-1900), Məşədi Məlik Məmməd (1845-1909), Şəhrəbanu xanım (1847-1848).

Üçüncü arvadından isə uşağı olmayıb.

Böyük bibim Raziyyə xanım Ağa Məmməd Əli Murad oğluna ərə gedib. Onların iki oğlu olub – Məşədi Əli Murad və Məmməd Qasım.

O biri bibim Məhbubə xanım 1860-cı ildə Hacı Ağa Zeynal Ramazanova ərə gedib. Onların da Hacı Məmməd Kərim, Məşədi Qasım, Məşədi Tağı, Nurcahan xanım, Bilqeyis xanım, Mina xanım adında uşaqları olub.

Əmim Məşədi İsmayılın övladı olmayıb. Həyatdan zövq almağı xoşlayan adam olub. Həmişə ətrafında musiqiçilər, artistlər olardı. O, 1900-cü ildə rəhmətə gedib.



Kərbəlayi Ağa Hüseyn Məşədi Məlik bəy oğlu Mansurov (1864–1937)

Kiçik bibim Şəhrəbanu xanım isə uşaq ikən 6 aylığında ölüb.

Atam Məşədi Məlik Məmmədin də iki arvadı olub – Üm Leyla xanım Hacı Mirzə Ağa qızı və Soltan Bəyim Mirzə Baxış bəy qızı Ələkbərova (1855-26 aprel 1906).

Onun birinci arvadından iki oğlu – Kərbəlayi Ağa Hüseyn (1864-1937) və Soltan (1867-....), ikinci arvadı Soltan Bəyimdən isə biz dünyaya gəlmişik – mən - Məşədi Süleyman (1872), Mirzə Mansur (1887), bacılarım Şəhrəbanu xanım (1879) və Anaxanım (1881).

Şəhrəbanu xanım 29 oktyabr 1893-cü ildə 14 yaşında vəba xəstəliyindən ölüb.

Anaxanım isə 1895-ci il, dekabrın 16-da, 15 yaşında İranın Bakıdakı kələntəri (vergi məmuru – red.) Əbdül Mütəllim Kərbəlayı Əbdülbağı oğlu Kələntərova ərə gedib. Əbdülün onda 28 yaşı vardı. Atası Hacı Səlim Kələntərov o dövrün varlı və sayılan kişilərindən idi. Onun yeddi gəmisi vardı. Bir dəfə İrana gedən rus poçt gəmisi batırmış. Hacı Səlimin gəmilərindən biri bu rus gəmisini buksirə çəkir. Rus çarı onu çağırır Peterburqa. Ona Müqəddəs Georgi xaçı və bir xəz kürk bağışlayır. Taxtının yanındakı kürsülərdən birini göstərib deyir ki, bura sənin yerindir. Nə vaxt gəlsən, gözümüz üstə yerin var. Hacı Səlimin İçərişəhərdə Karvansaranın yanında ikimərtəbəli bir mülkü vardı (indiki Karvansaray restoranı – red.). Əbdül və Anaxanım bu mülkdə yaşayır-



Anaxanım Məşədi Məlik bəy qızının Əbdül Mütəllim Kələntərovla kəbin kağızı



Soldan: Bəhram, Sara, Ağa Məlik Mansurov tərbiyəçi ilə (1914)

dı.1932-ci ildə şura hökuməti o mülkü konfiskavat, yəni müsadirə edib . Onların dörd oğlu – Ağasəlim (1897), Ağakərim (1903) Əbdülbağı (1907), Ağacavad (1910) və bir qızı - Şəhrəbanu (1920) olub.

Bacım Anaxanım 1944-cü ilin martında rəhmətə gedib.

Atamın birinci nikahından olan kiçik oğlu Soltan da gənc yaşlarında dünyasını dəyişib.

Böyük oğlu Kərbəlayi Ağahüseyn isə 1898-ci ilin 28 aprelində Üm-Səlimə Məşədi Əbdüldəyan qızı ilə evlənib. Bu nikahdan onların dörd oğlu olub: Ağa Salah (1901), Ağa İsmayıl (1904), Ağa Sadıx (1907), Ağa Mehdi (1912) və bir qızı Üm-Leyla (1909).

Atam Məşədi Məlik Məmməd öz zəmanəsinin ziyalılarındandı. O, mülkədar olmaqla yanaşı həm də musiqinin vurğunu idi. Gözümü açandan həmişə tar - kamança - xanəndə səsi eşitmişəm. Badi - Kubədə hamı yaxşı bilirdi ki, hər dəfə musiqi səsi gələndə yenə evimizdə muğam məclisi var.

Qonşuluqda yaşayan molla qəzəblə lənət yağdırardı: «Allah sizə qənim olsun, bu evdə şeytanlar yuva salıb». Amma qonşular mollanın bu lənətlərinə gülərdilər.

Şəhərin bütün şair və musiqiçiləri, ziyalı və mülkədarları bizim evin qonağı olardı.Gələn qonaqlar atamı sadəcə Məşədi Məlik deyə çağırardı. Mən bu insanlardan çox şey öyrənmişəm. Sənətə, sözə marağım elə uşaqlıqdan başlayıb. Atam Məşədi Məlik hərtərəfli musiqi bilicisi idi. Tarda, kamançada, cürə sazında, qavalda, yeddidilli qarmonda çalmağı bacarırdı.

Atam Məşədi Məlik 1327-ci il məhərrəm ayının 12-də, yəni 1909-cu il yanvarın 21-i vəfat edib. Həkim kağızında «разрыв сердца» (infarkt – red.) yazılmışdı. Onun hüzr məclisini şəhərin Cami məscidinin axundu, Məmmədəli Axundzadə aparıb.

Rəhmətlik atam mənim övladlarımı görməyib. Həcər xanım Hacı Haşım qızı ilə toyumuz 3 noyabr 1909-cu ildə olub.

Birinci oğlumuz Ağa Məlik, babası Məşədi Məliyin ölümündən 1 il sonra, 1328-ci ilin səfər ayının 6-da, cümə axşamı 4 fevral 1910-cu ildə doğulub, 1926-cı il fevralın 25-də xəstəlikdən rəhmətə gedib.

İkinci oğlum Bəhram çərşənbə günü, 1329-cu il, şəvval ayının 17-sindəndir, yəni 8 sentyabr 1911-ci il.



Soldan: Ağa Bəhram və Ağa Məlik Mansurovlar (1912)

Qızım Sara 1331-ci il, rəbbiəl-axərin 8-i, çərşənbə axşamı 4 mart 1913 – cü ildə dünyaya gəlib.

Sonbeşiyim Nadir isə 1332-ci ilin zilhəccə ayının 18-i, qədr bayramı günü -1914-cü ildə doğulub.

Uşaqların anası cavan yaşında dünyadan köçüb. Bu olub 1334-ün şəvval ayının 10-da, toyumuzdan cəmi 8 il sonra 16 avqust 1916 – cı ildə Şüvəlandakı bağımızda.

Həcərxanım öləndə kiçik oğlum Nadirin heç iki yaşı yox idi. Düzdür, milliyyətcə alman olan bir quvernantkamız vardı, uşaqlara baxmağa kömək edirdi.O, alman, fransız və rus dillərini də onlara öyrədirdi. Amma yemək işini, özlərinə və qonağa qulluq işini uşaqlara özüm öyrətmişəm.

Bir ara lap çətinlik çəkirdim. Evə bir qadın gətirdim. Qadını onunçün gətirdim ki, uşaqlara baxmaqda mənə kömək etsin, həm də qulluğumda dursun. Bilirdim ki,o, uşaqlara analarının yerini verə bilməz. Amma evdə qadın əli vacibdi. Qadının evə gəlməyindən bir-iki ay keçməmişdi ki, bir gün evə gələndə, gördüm uşaqlar ağlayır. Başa düşdüm ki, uşaqlara yaxşı baxmayıb. Heç nə demədən yola saldım, çıxdı getdi. Ondan sonra uşaqları yad qadının ümidinə qoymadım. Ataları da özüm oldum, anaları da.



Məşədi Süleyman bəy Mansurovun Şüvəlandakı bağı (1911)

Şüvəlandakı bağımız demişkən… Bu bağın sahəsi 1 hektardan çox idi. Yay aylarında biz bu bağda qalardıq. Şəhərdəki evimizin bütün qonaqları da gələrdilər bura. Musiqiçilər, şairlər, tacirlər, məmurlar, notariuslar, arxitektorlar, daha kimlər… Qonaqsız günümüz olmazdı. Bu bağı 30-cu illərdə şura hökuməti əlimizdən aldı, elədi selsovet, yəni kənd soveti.

Ümumiyyətlə, bizim Bayır və İçərişəhərdə 20-yə yaxın mülklərimiz vardı. 1920-ci ilin sentyabrından başlayaraq, Şura hökuməti hamısını konfiskavat eləyib idarələrə verdi.

Şura hökümətindən əvvəl təkcə İçəri şəhərdə bizim «Большая крепостная«- 4, 5, 6, 7, 8, 30, 37, 39, 418, 953 (iki dükanı ilə birlikdə), «Большая Минаретская»- 224, 226, «Бухарская»- 41, «Тверская» - 28-də mülklərimiz olub.

O vaxtlar atam Məşədi Məliyin Mərdəkanda – 4, Şüvəlanda – 4 və Qalada bir bağı var idi.

Qız Qalasının yanında «Naberejnı» (Neftçilər prospekti – red.) 59-da üçmərtəbəli mülkümüzdən 20-ci ilin sentyabrında bolşeviklər bizi çıxartdılar. Soldatlar içəri girib dedilər ki, paltarlarınızı geyinin, uşaqları da götürüb, çıxın evdən. Ancaq əynimizdəki paltarlarla çıxdıq o mülkdən və bir də o evə qayıtmadıq.

«Suraxanski» («Pervomayski» – red.) 111-də, bazarnı küçənin (H.Hacıyev küçəsi -red.) tinində balaca bir daxma verdilər bizə. Çarəmiz nə idi, birtəhər yerləşdik ora. Yaşayış üçün nə lazım idi, hamısını təzədən aldım. Bir az sonra həmin evdə özümə bir guşə düzəltdim. Başladım tar düzəltməyə... Amma mülklərimizi, torpaqlarımızı əlimizdən alsa da, Şura hökuməti bizə toxunmadı. Çünki bizim nəsli Azərbaycanda hamı «kefkom Mansurovlar» kimi tanıyırdı. Bəd işlərdən uzaq idik.



Notarius Somov arvadı ilə Məşədi Süleyman bəyin Şüvəlandakı bağında (1913)



Məşədi Süleyman bəy və Vasif bəy Xanlarov Maştağada Hacıağa bəyin bağında (1915)





Hacıbaba Əlbağır oğlu, Mirzə Mansur bəy, dağlı Abbas, İçərişəhərli Sadıq Məşədi Süleyman bəyin Şüvəlandakı bağında (1915)



Mansurovların Qala kəndində bağ sahəsinin xəritəsi (1899)



Mansurovların İçərişəhərin xəritəsində bəzi mülkləri (1898–1900)



Mansurovların Mərdəkan və Şüvəlan kəndlərində bağ sahəsinin xəritəsi (1899)



Mirzə Mansur bəy Mansurov (1902)

Azərbaycanda Şura hökuməti qurulandan sonra biz çox şeyi itirdik,bizə qalan muğam oldu.

…Evdə tez-tez yığışıb cürbəcür muğamları çalardıq. Atam kamançada, anam qavalda, mən tarda. Bir müddət sonra atam balaca qardaşım Mansur üçün cürə sazı düzəltdirdi. O da bizə qoşuldu. Mansurun musiqiyə həvəsi böyük idi. Onun sazda ilk çaldığı muğam Kəsmə-Şikəstə olub. Atam onu Sınıqqala məscidində Mirzə Həsiqin mədrəsəsinə qoymuşdu. Bir gün Mansur əl-ayağı yaralı vəziyyətdə evə gəldi. Soruşdum ki, nə olub? Sən demə, Mansur xətkeşi tar kimi sinəsinə basıb, «Uzundərə»ni zümzümə edəndə Mirzə Həsiq görüb. Ona görə də uşağı falaqqaya saldırıb, əl-ayağına 20 çubuq vurdurub. Bundan sonra Mansur o məscidə getmədi. Atam onu rus-tatar məktəbinə düzəltdi. Orda o, 4 il oxudu.

Mansur gənc yaşlarında tarda Rast, Şur kimi muğamları çox yaxşı ifa edirdi Sonralar Mirzə Mansur ustad tarzən Mirzə Fərəcdən dərs aldı.

Mirzə Mansur üç dəfə evlənib. Birinci arvadı Asya xanımdan bir oğlu vardı – Tələt. O, müharibədə həlak oldu.

İkinci arvadı Bilqeyis xanım milyonçu Yusif Dadaşovun bacısıdır. Ondan da bir oğlu vardı - Ənvər. Yaxşı tar çalardı. O da müha - ribədə 1941-ci ildə həlak oldu.

Üçüncü arvadı Fatma xanımdan övladı yox idi.

…Şəhərin yarısı bizim qohumlar idi. Xanlarovlar, Ələkbərovlar, Abdinovlar, Səfərəliyevlər, Əsədullayevlər, Kərimovlar, Səlimxanovlar, Mövsümovlar, Ramazanovlar, Dadaşovlar, Aşurbəyovlar, Useynovlar…

Səfərəliyevlər beş qardaş idilər – Ağarəhim bəy, İbrahim bəy, İsmayıl bəy, Tağı bəy, Ağa Dadaş bəy.

Ağarəhim bəyin iki oğlu var idi – Ağabəy və İsgəndər bəy. Biz Ağabəylə bacanaq idik.

İbrahim bəyin üç oğlu var idi – Məmməd bəy, Hüseyn bəy, Əli bəy.

Ağa Dadaş bəyin Kamil adında oğlu var idi. (Məşhur pianoçu Kövkəb Səfərəliyeva Kamil bəyin qızıdır – red.).



Mirzə Mansur bəy Mansurov (1899)

Tağı bəyin dörd qızı və iki oğlu var idi – Dilarə xanım, Suğra xanım, Məsud bəy, Asya xanım, Leyla xanım və İsmayıl bəy. (Leyla xanım – Şəmsi Bədəlbəylinin arvadı, Fərhad Bədəlbəylinin anasıdır. – red.).

O biri bacanağım Ağa Mehdi bəy Xanlarovdu. Onun da üç qardaşı vardı - Ələsgər bəy, Vasif bəy, Hüseyn bəy.

Musa Nağıyevin oğlu İsmayıl mənim uşaqlıq dostum idi. Atamın dostları arasında polşadan gələn məşhur arxitektor İosif Kasperoviç Ploşko da vardı. O, tez-tez bizim evin qonağı olardı.

Evimizdə tez-tez musiqi məclisləri keçirilirdi. Azərbaycanın hər yerindən muğam biliciləri bura yığışardı.

Mirzə Sadıq, Seyid Mirbabayev, Hacı Hüsü, Mirzə Fərəc, Məşədi İsi, Ala Palaz oğlu Molla Rza, Lazar Ter-Vartanesov, Ağa Kərim Salik, Bəylər, Əli Zühab, şamaxılı Mirzə Məmmədhəsən, içərişəhərli Baladadaş, Əbdülbağı Zülalov (Bülbülcan), Seyid Şuşinski, İslam Abdullayev, kamançaçalan Mirzə Səttar kimi musiqiçilər öz bacarıqlarını göstərərdilər.

Atam körpülərdə, vağzalda adam qoyar və tapşırarmış: «Elə ki, gördünüz bir adam əlində musiqi aləti gəlir, onu gətirin evə». Məşədi Məlik onları çalıb-oxutdurar, qulaq asandan sonra ədəb - ərkanla yola salarmış.



Əbdül Manaf Ələkbərov. 1938-ci ildə vəfat edib. Məşədi Süleyman bəyin dayısı oğludur



Bakı. Qala divarlarının və bağın bir hissəsinin ümumi görünüşü. XIX əsrin sonu



Məşədi Məlik bəy Mansurovun İçərişəhərdə, Böyük Qala küçəsindəki mülkü (1891)



Məşədi Məlik bəy Mansurovun İçərişəhərdə, Böyük Qala küçəsindəki mülkünün layihəsi. 1891-ci il



Kərbəlayi Ağa Hüseyn və Məşədi Süleyman Mansurovların İçərişəhərdə, Böyük Qala küçəsindəki mülkünün layihəsi. 1901-ci il













Kərbəlayi Ağa Hüseyn və Məşədi Süleyman Mansurovların İçərişəhərdə, Böyük Qala küçəsindəki mülkünün layihəsi. 1901-ci il



Məşədi Süleyman Mansurovun «Набережная–59» küçəsindəki mülkü



Ağa İsmayıl Nağıyevin Məşədi Süleyman bəy Mansurova yazdığı məktublar

Məşədi Süleyman bəy Mansurovun şəxsi arxivindən, qohum və yaxın dostlarının fotoşəkilləri



Mirzə Kazım bəy Abdinov, Rəştdə konsul (1870)



Mirzə Kazım bəy Abdinov (1872)



Mirzə Abbas bəy Abdinov



Məşədi Süleyman bəy Mansurov və onun bibisi oğlu İbrahim bəy Abdinov (1906)



Əbülfəz bəy Abdinov (1912)



Sadıx bəy Səfərəliyev



Allahyar Ağa Zülqədərov (1908)



Ağa bəy Səlimxanov (1875)



Mirzə Kazım bəy Abdinov (1910)



İçərişəhərli Ağahüseyn Ağarza oğlu Mövsümov. 1905-ci il (Şura höküməti onun bağını Səməd Vurğuna verib)









Avstriyalı Emiliya Svillinqin Məşədi Süleyman bəy Mansurova yazdığı məktublar. 1906-cı il







Məşədi Məlik bəy Mansurovun vəkili Fon Velke (1893)





Məşədi Süleyman bəy Mansurovun dostu Xəlil bəyin ona yazdığı məktublar. İsveçrə (1902)



Bakı. İçərişəhər. Şamaxı qapısından görüntü (1905)









İçərişəhər XIX əsrin sonlarında



Mirzə Şəmsi oğlu Əsədullayev (1898)





Hüseyn bəy Xanlarov (1900)



Yusif Nağıyevin oğlu Sadıx və qızı







Ağa Mələk Məşədi Süleyman bəy oğlu Mansurov (1910)





Ağa Məlik Məşədi Süleyman bəy oğlu Mansurov (1911)



Ağa Məlik və Bəhram Məşədi Süleyman bəy oğlu Mansurovlar (1912)

Ağa Məlik Məşədi Süleyman bəy oğlu Mansurov (1914)





Ağa Bəhram Məşədi Süleyman bəy oğlu Mansurov (1913)



Ağa Məlik Məşədi Süleyman bəy oğlu Mansurov (1914)



Məşədi Süleyman bəy, Ağa Bəhram (solda) və Ağa Məlik Mansurovlar (1914)

Muğam məclisləri

Məşədi Məliyin musiqi məclislərində muğamlar, qədim el havaları ifa olunardı. Bu məclislərdə muğamların tamam-dəstgah və düzgün oxunmasına fikir verirdilər. Araya hərdən mübahisələr də düşərdi. Belə məğamlarda Məşədi Məliyə və onun qohumu Ağa Kərim Salikə müraciət edirdilər.



Məşədi Süleyman bəy Mansurov (1908)

Məşədi Məliyin musiqi məclislərində xanəndə və sazəndələrdən Ağabala Ağasəid oğlu, Əbdülbağı (Bülbülcan), Məşədi Baldadaş, Əli Şirazi, tarzən Bəylər, kamançaçı Mirzə Səttar, Hacı Hüsü, Cabbar Qaryağdıoğlu, Kor Hacı, Haşım, Ələsgər Şəkili, Əziz Məmməd oğlu Mahmudqulu, Xəlil Müğbil Qalalı, Kəbleyi Eldar, Kəblə Hüseyn Buzovnalı, Ürri İsgəndər, Mirzə Ağakərim Hacı Zeynal oğlu, Bilal, Mirzəağa Hacı Ağababa oğlu, Kəblə Hüseyn Badi-Kubəli, Məhəmməd Hənifə, Lal Əlabbas, Məmməd Hüseyn Qalalı, Hacı Məlik Əjdər, Maştağalı Güləhməd, Balaxanlı Əli Zühab, kababçı Əlibala, Sabunçulu Qiyas, İsmayıl, Muxtar, Hacı Tağı, Qalalı Ağababa, Balaxanlı Səməd, Əbdülqədir Çəmənkəndli, Məşədi Məmməd, Mirzə Sadıq, tarzən Lazar, keçəçi oğlu Məmməd, Davud Səfiyarov, Lök Məhəmməd, Əsgər Gəncəli, Məşədi Dadaş Qarabağlı, Mərdi (Mərdinka), Saşa Oqanezaşvili, Bağdagül oğlu, tarzən Məşədi Zeynal, tarzən Mirzə Fərəc Rzayev, Şinas Bakılı, Cavad Bəryaki, Şamaxılı Mirzə Məmmədhəsən, zurnaçı Ağagül Balaxanılı, Səlyanlı Həsən, Lənkəranlı Heydər, Əlibala, Buzovnalı Əbdülhüseyn, Qarabağlı tarzən Əşrəf Məşədi Əsədulla oğlu, Seyid Şuşinski, Seyid Mirbabayev, tarzən Qurban Pirimov, Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, **şairlərdən** - Şatir Abbas Səbuhi Tehrani, Mirzə Əbdülxalıq Badi-Kubeyi (təxəllüsü «Yusif»), Ağakərim Salik Badi-Kubeyi, Cəfər Haşım Kərimov, Hüseyn Qarabağı, Məşədi Əyyub Qarabağı (təxəllüsü «Baki»), Şahin Məxfi, Nuruş (meyxanaçı), Ağa Molla Hüseyn, Məşədi Azər Buzovnalı gəlib-gedərdilər.

Həmin məclislərdə çalınıb-oxunan muğamların siyahısı atamın əlyazmalarında 1888-ci il tarixi ilə qalıb.

«RAST»

Rast, Rak, Kuçek, İsfahanək, Dilkəş, Vilayəti, Ərak, Pəncgah, Novruz-ərəb, Zəngi-şotor, Rak-hindi, Fərvərdin, Rəhavi, Kabuli, Heyratı, Dügah , Rak-dügah, Novruz-əcəm, Bayatı-Qacar, Əşiran, Novruz-rəvəndə, Qərai, Sixi, Məsihi, Dehri, Rast

«ŞUR» – 1

Şur, Dəraməd-şur, Bayatı-türk, Simai-şəms, Şahnaz, Eyzən bayat, Bayatı-kürd, Hezare-əraq, Hezare-Azərbaycan, Mübərriqə, Novruz-əcəm, Əşiran, Əbülçəp, Bayatı-Şiraz, Şəhri, Hacı-Yuni, Giləyi, Rak-hindi, Cüdayi, Gəbri, Saqinamə

«ŞUR» – 2

Mayə, Dəraməd, Cüdayi, Gərayili, Gövhəri, Gülriz, Mübərriqə, Busəlik, Bayatı-türk, Dügah, Şəhr-aşub, Şahnaz, Şikəsteyi-fars, Əşiran, Simai-şəms, Tizək, Hicaz, Şah Xətai, Mehdiye-zərrabı

«ŞUR» – 3

Bayatı-kürd, Dəşti, Giləyi, Hacı-Yuni, Sarəng, Dügah, Ruhül-ərvah, Nişibi-fəraz, Bazəm şod

«ŞUR» – 4

Hicaz, Mehdi-zərrabı, Şah Xətayi, Aşıq-Küş, Mənəvi, Gəbri, Naleyi-zənbur, Gövhəri, Baba-Tahir, Sarəng, Məsnəvi

«ŞUR» – 5

Mayə, Dəraməd, Cüdayi, Gərayi, Gövhəri, Gülriz, Mübərriqə, Muyə, Busəlik, Bayatı-türk, Şəhraşub, Dügah, Ruhül-ərvah, Zəmin-xara, Şikəsteyi-fars, Əşiran, Simayi-şəms, Tizək, Hicaz, Şah Xətayi, Mavərənnəhr, Mehdi Zərrabi, Gəbri, Mənəvi, Sarəng, Dügah, Ruhül-ərvah, Nişibi-fəraz, Hezare-ərak, Hezare-Azərbaycan, Mübərriqə, Muyə, Novruz-əcəm, Əbülçəp, Bayatı-Şiraz, Şəhri-Tehrani, Hacı-Yuni, Rak-hindi, Nişibi-fəraz, Təxti-Kavus, Bazəm-şur

«SEGAH» – 1

Segah, Məzayer, Zabol, Hissar, Müxalif, Xocəstə, Novruz-səba, Gərayili-novruz, Busəlik, Mənsuri, Ruhül-ərvah, Zəmin-xara, Məvərənnəhr, Hicaz, Ləhni-ərəb, Bəstə-nigar, Şüştəri, Şüştər-bəstan, Şüştər-sarəng, Şüştər-əsl, Bazəm segah tamam şod

«SEGAH» – 2

Hicaz, Ləhni-ərəb, Bəstə-nigar, Şüştər, Şüştər-bəstan, Şüştər-sarəng, Şüştər-əsl, Şüştər-bəstan, Segah

«ZABOL»

Zabol, Hissar, Hissar-müxalif, Xocəstə, Busəlik, Novruz-səba, Pəhləvi, Gərayili-Novruz, Mənsuri, Ruhül-ərvah, Ruh-pərvər, Ruh-əfza, Bayatı-Qacar, Bayatı-Türk, Sarənc, Zəmin-xarə, Rəng, Şəhri-Mavərənnəhr, Hicaz-əcəm, Ləhni-ərəb, Bəstə-nigar, Şüştər-əsil, Şüştər-sarəng, Şüştəri, Şüştər-bəstan, Baz bər səri zabol tamam şod

«ÇAHARGAH»

Çahargah, Zabol, Müxalif, Zabol-ovc, Mənsuri, Bayatı-türk, Bayatı-Qacar, Sarəng, Zəmin-xara, Zəng-bari, Mavərənnəhr, Hicaz-əcəm, Ləhni-ərəb, Bəstə-nigar, Şüştər-əsl, Şüştər-sarəng, Şüştəri, Şüştər-bəstam, Bazəm-çahargah tamam şod

«HÜMAYUN»

Hümayun, Novruz-xara, Tərkib, Üzzal, Bəhri-təvil, Rak-hindi, Məsnəvi-səğir, Suzi-güdaz, Pəhləvi, Bəhri-Vəli, Mənəvi, Heydəri, Novruz-səba, Gərayili-novruz, Şəhr-aşub, Novruz-ərəb, Hicaz-ərəbi, Ey-Sariban, Məcnuni, Eyzən bayatı-türk, Şikəsteyi-fars, Hüseyni, Bayatı-feyli, Hümayun

«DÜGAH»

Dügah, Rak-dügah, Novruz-əcəm, Bayatı-Qacar, Əşiran, Segah, Məzayer, Zabol, Hissar, Müxalif, Xocastə, Busəlik, Novruz-səba, Gərayili-novruz, Busəlik, Mənsuri, Ruhül-ərvah, Zəmin-xara, Zəng-bari, Mavərənnəhr, Hicaz, Ləhni-ərəb, Sarəng, Bəstə-nigar, Bayatı-Qacar, Şüştəri, Şüştəri-bəstan, Şüştəri-sarəng, Şüştər-əsil, Segah

«RAHAB»

Rahab, Nəva, Nişapur, Şahnaz-mənsur, Müalif, Müxalif, Hüseyni, Mübərriqə, Səlmək, Rahib, Bal-kəbutər, Dilsuz, Rahab

«MAHUR»

Mahur, Rak, Məsihi, Xarəzmiyyə, Əmiri, Üşşaq, Xocəstə, Novruz-səba, Gərayili-novruz, Rəhavi, Kabuli, Heyratı, Rak-hindi, Feyli, Əşiran, Mahur

«HEYDƏRİ»

Heydəri, Novruz-səba, Gərayili-novruz, Şəhraşub, Novruz-ərəb, Hicaz-ərəb, Ey sariban, Məcnuni, Bayatı-türk, Eyzən bayatı-türk, Şikəsteyi-fars, Şikəsteyi-səlyan, Eyzən şikəsteyi-səlyan

Bizim ailənin musiqiyə, sənətkara hörməti böyük idi. Bir onu deyim ki, məşhur kamançaçı Mirzə Səttar ömrünün son 11 ilini bizim evdə yaşayıb.

Badi-Kubəyə ilk dəfə kamançanı Mirzə Səttar gətirib. O, ilk kamançaçı olub. 1844-cü ildə Ərdəbildə doğulub Mirzə Səttar. Ərdəbildə Mirsaleh adlı bir müctəhidlə qonşu imiş. Bir gün bu müctəhid çağırır Mirzə Səttarı evinə. Mirzə Səttar gedib salam verir. Müctəhid deyir ki, salamın lazım deyil. Sən mənə qonşusan, özü də kamançan əlindən düşmür, şeytançün çalışırsan. Mənsə Allah yolunda canımı qoyuram. Ya gərək mən burdan köçüm, ya sən. Əlbəttə, mən köçən deyiləm. Sabahdan yığış, hara gedirsən get. Yoxsa səni qazamata atdıraram. Bu müctəhid Mirsaleh Ərdəbildə çox hökmlü adam imiş. Qılıncının dalı da, qabağı da kəsirmiş. Mirzə Səttar şəhərdən çıxmalı olur. Qaçır Nəminə. Burda yaxşı bir mütrübü (rəqqas – red.) varmış. Onu da götürüb gəlir Səlyana. Ötənlərdə mütrüblər əlvan ipək parçadan don, bir də narın tikilmiş şalvar geyərdilər. Saçları çiyinlərinə qədər uzanardı. 12 yaşından başlayıb, 19-20 yaşlarında bu sənəti tərk edərdilər (1910-12-ci illərə qədər toylarda mütrüblər oynayardı – red.) .

Mirzə Səttar Səlyanda iki ay yaşayır. Az vaxtda hamının hörmətini qazanır. Ancaq mütrüb naxoşlayır, ölür, Mirzə Səttar da Səlyanda qala bilməyib, 1879-cu ildə gəlir Badi-Kubəyə.



Xanəndə Əbdülbağı Zülalov (Bülbülcan) öz dəstəsi ilə

Onun kimi ədib, musiqar, kamançaçalanı nə İran görüb, nə də Qafqaz. Fars, ərəb, türkcəni mükəmməl oxumuşdu. Ucaboylu, bədəncə arıq idi. Sağ qıçının dabanı bir az yerə çatmırdı. Odur ki, pəncəsi üstə gəzərdi. Qələmi papaq qoyardı. Çox incə zövqü vardı – uzun don, uzun çuxa, tirmə döşlük geyinər, çiyninə əba salardı.

Mirzə Səttarın kamançası bu biri kamançalardan seçilərdi. Kamançasının çanağı o birilərdən bir yarım böyük, qolu da uzundu. Elə bu səbəbdən qəmçiri (kəmanə – red.) də bu birilərdən uzun idi. Toylarda kəndlilər onu görcək, ay Mirzə, çıxart o alaqarpızı, bir az çal, deyərdilər. Mirzə Səttarın kamançasının çanağı bir mili ağ, bir mili qara sümükdən idi. Lap alaqarpıza oxşayırdı. Camaat da ona görə belə deyirdi.

Mirzə Səttar 11 il bizim evdə yaşadı. Sonra iki mütrüb düzəltdi. Buna görə də köçüb, Məhəmməd bəyin karvansarasında, Qubernskaya-Torqovaya (Nizami küçəsi – red.) küçəsində yer götürdü. Sonradan ora Şərq mehmanxanası oldu.

Tez-tez atam onu bağa aparardı. Yaxşı bir otaq ayırmışdı onunçün. Böyük qardaşım Ağahüseyni də ustada xidmətkar vermişdi. Mirzə Səttar 3 ay bağımızda olardı. Bağda olanda gecələr, saat 1-də, 2-də başlardı kamançasını çalmağa. Qonşular çıxıb, qulaq verərdilər. Mirzə Səttar qapını





Məşədi Süleyman bəy Mansurov, Lazar Ter-Vartanesov,
Arşak Xıdırov və keşiş qızı Marqo (1908)





Sağdan: Məşədi Hüseynqulu Ramazanov, Mirzə Mənsur, Məşədi Süleyman Mansurov, Allahyar Ağa Zülqədərov və doktor Qara Qarabekov (Sankt Peterburq, 1 mart 1908)

bağlatdırardı ki, namərbud adamlar gəlməsin. Atam xəhiş edərdi ki, icazə ver, qapını açım, yazıqdırlar, qoy gəlib, içəridə oturub, qulaq assınlar. Atam samovar qoyardı, gələnlərə çay verərdi. Mirzə Səttar kamançasını çalar, başına gələnlərdən nağıl edərdi. Deyərdi ki, bir dəfə Ərdəbildə olanda, gördüm birisi gəlib ki, bəs məni Nəmin xanı göndərib. Səni görmək istəyir, kamançanı da özünlə götür. Dedim, a bala, mən çolaq adamam, necə gedim. Hədə-qorxu gəldi. Uzun sözün qısası, gedib gördüm xan çox kök bir adamdır. Özü də, deyən sərxoşdu, arxası üstə uzanıb. Nökərlərin biri

əllərini, biri ayaqlarını ovurdu. Şərab şüşələri, meyvələr düzülmüşdü. Bir stəkan çay gətirdilər. İçdim. Xan dedi, ustad, kamançanı köklə. Dedim, nə buyursuz, dedi, nə istəyirsən, çal. Çahargah çaldım. Soruşdu ki, bu nə idi çaldın. Dedim, Çahargah. Gördüm, yox, deyən xoşuna gəlməyib. Dedi, bir şey də çal. Bu səfər Şur başladım. Hər nə hava var, qarışdırdım. Şuru bir-iki saat uzatdım. Durdu ayağa, dedi bu nə idi? Dedim, Hezargah. Dedi, hə, bu başqa məsələ. Çahargah dördcə guşədir, amma hezar mindi, min. Mənim şənimə Hezargah yaraşır. Sonra da buyurdu pişxidmətlərə ki, mənə bir yaxşı tirmə, bir də öz atını bağışlasınlar. 25 tümən də pul verdi. Gələn kimi, atı satdım. Bildim ki, bunun dalınca adam göndərəcək. Doğrudan da, xan səhər ayılan kimi, adam göndərmişdi ki, bəs, atı versin...

Mirzə Səttar Ərdəbildən çıxanda imkanı olmamışdı ki, arvad-uşağını da götürsün. Odur ki, tez-tez belə şerlər deyərdi:

Badi-səba, tərəqqim eylə binəvalərə,
Ərzim yetir Vətəndə olan aşinalərə.
Qəm çəkmə, sevdiyim, sənə qəm çəkmək heyifdir,
Qəm bəxşi ver, mənim kimi bəxti-qarələrə.



Xanəndə Seyid Şuşinski öz dəstəsi ilə

Badi-Kubədə Bəylər adında bir yaxşı tarzən olub. Tehranda təhsil almışdı. Mirzə Səttar Səlyandan Badi-Kubəyə gələndə, Bəylər Şamaxıda Mahmud ağanın qonağı idi...

Bəylərin gözəl tar çalmaq sorağını eşidən Mirzə Səttar onu dinləmək qərarına gəlir. Gedir Nikolayevski küçəyə, Hacı Ağanın mehmanxanasına. Yuxarı mərtəbədə Bəylərin otağının qonşuluğunda bir otaq tutur. Dalandara da pul verir ki, nəbada Bəylərə deyəsən ki, bu adda, bu nişanda adam var burda. Çünki ürəyinə damıbmış ki, sorağını eşidən təki Bəylər də onu axtaracaq.

On gün keçir. Bir gecə Mirzə Səttar çay qoyub, kamançasını da kökləyir. Özü üçün bir tamam dəstgah Rast çalır. Kamançanı yerə qoyub, çayı içməyə başlayanda, eşidir ki, qonşu otaqdan tar səsi gəlir. Rastı nə sayaq çalıbsa, elə o cürə də tar çalır. O saat bilir ki, bu, Bəylərdir. Elə o gecə ilk dəfə görüşürlər. Sonralar möhkəm dost olurlar.

Mirzə Səttarın kamançasının çanağı qolundan vint ilə asılardı. Aşıqları da vintlə açılıb-bağlanardı. Mənzilində olanda kamançanı söküb qoyardı bir yana. Ona görə ki, hər gələn deyərdi, Mirzə Səttar, bizim üçün bir şey çal. O da sökülmüş kamançanı göstərib deyərdi ki, kamança xarab olub, düzəltdirəcəyəm. Sonra nə desəz, çalaram.



Xanəndə Ələsgər Abdullayev, tarzən Şirin Axundov, kamançaçı Levon Qaraxanov

Mirzə Səttar bir neçə kamil musiqiçi də yetişdirib. Onlardan biri «Salik« təxəllüsü ilə şerlər yazan Mirzə Ağakərim Hacı Zeynal oğlu, ikincisi Qiyas Sabunçulu, üçüncüsü Fərəc Rzayev olub...

1923-cü ildə Saşa Oqanezaşvili gəldi Badi-Kubəyə ki, bəs Tiflisdə Konservatoriyada qulluq edirəm. Gürcü hökuməti 25 min rubl verib mənə ki, Mirzə Səttarın kamançasını muzey üçün alım. O vaxt Mirzə Səttarın Bakıda olan qardaşı oğlu kamançanı təmənnasız Saşaya verməyə boyun oldu. Bu şərtlə ki, gedib kamançanı Ərdəbildən gətirmək üçün ona bir adam qoşsunlar. Saşa Oqanezaşvili Tiflisə gəlib Mirzə Səttarın kamançasını və əlyazmalarını Ərdəbildən gətirtmək üçün adam yollamalı idi. Gətirdimi kamançanı, gətirmədimi, xəbərim olmadı. Onu deyə bilərəm ki, Mirzə Səttar ömrünü Badi-Kubədə, bizim evdə başa vurdu. Kamança çalmaqda da, ustadlıqda da tayı-bərabəri olmadı.



Saşa Oqanazişvili (1905)

Badi-kubədə məşhur oxuyan **Kəbleyi Ağabala Ağasəid oğlu** (1860-1928) Nijni Naqornı küçəsi ilə Suraxanski küçəsinin tinində yaşayırdı. Birinci xoşsövt (xoşsəs – red.): çox yaxşı musiqar, nəhayət mərtəbədə yaxşı oxuyandı. Onun vaxtında ona bərabər oxuyan yox idi, heç ola da bilməzdi. Müflisləşmiş tacir idi. 1927-ci ildə şəkər naxoşluğundan öldü. O qədər imkanı yox idi ki, özünü müalicə elətdirsin. Neçə illər dövlətlilər onu dəvət edirdilər ki, oxusun, amma pul vermirdilər. Axırda onun pis halında həmin dövlətlilər heç bir köməklik etmədi. O biçarə də nahaq yerə öldü-getdi. Üç qızı, bir oğlu qaldı.

Ağabalaya çox pul verirdilər ki, getsin toylarda oxusun. Gecəsinə 200-300 manat Ağabalaya pul verirdilər, getmirdi toylara oxumağa. Fəqət öz aşnasının, sevdiyi adamın məclisində pulsuz oxuyurdu.

Bir dəfə Sadıqcan gəlir Badi-Kubəyə. Ağabalanın cavan vaxtı olur. Sadıqcan Ağabalanı heç görməyibmiş. Bir məclisdə Sadıqcana Şur çaldırır Ağabala. Çox nəhayət mərtəbədə yaxşı oxuyur. Məhəmməd Hənifə xan öz qızıl saatını çıxarıb, bağışlayır Ağabalaya. Ağabala razılıq eləyir, amma saatı götürmür. Sadıqcan çox təvəqqe eləyir Ağabaladan ki, gedək mənimlə Tiflisə, bir il mənimlə Tiflisdə oxuyarsan, sonra gəlib Badi-Kubədə iki gəmi alarıq: biri sənin, biri mənim. Ağabala deyir Sadıqcana ki, bu oxumaq ki, mən də var, istəsəm, paraxod alaram. Amma mənə nə gəmi lazımdır, nə də paraxod. Hələ bu insanlığı ki, mən tapmışam, bu tamam dünyaya dəyər ki, mənsiz bir məclis



Ağabala Ağasəid oğlu

keçmir. Mənsiz aşnalarım, dostlarım yeyib-içmirlər. Mənə bu kifayətdir ki, bu mərtəbəyə yetirmişəm özümü.

Badi-Kubədə **Mirzə Ağakərim Hacı Zeynal oğlu** (1843-1899) var idi. Özü də Badi-Kubəli idi, musiqar idi, tamam-kamal idi. Mirzə Səttardan təlim almışdı. Bir neçə ilə muğamı mükəmməl öyrənmişdi. Səsi kiçik idi. Amma onun oxumağı çox xoş gəlirdi qulaq asanlara. Çox da xoşəxlaq adam idi. Nə qədər ki, mülkü, hamamı var idi, hamısını satdı, yedirtdi kasıb oxuyanlara və qərib adamlara. Oxuyanlar, kamançalanlar, tarzənlər Serkovnı-Bazarnı küçənin tinində Məhəmməd bəy Səlimxanovun karvansarasında olurdular. Mirzə Ağakərim hər gün gedib onların nə ehtiyacları olsaydı, işlərini düzəldərdi. Çox yaxşı adam idi. «Təbi-şeri» də var idi (yaxşı şer deyən idi – red.). Təxəllüsü «Salik» idi. Onun vəfatı 1899-cu ildə 56 yaşında oldu. Evləri Desistan küçəsində (Əli Bayramov küçəsi – red.) idi. Oxuyanlar da hamısı ondan qorxardılar, o qədər ki, ali-müharibəsi var idi (musiqidə və savadda çox mükəmməl idi - red.).

Badi-Kubədə yaxşı oxuyanlardan biri **Ürri İsgəndər** idi. Əvvəl hamamda cumadar (kisəçi – red.) idi. Çünki səsi var idi, qövs elədi, oxumağı Mirzə Ağakərimdən öyrəndi. 1899-cu ildə 60 yaşında rəhmətə getdi.

Badi-Kubədə yaxşı musiqar, tamam-kamal tarzənlərdən biri **Fərəc Rzayev** idi. O, kamançaçı Mirzə Səttarla bərabər yaxşı tar çalardı. Oxuyanlar onu həmişə sevərdilər, çünki onları yaxşı oxutdururdu. Badi-Kubədə hər nə böyük toylar və qonaqlıqlar olsaydı, orda Fərəc vardı. Yaxşı biliyinə görə, muğamı dürüst ifasına görə, ona Mirzə deyərdilər. Bütün tarçalanlar ondan çəkinərdilər. Çünki biliyinə söz yox idi. Mirzə Fərəc 1922-ci ildə 65 yaşında Badi-Kubədə vəfat edib.

Mirzəağa Hacı Ağababa oğlu Badi-Kubədə lap yaxşı oxuyan idi. Çox ürəkdən oxuyardı. Musiqini də mükəmməl bilirdi. «Do» kökündə oxuyurdu. Mayəsini, miyanəxanəsini, zilini – hamısını düz oxuyardı. Evləri «Kommunist» küçəsində, aşağı məhəllədəydi. 1926-cı ildə 60 yaşında rəhmətə gedib.

Bir dəfə mənim dostum Badi-Kubəli Arşak Xıdırov bizi qonaq eləmişdi. Mən idim, Xalıq idi, Hacı Yaqub oğlu idi, qardaşım Mansur idi, bir də Allahverdi Manafov idi. Sonra Hacı Məhəmmədkərim Ramazanov gəldi. Arşak dəvət etmişdi tarçalan Qurban Primovu, Cabbar Qaryağdıoğlunu. Cabbarın yanında bir uşaq var idi, onu özü ilə hər yerə aparırdı. Cabbar başladı, istədi Şur oxusun. Çaldılar, oxudular. Qurban necə ki, tarı qoydu yerə, məclis adamları xahiş etdilər ki, Mansur çalsın, Mirzəağa oxusun. O saat Mansur tarı götürdü. Başladı Şurun Hicaz pərdəsindən

çalmağa. Bu bir tar çaldı ki, ev tərpəndi. Qurban Mansura dedi ki, a başına dönüm, tarım indi sınar. Mansur qayıtdı ki, ondan qorxma, ustad əlidir. Mirzəağa da başladı Hicazı oxumağa. Tamam nə ki, lazımdır, Mansur çaldı, Mirzəağa oxudu. Cabbar Qaryağdıoğlu öz qavalını çevirdi torbasına, Qurbana dedi: İndi mən gedim, sən özün bilərsən.

Badi-Kubənin bütün xanəndələri elə oxuyan olublar ki, qeyri-yerdən gələn heç bir oxuyan burda qala bilməyib. Məclislərdə də musiqini dərin bilən şəxslər olurdu. Elə ki, bir guşə, yainki bir zəngulə, yainki muğamın özü düz oxunub-çalınmırdı, o şəxslər musiqiçilərə deyirdi: Saxla tarı, filan yeri düz deyil. Təzədən çalıb-oxuyun. Onlar da təzədən çalıb-oxuyurdu. Amma Mirzəağa Hacı Ağababa oğlu elə oxuyurdu ki, daha bunun oxumağına söz-filan yox idi.

Məşədi Dadaşın Qarabağda bəzzaz (parça – red.) dükanı var idi. Bir gün getdim Qarabağa. Mənə çox hörmət etdilər. Hər gün, hər gecə qonaqlıqda oldum. Söhbət düşdü ki, Məşədi Dadaş kimi Segah oxuyan Qarabağda nə olub, nə də olacaq. Dedim ki, Badi-Kubədə bizim Kəbleyi Ağabalanı görmüsüz? Dedilər ki, Ağabala Məşədi Dadaşın yanında ağzını açıb oxuya bilməz. Mənə çox toxundu bunların sözü. Dedim onlara ki, Məşədi Dadaşı Badi-Kubəyə gətirə bilərsiz? Dedilər ki, gətirərik. Qayıtdım ki, mən gedirəm Badi-Kubəyə, teleqraf vuraram, gələrsiz.





Mirzə Mansur bəy Mansurov (1918)

Gəldim Badi-Kubəyə. 3-4 gündən sonra teleqraf vurdum. Beş nəfər bəy, Məşədi Dadaşla gəldilər Badi-Kubəyə. Bunları apardım evə, sonra Ağabalaya xəbər göndərdim ki, səndən bi-izn (icazəsiz – red.) Məşədi Dadaşı gətirmişəm Badi-Kubəyə ki, sənlə Segah oxusun. Ağabala dedi ki, lap yaxşı eləmisən, Məşədi Süleyman. Mən özüm də gedərdim.

Sabahı günorta yığışdıq bizə. Ağabala da gəldi, Məşədi Dadaşla tanış oldular. Məşədi Zeynalı da dəvət etdik ki, tar çalsın. Zeynal tarı köklədi Segah çalmağa. Ağabala təklif etdi ki, əvvəl qonaq oxusun. Məşədi Dadaş qayıtdı ki, Ağabala gərək oxusun. Mən qabaqcan oxumuram. Xülasə, Ağabala başladı oxumağa, Məşədi Dadaşın rəngi qaçdı, gördü ki, çox böyük səhv edib. Ağabalanın Segahı heç bu segahlardan deyil. Ağabala da Məşədi Dadaşa görə lap yaxşı oxudu. Bir yarım saat keçdi, Məşədi Dadaşa dedik ki, indi növbə sizindir. Məşədi Dadaş cavab verdi ki, mən Ağabalanın Segahının üstündən oxumaram və oxuya da bilmərəm. Tamam Azərbaycanda Ağabala kimi oxuyan nə var, nə də ola bilər.

Məşədi Dadaş bir üç gün qaldı bizdə və dostum Mirzənin (Şəmsi Əsədullayevin oğlu – red.) evində, sonra qayıtdı Qarabağa.

Onun kimi çox oxuyan gəldi Badi-Kubəyə, ancaq Ağabala ilə heç kim bacarmadı.

Badi-Kubədə **miyanə oxuyanlar** da var idi. Bunlardan üç-dördünün adı yadımdadır. Əziz Məhəmməd nəvəsi Məhəmmədqulu, Xiləli Hacı Məlik Heydər Muğməl, sonra Qala kəndindən Kəbleyi Eldar. Bunların oxumağı orta idi. Elə bil özləri üçün oxuyurdular. Dürüst və xoş oxuyanların yanında oturmazdılar.

Tarçalan Lazar ki, var idi Badi-Kubədə, onun nəsli Qarabağdan idi. Keşiş oğlu idi. Cavan vaxtlarından tar çalmağı yaxşı öyrənir. Bir neçə toyda və qonaqlıqlarda çalır, fikir eləyir ki, mən bir dəstə düzəldim, oxuyan, kamançaçalan, qayda-qanunla gedim toylara, çalıb-oxuyaq, pul qazanaq. Üç-dörd il qalır Qarabağda. Eşidir ki, Badi-Kubədə oxuyub-çalanların yaxşı hörməti var. Yaxşı musiqişünaslar var. Yığışıb gəlir Badi-Kubəyə.

Burda cürbəcür xanəndələrlə gedir toylara, məşhur olur. Mirzə Fərəcdən və oxuyan Ağabaladan, Ağakərimdən mükəmməl musiqi öyrənir.



Məşədi Süleyman bəy Mansurov və Hüseyn bəy Xanlarov. Vyana, Avstriya (1909)



Məşədi Süleyman bəy Mansurovun maliyyə dəstəyi ilə
Lazar Ter-Vartanesovun Bakıda yaratdığı orkestr (1905)

Sonra Lazarın Moses adlı kamançaçalan dostu var idi. Şəki ermənisi idi. Bir gecə toydan sonra Lazar Moseslə sözləşir, bilmirəm nə üstə tarını yerə vurub sındırır. Mosesə deyir ki, Badi-Kubəlilər yaxşı deyiblər ki, şərəfli adamla oturub-durmaq lazımdır ki, özün də şərəfli olasan. Mən sənin kimi bişərəf, binamusla oturub-durmayacağam.

Bir neçə gündən sonra Lazar bir dükan açır. Tramvay vağzalının yerində içki satır. Badi-Kubənin yaxşı musiqişünaslarının və oxuyanlarının Lazara heyfi gəlir. Bunun üçün də onu məclislərə qonaq dəvət edirlər. Amma başa salırlar ki, Badi-Kubədə onun çalğısı yaramaz. Burada eyzən musiqi istəyirlər. Ona görə də Lazar bir neçə vaxt Mirzə Fərəcdən dərs alır.

1902-ci ildə Lazarın Kömür meydanının qabağında, qazamatın yanında karvansarası var idi. Mən öz dostlarımla ora tez-tez gedib, çalıb oxuyardıq. Mən babat tar çalardım özüm üçün. Azərbaycanda hər nə çalıb oxuyan vardı, sağ olsunlar, hörmətimi saxlayardılar. Lazar da mənə tez-tez deyərdi ki, bu qədər ki, mən tar çalmağı öyrənmişəm, sənin çalğına çata bilmirəm. Bir dəfə də mən Bayatı-Şirazı çalırdım, Mirzə Fərəc gəlib çıxdı. Dedi, sağ ol, Məşədi Süleyman, nə yaxşı çalırsan. Mirzə Fərəc çox paxıl idi. Lazar dedi ki,bu o,«sağolu» paxıllıqdan deyir.

Bir gün mən Lazarı Sadıqcanla tanış etdim. Lazar bu böyük ustaddan çox şey öyrəndi. Demək olar ki, Lazarın çalğısının tamamı hamısı Sadıqcanın qoyduğu yoldur.

1905-ci ildə Lazar, müəllim tutdu notu öyrənməyə. Sonra mənə dedi ki, istəyirəm birinci tar orkestri düzəldim, konsert verim. Bir az pul lazımdır. Soruşdum, nə qədər, dedi, 500 manat. Mən düzəltdim, verdim ona. Dörd dükan aldıq – Balaxanski küçənin döngəsində (Əzizbəyov adına doğum evi – red.). Dükanların arasını açdıq, bir böyük zal elədik. Başdan-başa skamyalar düzdük. Lazar burada üç ay çalışdı. Mən də bütün köməkliyimi elədim. Tağıyevin teatrında afişa verdim. Çox camaat gəldi. Mənim atam qoca kişi idi, o da gəlmişdi. Konsertdə Lazar özü çıxıb, tək Çahargah çaldı. Yaxşı çaldı. Axırda da, tarda solo Şüştər çaldı.

Bir gün mənə xəbər gəldi ki, Lazar bərk naxoşdu. Gəldim gördüm ki, halı pisdir. Davud adlı bir qohumu Lazara qulluq edirdi. Davud mənə dedi ki, dünən Lazar keşiş çağırtdırıb evə, deyib ki, mən vəsiyyət eləyirəm, kağız yaz, qol çəkim. Yaz: bu evdə nə ki var, Süleyman Mansurovundur. Keşiş deyib ki, sənin fərraşların var, qoy onlar üçün qalsın. Lazar qayıdıb ki, mənim fərraşım, qohumum, atam, anam, həmısı Süleyman Mansurovdur. Mən ki, bu günə gəlmişəm, hər şeyə görə Süleymana borcluyam. Keşiş də naəlac bu vəsiyyətnaməni yazıb. Mən vəsiyyətnaməni alıb cırdım. Lazarı götürüb apardım Şüvalana, bağımıza. Atam bir yaxşı otaq düzəltdi. Lazarın xəstəliyi yatalaq idi. Çox zəhmətdən sonra iki aya onu sağaltdıq. Bir ay da saxladıq ki, lap yaxşı əmələ gəlsin. Sonra gətirdim şəhərə, öz evinə. Bir-iki il keçəndən sonra erməni daşnakları Lazara kağız yazdılar ki, 3000 manat pul göndər. Lazar təəccüb qaldı ki, mən kasıb adamam, daşnaklar nə fikir edir? O, pulu göndərmədi. Əvəzində xəbər göndərdi daşnaklara ki, bəsdir, əclaflıq elədiniz, mən Badi-Kubəliyəm, heç erməni deyiləm, sizinlə də heç bir alış-verişim yoxdur. Onun bu hərəkətindən sonra daşnaklar Badi-Kubədə çoxlu adam öldürdülər. Hər gün 5-6 adam öldürürdülər. Lazar fikir elədi ki, Badi-Kubədən köçsün. Atam ona dedi ki, gəl, qal bizim evimizdə. Bir kişi sənə əziyyət eləyə bilməz. Lazar dedi ki, Məşədi, çox sağ ol, onsuz da mən sizdən çox xəcalətliyəm. Doqquz ildir, gecə-gündüz sizdə oluram. Gərək özüm qazanam, yeyəm. Mən burda



Məşədi Süleyman bəy Mansurovun dostu Xəlil bəyin ona yazdağa məktub (1898)

qalmayacağam. Atam soruşdu Lazardan ki, hara istyirsən getməyə? O dedi ki, Kiyevə gedəcəyəm. Atam 1500 manat mənə pul verdi. Dedi ki, Lazarla get Kiyevə. Bir dükan al Lazar üçün. Dalında otağı olsun ki, rahat olsun onun üçün. Orada yaşayar. Getdik Kiyevə, düşdük mehmanxanaya, üç-dörd günə yaxşı dükan aldım, malı da içində – qastronom dükanı. Dalında da otağı. Mən orada on gün qaldım. Lazar məni Badi-Kubəyə yola salanda, vağzalda çox ağladı. Jandarmlardan xahiş etdim ki, onu evinə yola salsınlar. Xülasə, üç aydan sonra qardaşım Mansurla getdik Lazarın yanına. Dükanda bizi görəndə o qədər ağladı ki, biixtiyar oldu. Bir neçə gün onun yanında qalıb, yenə qayıtdıq Badi-Kubəyə. Səkkiz aydan sonra yenə Mansurla getdik Lazarın yanına... Bu adamın əsli erməni idi. Amma azərbaycanlılardan, xüsusən də badi-kubəlilərdən o qədər yaxşılıq görmüşdü ki, özünü badi-kubəli hesab edirdi. Badi-Kubənin, yerli camaatın çörəyini yemişdi, suyunu içmişdi. Özünkülərdən nə görmüşdü ki? Erməni daşnakları ermənіyə, azərbaycanlıya, qeyri millətlərə əzab verməkdən başqa heç nə bilmirdilər. Lazar da bunu başa düşürdü və həmişə deyirdi ki, mən azərbaycanlıların çörəyini yemişəm.

Bəylər azərbaycanlı idi. Tehrana gedib təlim almışdı, Bir ucaboylu adam idi, papaq qələmi, don atlas, qollu çuxa əynində, ayağında çəkmə, yaxşı farsı və türkü elmi var idi. Musiqi elminin tamam təlimini almışdı. Çox yaxşı tar çalardı, yaxşı da piano çalardı. Bizim qonşumuz idi. Bir Mirzəyev var idi. Çox dövlətli adam idi. Mənim əmimdən təvəqqe edərdi ki, Bəylərə icazə verin, bu gecə gəlsin bizim evə, piano çalsın. Bəylər, əmim Məşədi İsmayılla gedərdilər. Bəylər başlardı çalmağa, camaat dolardı evin qabağına, çünki evin qabağı meydandı. İndi də o meydan var. Həmin Mirzəyevin evi İçərişəhərdə Bolşoy Krepostnoy (Böyük Qala – red.) küçəsində «Portovıy uçastok» (bərə sahəsi – red.) idi. Bəylər bir neçə il bizim evdə mehman oldu. Yaxşı da dərvişlik dərsini oxumuşdu İranda. Dərviş libası var idi. Hər iki-üç gündə geyinirdi dərviş libasını, keşkülü, təvərzini götürüb gedirdi Bayır şəhərin bazarına. Keşkülü doldururdu pulla, gəlirdi evə. Bir neçə vaxtdan sonra getdi Kutaisə.



Məşədi İsmayıl bəy Mansurov (1871)

Əmim iki il gözlədi, Bəylərdən bir məktub gəlmədi. Sonra əmim özü getdi Kutaisə. Gedir, tapır Bəyləri. Görür ki, bunun evində çox adam var, əmim də əyləşir. Xəbər alır o adamlardan ki, siz bura nə işə gəlmisiniz. Deyirlər ki, bu ev yiyəsi birinci həkimdir. Bir saatdan sonra Bəylər çıxır zala. Görür ki, bir adam əyləşib, tanımır. Əmim durur ayağa, deyir ki, ay utanmaz, tanımırsan məni? Bəylər o saat əmimi tanıyır, görüşüb öpüşürlər. Bir ay əmimi qonaq saxlayır və küçə qapısında yazır ki, bir ay naxoş qəbul eləmirəm. Bir gün əmim



soruşur Bəylərdən ki, tarın yoxdur, ya gözümə dəymir? Bəylər qayıdır ki, çarpayımın altına bax. Çarpayının altında iki dənə tar olur. Bəylər tarın birini götürüb yaxşı çalır. Əmim deyirdi ki, bir ay ki orada qaldım, hər gün yaxşı qonaqlıqlar elədilər, çox hörmət-ehtiram gördüm. Bəylərdən soruşdum ki, necə oldu, sən həkim oldun? Dedi ki, bir gecə mənim anam naxoşladı. Getdim həkim üçün. Həkim gəlmədi. Hər cür yalvardım, gəlmədi. Mənim də acığım tutdu, dedim özüm-özümə ki, həkimlik oxuyacağam. Oxudum, oxudum, öyrəndim. Evə xəstələr gələndə o vaxt üç manat verirdilər Bəylərə.

Bir aydan sonra gəldim Badi-Kubəyə. Bir il yarımdan sonra Bəylər vəfat etdi. 1873-cü ildə Kutaisdə öləndə tapşırır ki, mənim tarımı apararsınız Badi-Kubəyə, Məşədi İsmayıl Mansurov üçün yadigar. Həmin tar ki, əmim vəfat edəndən sonra mən o tarın üstündə dərs almışam. Bir neçə ildən sonra düşdü mıxdan, parçalandı.

Badi-Kubədə Mirzə Səttarın vaxtında **Əli Şirazi** adında tarzən olub. Əli, balaca adam idi, qırmızı saqqalı vardı. Mən görəndə 50 yaşı olardı. Qollu çuxa və atlas don geyərdi. Farsca danışardı, çox məzlum adam idi və çox ədib, savadlı idi. Bir balaca tarı var idi, qəhvəyi rəngdə. Beş simlə çalardı. Tarı Qafqaza Şirazdan gətirmişdi. Toylara gedirdi. Bir gecə Sadıq Hacı Ələkbər oğlu özünə toy eləyir, Əlini də çağırır. Əli gəlir toyxanaya – Bazarnı və Nikolayevski (Hüsü Hacıyev və İstiqlal küçələri – red.) küçələrinin tininə. Əyləşir. Ürri İsgəndər də orda olur. Əli, bu oxuyanı birinci dəfə orda görür. Tarını kökləyir, «Şur» çalır, Ürri İsgəndər də oxuyur. Hicaz yerinə gələndə İsgəndər çox bərk səslə oxuyur. Əli tarını qoyur yerinə. İsgəndər xahiş edir ki, çal. Əli deyir ki, «pedərsuxte, sənəm xəvanəndə?» Sən çöldə yaxşı adam çağırarsan. Əli çalmır. Axır, başqa oxuyan çağırırlar.



Xanəndə Bülbülcan öz dəstəsi ilə

Əli Şirazi ya Gəncəyə gedir, ya Şəkiyə, yadımda deyil. Məclislərin birində bir xan xəbər alır ki, Əli Şirazidən: «Əli Şirazi Şuşa kü cand?» Əli cavab verir: «Ağa, xeyli nafəhlid, xudeş kü Əli Şirazi, xudeş mi eyrisi kü cand».

Əli Şirazi bir neçə il Badi-Kubədə qaldı. Buradan bir arvad aldı. Bir oğlu oldu, portnoyluq (dərzi – red.) təlimi aldı. Qala qapısında «voennı komissariat» (hərbi kommisarlıq – red.) ilə rubərub (üzbəüz – red.) üçmərtəbə ev var, orda dükanı var idi. Adı Cəfər idi. O da vəfat edib.

Əli Şirazi axırda neçə il Şirvanda Mahmud ağanın yanında qaldı. Mahmud ağanın xoşu gəlirmiş Əlinin ədəbindən, qəmginliyindən və narın çalmağından. Ona görə ömrünün axırına kimi Əli Şirazini yanında saxladı. Mahmud ağa belə qanun qoymuşdu: axşam Əli Şur çalırdı, Mahmud ağa yatırdı. Səhər yuxudan duranda gərək Zabol çalınaydı. Nahar vaxtı Bayatı-İsfahan və Bayatı-Şiraz çalırdı Əli. Ta ki, nahar qurtarana kimi. Axşam çay vaxtı Şüştər çalırdı.

Badi-Kubəyə gələndə Mahmud ağa həmişə Əli Şirazini gətirirdi özü ilə. Əli ömrünü orda, Şirvanda başa vurdu.

Mən Əli Şirazini çox görmüşəm. Şirvana getməmiş Əlini hər cümə günü ana babam Mirzə Baxış dəvət edirdi öz evinə. Mən də babamgildə olardım. Əli gəlib tar çalanda atam Məşədi Məlik onunla kamança çalardı. Babam da əyləşib qulaq verərdi. Hər cümə bu büsat var idi.

İçərişəhərdə bir toy məclisi var idi. Mirzə Səttar o məclisdə kamança çalırdı. Əli Şirazini bir qonaq kimi çağırmışdılar. Çünki qocalmışdı, tar çala bilmirdi. Bu toy məclisində çox təvəqqe elədilər ki, Əli tar çalsın. Əli dedi ki, mən dəxi çala bilmirəm. Olmadı. Getdilər, Əlinin tarını gətirdilər. Əli çox çətinliklə tarı köklədi. Hər cür istədi ki, çala, mizrab düşdü əlindən. Bir mizrab vura bilmədi. Çox ağladı, getdi evə. Tarı da qoydu məclisdə. Sonra tarı apardılar evinə. Amma həmin məclisdə Əli Şiraziyə yaxşı pul payladılar.

Əli Şirazinin yaxşı oxumağı da var idi. Badi-Kubədə olanda çox vaxt gəlib papaqçı Hacıağa kişinin dükanında, üstüörtülü bazarda Cümə məscidinin cərgəsində oturub, Hacıağa ilə həmsöhbət olardı. Çünki Hacıağa pəhləvan Əsgər oğlu çox dünyagörmüş və çox bilikli idi. Ona görə də hər nə hal əhli, dərviş, şair, tarixşünaslar vardı – hamısı Hacıağa kişini tanıyırdılar. Hər gecə gərəkdir ki, Hacıağa kişi atam Məşədi Məliyin otağında olaydı. Mən özüm çox talibdim onun söhbətlərinə. Özü də çox gözəl adam idi. O vaxt 70 yaşda idi. Onun atası məşhur pəhləvan Əsgər Badi-Kubəli idi. İçərişəhərdə Cümə məscidinin qabağında evləri var idi. Hacıağa kişi ömründə molla ilə və qeyri belə molla-biçar adamlar ilə bir saat oturmazdı. Onu ariflərdən sayırdılar və hər nə arif adam var idi, gələrdilər Hacıağa kişinin yanına.



Bakı, İçərişəhər, Şirvanşahlar sarayı. XIX əsrin ortaları



Xan sarayından bir görünüş (1890)

Badi-kubədə içərişəhərli **Məşədi Baldadaş** adında bir nəfər məşhur mümtaz, bimisil oxuyan var imiş. O, özü üçün oxuyarmış, pullu toylara getməzmiş. Baldadaş çox gözəlsurət adam imiş. Qələmi papaq qoyarmış başına, uzun don geyərmiş, döşlük taxarmış və uzun çuxa, qollu atma. Üzünü qırxarmış, başına saç (parik – red.) qoyarmış. Çox yaxşı səsi varmış. Baldadaş kamil musiqar imiş. O, oxuyanda hər kəs ki, eşidərmiş, biixtiyar durub gedərmiş o yerə, harda ki, Baldadaş oxuyarmış. Mən çox dəfələr atamdan, əmimdən soruşardım ki, Baldadaş nə cür oxuyanmış ki, belə tərif edirsiniz. Atam, əmim mənə deyirdilər ki, Məşədi Baldadaşdan nə Qafqazda, nə də İranda ola bilməz. Ona bərabər oxuyan yoxdur. Baldadaş oxuyanda elə bil ki, onun boğazında on dənə bülbül cəh-cəh vurur. On gün oxusa, səsində heç bir təfavüt olmur, daha da yaxşı oxuyur. Bir gün axşama kimi kiminsə yanında oxuya, səsi qulaq asanı dəng eləməzdi. Deyirdilər ki, biz bacarmırıq onu tərif etməyə, gərək Firdovsi sağ olaydı, Məşədi Baldadaşı tərif edəydi.

Hər bahar vaxtı Qoşa qala qapısının üstünü döşəyərlərmiş ki, Baldadaş öz dostları ilə gəlib oxusun. Bir dəfə bir atlı gəlib həmin yerə, deyir: «Keşlədə Məşədi Baldadaşın Bayatı-Şirazını eşitdim. Atı mindim, gəldim.» Çünki Qala qapısından Keşləyə kimi bir dənə dam, ağac yox imiş, ancaq əkin yerləri imiş. Şəhər hələ İçərişəhər imiş. Baldadaş hər vaxt ki, İçərişəhərdə bir hündür yerdə – damda, yainki balkonda oxuyarmış, Bayıldan gəlirmişlər ki, Məşədi Baldadaş Çahargah oxuyur. Özü də mükəmməl oxuyardı, bir nöqtə artıq-əskik oxumazdı.

Badi-Kubədə bir nəfər yaxşı ustad oxuyan var idi. Onun adı Kor Hacı idi. Həmin Kor Hacı danışır Baldadaşın dalıyca ki, mən elə oxuyaram ki, Baldadaşı peçə (sobaya – red.) soxaram. Baldadaşa bu söz gəlib çatır. Deyir ki, eybi yoxdur, məndən böyük kişidir, qoy danışsın. Mən paxıl deyiləm.

Bir neçə gün keçir, yenə bu sözü Kor Hacı deyir. Bu səfər Baldadaşın acığı tutur, deyir mənim atama ki, Məşədi Məlik, bu gecə otağı xəlvət elə, Kor Hacını qonaq çağır. Mənim sözüm var onunla. Atam Kor Hacı üçün xəbər göndərir ki, axşam qavalını götürüb, gəlsin bizim evə. Baldadaş əhvalatı atama deyir ki, əhvalat bu cürdür, mənim dalımca danışıb Kor Hacı. Mən bu biri otaqda gizlənim, Kor Hacıdan xahiş edin ki, Çahargah oxusun. Çünki Hacının Çahargahını heç kəs oxuya bilmirmiş. Hələ ki, Çahargahı qurtarana yaxın mən gələrəm otağa, xoş-beş edərəm ki, bilməsin mən burada olmuşam. Mən də Çahargah oxuyacağam.

Belə də olur. Xoş-beşdən sonra Baldadaş deyir ki, tarın kökünü pozmasınlar, Hacı icazə verirsə, mən də Çahargah oxuyum. Hacı deyir ki, buyuruz. Baldadaş başlayır Çahargaha. Elə oxuyur ki, bizim evin ətrafı tamam camaatla dolur. Hələ Hissar-müxalif yerinə çatanda Kor Hacının bağrı yarılır, istəyir bir bəhanə ilə qaçsın, atam qoymur. Bir xeyli vaxtdan sonra Baldadaş oxuyub qurtarır. Hacıya deyir ki, üzr istəyirəm səndən ki, mən bu cəsarəti etmişəm. Amma sən özün mənim dalımca danışmısan, mən də məcbur oldum ki, sənlə üzbəüz oturub oxuyum. Yoxsa, mən bu günəcən sən olan məclisdə oxumamışam ki, eyibdir, məndən böyüksən. Əmim 10 manat bağışlayır Hacıya, deyir ona ki, böyük həmişə gərək öz hörmətini saxlasın kiçiyin yanında ki, kiçik də ona hörmət eləsin.

Baldadaş Şüvəlanda bizim bağda atamdan xahiş edir ki, tar çalsın. Çıxırlar dama, atam tar çalır, Baldadaş da başlayır oxumağa. Səhər xiləlilər və mərdəkanlılar gəlirlər bizim bağa. Zöhrab Xiləli (Bülbüləli – red.), Kərbəlayi İbrahim Mərdəkanlı deyirlər atama ki, Baldadaş sizdədi? Atam deyir ki, bəli, burdadı. Kərbəlayi İbrahim qayıdır ki, Məşəd Məlik, Baldadaş Bayatı-Şiraz oxuyurdu,



Sahildən Qız qalasının görünüşü



Bakı. Şirvanşahlar sarayından görünüş

özü də filan təsnif ilən. Atam deyir ki, düzdür. Onlar deyir ki, biz bir dəstə əyləşmişdik Mərdəkanda Pirhəsən üstə, gecə saat 12 idi, gördük Baldadaşın səsi gəldi. Bayatı-Şiraz oxuyurdu. Xiləlilər dedilər ki, bu, Baldadaş deyil. Biz mərdəkanlılar da mərc bağladıq bir dənə yaxşı əl qoyunundan. İndi biz apardıq, biz deyən oldu.

Baldadaş Şağan bağlarına Nəsrullah bəyə qonaq gedir. Orda gecə oxuyur. Bir saat keçmir ki, bir neçə nəfər gəlir bunların məclisinə. Deyirlər ki, Buzovnada dərya kənarında əyləşmişdik. Bir də eşitdik ki, Baldadaş oxuyur, qəzəli də filan qəzəldir...

Məşədi Baldadaş hər il gedərmiş Tehrana Şiraz dərsi almağa. 12 il gedib Tehrana. Əvvəl dəfə gedəndə Baldadaş bir gecə öz mənzilində başlayır özü üçün oxumağa. Gecə vaxtı, qərib yer, bu bir dəstgah oxuyur. İki nəfər gəlir Baldadaşın mənzilinə oturur. Bu şəxslər orta yaşda olurlar. Baldadaş bunlar üçün aşpaza çay demək istəyir, razı olmurlar ki, vaxt keçib. Soruşurlar ki, siz haralısız. Deyir, Badi-Kubəliyəm. Bəs, bura nə işə gəlmisiz? Baldadaş deyir ki, dərs almağa. Bu adamlar istəyirlər ki, getsinlər, Baldadaş xəbər alır ki, niyə mənim adımı xəbər almadız? Nigaran qaldım. Cavab verirlər ki, nigaran qalmayın, sabah sizi oxumağa dəvət edəcəklər. Baldadaş deyir ki, mən xavanəndə (xanəndə – red.) deyiləm. Deyirlər ki, biz bilirik ki, siz xavanəndə deyilsiniz, amma sizi o yerə dəvət edəcəklər ki, razı qalacaqsınız. Baldadaşı həmin gecə yuxu aparmır.

Səhər olur, nahar vaxtı bir yaxşı fayton, bir nəfər alicənab gəlir, Baldadaşa deyir: Şah (Nəsrəddin şah – red.) sizi istəyir. Mindirir Baldadaşı faytona, aparır. Şah çox hörmətlə Baldadaşı əyləşdirir. Çaydan sonra şah deyir: Mənim üçün gərək oxuyasan. Baldadaş «bəçeşm» deyib, Bayatı-İsfahan və Bayatı-Şiraz ilən bir yerdə yaxşı farsi qəzəllər və təsniflər oxuyur. Nəhayət mərtəbədə şahın xoşuna gəlir. Şah soruşur ki, neçə ildir Tehrana gəlirsən? Baldadaş bildirir ki, əvvəlinci ildir gəlmişəm. Nə işə gəlmisən? Bəs, Şiraz dərsi alıram, papaq üçün. Şah soruşur ki, heç almısan? Bəli, almışam. Şah bir də soruşur ki, neçə ay burda qalacaqsan? Baldadaş qayıdır ki, üç ayda dəriləri aşılayıram, göndərirəm Ənzəliyə, sonra özüm gedib Ənzəlidə tamojnadan (gömrükdən – red.) çıxarıb göndərirəm Badi-Kubəyə. Şah deyir ki, bu üç ayı burda qalıb, mənə qonaq olacaqsan. Adam göndərirəm, sənin üçün dəri alsın, aşılasın və tay bağlansın, göndərilsin Ənzəli tamojnasına. Bir quruş gömrük verməyəcəsən. Bu işdən xatircəm ol... Üç ay Baldadaş qalır şahın evində, onun üçün nə lazımdır, oxuyur.

Şahın üç oxuyanı varmış. Birisi Seyid Qurab – İranda ondan artıq oxuyan yoxmuş. Çox tərif eləyirlər ki, Seyid Qurab bimisil oxuyandır. Bu üç ayın vaxtında Baldadaş deyir ki, bircə dəfə Seyid Qurabı oxutdular, hələ bir-iki ağız oxudu, şah qayıtdı ki, tamamla. Seyid Qurab durdu, getdi öz otağına. Şah mənə buyurdu ki, o nə istəyirdi oxusun, onu sən oxu. Dedim, bəçeşm. Seyid Qurab Nəva-Nişapur və Hümayun istəyirdi oxusun. Elə bilirmiş ki, Badi-Kubədə Nəva-Nişapur və Hümayun bilməzlər. Necə ki, oxudum, qurtardım, şah mənə «mərhəba, mərhəba» dedi.



Bakı. Qala divarları



Xanəndə Keçəçioğlu Məhəmməd, tarzən Qurban Primov, kamançaçı Saşa Oqanezaşvili

Bu üç ayı elə bildim ki, üç gündür burdayam. Üç kərə Şimrana getdik. Şimran da behiştin bir guşəsidi. Vaxt gəldi başa, şah və külfəti məni yola saldı. Nə qədər mənə ənam, xələtlər, külfətimçün xəz küləcə, daha nələr bağışladılar. Bir yaxşı faytonda gəldim Ənzəliyə. Şahın xidmətçilərindən biri də mənimlə bahəm gəldi. Təmamən dəriləri gömrüksüz çıxartdı, verdi paroxoda, məni yola salıb, özü qayıtdı Tehrana. Şah məni yola salanda, söz aldı ki, neçə il bura gələcəksən, həmişə gəlib, düz mənim yanıma düşəcəksən. Mən hökm verərəm, sənin üçün dəriləri alıb, aşılayıb, tay bağlarlar, göndərərlər Ənzəliyə. Sonra özün də gedərsən Badi-Kubəyə. Şah 12 il Baldadaşı hər il üç ay qonaq saxlayırmış Tehranda.

Baldadaşla əmim Həştərxanda mehmanxanada mənzil tutub qalırlar. Sabahı gün soruşurlar ki, Həştərxanda gəzməli yerlər var? Deyirlər ki, burda bir bağ var, «Arkadiya«, camaat axşam gedir o bağa. Orda muzıkantlar və artistkələr var. Camaat orda vaxt ötürür. Bir axşam Baldadaşla əmim gedirlər o bağa, görürlər ki, qapısı bağlıdır. Bir adam dayanıb qapıda, gələnləri qaytarır. Əmim soruşur ki, belə neyçün? Qapıçı deyir ki, bizim Həştərxanın ağası, çox dövlətli Ağa Ələkbər xozeyin zanit edib bağı. Özü kef eləyir, heç kəsi qoymur bağa. Mənim əmimə çox ağır gəlir bu hərəkət. Qayıdır, gedir evə. Sabah axşam əmim gedir bağın xozeyininin yanına, deyir ki, bu gecə mən bu

bağı bağlayacağam, özüm kef edəcəyəm. Bağın xozeyini deyir ki, qiyməti 300 manatdır. Məşədi İsmayıl 300 manat verir ki, bu gecə bağ mənimdir. Xülasə, axşam olur, Məşədi İsmayıl Baldadaşla bahəm gedir bağa. Gecənin bir vaxtında Ağa Ələkbər xozeyin də öz yoldaşları ilə gəlir bağa. Görür ki, bağın qapısı bağlıdır, döyür, heç kəs cavab vermir. İçəridən Məşədi İsmayılın səsi gəlir ki, bu gecə bağı mən zanit eləmişəm, açarı da məndədir, açılmayacaq. Ağa Ələkbərin ovqatı çox təlx olur, qayıdır. Gecə səhərə kimi yoldaşları ilə içir.

Səhər bir neçə adamdan xəbər alır ki, bu Məşədi İsmayıl badi-kubəli kimdi, bu hərəkəti eləyir. O, mənimlə bacara bilər? Ona cavab verirlər ki, heç bir qeyri hərəkət lazım deyil, Məşədi İsmayıla bir kəlmə söz deyə bilməzsən. Çünki söz götürən adam deyil, sənin fikrin bizə getməsin. Yaxşı olar ki, səni Məşədi İsmayıl və Baldadaş ilən tanış edək. Ağa Ələkbər razı olur. Onu aparırlar Məşədi İsmayılın mənzilinə. Məşədi İsmayıl deyir ki, Ağa Ələkbər, mən ömrümdə biqabiliyyət iş görməmişəm, özü də bihesab işdən xoşum olmayıbdır. Pis adamlarla oturub-durmamışam və onları yaxına da qoymaram. Ancaq bu iş ki, məndən sadir olub, onun tamam səbəbkarı sizsiz. Çox eyib olsun sizdən ötəri, məgər adamın pulu olanda, bağı zanit edər. Siz gərək elan verəsiz ki, hər kim istəyir gəlsin bağa bipul (pulsuz – red.), Ağa Ələkbər qonaq eləyir, kasıblar da gəlsin, hər sinif adamlar gəlsin. Yoxsa ki, sizin pulunuz var, camaatın yoxdur, Həştərxanda da bir bağdır, onu da siz zanit edəsiz? Bu sözlər Ağa Ələkbərin xoşuna gəlir, əmim Məşədi İsmayıl və Baldadaşla bərk dostlaşırlar.



Bakı. Veliko-knyajeski prospekti (1900)



Bakı. İçərişəhərin küçələri (1922)

Həştərxanda Baldadaşı ovma (vəba – red.) naxoşluğu tutur. Elə orda da keçinir.Əmim Məşədi İsmayıl danışır ki, ölməyinə bir saat qalmışdı, dedi ki, açın otağın pəncərə-qapısını, məni də oturdun, dalıma balış verin, öləcəyəm, - bir bayatı çəkim. Oturtduq Baldadaşı. Bir bayatı çəkdi, tamam camaat doldu bizim mənzilə, balkona. Küçə doldu adamla. Çox ağladılar. Baldadaşın sözü bu oldu:

Mən aşiq bir də mən,
Doldur içim bir də mən.
Ömür getdi, gün keçdi,
Dəxi cahil olmam bir də mən.

10-15 dəqiqədən sonra canını təslim elədi...

Məşədi Baldadaş 55 yaşında Həştərxanda vəfat edib. Onu torpağa əmim Məşədi İsmayıl tapşırıb.

Baldadaş yaxşı at minib qovardı. Hər vaxt Badi-Kubədə skaçka (cıdır – red.) olardı, Baldadaşa yaxşı atları verərdilər ki, çapsın. Yaxşı da qurşaq tutardı. Bir qızı var Şirinbacı adında. Çox kasıbdı, heç bir şeyi yoxdu. İndi yolçuluq eləyir, pis haldadı.

Əmim Məşədi İsmayıl bir şeyi də danışardı Baldadaşdan. O vaxtlar Badi-Kubədə tək-tək fayton var idi. Bir Cahangir adında faytonçu olur. Çox güclü səsi olur. O vaxt da cahıllar Badi-Kubədə ancaq Cahangirin faytonuna minərlərmiş. Çünki Cahangir yaxşı Bayatı-Qacar oxuyurmuş. Bir gün həmin Cahangir deyir ki, Baldadaşın nə səsi var, mənim yanımda oxuya bilməz. Baldadaş bu sözü eşidir, deyir atam Məşədi Məliyə ki, sabah axşam otağı düzəlt, xörək bişirtdir, səkkiz nəfər qonağım var. Heç demir kimlərdir. Sabah axşam zurnaçıya xəbər verir və Cahangirin bir dostu var imiş, ondan xahiş eləyir ki, Cahangiri axşam gətir Məşədi Məliyin otağına. Zurnaçılar gəlir. Cahangir gec gəlir. Onun dostu deyir ki, Cahangir istəmirdi gəlsin, güclə gətirmişəm. Baldadaş zurnaçıya deyir ki, lap zil zıqanı köçür zurnaya ki, dəxi ondan zil kök olmasın. Bayatı-Qacar çalginən. Necə ki, bu sözü eşidir Cahangir, istəyir bir tövr ilən qaçsın, müyəssər olmayır. Baldadaş başlayır Bayatı-Qacarı, sonra Dügah, Ruhul-ərvah. Xülasə, hamısın oxuyub qurtarır. Bir az keçəndən sonra deyir Cahangirə ki, buyur, zəhmət çək, oxuginən. Cahangir görür ki, bu iş onun işi deyil, qayıdır ki, oxuya bilmərəm. Baldadaş deyir ki, mənim dalımca danışmısan, gərək oxuyasan. Cahangir əyləşir zurnaçının yanında, necə ki, güc verir özünə, səsi bəlkəm gəlsin, elə zərb eləyir ki, qasığı partlayır. Qoyurlar faytona, aparırlar həkimə. Üç gündən sonra Cahangir ölür.

Baldadaş həmişə ətin üstündən çox enli qayış belbağı bağlayırdı. Bərk çəkirdi ki, oxuyan vaxtı qasığı partlamasın.

Badi-Kubədə bir **Ağacəbrayıl** vardı. Çox yaxşı oxumaq bilirdi. Xoş səsi vardı. Həm də savadlı idi. Həmişə toylarda farsca qəzəllər oxuyardı. Ağacəbrayıl çox tərs adam idi. İçərişəhərdə Hacı Mehdi oğlunun toyunda Ağa Muradəlinin yeddi dəstə çalıb-oxuyanı var imiş. İrandan da bir dəstə yaxşı çalıb-oxuyan gətirdiblər. Toy sahibi fikir edib ki, əgər əvvəl Ağacəbrayıl oxusa, bu İran oxuyub-çalanı bundan sonra oxuya bilməz. Əvvəl iranlıları çalıb-oxudurlar, sonra Ağacəbrayıla deyirlər buyur, oxuginən. Deyir ki, mən oxumuram. İnciyibmiş ki, əvvəl gərək mən oxuyaydım. Bu məclisdə məşhur Badi-Kubəli naçalnik Qasım bəy də olur. Qasım bəy hökm ilə Ağacəbrayıla deyir ki, oxu! Bu da deyir ki, oxumuram. Qasım bəy deyir Ağacəbrayıla ki, dur, çıx get burdan.



Bakı. Aleksandr prospekti (1898)



Əbdülqədir Cabbarov (1906)

Ağacəbrayıl gedir. Çıxır Qala qapısından, görür ki, bir nəfər balaca budkada (köşkdə–red.) şabalıd qovurur. Gəlir girir budkaya, başlayır oxumağa, ta səhərə kimi oxuyur.

Badi-kubəli Ağacəbrayıl 1938-ci ildə 55 yaşında vəfat edib.

Badi-Kubədə **Qədirbala** (Əbdülqədir Cabbarov – red.) yaxşı oxuyan idi. Özü də Çəmbərəkəndli idi. Qalayçı idi. Çox güclü və çox xoş oxumağı vardı. 1906-cı ildə 35 yaşında onu öldürdülər. Məndə onun şəkli də var…

Məşədi Məliyin vəfatından sonra onun musiqi məclislərini mən davam etdirmişəm. Zaman keçdikcə, çalıb-oxuyanlar da dəyişirdi, artıq çoxları həyatda yox idi. Muğamların özündə də bir çox dəyişikliklər baş verirdi. 1925-ci ildə musiqi məclislərimin birində ifa olunan muğamları şöbə-şöbə, guşə-guşə vərəqə köçürüb yeni bir siyahı tərtib etdim.

RAST

Rast, Hüseyni, Rak, Vilayəti, Xocastə, Şikəsteyi-fars, Dəşti, Gileyi, Hacı Yuni, Mənəvi, Pəhləvi, Məsihi, Xosrovan, Ərak, Rəvəndi, Pəncgah, Qatar, Üzzal, Bayatı-kürd, Azərbaycan, Cüdai, Gəbri, Baba-Tahir, Qərai, Eyzən zəngi-şotor, Sixi, Rast.

ŞUR - 1

Şur, Dəraməd, Cüdai, Gərayili, Busəlik, Muyə, Səlmək, Səba-şəms, Hicaz, Mehdi-Zərrabi, Nişibi-fəraz, Mənəvi, Gəbri, Şah-Xətai, Dügah, Mavərənnəhr, Baba-Tahir, Sarəng, Dəşti, Hacı-Yuni, Pəhləvi, Saqinamə

ŞUR – 2

Şur, Dəraməd, Zirkeş, Səlmək, Gülriz, Buzek, Dübeyt, Qacar, Qoruze-şur, Bayatı-kürd, Bayatı-türk, Ruhül-ərvah, Zəmin-xara, Hicaz

RAST – 2

Dəraməd, Novruz-səba, Zəngulə, Novruz-xara, Nəğmə, Nəfr (nərə), Ruhül-ərvah, Xərək, Üşşaq, Ərak, Pəncgah, Qərai, Bəhri bayatı-əcəm, Rak, Bəhri-nuh, Kabuli, Qərəcə, Mənəvi, Bəhri-Vəli, Pəhləvi, Tərazi, Mənsuri, Rəvəndi, Rübənd, Leyli və Məcnun, Baba-Tahir, Novruz-ərəb, Gəbri, Dəşti

BAYATI-İSFAHAN

Dəşti, Mənəvi, Sarəng, Pəhləvi, Gileyi, Məsnəvi, Bayatı-kürd, Qatar, Hacı-Yuni, Baba-Tahir, Xavəran

ZABOL

Piş-manənd, Hisar, Manənd, Müxalif, Segah-zabol, Segah, Mübərriqə, Zabol

MAHUR

Piş-dəraməd, Şikəsteyi-nəhib, Dəraməd, Əşiran, Dad (qışqırıq), Ərak, Xosrovan (şahlar), Qərai, Tərəb-əngiz (şadlıq gətirən), Rak, Xavərani, Rak-Abdulla, Nişaburək, Aşur-rəvəndi, Nəsirxani, İsfahanək, Azərbaycan, Həzin (qəmli), Feyli, Nəğmə, Mahure-səğir-Əbul, Koştə, Tizək, Rəngi-həzin, Şəhraşub

ÇAHARGAH

Dəraməd, Məğlub, Zəngulə, Hindi, Bəstə-nigar, Pəhləvi, Hissar, Ərcuzə, Pəsi-hissar (arxasınca gələn), Mənsuri, Müxalif, Rübənd

BAYATI-KÜRD

Bayatı-kürd, Mənəvi, Azərbaycan, Gəbri, Hacı-Yuni, Pəhləvi, Dəşti-ərağistan, Cövhəri, Dəşteyi-rəşt, Baba-Tahir, Giləki,Sarənc, Naleyi-zənbur, Məsnəvi, Mehdi-zərrabi, Bazəm-bayatı,

DÜGAH

Guşeyi-bayatı-Qacar, Şikəsteyi-fars, Ruhül-ərvah, Dilrüba, Mavərənnəhr, Ərak, Hüseyni, Rak-Xorasani, Zəngi-şotor

NƏVA-NİŞAPUR

Hacı-Yuni, Kərkuki, Dəşti, Şah-Xətai, Pəhləvi, Sarəng, Cövhəri, Dilkəş, Xavəran

SEGAH

Segah, Xavəran, Məxlut, Ərak, Mübərriqə, Aşıq-guş

RAHAB

Rahab, Şüştər, Bəznigah, Məsnəvi, Əmiri, Tərkib, Rəhavənd, Bidad, Məsihi, Şikəsteyi-fars, Moləvi, Ərak, Qərai

HÜMAYUN

Hümayun, Üzzal, Feyli, Bayatı-kürd, Məsnəvi, Gəbri, Novruz-səba, Mənəvi, Bəxtiyari, Pəhləvi, Bidad, Baba-Tahir, Şüştərək

Bizim vaxtımızda sözə-sənətə, musiqiyə, xanəndəyə münasibət bambaşqa idi. Güclü xanəndələr, musiqi biliciləri, sazəndələr, qəzəlxanlar vardı. Toylar elə keçərdi ki, adam istəməzdi ki, başa çatsın. Xanəndə ki, başlardı bir dəstgah oxumağa, vəssəlam...

Atamın musiqi məclisləri də çox gözəl keçərdi. Bu məclislər çox xanəndəni, sazəndəni yetişdirib. Onların arasında atam Məşədi Məliyin və mənim dostlarım çoxdu. Atamdan sonra onun musiqi məclislərini davam etdirdim. Məclislərə yeni sənətkarlar da qoşuldu. Bu insanlar muğamı dərindən bilməklə yanaşı, həm də çox mülayim, sözübütöv şəxslər idi. Bir məclisdə verilən söz veksel kimi idi – hökmən yerinə yetiriləcəkdi. Xanəndələr oxuyanda, sazəndələr çalanda məhəllələr adamla dolardı. Musiqinin gözəlliyi, dürüst ifası heç kəsi biganə qoymazdı. Xalqın da öz sənətkarlarına hörməti böyükdür. Hara getsələr, hörmətlə qarşılanar, hörmətlə yola salınardılar.

Mənim o günlər haqda çox xatirələrim var…

Toyların birində Məşədi Zeynal Şur oxuyan xanəndədən soruşur ki, bacıoğlu, nə oxuyursan? Xanəndə deyir ki, Şur. Məşədi Zeynal tarını yığışdırıb, məclisə deyir: Camaat, bu mərsiyəxana müşayiət lazım deyil. Oxuduğu da Şur deyil, xalis şordur, özü də talış şoru.

Yusif bəy Dadaşovla Hacı Hacıağanın karvansarasında nərd oynayırdıq. Mirzə Mansur hövlank içəri girdi ki, bəs, ay, Məşədi Süleyman, tez özünü toya yetir, yoxsa Məşədi Zeynal xanəndəni öldürəcək. Tələsik getdim toya. Toy da İçərişəhərdə, Bakı milyonçularından birinin oğlunun toyu idi. Gördüm Məşədi Zeynal tapançasını dirəyib xanəndənin boğazına ki, ay nadürüst, haçanacan xaric oxuyacaqsan?!. Kişini birtəhər sakit elədim. O vaxtlar Bakı toylarında yaxşı bir adət vardı. Xaric oxuyan xanəndəni toydan qovardılar. Belə xanəndələr özləri də utanardı. Heç olmasa, bir-iki ay camaat arasına çıxmazdı.

Bu tarzən Məşədi Zeynal özü çox mülayim, təmkinli adam idi. Özü də ustad idi, hər xanəndəni müşayiət etməzdi. Hər şeyə dözərdi, amma xanəndənin xaric oxumasına yox. Odur ki, xanəndənin xaric oxuması onu lap əsəbləşdirmişdi. Mirzə Mansuru göndərdim Şəkili Ələsgərin dalınca ki, gəlib oxusun, Məşədi Zeynal da sakit olsun, məclis əhli də feyz alsın.

Erməni-müsəlman davasında 1905-ci il getdim Şuşaya. Orda atamın yaxın dostu Abasqulu

bəy Zöhrabbəyov yaşayırdı. Çodar Abas deyərdilər. Gedib bunlardan hal-əhval tutdum. Məni bir xeyli qonaq saxladılar. Bir gün də Şuşada məşhur olan doktor Kərim bəy Mehmandarov məni evinə qonaq çağırdı. Xoş-beşdən sonra dedi ki, Məşədi, bilirəm, sən Sadıqcanla çox məclislərdə olmusan, özün də onu yamsılayırsan. Xahiş edirəm, bir şey çalasan, Sadıqcanı yad edək. Məclisdə Şuşanın adlı-sanlı şəxsləri vardı. Kişinin sözünü yerə salmadım. Rast çaldım. Kərim bəy məni qucaqlayıb dedi ki, mən elə bilirdim Sadıqcan ölüb, amma demə ki, yaşayırmış. Sağ ol, Məşədi…

Lazar Ter-Vartanesovun 72 simli bir tarı vardı. O vaxta kimi tarda 72 sim hələ görünməmişdi. O tarı Lazara ustadı Sadıqcan bağışlamışdı. Sadıqcanın Lazarın üstündə çox zəhməti vardı. Hə, tarı sökdüm ki, təzədən düzəldərəm. Amma bacarmadım. Heç özümü bağışlaya bilmirəm.

İçərişəhərdə Xan Sarayının yanında Həbib dayı adlı bir ağsaqqal yaşayırdı. Günlərin bir günü onun evinə üç qonaq düşür. Üçü də Qarabağdan. Bu qarabağlılardan ikisinin Bazarnı küçədə (H.Hacıyev küçəsi – red.) bəzzaz dükanları vardı. Üçüncüsü də Abasqulu bəy adında lopabığ bir kişi idi. Sonradan Ağarza oğlu Ağahüseyn də bunlara qoşulur. Getdim bunların yanına. Dedim ki, sizə qonaqlıq verəcəyəm, hər cür dəm-dəstgahı ilə. Qarmonçalan kor Əhədi çağırtdırdım, xəbər göndərdim ki, qavalçalan Xalıqı da gətirsin. Bir pirlotka da göndərdim ki, bunları gətirsin… Məclis düzəldi. Kor Əhəd qarmonda Bayatı-Qacar, Segah-Zabul, qoltuq sazında (cürə sazı – red.) Çahargah, Şur çaldı. Bu elə qiyamət çalğı idi ki, hamı mat qalmışdı. Bu olub 24, ya 25-ci ildə. Belə məclislərimiz çox olub.



Yusif bəy Dadaşov (ortada) və dağlı Abbas Məşədi Süleyman bəy Mansurovun Şüvəlandakı bağında (13 iyun 1913)

Sadıqcanı ilk dəfə Tiflisdə görmüşəm. Onun tar çalmağı çox xoşuma gəldi. Bakıya qayıdıb, Sadıqcanı atam Məşədi Məliyə tərif etdim. Atam dedi ki, onun çalğısına qulaq asmaq istəyirəm. Bir müddət sonra Sadıqcan öz dəstəsi ilə Bakıya konsert verməyə gəldi. Atamı da götürüb, getdim o konsertə. Sadıqcanın çalğısı doğrudan da qiyamət idi. Evə gələndə atam dedi ki, sən ki, onu belə tərif edirdin, azdır. Onu hökmən evimizə qonaq çağır. Səhəri gün Sadıqcanı evimizə qonaq çağırdım. Sağ olsun, sözümü yerə salmadı. Gəldi. Elə o vaxtdan da Sadıqcan bizim evin əziz adamına çevrildi. O hər dəfə Bakıya gələndə aylarla bizim evdə qalardı. Atamla onun söhbətlərindən doymaq olmazdı.



Sadıqcan

Şəmsi Əsədullayevin oğlu Mirzə yaxın dostum idi. Onun toyunda sağdışı idim. Çalğıçılar da Sadıqcan və Əbdülbağı (Bülbülcan – red.) idi. O toyda Sadıqcan bir qiyamət qopardı ki, özümü saxlaya bilmədim, ağladım. Şəmsi əmi soruşdu ki, a bala, bu toydu, sən toyda niyə ağlayırsan? Dedim ki, ay əmi, sən axı bilmirsən bunlar nə oxuyub-çalır. Şəmsi əmi soruşdu ki, bəs mən neyləyim bunlar üçün? Dedim ki, get, hərəsinin barmağına bir brilyant üzük tax. O da hərəsinə bir brilyant üzük bağışladı.

Məclislərin birində Sadıqcan və Lazar vardı. Sadıqcan bir az çalandan sonra birdən bıçağını çıxartdı və tarın pərdələrini cırdı. Başladı pərdəsiz çalmağa. Camaat mat qalmışdı. Sonra növbə çatdı Lazara. Onun dəstəsində bir özü idi, bir də Ürri İskəndər adında zil səsli oxuyan. Çahargah çalıb-oxudular. Çahargahın ayağında – Mənsuriyyədə Lazar zərb çalmağa başladı. Birdən də tarı qoydu boynuna, elə belə də çaldı. İçərişəhərli Ağarza oğlu Ağahüseyn həyəcandan stuldan yıxıldı. Bunu qaldırıb, otuzdurduq yerində. Soruşduq ki, nə oldu sənə, ay Ağahüseyn? Kişi dedi ki, ürəyim gəldi ağzıma, dedim tar bu dəqiqə yerə düşüb sınar.

1920-ci ildə Bakıda musiqi məktəbi açılmışdı. Gimnaziçeskiy küçəynən (Tolstoy küçəsi – red.) Qoqol küçəsinin tinindəki evin üçüncü mərtəbəsində idi. Mansurla mən orda münsiflər heyətinin üzvü idik. Burda çoxlu konsertlər təşkil olunardı. Bu konsertlərdə Cabbar Qaryağdıoğlu, Qurban Primov, musiqi məktəbinin müdiri Saşa Oqanezaşvili, şəkili Ələsgər Abdullayev, Mirzə Fərəc, Ağabala Ağasəid oğlu, səlyanlı tarzən Şirin Axundov və başqaları çıxış edərdi. Mən oğlanlarım Məlik və Bəhramı tez-tez özümlə ora aparardım. İstəyirdim ki, xalq musiqimizə yaxından bələd olsunlar.

Bir gün Üzeyirbəy Hacıbəyov məni yanına çağırıb dedi ki, Məşədi, istəyirəm sən bizim məktəbdə (birinci Azərbaycan musiqi texnikumu – red.) dərs deyəsən. Sənin biliyinə cavanların çox ehtiyacı var. Hövsələdən kəm olduğum üçün dedim ki, Üzeyirbəy, mən xəstəyəm, qoy Mansuru göndərim, o dərs desin. Biliyinə cavabdehəm. Mansur orda 1921-ci ildən dərs deməyə başladı. O, burda Üzeyirbəy Hacıbəyovla möhkəm dostlaşmışdı. Üzeyirbəy Mirzə Mansurun biliyinə çox

inanırdı. Çox məsələlərdə onunla məsləhətləşirdi. Bir gün Mirzə Mansur mənə dedi ki, bəs, ay Məşədi, Üzeyirbəy muğamlarımızı nota köçürmək istəyir. Özü də istəyir ki, onları mənim çalğımdan nota köçürsünlər. Bu işi də tapşırıb iki cavan bəstəkara - Tofiq Quliyev və Zakir Bağırova. Dedim ki, Mirzə, bu çox ağıllı fikirdir. Muğamlarımızı yaşatmaq lazımdır. Sənin çalğına da ki, söz yoxdur. Elə belə də 30-cu illərin ortalarında Mirzə Mansurun çalğısından nota köçürülmüş Azərbaycan muğamları çap olundu. Bu muğamlar Rast, Segah-Zabul, bir də Dügah idi. Bu iş məni çox sevindirdi. Başa düşürdüm ki, Üzeyirbəyin məqsədi muğamlarımızın başqa millətlərin musiqiçiləri tərəfindən qavranmasıdır.

Mansur möhkəm tarzən olması ilə bərabər, həm də yaxşı tar ustası idi. Onun düzəltdiyi tarlar arasında üç dənə tarın yeri bambaşqa idi. Onlardan birini elə düzəltmişdi ki, baxan mat qalırdı. Tarın pərdələrini bütövlükdə onun qoluna bağlamamışdı. Tarın qolunu ortadan deşib, pərdələri oradan keçirmişdi ki, ifaçının çalğı zamanı əli sürüşməsin, rahat olsun. Bu tar Parisdə Luvr muzeyində saxlanılır.

Mirzə Mansur, Hüseynbəy Xanlarov və Arşak Xıdırovla getmişdik **Finlyandiyaya**. Könlümüzə plov düşdü. Hər şey tapıldı, kişmişdən başqa. Fikirləşdim ki, neyləyim? Ağlıma gəldi ki, Mirzə Mansuru göndərim Peterburqa, kişmiş dalınca. Nə isə, Mirzə Mansur getdi Peterburqa, kişmişi alıb gətirdi. Bir plov dəmlədik ki, müsibət…



Mirzə Mansur Mansurov birinci Azərbaycan musiqi texnikumunun müəllimləri arasında (1923)



Mirzə Mansur Mansurov (1936)

Bir dəfə mən, Mirzə Mansur, Hüseynbəy Xanlarovla getdik **Romaya**. Bibim oğlu Ibrahim bəy Abdinov da bizimlə idi. Senat meydanında girdik restorana. Kabab istədik. Dedilər ki, o nə yeməkdi elə, bizdə belə yemək olmur. Gedib, bir qoyun alıb gətirdik. Qoyunu doğradıq, təmizlədik. Kabab çəkmək istəyəndə gördük ki, bu yazıqların şişi də yoxdur. İbrahimbəy Abdinov hardansa qalın məftil tapıb gətirdi. Əti keçirtdik məftillərə. Birdən restoranın müdiri bizə yaxınlaşdı ki, camaat narahatdı. Sən demə, elə biliblər ki, yanğındır. Yanğınsöndürənləri çağırıblar. Bunlar da gəlib görüb ki, nə yanğın, biz nəsə bişiririk. Restoranın müdirindən soruşublar ki, bu nə işdir belə? O da qayıdasan ki, Qafqazdan vəhşilər gəlib, qoyun kəsib, kabab adlı yemək bişirirlər. Heç kəsə fikir verməyib, kababı nuşcanlıqla yedik.

Mansurla **Parisə** gəzməyə getmişdik. Hər dəfə ora gedəndə Peterburqdan tərcüməçimiz Aleksandrı özümüzlə aparırdıq. Fransızca az-çox bilirdim, amma biz onunla rusca danışırdıq, o da fransızlarla fransızca. Getdik restorana. Soruşduq ki, yeməyə nə var. Bizə xırda-xırda buterbrod gətirdilər – hərəmizə bir dənə. Dedik ki, bu nədir belə, bununla adam doya bilər? Bundan yüz dənə gətirin. Əvvəlcə inanmadılar. Sonra gördülər ki, fikrimiz ciddidir, yüz buterbrodu gətirdilər. Mirzə Mansur bir tərəfdən, mən bir tərəfdən bu yüz dənə buterbrodu bir saat çəkməmiş yedik.



Məşədi Süleyman bəy və Mirzə Mansur bəy Mansurovlar dostları ilə Pyatiqoskda (1906)

Elə təzə yeyib qurtarmışdıq ki, bir də gördük, kimsə şəklimizi çəkmək istəyir. Sən demə, Parisin hansısa qəzetindən müxbir gəlib ki, bu yüz buterbrod yeyən iki qafqazlının şəklini çəkib, qəzetə vursun. Nə isə, şəklimizi çəkdilər. Daha bunlar bilmirdi ki, biz bir oturuma manatlıq nimçədə (bulud – red.) plov yeyirik. Bu işə tərcüməçimiz Aleksandr da mat qalmışdı.

Tez-tez **Vyanaya** tamaşalara və konsertlərə gedərdim. Oralarda çoxlu dost-tanışım vardı. Bir gün dostlarımla İmperator teatrında operaya baxırdıq. Səhnədə gözəl bir xanım oxuyurdu. Tamaşadan sonra məni onunla tanış etdilər. Bu primadonna Zelma Kurts idi. Sonralar biz bir-birimizə məktub yazardıq. Hər dəfə yolum Vyanaya düşəndə onunla görüşərdik.

Qardaşım Mansurla Avropanın çox ölkəsini gəzmişik. Hər dəfə də başımıza maraqlı işlər gəlib. Bir dəfə **Lüksemburqda** hamama getmişdik. Bizim hamamların yerini verməsə də, babat idi. Ordan getdik Parisə. Düşdük mehmanxanaya. Səhəri gün gördük ki, portye bizi axtarır. Demə ki, Lüksemburqda hamamda Mirzə Mansurun brilyant üzüyü qalıbmış. Onlar da göndəriblər dalımızca.

Parisdə kabaredəyik. Mən, bir də Mansur. Yarıçılpaq qadınlar Kan-kan oynayır (varyete – red.). Birdən qadınlardan biri bizim qabağımıza gəlib, paltarının ətəyini qaldırıb fırlandı. Ətir iyi bizi vurdu. Mansur qarsonlardan birini yanına çağırdı. Pul verib dedi ki, get, o qadından soruş ki, niyə belə elədi? Qarson xəbər gətirdi, bəs xanım deyir ki, bu, ancaq



Paris. Eyfel qülləsi



Məşədi Süleyman bəy və Mirzə Mansur bəy Mansurovlar (Vyana, 1905)

mənim zahirimin ətridir… Mansur qarsona dedi ki, məni o xanımın yanına apar. Bir azdan sonra qayıdıb, utana-utana mənə dedi: Məşədi, gərək bağışlayasan, bu gecə mehmanxanaya tək qayıdacaqsan…

Məşədi Əzizbəyov tez-tez bizə gələrdi. Əsasən də, fəhlələr zabastovka (tətil – red.) edəndə. İşə çıxmayan fəhlələrin ailələri üçün pul istəyirdi. Əmisi vermirdi, odur ki, gəlirdi mənim üstümə. Bacanağım Aqabəy Safaraliyev Tağıyev teatrının yanındakı bankın upravlyayuşisi (işlər müdiri – red.) idi. Gedib ondan faizsiz-filansız pul götürürdüm, verirdim Əzizbəyova. Çox vaxt o pulu özüm qaytarırdım. Amma pulu bir şərtlə verirdim. Qulağıma çatmışdı ki, Əzizbəyov hökumətə qarşı bir para işlər çevirənlərə qoşulub. Pulu verəndə deyirdim ki, bu pulu ancaq fəhlə ailələrinə verirəm. Daha nə bilim, silah almaqdı, silah satmaqdı, bu işlərnən yoxam. O ailələrdəkilər bizim ana-bacılarımız, bizim uşaqlarımızdı. Ac qalmasınlar...

Pulun o ailələrə çatmasına da özüm nəzarət edirdim.

Şüvəlanda bizim ikimərtəbəli bağımız vardı (o bağ indi də durur. (Ön sözə bax – red.). Bütün dostlar, qohumlar o bağa gələrdi. Qubernator, polis rəisi, Ismayıl Nağıyev, Ələsgər bəy Xanlarov və qardaşları inqilabdan əvvəl tez-tez bağımıza gələrdi. Mirzə Mansur səhərlər bağ evinin balkonunda tar çalardı. Evdəki qonaqlar və yoldan keçənlər hamısı gəlib qulaq asardı. İnqilabdan sonra da bağımızın qonaqları əskilmədi. Tez-tez Qəzənfər Musabəyov gələrdi...

РЕШЕНИЕ

К о п і я.

Именем Азербайджанской Советской Социалистической Республики Совет Народных Судей в заседании своем от 7 августа 1920 г. в составе:

Председательствующий К.В.Орловский

Постоянный Член Совета Л.А.Бафрали

Народные Судьи: Ходявин
А.Хасмамедов
Готовицкий

заслушав дело за № 356 по иску Мансурова к Асадуллаеву и др. и принимая во внимание, что предметом настоящего иска является требование о признании права собственности на землю, что согласно декрету от 5 Мая 1920 г. право частной собственности на землю уничтожено и что всему производство по настоящему делу подлежит прекращению ОПРЕДЕЛИЛ: Настоящее дело производством прекратить и сдать в Архив Совета Народных Судей.

Подлинное за надлежащими подписями.

С подлинным верно:

Секретарь Совета Народных Судей

№ 10/7

Настоящая копия решения выдана Советом Народных Судей Сулейману Мешади Мелик оглы Мансурову, согласно его просьбе. Гербовой сбор взыскан.

Сентября 19 дня 1920 г.

Заместитель Председ. Совета

ис.о.Секретаря

20-ci ilin yayında bir gün Qəzənfər Musabəyov və Nəriman Nərimanov bizə gəldi. Bu adamların «kefkom» Mansurovlar«ın bağına gəlməyi elə-belədən deyildi. Hamı bilirdi ki, atam Məşədi Məlik də, qardaşım Mirzə Mansur da, mən də heç bir pis işlə məşğul olmuruq. İşimiz-gücümüz təkcə musiqidir, sənətdir.

Nəriman Nərimanov bir xeyli bizim bağda qaldı. Axşamlar oturub söhbət edərdik. Oğlanlarımdan Bəhram bizim qulluğumuzda durardı. O vaxt Bəhramın 9 yaşı vardı. Evdə qadın olmadığından uşaqlarıma hər şeyi öyrətmişdim. Nəriman Nərimanov səhərlər durub, idarəyə gedərdi, öz biratlı pirlotkasında. Bir gün də mənə dedi ki, Süleyman, sən Allah, məndən incimə, istəyirəm köçüm Rza bəy Səlimxanovun bağına. Burda hər cür rahatlığım var. Sizdən də çox razıyam. Amma bura hündürdür, çətin nəfəs alıram. Ona görə də gedirəm Rza bəyin bağına. Ora həm də idarəyə yaxındır... Düzdür, uşaqlar bir az bikef oldular, amma olacağa çarə yoxdur.



İçərişəhər, Qoşa Qala qapısı

EPİLOQ

Hər zamanın bir hökmü, hər insanın bir taleyi olur. Nə torpaq dəyişir, nə səma dəyişir, hamma insanlar bu dünyadan köçüb gedirlər. Bəziləri heç kəsin yadına düşməsə də, elələri var ki, indi də hörmətlə xatırlanır və yad edilir. Onların işıqlı dünyaları tək bir nəslin deyil, bir şəhərin deyil - vətənin tarixidir.



Məşədi Süleyman bəy Mansurov (1906)

Allah sənə rəhmət eləsin, ay Məşədi Süleyman! Nə yaxşı ki, səndən bu xatirələr, sənədlər, foto-şəkillər qalıb. Nə yaxşı ki, yurdumuzun sənin kimi taleləri bir-birinə bənzər ziyalıları olub.

...Qarşımızda Məşədi Süleymanın əl-yazmaları. Xatirələr 1920-ci ildə bitir. Şura hökümətinin gəlişi hər şeyi alt-üst elədi. Neçə işıqlı zəkalar söndü, neçə arzular yarımçıq qaldı.

Ömrünün son gününə qədər Pervomayski küçəsi 111-də hökümət tərəfindən verilmiş bir otaqlı kiçik mənzildə ailənlə birlikdə yaşadın.

Sənin mülklərini, torpaqlarını, vardövlətini əlindən aldılar, bircə muğamdan başqa. Muğam və tar son məqamda sənin köməyinə gəldi. Suraxanski küçəsində kiçik bir emalatxanada tar ustası işlədin. Səni unutmayan şəhərin ziyalı və musiqiçiləri tez-tez bu ocağa gələrdilər.

Bu arada bir yada da düşdün. Səni «Səbuhi» filmində kiçik epizoda çəkdilər. Səndən təkcə o qalıb bizə canlı görüntü, kino yaddaşımızdan bir xatirə.

Sonralar Məşədi Süleymanın oğlu Bəhram Mansurov atası haqqında xatirələrini belə nəql edərdi:

- «İkinci dünya müharibəsi illəri idi. Qardaşım Nadir cəbhədə idi. Mən də bir tarzən kimi konsert briqadalarının tərkibində tez-tez əsgərlər qarşısında çıxış edirdim.

Hərə özünü bir təhər dolandırırdı. Biz atamla bir evdə yaşayırdıq.

Qış vaxtı idi. Atama təzə palto almışdım. Aradan bir neçə gün keçəndən sonra gördüm ki, kişi soyuqdan büzüşmüş halda evə gəldi. Soruşdum ki, Məşədi, bəs palto hanı? Dedi ki, filankəsi küçədə gördüm, soyuqdan ölürdü. Paltomu çıxarıb verdim ona, fikirləşdim ki, birin də alarsan mənə.

Həmişə atama cib-xərci verirdim. Hər dəfə də evə pulsuz gələrdi. Soruşanda ki, bəs pulun hanı, deyərdi ki, kasıb-kusuba verdim, gedib balalarına çörək alsınlar»...

Ömrünün son 35 ilini necə yaşadı - bir özü bildi, bir də övladları.

Məşədi Süleyman 19 aprel 1955-ci ildə dünyasını dəyişdi.

Nə yaxşı ki, 30-cu illərdə Bülbülün sözünü yerə salmadın, öz xatirələrini yazdın.

Nə yaxşı ki, elədiyin yaxşılıqlar qarşına çıxdı - repressiyalar zamanı sənə toxunmadılar, o böyüklüyünə, o kişiliyinə hörmət elədilər.

Nə yaxşı ki, indi zaman da bizimdir, vətən də bizim.

Nə yaxşı ki, sənin davamçıların – nəvələrin, nəticələrin, kötükcələrin var. Böyüyür öz əzəli ənənələrinə sadiq qalan Mansurovlar şəcərəsi.



Məşədi Süleyman bəy Mansurov (Moskva 1905)



ÖMÜR QIYSA...

...Hərdən yolumu İçərişəhərdən salıram, onu başdan-başa gəzirəm. Yadıma uşaqlığım, gəncliyim düşür. Burda hər daş, hər bina doğmadır, əzizdir. Babamın, atamın, əmimin evlərinə baş çəkirəm. Təkcə bina qalıb, o kişilər yoxdur.

Mən 1911-ci il fevral ayının 12-də Bakıda, İçərişəhərdə anadan olmuşam. Bizim nəsil musiqiçilər nəsli olub. Babam Məşədi Məlik Ağasalah oğlu Mansurov (1845-1909) dövrünün açıqfikirli şəxslərindən biri, həm də bilikli musiqişünas, mahir çalğıçı idi. Məşədi Məlik Bakının İçərişəhər hissəsində yaşayırdı. Evimizin pəncərələrindən hər axşamçağı muğamların və xalq mahnılarının ecazkar, həzin melodiyaları dalğa-dalğa axıb bütün küçəyə yayılırdı. Qonşuluqda yaşayan molla qəzəblə lənət yağdırardı: «Allah sizə qənim olsun, bu evdə şeytanlar yuva salıb» deyərdi. Lakin qonşular mollanın bu lənətlərinə gülərdilər. Köhnə Bakıda hamı yaxşı bilirdi ki, Məşədi Məlikin evində axşamlar musiqi məclisləri olur. Təkcə Abşerondan yox, Azərbaycanın bütün rayonlarından gəlmiş muğam biliciləri, musiqiçilər, xanəndələr bura toplaşardı. Bu məclislərdən nəinki görkəmli musiqiçilər faydalanmış, həm də Seyid Əzim Şirvani, Xurşudbanu Natəvan, Əbdürrəhim bəy Haqverdiyev kimi məşhur şair və ədiblərimiz onunla yaxın əlaqədə olmuş, məclisin fəaliyyətinə yüksək qiymət vermiş, onun şəninə şerlər yazmışlar.

Babamın təşkil etdiyi məclislərdə Mirzə Sadiq, Seyid Mirbabayev, Hacı Hüsü, Mirzə Fərəc, Məşədi İsi, Ala Palaz oğlu Molla Rza, Lazar Ter-Vartanesov, Ağa Kərim Salik, Bəylər, Əli Zühab, şamaxılı Mirzə Məmmədhəsən, İçərişəhərli Baladadaş, Əbdülbağı Bülbülcan, Seyid Şuşinski, İslam Abdullayev, kamançaçalan Mirzə Səttar kimi adları dillər əzbəri olmuş musiqi xadimləri iştirak edərdilər.

Məşədi Məlik körpülərdə, vağzalda adam qoyar və tapşırarmış: «Elə ki, gördünüz bir adam əlində musiqi aləti gəlir, onu gətirin evə». Onlar da Məşədi Məlikin istəyini yerinə yetirərmişlər. Musiqiçi kasıb olanda onu geyindirib-keçindirir, yedirib-içirdir, çalıb-oxutdurur, ona qulaq asandan sonra ədəb-ərkanla yola salırmışlar.

Bakıda nə qədər musiqiçi vardı, hamısı bizim evdə olmuşdu. Mən onların çoxunu görmüşəm, Əbdülbağı var idi, ona Bülbülcan deyirdilər. Qoca kişi idi. Qız Qalasının yanında birmərtəbəli evləri vardı, qızı Əzizə xanım, nəvəsi Sona xanımla (Sona Hacıyeva) orda olurdu. Biz də qonşuluqda, Qız Qalasının yanındakı üçmərtəbəli evdə yaşayırdıq.Atam hərdən mənə deyirdi ki, «get, Əbdülbağı kişini çağır, gəlsin bizə». Gəlirdi, əyləşirdi, əntiqə oxuyurdu, zəngulələr vururdu, indi də qulağımdadır. Sonralar Cabbar əmi ilə yoldaş olanda deyərdim ki, mən Bülbülcanın zəngulə vurmağını eşitmişəm. Cabbar əmi deyərdi: «O, başqa aləm idi, mən zəngulə vurmağı Əbdülbağıdan öyrənmişəm. Bülbülcan yaxşı «hissar-müxalif» oxuyurdu».



Məşədi Məlik bəy Mansurov (1845–1909)

Əslində musiqiçi olan babam, Ərdəbilli Mirzə Səttardan kamança, tar, qoltuq sazı, qaval və yeddi dilli balaca qarmon çalmağı öyrənmişdi. Mirzə Səttar on iki ilə kimi bizim evdə yaşadı. Ailəmizdə musiqi ilə maraqlanmayan, musiqi alətlərinə həvəs göstərməyən yox idi.

Babamın böyük qardaşı Məşədi İsmayıl Mansurov (1842-1885) da evində həmişə maaşla sazəndə və xanəndə saxlayardı.

Evimizdə bir növ ailə ansamblı yaranmışdı. Babam Məşədi Məlik kamança, arvadı Soltanbəyim dəf, oğlu Süleyman tar çalardı. Atası, sonbeşiyi Mansuru da tezliklə bu ansambla cəlb etdi. O, cürə sazı ilə bu sazəndə dəstəsinə qoşulmuşdu. Gənc Mansur sazda ilk dəfə «Kəsmə şikəstə» çaldı. Az sonra o, meylini tara saldı. Tezliklə «Rast», «Şur» kimi mürəkkəb muğamları ifa etməyə başladı.

Günlərin bir günü babama xəbər verirlər ki, Bakıya Şuşadan tarzən gəlib, Lazar Ter-Vartanesov. Babam, atam Məşədi Süleymanı «Təbriz» mehmanxanasına göndərir ki, tarzəni evinə dəvət etsin. Axşam tarzən, Məşədi Məlikin evində qonaq olur və «Mahur-Hindi»ni çox gözəl çalır. Muğamın çətin şöbəsi «Ərak»a keçəndə Məşədi Məlik «bu barmaqlar Sadığındır, afərin!» deyir. Sonra tarzən Sadıqcanı təqlid etməyə başlayır. Babam qonağına deyir: «Sadığı təkrar etmək özü də böyük xoşbəxtlik, ustalıqdır. Bizim məclisi unutma. Qapımız həmişə üzünə açıqdır».

Bu məclislərdə əsas musiqi tarixinə, bir də muğamların tamam-dəstgah və düzgün oxunmasına fikir verirdilər. Muğamın şöbələri, guşələri haqda mübahisələr olanda Məşədi Məlikə və onun bibisi oğlu Ağa Kərim Salikə müraciət edirdilər.

Bu məclislər 19-cu əsrin ikinci yarısında Azərbaycanda bir növ «xalq konservatoriyası» rolunu oynamışdır. Təsadüfi deyil ki, Üzeyir Hacıbəyov, Müslüm Maqomayev kimi sənətkarlar yaradıcılıqlarının ilk illərində bu məclislərin iştirakçılarından olmuşlar.

Şirin avazlı, xoşsəsli tar evimizdə əldən-ələ gəzərdi. Atam və əmim Mirzə Mansur bu çalğı

alətini çox gözəl dilləndirərdilər. Atamın ən çox pərəstiş etdiyi tarzən Sadıqcan idi.

Atam Məşədi Süleyman Mansurov (1872-1955) danışardı ki, o, Sadıqcanı ilk dəfə Tiflis şəhərində görüb, onun ifaçılıq sənətini çox bəyənib. Atam Bakıya qayıdandan sonra Sadıqcanı babam Məlikə çox tərifləyir. Elə olur ki, Sadıqcan öz dəstəsilə Bakıya gəlir və keçmiş Tağıyev teatrının binasında (indiki Musiqili Komediya Teatrı - red.) konsert verirlər. Konsertdə Sadıq Əsəd oğlu öz dəstəsilə - tar, kamança, qoşa dumbul, yeddi dilli qarmon («zü» verirdi), bir də xanəndə çıxış edirlər. Atam evə gedəndən sonra babam Məşədi Məlikə konsertdəki təəssüratını danışır. Sadığı tərif edərək deyir ki: «Çox gözəl çalandır, özünə də tar çox yaraşır». Babam deyir ki: «Süleyman, konsertə bilet al, mən də gedim baxım». Babam konsertin bütün nömrələrinə axıra qədər qulaq asır. Evə gəlib deyir ki: «Süleyman, sən ki, onu bu qədər tərif edirdin, azdır. O çox gözəl tar çalandır. Başqalarına bənzəmir. O, əsl Mirzə Sadıqdır. Get onun vədəsini al, öz dəstəsi ilə sabah mənim qonağımdır». Atam Mirzə Sadığın yanına gedir. O, babamın dəvətini qəbul edir. O vaxtdan etibarən həmişə babamın əziz qonağı olur.

Bakıda Sadıqcana Mirzə Sadıq adını babam verib. Hörmət əlaməti və sənətinə yüksək qiymət əlaməti olaraq babam onu Mirzə Sadıq çağırardı.

Atam danışardı ki, Mirzə Sadıq tarı çox vaxt mizrabsız çaldığı üçün, tarın çanağını çənəsinin altına qoyardı, sol əlini, rahat olsun deyə, lap yuxarı tutardı. O, barmaqlarının ucunu piyləyər, şama tutar, sonra isə şala sürtərdi ki, bərkisin. Odur ki, onun barmaqlarının ucu bərk olardı və tarı mizrabsız çalanda da elə bilərdin mizrabla çalır. Bəzən də o, tarı boynunun arxasına qoyub çalırmış. O bağçada və ya bağda çalanda tarının səsinə bülbüllər yığışarmış. Atam deyirdi ki, bəzən Bakıdakı musiqi məclislərində Mirzə Sadıqdan bir muğam çalmağı xahiş edirdilər ki, qulaq assınlar. O, zarafatla deyirdi: «Süleymanın yanında çalmıram, mən nə çalıramsa, o saat o da mənim çalğımı çalır».

1918-ci ildə atam Şuşaya gedir. Orada bizim ailə dostumuz Abbasqulubəy Zöhrabbəyov vardı, atam gedir onlara baş çəkir. O vaxt Şuşada hakim Kərimbəy Mehmandarov xəbər tutur ki, Süleyman Mansurov Bakıdan Şuşaya gəlib. O saat Abbasqulubəyə xəbər göndərir ki, sabah Süleymanı gətir gəl, mənə qonaqsız.



Məşədi Süleyman bəy Mansurov (Bakı, 1906)



Məşədi Süleyman bəy Mansurov (Bakı, 1914)

Sabahı gəlirlər Kərimbəygilə. Atam görür ki, burda on beş nəfərə yaxın qonaq da var. Demə, atamın Bakıdan gəlməsi münasibətilə Kərimbəy bura seçmə qonaqlar çağırıbmış. Söhbətdən sonra Kərimbəy deyir: «Süleyman, səndən bir xahişim var. Deyirlər sən Sadıqcanın çalğısını çalırsan, bir muğam çalaydın. Sadıqcanı yad edərdik». Atam «Rast» dəstgahını çalır. Kərimbəy durub atamı öpüb deyir: «Sağ ol, Süleyman, indi bildim ki, Sadıq ölməyib, diridir, çünki çalğısı yaşayır».

Atam bir də danışırdı ki, Şəmsi Əsədullayevin oğlu Mirzənin toyu idi. Mirzə Sadığı öz dəstəsi ilə Tiflisdən 500 manat qızıl pula Bakıya iki günlük toy məclisinə dəvət eləmişdilər. Həmin toyda mən bəyin sağdışı idim. Mirzə Sadıq, Əbdülbağı və çalanlar başladılar «Hümayun» çalıb-oxumağa. Mən oturub qulaq asırdım. Gördüm ki, hamı çalır, oxuyan da oxuyur, amma səs bir dənə gəlir, ayaq verəndə məlum oldu ki, bunlar hamısı çox dəqiq bir yerdə çalıb-oxuyurlarmış. Mən dayana bilmədim, ağladım. Toy yiyəsi gəlib: «Süleyman, nə üçün ağlayırsan, bu ki toydur?» - dedi. Dedim: «Əmi, sən bilmirsən onlar nə çalıb-oxuyurlar». O soruşdu: «İndi de görüm mən nə etməliyəm?» Dedim: «Hərəsinə bir dənə brilyant üzük bağışla», Dedi: «Bu saat». Bağışladı da. Sonra toyun bəyi olan Mirzəyə dedim ki, «Barmağındakı üzüyü göndər Mirzə Sadıqcançün, o hünərdə çalan nə olub, nə də olacaqdır». Mirzə də sözsüz öz barmağından üzüyünü çıxarıb Sadığa bağışladı.

Atam deyərdi ki, bir gün Sadıqcan oğlu Əsədullanın toyunu edirdi. Məclisdə Hacı Hüsü Sadıqcanın müşayəti ilə «Hümayun», Məşədi İsi Bala oğlu Qrikorun müşayiəti ilə «Orta Mahur», Məmməd Keçəçi oğlu Lazar Ter-Vartanesovun müşayəti ilə «Bayatı-Qacar», bakılı xanəndə Ağasəid oğlu Ağabala mənim müşayiətim ilə «Zabul» muğamını oxudu.

Dəstgah muğamlarda nə qədər rənglər çalınırsa, onların əksəriyyəti Mirzə Sadığın yaradıcılığıdır. Qədim oyun havalarından «Turacı», «Ceyranı», «Uzundərə», «Tərəkəmə», «Vağzalı» – bunlar da Mirzə Sadığındır.

Tar əvvəllər beş simdən ibarət idi. Sadıq tarda böyük dəyişikliklər etmişdi. O, tarın qolunda bağlanan pərdələrə bir dənə də pərdə əlavə edib ki, «Zabul» muğamı çalınanda «mayə»də düz

gəlsin. Bu pərdə tarın kəlləsindən aşağı - lap birinci pərdədir. Sonra da tara iki cingənə əlavə edib ki, ona da müasir dildə «oktava» deyilir. Hal-hazırdakı bizim əlimizdəki tar bir orkestr kimi səs verir. Bu tar Mirzə Sadığın adı ilə bağlıdır.

Babam Məşədi Məlik rəhmətə gedəndən sonra atam evimizdə olan böyük bir ənənəni saxladı. Bakı musiqi məclisi yenə fəaliyyətdə idi. Bu məclis əvvəlki kimi yenə də bütün musiqiçilərin üzünə açıq idi.

Buzovnalı Məşədi Azər atam və əmimlə yaxından dostluq etmiş, musiqi məclislərinin fəal iştirakçılarından biri olmuşdur. Məşədi Azər atamla əmimin tarda ifa etdiyi müxtəlif muğamları dinləməklə bərabər ara-sıra özünün yeni yazdığı şer və qəzəlləri oxumaqla məclisdəkiləri heyran edərdi.

Bu məclisə gələn xanəndələr arasında içərişəhərli Baladadaş xüsusilə məşhur idi. O, «Bayatı-Qacar» muğamının ən gözəl ifaçılarından sayılırdı.

Hələ kiçik yaşlarımdan o qədər məşhur xanəndə, sazəndəyə qulaq asmışam ki, deməklə qurtarmaz. Mənim sonralar kamil tarzən olmağımda atam və əmimdən başqa onların da böyük rolu olub.

Evimizdə çoxlu tar var idi. O tarlar divardan asılardı. Atam evdən bir yerə gedəndə mən tarlardan birini götürüb çalardım. Atam tarı əlinə alan kimi görürdü tar kökdən düşüb, o saat bilirdi ki, tarı mən götürüb çalmışam. Atam mənə deyərdi ki, sən musiqiçilər ailəsində boy atırsan, birdən çalmağa başlayacaqsan. Doğrudan da mən səkkiz yaşımdan tarı sərbəst çalmağa başladım.

Babamın böyük çanaqlı bir tarı var idi, bu cür tarları Tiflisdə düzəldirdilər. Sonralar atam bu tarı təkmilləşdirib ona 22 sim bağlamışdı. O tar həmişə divardan asılardı. Divardakı mıx boş olduğundan bir dəfə mən onu



Ağa Bəhram (solda) və Ağa Məlik Mansurovlar (1915)

götürmək istəyəndə, yerə düşüb sındı. Bunun üstündə atam məni döydü. Dedi: «Neyçün sən bunu sındırmısan, bu tarixi şeydir, atamın yadigarı idi».

...Şüvəlanda bizim ikimərtəbəli evimiz, hər cür rahatlığı olan gözəl bağımız vardı, O bağ indi də durur. Bu bağda sonradan «Əzizbəyovneftin» pioner düşərgəsi yerləşirdi (indi Mansurovların o bağını yeni azərbaycanlılardan biri öz mülkiyyətinə çevirib). İlin altı ayını şəhərdə, altı ayını bağda olardıq.

1920-ci ilin yay ayları idi. Bir gün Qəzənfər Musabəyov və Nəriman Nərimanov bizə gəldi. Onların bizim bağa gəlməyi təsadüfi deyildi. Çünki onlar yaxşı bilirdilər ki, atam Məşədi Süleyman, babam Məşədi Məlik, əmim Mirzə Mansur pis işlərlə məşğul olmayan təmiz, xeyirxah adamlardır, yalnız müsiqi ilə məşğul olurlar. Hətta el arasında onlara «kefkom Mansurovlar» deyərdilər.

Nəriman Nərimanov axşamlar atamla oturub söhbət edərdi. O zaman mən kiçik idim, doqquz yaşım vardı, buna baxmayaraq lazım olanda çayı da, yeməyi də mən verirdim. Çünki evdə qadın yox idi, mən beş yaşımda ikən anam Həcər xanım vəfat etmişdi. Anamın vəfatından sonra atam evlənməmişdi. O, bizi ögey ananın ümidinə qoymaq istəməmişdi, qardaşlarım Məlik, Nadir, bacım Saranı və məni özü böyüdüb tərbiyə etmişdi. Odur ki, atam bizə xörək bişirməyi, özümüzə, qonağa xidmət etməyi öyrətmişdi.

Nəriman Nərimanov səhərlər durub idarəyə işə gedərdi. Onun biratlı «pirlotkası» var idi. İndi də xatirimdədi, ağ, çil-çil qəşəng at idi. «Pirlotka» hər gün səhər gəlib onu aparardı işə, axşam isə gətirərdi bağa.



Mirzə Mansur Mansurov

Bir gün mən bunlara çay süzüb verirdim. Atam mənə dedi ki, oğlum, Nəriman əmin sabah başqa bağa köçür. Nəriman əmi atama dedi: «Süleyman, məndən incimə, inan ki, ancaq səhhətimə görə buradan köçürəm. Doğrudur, burada hər cür rahatlığım var, sizdən də çox razıyam. Lakin bura çox hündür olduğundan mənə nəfəs almaq çətindir. Rza bəy Səlimxanovun bağındakı ev həm birmərtəbəlidir, həm də ki, idarə də ordadır. Axı mən buradan birdəfəlik getmirəm, sizin yanınıza söhbətə hələ çox gələcəyəm».

Mən ilk musiqi təhsilimi Üzeyir Hacıbəyovun təşkil etdiyi musiqi məktəbində, sonralar isə konservatoriyada muğam sinfini aparan əmim Mirzə Mansurdan almışam.

Əmim Mirzə Mansur (1887-1967) musiqi tariximizdə həm gözəl tar müəllimi, həm də muğamların nadir bilicisi kimi məşhurdur. On bir yaşında olarkən atası onu mədrəsəyə qoyur. Burada fars dilini mükəmməl öyrənən Mansur musiqi ilə də maraqlanır. Bir gün dərs zamanı on üç yaşlı Mansur uzun bir çubuğu əlində tar kimi tutub, ağzında «Uzundərə» havasını çaldığına görə molla onu falaqqaya saldırıb döydürür.



Mirzə Mansur Mansurov konservatoriyada tələbəsi Ağası Məşədibəyova muğam dərsi keçir (1925)

Əmim deyərdi ki, on beş yaşım olanda atam mənə bir qoltuq sazı aldı. Mən öz-özümə saz çalmağı öyrənməklə, qardaşım Süleymanın tarını da götürüb hərdənbir oyun havası səsləndirməyə çalışardım. Mənim ilk tar müəllimim Mirzə Fərəc olub. O, musiqi aləminə dərindən bələd idi. Mənə tar çalmağı öyrətməklə yanaşı, həm də muğamların adları, onların mənası, şöbə və guşələri haqqında maraqlı söhbətlər eləyərdi. Mənim ikinci müəllimim Lazar Ter-Vartanesov idi. Atam Lazarın xətrini çox istəyirdi. Lazar bizdə tar çalanda mən onun barmaqlarına heyranlıqla baxar, sonra həmin barmaqları onun üçün vurardım. İyirmi-iyirmi beş yaşlarımda mən püxtələşmiş, təkmilləşmişdim. Tanış-qohumların məclislərini idarə edərdim.

1920-ci ildə Bakıda konservatoriya indiki Qoqol küçəsi ilə Tolstoy küçəsinin tinindəki evin üçüncü mərtəbəsində yerləşirdi. Atam Məşədi Süleyman və əmim Mirzə Mansur orada münsiflər heyətinin üzvü idilər. Orda həm dərs deyir, həm də Azərbaycan xalq musiqisinin düzgün inkişafından ötrü konsert-baxış təşkil edərdilər. Məsələn, Cabbar, Qurban, Saşa, Ələsgər, Şirin, Levon, Mirzə Fərəc, Ağabala, Məşədiqulu və başqaları bu konsert-baxışda iştirak eləyərdi. Hər dəstə bir dəstgah çalıb-oxuyurdu. Bu vaxt münsiflər heyəti muğamın düzgün ifasına diqqət yetirərdi.

O zaman oranın müdiri kamançaçalan Saşa Oqanezaşvili, onun müavini isə gözəl pianoçu Xədicə xanım Qayıbova idi. Atam, əmim hər gün ora gedəndə məni və böyük qardaşım Məliki də özləri ilə aparırdılar. Onlar istəyirdilər ki, qulaqlarımız musiqi ilə dolsun, onların düzgünlüyünü öyrənək.

Əsl konservatoriya 1921-ci ildə təşkil olundu. Bu konservatoriya isə Mehdi Hüseyn küçəsi ilə Krasin küçəsinin tinindəki binanın üçüncü mərtəbəsində yerləşirdi. Buranın təşkilatçısı və direktoru Üzeyir Hacıbəyov idi. O, atamı orada muğamdan dərs deməyə dəvət eləyir. Atam Üzeyir bəyə deyir ki, mən xəstəyəm, Mansur gəlib işləyər. O vaxtdan Mirzə Mənsur Üzeyir Hacıbəyovla birlikdə işləməyə başlayır. Əmimin tarını hər gün konservatoriyaya mən aparıb-gətirirdim. Görürdüm ki, tarçalanlardan Mirzə Fərəc, Şirin Axundov, Qurban Primov, xanəndələrdən



Bəhram Mansurov 1925-ci ildə 10-cu Şura məktəbində oxuduğu illərdə.
Aşağıda 3-cü sıra, sağdan 3-cü

Əbdülbağı Zülalov, Cabbar Qaryağdı oğlu, Məşədi Məmməd, Keçəçi Məmməd, Ələsgər Abdullayev və başqalarını da Üzeyir bəy ora toplayıb. O, müğamların tədris proqramını düzəltməkdən ötrü onların ayrı-ayrılıqda fikrini öyrənirdi. Məsələn, Üzeyir bəy soruşurdu ki, «Rast»da neçə hissə var? Əbdülbağı deyirdi ki, 5 hissə. Cabbar deyirdi ki, 7-dir. Məşədi Məmməd deyirdi ki, yox, elə deyil, «Rast» 9 hissədir. Bunları dinlədikdən sonra Üzeyir bəy əmimlə birlikdə oturub dərs demək üçün tədris proqramını tərtib edirdilər.

Biz 1930-cu ilə kimi Mirzə Mansurla bir yerdə olurduq. Bundan başqa Şüvalandakı bağımızda da bir yerdə qalardıq. Ona görə də bu istedadlı musiqiçinin sənət məktəbini yaxından öyrənmək, bütün bunlara tam halda yiyələnmək üçün mənim çox gözəl imkan və şəraitim var idi.

Üzeyir Hacıbəyov dəfələrlə onun folklorçuluq qabiliyyətinə yüksək qiymət vermişdir. Böyük bəstəkar xalq musiqisinə, xüsusən muğamlara aid mübahisəli məsələlər zamanı Mirzə Mansuru səbrlə dinləyər və onunla razılaşardı.

Mirzə Mansurun çalğısında və mizrablarında elə cazibəli qüvvə vardı ki, o, adi hallarda belə tara mizrab vurarkən dinləyicinin diqqətini cəlb edirdi. Onun tarından alınan cingiltili, dolğun səsləri eşidənlər tarzənin ustalığına heyran qalmaya bilmirdilər.



Bəhram Mansurov (1929)

Yadımdadır, Mirzə Mansur öyrətdiyi muğamı əvvəl özü yaxşı-yaxşı çalardı. Lazım olduqda öyrətdiyi hissəni məşhur şairlərin, bəzən isə özünün yazdığı qəzəllərlə oxuyardı. Fars dilini gözəl bildiyindən arabir bu dildə kəlmələr də işlədir, fars şairlərindən müəyyən parçalar oxuyurdu. O, öyrətdiyi muğamın hər kiçik guşəsini və xırdalıqlarının belə yerli-yerində olmasına, tələbə tərəfindən düzgün ifa olunmasına xüsusi diqqət verirdi. İstədiyinə nail olduqda daha həvəslə, ilhamla çalırdı. Tədris vaxtı tara «xum» verilməsi, rəngarəng barmaq gedişləri, mürəkkəb mizrab qaydaları və sairə çalğı üsulları Mirzə Mansurun ən çox sevdiyi ifaçılıq priyomları idi. Mirzə Mansur dərs keçərkən öyrətdiyi muğamı bütöv çatdırmasa, tələbəni buraxmırdı. Həm də öyrətdiklərini tələbənin nə tərzdə qavramasını tam müəyyən etməsə təzə dərsə başlamırdı.

Mirzə Mansurun olduqca zəngin yaradıcılıq keyfiyyətləri ilə seçilən muğamat dərsləri, hətta azərbaycanlı olmayan musiqiçilərin belə diqqət və marağına səbəb olurdu. Xatırlayıram, o vaxtlar Üzeyir bəyin göstərişi ilə bir nəfər yəhudi Azərbaycan xalq musiqisini öyrənmək üçün Mansur Mansurovun yanına gəlib muğam dərsləri keçirdi. Əmim, tar vasitəsi ilə xalq musiqi nümunələrini bu gəncə başa salırdı.



Bəhram Mansurov (1931)

Mirzə Mansuru yaxından tanıyanlar yaxşı bilirlər ki, onun sənəti ilə şəxsiyyəti bir-birini tamamlayırdı. Dəfələrlə xahiş və dəvət olunmasına baxmayaraq Mirzə Mansur toylara getmirdi.

Gözəl müəllimlik keyfiyyətlərinə malik olan Mirzə Mansur həyatda da olduqca qayğıkeş və xeyirxah əməllər sahibi idi. Nəcib, mədəni insan olan Mirzə Mansuru tələbələri və yetirmələri həmişə bu cür tanıyıblar.

Böyük qardaşım Məlik (1910-1926) və mən 1921-ci ildə birinci dərəcəli 10 nömrəli Şura məktəbində oxuyurduq. Məlikin tara çox böyük həvəsi vardı. Hərdən atamın tarlarından birini götürüb, yavaş-yavaş muğamları öyrənirdi. İlk öyrəndikləri muğamlardan «Səba-şəms» zərbi və «Şur» muğamı idi. Bəlkə də o, gələcəkdə yaxşı tarçalan ola bilərdi. Lakin 1928-ci ildə xəstələndi və qəflətən vəfat etdi.

Ailəmizdə hamı tar çala bilirdi. Hətta bacım Sara da özü üçün xırda-xırda tar çalmağı öyrənmişdi.

Məktəbdə keçirilən gecələrdə tarda solo «Rast», «Çahargah», «Bayatı-Şiraz», «Qatar» və başqa muğamları çalırdım. O zaman 12-13 yaşım vardı. 1925-ci ildə mən 10 nömrəli Şura məktəbini bitirdim. İlin yarısını bağda olduğumuzdan mən tez-tez məktəb dəyişməyə məcbur olmuşam. Müxtəlif vaxtlarda iqtisadi, əczaçılıq, inşaat texnikumlarında, nümunəvi və RABFAK məktəblərində oxumuşam.

1927-ci ildə təhsilimi 33 nömrəli məktəbdə davam etdirdim. O zaman bu məktəbin direktoru Mehdi bəy Hacınski idi. Oranın böyük bir zalı vardı. Bu məktəbdə Abdulla Qarayev (sonralar akademik) kiçik bir ansambl düzəltmişdi. O, özü də yaxşı tar çalardı. Onu da deyim ki, Abdulla Asəf Zeynallı ilə birlikdə əmimdən musiqi texnikumunda muğamdan dərs alırdı. O vaxtlar «101» havası təzə çıxmışdı. Mən, o havanı çalmağı Abdulladan öyrəndim.

Bir dəfə məktəbdəki konsertdə iştirak etdiyim zaman xanəndə Cabbar Qaryağdı oğlu, tarzən Qurban Primov və kamançaçalan Seryoja Oqanezaşvili də orada idi. Onlarla cavan, qəşəng bir qız gəlib oxudu. O qız - Cəvahir Firudinbəyli idi. Mənim tarda çaldığım «Rast» muğamı onların çox xoşuna gəlmişdi.

Bizim evə ki, tez-tez musiqiçilər, şairlər toplaşardı, sözün düzü, oxumaq gözümdə deyildi. Çünki bu ocaq da məktəb idi - həyat məktəbi. Burdakı maraqlı söhbətlər, incə, şirin çalğılar məndə musiqiyə qarşı böyük məhəbbət aşılamışdı.

Axırıncı təhsil aldığım yer Pedaqoji Texnikum idi. 1929-cu ildə Pedaqoji Texnikumda oxuduğum zaman himayəmizdə olan «Salyan kazarmaları»nda konsertlər verirdik. Bu konsertlərdə oxuyanlar mənim məktəb yoldaşlarım – Məhərrəm Haşımov, Ağasəf Bakıxanov və Süleyman Məmmədov idi.

Bu zamanlar bəstəkar Zülfüqar Hacıbəyov və Qriqori Yakovleviç Madatovun rəhbərliyi ilə «Azərbaycan Konsert Birliyi» təşkil edilmişdi. 1929-1930-cu illərdə məni də birliyin tərkibində olan orkestrə dəvət etdilər. Orkestr Qəzənfər Musabəyovun adını daşıyırdı. Kollektivimizin tərkibində Cabbar Qaryağdı oğlu, Xan Şuşinski, Hüseynağa Hacıbababəyov, Qurban Primov və başqa görkəmli musiqiçilər var idi.

Uzun illər bir sıra görkəmli bəstəkar, xanəndə və ifaçılarla çiyin-çiyinə işləmişəm. Sovet hakimiyyətinin qələbəsindən sonra xanəndə İslam Abdullayev ilə birlikdə üç il Mahaçqala, Gəncə, Ucar və Qusarda «Azərbaycan konsert birliyi»nin tərkibində siyasi təşviqat briqadası ilə zəhmətkeşlər qarşısında bir çox konsertlər vermişik.

Mənim musiqiçi kimi yetişməyimdə ən çox görkəmli xanəndəmiz Cabbar Qaryağdı oğlunun xidməti olub. On iki ilə yaxın müddət ərzində onu müşayiət etmişəm. Muğamın qaydalarına görə tarzən xanəndəni oxumuğa ruhlandırmalı, onu arxasınca çəkib aparmalıdır. Cabbar Qaryağdı oğlu belə xanəndələrdən deyildi, o, tarzəni arxasınca aparırdı. Onu müşayiət edə-edə muğamın sirlərinə daha dərindən bələd olurdum. Əlbəttə, bu gün hamı bilir ki, muğam ifaçılığı sənətində Cabbar Qaryağdı oğlundan yüksək zirvə yoxdur. Bunu dillə demək asandır. Amma onun böyüklüyünü, ustalığını, səsinin dönümlərini açıb göstərmək üçün sözün imkanı azdır. Özü də Cabbar əmi o vaxt muğamları bütöv şəkildə - «Dəstgah» kimi oxuyardı. Bir sözlə, o, dərya idi. Mən ömrümdə Cabbar Qaryağdı oğlu qədər alim muğamatçı, kamil xanəndə görməmişəm.

Bir dəfə bizi hansısa bayram münasibətilə Tiflis şəhərinə qastrola göndərdilər. Kollektivimiz orada böyük müvəffəqiyyət qazandı. Tiflisdən qayıtdıqdan sonra 1930-cu ildə məni «Musiqi təşviqat» briqadasının tərkibinə daxil etdilər. Yadımdadır, otuzuncu ilin ortaları idi. Ölkəmizin hər yerində olduğu kimi, bizim respublikamızda da kollektivləşmə gedirdi. Kolxozların yaradılmasına mane olan adamlar dağlara, meşələrə çəkilərək, taxıl zəmilərini və pambıq tayalarını yandırırdılar. Biz təşviqat briqadası ilə Qaradonlu rayonuna getmişdik (indiki İmişli rayonu - red.). Bizi kəl arabalarında aparırdılar. «Otuzikilər» kəndinə gedəndə gördük ki, qaçaqlar pambıq tayasına od vurublar. Eşitdik ki, qaçaq Sadayın dəstəsi kəndliləri tez-tez narahat eləyir. Biz kənddə konsert verdikdən sonra Qaradonluya qayıtmaq mümkün olmadığından, gecəni də orada qalmalı olduq. Çünki konsertdən sonra yola



Bəhram Mansurov Hacıkənddə qastrol zamanı (20 iyul 1931)



Bəhram Mansurov və Hafiz Mirzəliyev (1935)

hazırlaşırdıq ki, güllə səsi eşidib dayandıq. Xəbər verdilər ki, qaçaqlar kəndə basqın edirlər. Ona görə də kəndin partkomu bizi briqadirin evinə aparıb, qorunmağı tapşırdı. Odur ki, biz konsertləri daha axşamlar yox, gündüzlər verməli olurduq. Bu briqadamızda «Damğa» teatrının üzvlərindən - artistlər Şəfiqə və Tahir (ər-arvad), qarmonçalan Ağamoğlan, bir nəfər kamançaçı və briqadanın rəhbəri Əlinəbi idi.

Sonra məni üç ay müddətinə Hacıkəndə qastrola göndərdilər. Burda əsgərlər üçün konsertlər verirdik. Oxuyanımız Cahan Talışinskaya idi.

Üzeyir Hacıbəyov və Müslüm Maqomayevin təşəbbüsü ilə 1931-ci ilin oktyabrında «Birinci notlu orkestr» yaradıldı. Müslüm Maqomayev radio üçün gənc kadrlar axtarıb tapmaq məqsədilə tez-tez konsert salonlarına, musiqi məktəblərinə gedər, gənclərə qulaq asardı. Bir gün o, məni yanına çağırıb dedi: «Sənə konsertdə qulaq asmışam, istəyirəm indi «Dügah» muğamını çalasan, bir daha qulaq asım». Mən Müslüm bəyin xahişinə məmnuniyyətlə əməl etdim. Muğam bitən kimi o, ayağa durdu, adəti üzrə gülümsəyib dedi: «Cavan oğlan, çalğın xoşuma gəlir, gəlsənə səni radioya işə götürək, elə bilirəm dinləyiciləri razı salarsan».

Mən, birinci dərəcəli tarzən kimi radioda işə qəbul edildim. Həm konsertlərdə solo çalırdım, həm də oxuyanları müşayiət edirdim. Sonralar Maqomayevin dəvətilə opera teatrında işə başlamağıma baxmayaraq mən yenə də radioda müntəzəm olaraq muğamlarla çıxış edirdim. Radioda konsert nömrələrini diktorlardan Leyla Terequlova, Soltan Nəcəfov, Hüseyn Natiq, Səməd Səmədzadə elan edirdi. O vaxtlar nahar fasiləsi konsertləri təşkil olunardı ki, bu konsertlərdə üçlüklər çalardı. Üçlüklər həm oxuyanları müşayiət edərdi, həm də oyun havaları çalardı. Mənim üçlüyümdə Qılman Salahov (kamança), Xalıq Babayev (qaval) iştirak edirdi.

O zaman radioda tez-tez açıq konsertlər təşkil olunardı. Belə konsertlər «Rote-Fane» (indiki Nizami parkı) parkında «Müdafiə evi»ndə (indiki Filarmoniya), sənaye müəssisələrində verilərdi. Bu konsertlər bəzən radio ilə xalqa çatdırılırdı.

O vaxt Q.Y.Madatov buranın müdiri idi (sonralar isə o «Müdafiə evi»ndə direktor oldu). O bizi çağırırdı ki, müqavilə əsasında bu konsertlərdə iştirak edək. Bizimlə mövsümi müqavilələr bağlayırdılar. Bu konsertlərdə mən Qurban dayı ilə birlikdə iştirak edərdim. Bəzi vaxtlarda o gəlmirdi, mən kamançaçı ilə tək qalırdım.

Azərbaycan radiosunun ilk notlu orkestrinin yaranması Müslüm Maqomayevin adı ilə bağlıdır. Orkestrin bədii rəhbəri və dirijoru Üzeyir Hacıbəyov, dirijor müavini isə Səid Rüstəmov idi. İlk orkestrin 24 üzvü var idi. Bu orkestrə o zamanın tanınmış ifaçıları cəlb edilmişdi.

1930-1935-ci illərdə Bakıda musiqi aləmi çox zəngin idi, tez-tez Şərq konsertləri, etnoqrafik konsertlər, ədəbi-bədii musiqi gecələri təşkil edilərdi. Seyid Şuşinskinin, Ələvsət Sadıqovun, Haşım Kələntərlinin, Zülfüqar Sarıyevin, Hüseyn Kazımovun, Sürəyya Qacarın, Həqiqət Rzayevanın, Yavər Kələntərlinin, Cahan Talışinskayanın, Münəvvər Kələntərlinin, Hüseynqulu Sarabskinin, Hüseynağa Hacıbabəyovun, Zülfü Adıgözəlovun, Xanlar Haqverdiyevin, Qurban Primovun, Əhməd Bakıxanovun, aşıqlardan Məmməd, Həsən, İbrahim, İslam, Əsəd və başqalarının çıxışları hərarətlə qarşılanardı. Etnoqrafik konsertlərə Özbəkistan, Türkmənistan respublikalarından ifaçılar, ansambllar dəvət edilərdi. Onlar tamaşaçıları öz xalqarının el havaları və milli etnoqrafiyaları ilə tanış edərdilər. Bir qayda olaraq həmin konsertlərdə Xan Şuşinski, Qasım Qaradağlı, Mütəllim Mütəllimov və başqa xanəndələr iştirak edərdilər.


BAKI ŞURASI
BXMŞ

SİMFONİK QONSERTLƏRİ
İ D A R Ə S İ
MÜDAFİƏ EVİ
B İ N A S I N D A

1935 İİ
MÖVSÜMÜ

23 noyabrda

JAZ MÖVSÜMÜNÜN BAĞLANMASI
BÖYÜK ŞƏRQ QONSERTİ

İştirak edirlər:

Xanəndələr:

KƏLƏNTƏRLİ JAVƏR, TALIŞINSKAJA ÇAHAN,
KƏLƏNTƏRLİ MÜNƏVVƏR,
XAN ŞUŞİNSKİ,
ÇABBAR QARJAĞDILI (xalq artisti)
SARABSKİ H. Q. (xalq artisti)

Solistlər:

QURBAN PRİMOV (xalq artisti)
ALLAHJAR, MANSUROV BƏHRAM

Rəqsçi: CAXOVA
1-ci Azərbaiçan Dövlət şərq orkestrosu

Günlərin birində Asəf Zeynallı mənə dedi ki, gələrsən bizə, sənինlə işim var. Getdim. Balkonda əyləşib çay içə-içə söhbət edirdik. Bir yarım saatdan sonra Hüseynqulu Sarabski də gəldi, söhbət qızışdı. Asəf dedi ki, bilirsən, Bəhram, səni niyə çağırmışam. Dedim: «Bilmirəm». Dedi: «Hüseynquluya da zəhmət vermişəm. Məsələ belədir, Leninqradda



Bəhram Mansurov (22 avqust 1933)

bir institut açırlar. Orada bütün millətlərdən musiqiçilər olacaq, öz milli musiqilərini təbliğ edəcəklər. Məsələn, Azərbaycan tarı belədir, muğam tarda belə çalınır, xanəndə isə muğamı belə oxuyur. Mən istəyirəm ki, siz mənimlə ora gedəsiz. Orada hər cür şərait olacaq, ev, yaxşı maaş verəcəklər. İstəyirəm mənimlə ora köçəsiniz. İndi nə deyirsiniz?» Mən ürəyimdə dedim ki, getməyəcəyəm. Bu dəm qapı döyüldü. İki cavan oğlan içəri girdi. Asəf dedi ki, bunlar mənim Leninqradlı dostlarımdır, onlarla gedəcəyik. Xətrinə dəyməmək üçün dedik, nə olar. Asəf dedi: «Mən bir neçə gündən sonra gedirəm Bülbülnən Qarabağa, xalq mahnılarını nota yazmağa. Gələrəm, sonra məsələni həll edərik».

Belə oldu ki, Qarabağda o bərk xəstələndi. Bakıya qayıtdı, bir neçə gündən sonra vəfat etdi. Bu məsələ də qaldı belə.

Sonra bir gün Bülbül mənə dedi ki, Bəhram, mən Məşədi Süleymanı görmək istəyirəm. Dedim: «Atam həmişə evdədir». Dedi: «Məşədiyə deyərsən ki, mən sabah gələcəyəm. Bir zəhmət çəkib, məni gözləsin». «Yaxşı» - dedim.

Səhəri o, gəldi. Atama dedi ki, Məşədi, bir şeydən ötrü gəlmişəm. Qədim vaxtdan ta indiyəcən toylar, qonaqlıqlar, dəblər, oynamaqlar, pəhləvanlar - nə görmüsən, nə cür görmüsən, onları yaz ver mənə, gələcəkdə bunlar xalqımıza lazım olacaq. Bu yazıları aparıb akademiyada saxlayacağam. Atam dedi: «Yadıma nə düşsə, yazaram». Bu söhbətdən bir neçə ay keçəndən sonra atam 4-5 dəftər mənə verdi ki, Bülbülə çatdırım. Atam həmin yazıların bir üzünü də köçürüb evdə saxladı.

Mənim professional tarzən kimi ilk müşayiət etdiyim müğənni Cahan xanım idi. Mən Cahan Talışinskaya ilə 1929-cu ildə tanış olmuşdum. Akademiyanın binasında (keçmiş İsmailiyyə) bayram konserti vardı. Həmin konsertdə Cahan xanım, Sürəyya Qacar, Qurban Primov, Məmmədxan Bakıxanov iştirak edirdi. Elan olundu ki, Cahan Talışinskaya «Kürdi-Şahnaz» oxuyacaq. Tarçalan Məmmədxan, kamançaçalan isə Seryoja Oqanezaşvili idi. Cahan xanım elə bir «Kürdi-Şahnaz» oxudu ki, camaatın alqışları ilə məcburən yenə də səhnəyə qayıtmalı oldu. Bu dəfə o, «Qarabağ şikəstəsi» oxudu. Tamaşaçılar yenə də əl çəkməyib, üçüncü dəfə onu səhnəyə çağırdıqda, «Uca dağlar» mahnısını oxudu.

Sonra 1930-cu ildə mən «Azərbaycan konsert birliyi»nin üzvü olduğum vaxt Cahan da orada oxuyurdu. Elə birgə konsertlərə gedirdik. 1931-ci ildə Cahan xanımla məni Hacıkəndə qastrola göndərdilər. Biz orada üç ay qastrolda olduq. Cahan Talışinskayanın gözəl xasiyyəti vardı. Bir dəfə

Bakıda bir məclisdə olduq. Həmin məclisdə Yavər xanımla Cahan xanım, alimlər, ziyalılar vardı. Yavər xanım «Şur», Cahan xanım isə «Bayatı-Qacar» oxudu. Sonra Abutalıbdan xahiş etdilər ki, bir şey çalsın. Mən, qarmonçalan Abutalıbın adını eşitmişdim, amma çalğısını görməmişdim. O dedi ki, mən bir «Karvan» çalacağam. Doğrudan da bu, bir «Karvan» çaldı ki, qarmon dilləndikcə elə bil dəvələr cərgə ilə zınqırovlarını səsləndirərək harasa gedir. Sonralar Cahan Talışinskaya ilə çox kəndlərdə konsertlər vermişik.

1935-ci ilin 23 noyabrı idi. Konsertlərin birində həmin gecə Hüseynqulu Sarabski «Bayatı-Şiraz», Cahan Talışinskaya «Qatar» oxudu. Sonda Cabbar Qaryağdı oğlu, Xan Şuşinski, Hüseynqulu Sarabski, Cahan Talışinskaya, Yavər və Münəvvər Kələntərlilər «Qarabağ şikəstəsi» oxudular. Bu böyük xanəndələrin şikəstəni birgə ifası zərb muğamın təsirini birə-on artırdı. Bu, sizə asan gəlməsin, Cabbarla, Xanla yanaşı dayanıb «Qarabağ şikəstəsi» oxumaq hər xanəndənin işi deyildi.

Cahan Talışinskaya daim yaradıcılıq axtarışları aparar, oxuduğunu ifadan-ifaya təkmilləşdirərdi. Qastrolda olduğu müxtəlif rayonlarda, ucqar kəndlərdə xalq yaradıcılığı inciləri ilə maraqlanar, sinədəftər qocalardan musiqi folklorumuzun ən yaxşı nümunələrini öyrənər və onları geniş dinləyici kütləsinə çatdırardı. Təsadüfi deyil ki, xalq mahnılarından bir çoxu onun ifasında geniş yayılmışdı.



Bəhram Mansurov Hacıkənddə qastrol zamanı (20 iyul 1931)



Bəhram Mansurov sənət dostları ilə (1932)

O zaman gözəl bir ənənə vardı. Konsertlərin bədii hissə müdiri, bəstəkar Zülfüqar Hacıbəyov tez-tez Azərbaycan rayonlarına gedər, gözəl səsli cavanları seçib Bakıya gətirərdi. Filarmoniyada görkəmli xanəndələrlə yanaşı, gənclərin də konsertləri təşkil edilərdi. Cavanlar öz qabiliyyətlərini nümayiş etdirər, əsl mənada imtahan verərdilər.

Mənə elə gəlir ki, bu ənənəni yenə də davam etdirmək lazımdır. Çünki indi rayonlarımızda musiqi həvəskarlarının sayı çoxalıb, cavan oxuyanlar yetişib. Onları qayğı və tələbkarlıqla seçib musiqi ocaqlarına cəlb etmək lazımdır. Unutmaq olmaz ki, konsert salonlarının sayı artıb, teatr sənəti daha da inkişaf edib, yeni-yeni musiqi kollektivləri yaranıb. Bu musiqi ocaqları əsl istedadların yolunu gözləyir.

Mənim əsas yaradıcılığım opera teatrı ilə bağlıdır. 1922-ci il idi. Məndən yaşca böyük olan bibim oğlanları teatra gedirdilər. Soruşdum: «Nə teatrıdır?» Dedilər: «Leyli və Məcnun». Dedim: «Məni də aparın». Dedilər: «Yox, sən balacasan, səni buraxmazlar». Mən çox yalvardım, axırda məni də özləri ilə apardılar. Birtəhər içəri keçdim. Teatr başlandı, gördüm bir tar səsi gəlir. Ürəyimdə öz-özümə dedim ki, burda tarın səsi nə yaxşı gəlir, görəsən, mən də burada çala bilərəmmi? O gün tamaşada Hüseynqulu Sarabski Məcnun, Sona Hacıyeva isə Leyli rolunda oynayırdılar. O teatrdan sonra tara olan həvəsim birə yüz artdı.



Əliağa Quliyev və Bəhram Mansurov Kirovabad, (1938)

Günlərin bir günündə gecə saat on ikinin yarısında qapımız döyüldü. Atam dedi ki, gör bu gecənin yarısı gələn kimdir? Baxdım ki, Sarabskidir. Görüşdükdə atam soruşdu: «Hüseynqulu, xeyirdimi? O dedi: «Nigaran olma. «Bayatı-Şiraz» barədə Məmmədtağı Bağırovla sözümüz çəp düşüb, odur ki, dedim, gec də olsa, gedim Süleymandan «Bayatı-İsfahan»a düzgün ayaq verməyi soruşum».

...O vaxt mən Mustafa Sübhi adına birinci dərəcəli 10 nömrəli Şura məktəbində oxuyurdum. Yaşımın kiçik olmağına baxmayaraq Hüseynqulu Sarabskinin Məcnununu görəndən, Qurban Primovun çalğısını ilk dəfə eşidəndən sonra ürəyimdə fikirləşdim ki, görəsən

mənə də belə bir ustadı müşayiət etmək nəsib olacaqmı?

...Məni opera teatrına aparan mərhum bəstəkarımız Müslüm Maqomayev olub. O zaman Müslüm bəy teatrın baş dirijoru və bədii rəhbəri idi. 1932-ci ildən mən taleyimi opera teatrı ilə bağladım. İllər ötdü. Artıq Hüseynqulu Sarabskinin Məcnununu öz tarımla müşayiət edirdim.



Bəhram Mansurov (1929)

Qədd-qamətli, xoş xasiyyətli Hüseynqulu Sarabski tamaşanın saat 8-də başlamasına baxmayaraq teatra saat 6-da gələrdi. Tamaşa başlanana kimi qrimlənər, yavaş-yavaş özü üçün oxuyardı, odur ki, səhnəyə çıxanda çətinlik çəkməzdi, səsi ipək kimi gözəl olardı. Onun «Leyli və Məcnun»un birinci pərdəsində «Mahur-hindi» oxumağı, rolu oynamağı camaatı xüsusilə heyran edərdi. Leylinin ölən pərdəsindəki «Orta segah» yerini də elə ürəkdən oxuyurdu ki, pərdə bağlananda tamaşaçılar göz yaşlarını saxlaya bilmirdi. Sarabski rolu o qədər inandırıcı oynayırdı ki, elə bil Füzuli doğrudan da Məcnunu onun üçün yazıb. O, Füzulinin sözlərini muğamın üstə çox dəqiqliklə bölüşdürürdü. Hüseynqulu Sarabski Kərəm, Qərib, Əsgər, Şah Abbas rollarının da gözəl ifaçısı idi.

Hüseynqulu Sarabski gözəl sənətkar olmaqla bərabər, gözəl də rejissor və müəllim idi. O, «Leyli və Məcnun», «Əsli və Kərəm», «Aşıq Qərib» operalarına yeni quruluşlar verib.

Mən, Sarabskinin konsertlərində onu müşayiət etmişəm. O, konsertə xüsusi səliqə ilə gələrdi. Səhnəyə frak, ağ döşlük, bant, lak çəkmə ilə çıxırdı. Səhnədə özünü yüksək mədəniyyətlə aparardı. Özünün xüsusi repertuarı var idi. O, «Bizim dağlar», «Seyid Abbası» mahnılarını və «Bayatı-İsfahan» muğamını daha çox sevirdi, demək olar ki, hər konsertdə oxuyurdu.



Qaryagin rayonunda qastrolda olarkən. Soldan 1-ci Bəhram Mansurov, 2-ci Hüseynağa Hacıbabəyov, 5-ci Hüseynqulu Sarabski (11 mart 1942)



Kirovabadda qastrol zamanı. Soldan Səftar, Əliağa Quliyev, Bəhram Mansurov və Hacı Xanməmmədov (22 iyul 1938)

Bu illərdə opera teatrının Azərbaycan incəsənətinin Qurban Primov, Hüseynağa Hacıbabəyov, Həqiqət Rzayeva, Sürəyya Qacar, Əlövsət Sadıqov, Məmmədtağı Bağırov, Xanlar Haqverdiyev, Məhbubə Zeynalova (Paşayeva), Hənəfuş Terequlov, Zülfüqar Sarıyev, Nurməmməd Məmmədov, Əfrasiyab Bədəlbəyli, Əşrəf Həsənov, Qulam İsgəndərov, Hacıbala Hüseynov, Eloğlu İsmayıl (Hüseynov) kimi görkəmli nümayəndələri çalışırdı.

İsmayıl Eloğlu hündürboylu, qəşəng bir oğlan idi, gözəl də səsi vardı. 1926-cı ildə Bülbül onu Qarabağdan Bakıya gətirdi. İsmayıl yaxşı «Şahnaz», «Qatar», «Mirzə Hüseyn segahı», «Qarabağ şikəstəsi» oxuyurdu. 1929-cu ildə Xanlar Haqverdiyev onu götürüb gəlir opera teatrına. Müslümbəy ona qulaq asır, teatra qəbul edir. İsmayıl Eloğlu «Leyli və Məcnun»da Nofəl, «Şah İsmayıl»da Vəzir, «Əsli və Kərəm»də Keşiş, «Aşıq Qərib»də Şahvələd kimi yaddaqalan obrazlar yaradıb. O, adını çəkdiyim obrazların musiqi partiyalarını çox gözəl ifa edirdi.

Mənim kamil bir tarzən olmağımda məşhur sənətkarlardan Qurban Primovun əməyi çox olub. Çünki mən opera repertuarını ondan öyrənmişəm, onunla 35 il çiyin-çiyinə «Leyli və Məcnun», «Şah İsmayıl», «Əsli və Kərəm», «Aşıq Qərib», «Şahsənəm», «Nərgiz» operalarını müşayiət etmişəm.

Qurban Primovun gözəl sənəti haqqında hələ uşaqkən atamdan eşitmişdim. Sonralar onunla tez-tez görüşdüyümdən ifaçılığı ilə daha yaxından tanış oldum.

Mən onun konsertinə iyirminci illərdə getmişəm. O vaxtlar «Fenomen» (indiki Kukla teatrının binası - red.) teatrında satira gecələri, birpərdəli komediyalar və s. gedərdi. Burda konsertlər də verilirdi. Bir gün yığışıb Qurban Primovla Bala Məlikovun konsertinə getdik. Adam çox idi. Əvvəl Bala Məlikov «Çahargah», sonra isə Qurban Primov «Mahur-hindi» çaldı. Qurban dayının çalğısı daha üstün oldu.

O, məni adımla çağırmazdı. Həmişə «qardaşoğlu» deyərdi. Çünki əmimlə, atamla qardaş kimi idilər. Özü çox yaxşı adam idi. Mən hələ eşitməmişəm ki, Qurban dayı bir adamın dalınca desin ki, çala bilmir. Xəbər alanda ki, Qurban dayı, filankəs necə çalır, deyərdi ki, ağrın alım, hamısı yaxşıdır.

Qurban Primovun ifaçılığının ən yaxşı cəhəti - onun klassik irsə dərindən bələdliyi, yeni tar məktəbinin yaradıcısı olan müəllimi Mirzə Sadığın çalğı xüsusiyyətlərinə gözəl yiyələnməsi və bunları özünəməxsus ustalıqla yaşada bilməsidir. O, müəllimindən öyrəndiklərini daha da təkmilləşdirər, üstadının sənətini qayğı ilə əzizləyərdi. Sadıqcandan danışarkən onun «Şur» müğamında sual-cavab formasında çaldığı guşələri, cinkənə simlərdə «Sadıq mizrabı» deyə adlandırdığı priyomları (ələlxüsus «Mahur-hindi» muğamının «Ərak» şöbəsində) sevə-sevə səsləndirərdi. Novator (yenilikçi - red.) tarzənin tələbəsi olması ilə fəxr edirdi. Mirzə Sadığın yaratdığı «Zabul-segah» və «Bayatı-Şiraz» rənglərini özünün daimi repertuarına salar, bunları ondan öyrəndiyini deyərdi.



Soldan: Əliağa Quliyev, Bəhram Mansurov, Qurban Primov, Hacı Xanməmmədov (Gəncə, 1938)

Tar çalanların bütöv bir nəsli Qurbanın ifaçılığından bəhrələnib. Mirzə Sadıq məktəbi ənənələrini davam etdirən Qurban Primov tar ifaçılığı sənətini həqiqətən də yüksək zirvəyə qaldırmış ilk tarzəndir.



Bəhram Mansurov (Kislovodsk, 1939)

Gəncliyimdən ta bugünkü günümə qədər mən opera teatrını öz doğma evim bilmişəm, operalarımızı isə ürəkdən sevmişəm, onları səhnəmizdə uzun illər yaşatmaqdan ötrü var qüvvəmlə çalışmışam. Üzeyir Hacıbəyovun, Müslüm Maqomayevin, Zülfüqar Hacıbəyovun muğam operalarının musiqisinin olduğu kimi qorunub saxlanılmasından ötrü əlimdən gələni etmişəm. Daim axtarışlar aparıb teatrımız üçün gənc kadrlar hazırlamışam. Teatrımızdan gedən yaşa dolmuş aktyorlarımızı əvəz edən gənc



Üzeyir bəy Hacıbəyov

opera solistləri yetişdirmişəm ki, muğam operalarımız həmişə təravətli olsun, tamaşaçıların zövqünü oxşasın.

Əvvəldə dediyim kimi, opera teatrımızın taleyi Üzeyir Hacıbəyovla bağlıdır. Mən Üzeyir bəyi uşaqlıq illərindən tanıyırdım. Onu 1922-ci ildə əmim üçün konservatoriyaya tar aparıb-gətirəndə görmüşəm. İndiki Asəf Zeynallı adına İxtisas musiqi məktəbi o zaman konservatoriya adlanırdı. Üzeyir Hacıbəyov və əmim Mirzə Mansur orada bir yerdə işləyirdi. Hər ikisi Bakıda nə qədər ifaçı vardısa, onların hamısını bu konservatoriyaya dəvət edirdi ki, muğam tədrisi proqramı hazırlamaqdan ötrü sazəndə və xanəndələrin fikrini öyrənsinlər. Sonra isə öz mülahizələri ilə proqram tuturdular.

Üzeyir bəy teatra həmişə gəlmirdi. Bəzən Müslüm bəy xəstə olanda o, dirijorluq edərdi. Bəzi vaxtlarda isə gəlib tamaşaların gedişinə baxardı. Təzə quruluş olanda məşqlərə gələrdi.

Bir dəfə «Leyli və Məcnun» operasının təzə quruluşu gedirdi, rejissor Soltan Dadaşov idi. Muğam operalarında adətən bəstəkarın göstərdiyi muğamlardan hissələr çalınır. Çoxdanın söhbətidi, bildiyiniz kimi, Üzeyir Hacıbəyovun «Leyli və Məcnun» operasının ikinci pərdəsində «Səba-Şəms», «Sarənc» çalınır. Tamaşanın o zamankı quruluşu elə verilmişdi ki, «Sarənc»i gərək üç dəfə təkrar çalaydıq. Ona görə ki, artist səhnədə gəzişəndə mizanını dəyişir, o gəzişdiyi yerlərdə isə çalğı yeri qoyulmayıb. Məsələn, artist pilləkənlə qalxıb yuxarıda əyləşməlidir. O, mizana qədər isə «Sarənc» çalınıb qurtarır. Odur ki, yenidən təkrarını çalmaq lazım gəlirdi. Bu hal məni çox düşündürürdü ki, nə üçün bu muğamlar eynilə bir neçə dəfə təkrar olunmalıdır. Elə buna görə də mən rus klassik operalarına daha çox baxmağa və qulaq asmağa başladım. O zaman operada bizim gözəl müğənnilərimiz var idi: Drozdov, Knijnikov, Nikolski, Lopatin, Fatma Muxtarova və başqaları. Mən onları diqqətlə izləyirdim ki, görüm bunlar oxuyub qurtarandan sonra, səhnə hərəkətləri zamanı yerlərini dəyişəndə bu vaxt musiqi necə gedir. Baxıb görürdüm ki, burada boşluq əmələ gəlmir, musiqi təkrarsız gedir. Beləliklə, fikirləşdim ki, muğamlarımızda bu qədər böyük, geniş imkanlar olduğu halda nə üçün muğamın bir şöbəsini 2-3 dəfə təkrar etməliyik. Fikrimi Soltan Dadaşova söylədim. O, mənimlə razılaşdı. Səhnədə artistin mizanı vaxtı təkrara yol vermədən «Sarənc»i çalmaqdan ötrü mən əvvəlcə «Mirzə Hüseyn segah»ının «Manəndi-müxalif» yerindən başlayırdım, hissə-hissə gəlib çıxırdım «Sarənc»ə. Beləliklə də artistin səhnə hərəkətləri ilə çalğı təkrarsız gedirdi, musiqi aktyorun hərəkətini tamamlayırdı.

Muğam operalarımızda nə qədər belə yerlər varsa, mən onlara muğamlarla bu cür improvizə edirdim. Bu günümüzə qədər də səhnə hərəkətlərinin bütün boşluq yerlərini muğam şöbələri ilə doldurmuşam.

Üzeyir bəy məşq zamanı bunlara baxıb qulaq asandan sonra gülümsədi, əlini bığına aparıb mənə dedi: «Oğlan, bəyəndim, çox xoşuma gəldi. Sən bunları hardan öyrənmisən? Sənin belə gözəl fikrini mən qiymətləndirməyə bilmərəm». Mən yuxarıda dediklərimi Üzeyir bəyə danışdım. Üzeyir bəy çox sevindi, razılıq əlaməti olaraq məni qucaqladı. O vaxt göy 20 manatlıq pul vardı. Cibindən bir 20 manatlıq çıxarıb mənə verdi və dedi: «Oğlan, al bunu, get bufetdən nə istəyirsən, özün üçün al, bu da olsun operamız üçün elədiyin bu gözəl fikrinin şirnisi».

Üzeyir bəy Soltana dedi ki, bu operaları kim çalsa, de, ancaq bu qayda ilə çalsın.

Mənim bu sənətdə peşəkar inkişafımda, tanınmağımda Müslüm Maqomayevin də əməyi çox olub.

Müslüm bəy öz işində dəqiq adam idi. O, yazdığı operaların əsas partiyalarını oxuyan ifaçılara çox qayğı və ehtiyatla yanaşırdı. Hüseynağa Hacıbabəyovdan başqa «Şah İsmayıl»ı bir adama vermirdi oxumağa.

Mən Hüseynağa Hacıbabəyovla otuz ildən artıq bir yerdə işləmişəm. Hüseynağa çox gözəl müğənni və opera artisti idi. O, əvvəllər ancaq qadın rollarında çıxış edirdi. Sonralar dinləyicilərin və tamaşaçıların yadından uzun müddət çıxmayan gözəl kişi obrazları yaratmışdı. Hüseynağanın ifasında Şah İsmayıl obrazını qeyd etmək istəyirəm. Bu operaya qulaq asanlardan həmişə belə sözləri eşitmək olardı: «Hüseynağanın Şah İsmayıl oynamağından olmaz, o, yeganədir». Hüseynağa sənətini ürəkdən sevən, özünə qarşı çox tələbkar olan bir sənətkardı. O, opera artisti olmaqla yanaşı, konsert salonlarında da klassik muğamları, xalq mahnılarını gözəl oxuyurdu. Onun repertuarı çox zəngin və rəngarəng olardı. Onun ifasında rus, italyan, gürcü mahnıları da gözəl səslənirdi. Mən onunla konsertlərə gedəndə və operada onu müşayiət edəndə böyük həzz alardım. Bu cür məlahətli, güclü səs hər müğənni və xanəndəyə nəsib olmur.

M.Maqomayev 1933-cü ildə Gəncədə qastrolda olarkən birinci dəfə icazə verdi ki, «Şah İsmayıl»ı Xanlar Haqverdiyev oxusun. Müslüm bəy «Şah İsmayıl» operasına həmişə özü dirijorluq edərdi. O, Şah İsmayılın partiyasını hər oxuyana etibar eləmirdi. O, Şah İsmayıl rolunu Hüseynağa Hacıbabəyovun səsinə yazdığına görə bu rolda əsasən Hüseynağa oxuyurdu. Lakin Gəncə tamaşaçılarının



Hüseynağa Hacıbabəyovun 70 illik yubileyi (1968)



Bəhram Mansurov və
Aşıq Qərib rolunda Xanlar Haqverdiyev (1957)

tələbi nəticəsində Müslüm bəy gənc müğənni Xanlar Haqverdiyevə Şah İsmayıl partiyasını oxumağa icazə verdi. Bir neçə gün ciddi məşqlər oldu. Xanların Şah İsmayıl rolunda çıxışı çox yaxşı qarşılandı. Müslüm Maqomayev də Şah İsmayılın təzə ifaçısından razı qaldı. Xanlar Şah İsmayılın ariyalarını, duetlərini gözəl oxuyurdu. Tamaşaçılar səhnəyə çoxlu gül-çiçək dəstələri atırdı. Danışmaqla, söyləməklə o təsirli səhnəni göz önünə gətirmək çox çətindi. Gənclər arasında Şah İsmayıl partiyasının ilk dəfə Xanlara etibar edilməsi təsadüfi deyildi. Xanlar konservatoriyada təhsil almışdı, bir də onun qəlbə yatımlı səsi vardı.

Mən onu 1928-ci ildən tanıyırdım. O zaman Xanlar, Üzeyir Hacıbəyovun rəhbərlik etdiyi musiqi məktəbində oxuyurdu. Biz onunla təzə-təzə radioda çıxış edirdik. Burada o, «Şahnaz», «Qatar», «Qarabağ şikəstəsi» kimi muğamlarla yanaşı, «Gül açdı», «Sona keçdi», «Qarabağda bir dənəsən» və başqa mahnılarla çıxış edərdi.

1931-ci ilin axırlarında opera teatrında Xanlarla yenidən görüşdük. Onun bu sənət ocağında ilk rolu İbn Salam oldu. Necə ki, o vaxtlar Hüseynqulu Sarabski Məcnun obrazını böyük ustalıqla yaradırdı, eləcə də Xanlar Haqverdiyev İbn Salam rolunu çox məharətlə yarada bilirdi. O, «Əsli və Kərəm»də Kərəm, «Aşıq Qərib»də Qərib və Aşıq Səlim rollarını gözəl ifa edirdi. Hətta ömrünün 70 yaşında da çox məlahətli səsə malik idi. Bu yaşda oxumaq sizə asan gəlməsin. Amma gərək indiki cavanlar 25-30 yaşlı Xanların səsini eşidəydilər. O yaşda olanda Xanlar ən çox zil pərdələrdə oxuyardı...

Bakıya gələndən sonra Ələvsət Sadıqov başladı Şah İsmayılı oxumağa. Ələvsət Sadıqovla 1930-cu ildə tanış olmuşdum. O da teatrda işləyirdi. Hüseynqulu Sarabski Məcnunu oxuyanda, o, Zeydi oxuyardı. «Leyli və Məcnun»da İbn Salamı, «Aşıq Qərib»də Qəribi, «Əsli və Kərəm»də Kərəmi, Qliyerin «Şahsənəm» operasında Aşığı, «Şah İsmayıl»da Şah İsmayılı məharətlə ifa edirdi. Ələvsətin yaxşı bir xüsusiyyəti vardı, əlli ilə yaxın idi onu tanıyırdım, bir dəfə demədi ki, mənim səsim düz deyil. Onu gecə saat 3-də yuxudan oyatsaydın, dur, bir oxu, deyərdi ki, bu saat. Biz hər

il Gəncəyə qastrola gedərdik. Elə vaxt olurdu ki, bir ay hər gün muğam operası gedirdi. Bir gün «Şah İsmayıl», bir gün «Aşıq Qərib», bir gün «Leyli və Məcnun». Hər gün də bu operalarda Əlövsət oxuyurdu. Mən bir gün ona dedim ki, Əlövsət, sənin boğazın bəyəm yorulmur? Mənə dedi: «Yox, nə isti təsir eləyir, nə də soyuq. Mənim üçün istər Yevlax, istər Kislovodsk, ikisi də birdir. Çünki mən özümə elə baxıram ki, səsim həmişə yerində olur».

Düz deyirdi, o özünə çox gözəl baxırdı, səsini qouyurdu. Məsələn, müəyyən şeylər yemirdi ki, səsim xarab olar, oxumağa gedəcəyəm. Bu artistlik sənətini o, çox sevirdi; - həddindən artıq, ələlxüsus «Leyli və Məcnun» operasını. Əlövsət Məcnun obrazını o qədər sevirdi ki, nə deyim... Özü də çox qəşəng oynayardı, çox gözəl də oxuyardı.

Əlövsət çox zəhmətkeş, sənətini sevən, xalqına qiymət qoyan insan idi. O deyirdi: «Mən çıxıb oxumasam, deməli, xalqımı sevmirəm. Mən, xalqım üçün yaşayıram. Üzeyir bəy yazıb bu əsərləri, bizim borcumuzdur onları qəşəng, yaxşı oxuyaq ki, xalq bizi də sevsin. Üzeyir bəyə də rəhmət desinlər».



Bəhram Mansurov və Aşıq Qərib rolunda Əlövsət Sadıxov (30 mart 1966)

1937-ci ilin yazı idi. Biz qastrol səfərinə hazırlaşırdıq. Bir gün teatrın dirijoru İsmayıl Hidayətzadə məni yanına çağırdı. İçəri girəndə Yavər xanımı gördüm. Xəbər aldım ki, xeyir ola? Hidayətzadə cavab verdi ki, Üzeyir bəy göndərib teatrımızda işləsin. Sən onunla məşğul ol, operada oxunan muğamları onunla təkrar elə. Mən Yavər xanımla radioda, konsert salonlarında dəfələrlə çıxış etmişdim... Biz operalarda ifa olunan muğamları dönə-dönə məşq etdik, Onun yuxarı pərdələrdə oxuduğu yanğılı səsi nəinki məni, bütün dinləyiciləri valeh edirdi. Onun Leylisini tamaşaçılara sevdirən əsas cəhətlərdən biri məhz bu idi...

Məcnunun üsyankar məhəbbəti Şirzad Hüseynovun ifasında nə qədər gözəl alınırdı. O, musiqini çox sevirdi, elə bu sevgi də 1932-ci ildə onu operaya gətirmişdi. Şirzad əvvəl teatrda dekorasiyaları hazırlayan fəhlə işləyib, məqsədi də bu olub ki, sevdiyi aktyorları yaxından görsün, yaxından eşitsin. Bir dəfə öz-özünə oxuyurmuş. Hüseynqulu Sarabski onun oxumağını eşidir, yanına çağırıb: - bu gündən fəhləliyin daşını at, səndən yaxşı Məcnun olar, - deyir. Bu istedad, belə aşkara çıxdı. Sonralar Şirzad Məcnunu, Koroğlunu, Şah İsmayılı, Kərəmi, Qəribi oynadı.

Şirzad Hüseynov teatrda oynadığı vaxt onun tərəf müqabili Sima Haşımlı oldu. Operamızda Sima Haşımlı Leylini, Əslini oynayanda alqışlar uzun müddət kəsilməzdi. Demə, bunlar müğənninin xoşbəxt günləri imiş. Onun səsi səhnəmizdə 1953-cü ilə qədər səsləndi. Sonra bu ad daha afişalarda görünmədi, bu ad yavaş-yavaş unuduldu. Nə isə...

Onu həmişə tarda mən müşayiət etmişəm. Sima xanım səhnəmizin ən görkəmli sənətkarların-



Müslüm Maqomayev

dan İsmayıl Eloğlu, Qəmbər Zülalov, Zülfüqar Sarıyev, Hüseynağa Hacıbabəyov, Məmmədtağı Bağırov, Xanlar Haqverdiyev, Yavər Kələntərli ilə birgə çalışıb. Hərdən o illərin ətrini, sənət dostlarının xatirini duymaq üçün yolunu bizim evə salardı.

...1938-ci ildə Moskvada Azərbaycan incəsənətinin ongünlüyü keçiriləcəkdi. Ona görə də 1936-cı ildə xorda oxumaq üçün elan verdilər ki, teatra cavan müğənnilər qəbul olunur.

Qəbul günü çoxlu cavan gəlmişdi. Müslüm bəy onlara qulaq asır, mən isə müşayiət edirdim. Onlardan iki nəfəri əla oxudu. Birinci Ağababa Bünyadzadə piano ilə oxudu. O birisi isə Şirzad Hüseynov idi. Ağababanın birinci böyük rolu «Şah İsmayıl» operasında Aslan şah olub.

1934-35-ci illərdə məni Azərbaycan diviziyasına çağırdılar. Mən siyasi şöbənin müdiri Məmmədəli Əliyevin yanına getdim. O mənə dedi ki, Bəhram, səni bura ona görə çağırtdırmışam ki, gəlib bizə kömək edəsən. Dedim: «Mənim sizə nə köməyim ola bilər?» Dedi ki, 1936-cı ildə Tiflisdə Zaqafqaziya olimpiadası olacaq. Biz də istəyirik ki, o olimpiadada çıxış etmək üçün diviziyada orkestr düzəldək. Sənin burda köməyin tarçalanlara lazımdır. Tarçalan Əmrulla müəllim də burdadır. Dedim: «Yaxşı».

1935-ci ildən başladım onlara kömək etməyə. Əl-ələ verib bir orkestr düzəltdik. Tiflisə getdik. Konsert zamanı diviziya komandiri Qambay Vəzirov bizə yaxıqlaşıb soruşdu: «Hazırsınız?» Mən dedim ki, hazırıq, hər şey yaxşı olacaq. Onda iki nəfər oxuyanımız vardı. Sözün düzü, adları yadımdan çıxıb... Tiflisdə Rustavi küçəsində yerləşən opera teatrında konsert verdik. Bizim üçün bütöv bir şöbə ayırmışdılar. Çıxışımızı çox gözəl qarşıladılar, ifaçıların çoxuna fəxri fərmanlar verdilər.

Konsertdən sonra xəstələndim. Məni nə sayaq Bakıya gətiriblər, bilməmişəm. Bir ay müalicədən sonra dedilər ki, səni Məmmədəli Əliyev çağırır. Gedib onunla görüşdükdən sonra o məndən soruşdu: «Bakıya necə gəldiyin yadına gəlir?» Dedim: «Yox». Dedi: «Səni Bakıya elə mən gətirmişəm. O səndə qalan əsgər paltarlarını gətir qaytar bizə, sənin nəyinə lazımdır. Köməyə görə çox sağ ol». Mənə bir təşəkkürnamə yazıb verdi.

Biz «Salyan kazarması»nı hamiliyə götürmüşdük. On-



Bəhram Mansurov Salyan Kazarmasında orkestrin məşqlərinin fasiləsində (1935)

ların mədəniyyət klubunda Yavər xanım, Hüseynqulu Sarabski, Həqiqət Rzayeva, Ələvsət Sadıqov, Xanlar Haqverdiyev, Hüseynağa Hacıbababəyov və Şirzad Hüseynovla konsertlər vermiş, hərdən də operalardan parçalarla çıxış etmişik.

Mən Cabbar əmidən sonra «Mahur» muğamını məharətlə oxuyan Seyid Şuşinskini gördüm. Yadımdadır, 1937-ci ildə məni Seyid ilə Nardaran kəndinə, toy məclisinə dəvət etdilər. Nardaranlılar muğamatpərəstdirlər. Məclisdə əyləşən yaşı səksəni ötmüş bir qoca kişi Seyiddən «Mahur» oxumasını xahiş etdi. Məclis qızışdı. Seyid elə bir «Mahur»oxudu ki, məclisdəkilər Seyiddən bir də təkrar oxumasını xahiş etdilər. Seyid «Mahur» muğamını ikinci dəfə başqa tərzdə düz bir saat oxudu. O, «Mahur»un «Vilayəti», «Şikəsteyi-fars» hissələrini elə bir guşəxanlıqla gəzişdi ki, belə bir məharəti mən bir tarzən kimi yalnız Cabbar Qaryağdı oğlunda görmüşdüm.



Bəhram Mansurov (1939)

Müslüm Maqomayevin «Nərgiz» operasının ciddi məşqləri gedirdi. Operanın librettosunu Məmməd Səid Ordubadi yazmışdı. Bu operada bizim gözəl səhnə ustalarımız çıxış edirdilər. Bülbül, Məmmədtağı Bağırov, Hüseynağa Hacıbababəyov, Yaqub Rzayev, Hacıbala Hüseynov, Şirzad Hüseynov, Ağababa Bünyadzadə, Levin, Əli və Qənbər Zülalovlar, Xanlar Haqverdiyev, Sona Bağırova, Həqiqət Rzayeva, Hənifə Şəfi və başqaları...

«Nərgiz» operası hazır olandan sonra hələ premyera olmamışdan əvvəl Müslüm bəy bizi yığdı, iclas çağırdı. Orada Qurban dayı və mən də var idim. O vaxtlar yaxşı kadrlar, çalğıçılar tapılmadığından Müslüm bəy iştirakçılardan və bizdən xahiş etdi ki, siz kömək edin, əl-ələ verək, bu opera getsin.

Mən bu operanın ikinci pərdəsindən danışmaq istəyirəm. Ona görə ki, bu pərdə ələlxüsus bizimlə əlaqədar idi. Opera «Çahargah» muğamı üstündə yazılmışdı. Burada Müslüm bəy cürbəcür hiylələrdən çıxan Molla Mütəllib surətini yaratmışdı, onun tarda oxumağını vermişdi. Molla Mütəllibi Əli Zülalov, onu əvəz edən Qəmbər Zülalov, qulluqçunu Həqiqət Rzayeva və onu da əvəz edən Məhbubə Paşayeva oynayırdılar. Molla Mütəllib surəti tamaşaçıların xüsusilə xoşuna gəlirdi. Molla Mütəllib «Şikəsteyi-fars» üstündə oxuyurdu: «Bacadan baxmaq özü bir böyük ləzzətdir mənə». Bu yerində tamaşaçılar o qədər əl çalırdılar ki... Bu rolu Əli Zülalov çox gözəl yaradırdı.

Müslüm bəyin gözəl bir xüsusiyyəti də var idi ki, o hər dəfə opera qurtarandan sonra böyük-kiçiyə baxmazdı, istədiyi adamları çağırır, onların fikrini bilmək istəyirdi; tamaşanı camaat necə qəbul eləyir, harasında, hansı yerində nə deyir, operanın harası onları qane eləmir. Müslüm bəy iradları nəzərə alır, camaatı təmin etməyən yerləri təzədən işləyirdi. O, mənim də rəyimi soruşardı. Bir gün mən ona dedim ki, Müslüm dadaş, operanı yazmısız, yaxşı da gedir, daha tamaşaçıların fikri ilə maraqlanıb, musiqidə niyə dəyişikliklər edirsiniz? Cavabında o: «Mən bu operanı camaat üçün, xalq üçün yazmışam. Ona görə də çalışıram ki, yazdığım musiqi onların istəyini təmin etsin»

dedi. Elə vaxt olurdu ki, Müslüm bəy tamaşa 2-3 dəfə gedəndən sonra onun musiqisində bir balaca artırmalar eləyir, qəşəngləşdirirdi. O, camaatla ünsiyyətini üzmürdü. Onun «Nərgiz» operası çox gözəl idi, camaatın xoşuna gəlirdi. Odur ki, Müslüm bəy bu operada çox dəyişikliklər etmədi.

1937-ci ilin yayında əcəl onu dekadada iştirak etməkdən məhrum etdi. Buna baxmayaraq 1938-ci ildə Moskvada keçirilən Azərbaycan incəsənəti ongünlüyündə «Nərgiz» operası böyük müvəffəqiyyətlə getdi.

1938-ci ildə Moskvaya ongünlüyə gedəndə belə qərara gəldilər ki, «Arşın mal alan» operettasını xalq çalğı alətləri orkestri müşayiət eləsin. Belə də oldu. Opera teatrında hər gün gərgin məşqlər gedirdi. Tamaşanın dirijoru Səid Rüstəmov, rejissoru isə Soltan Dadaşov idi. Soltan Dadaşovun yaxşı bir xüsusiyyəti vardı: o, musiqini yaxşı bilirdi, öz sənətini ürəkdən sevirdi. Doğrusu, opera teatrında da bizə belə rejissorlar lazımdır ki, musiqini bilsin. Onların musiqi savadı olmayanda birgə işləmək çox çətin olur. Soltan Dadaşovun böyük fitri istedadı vardı. «Arşın mal alan»ın axırıncı pərdəsi toy məclisidir. Adətimizə görə Azərbaycanda qızların toyu kişilərdən ayrı olur. Amma bu operettada toy kişilərlə bir yerdə idi, özü də simfonik orkestr çalırdı. Dekadaya görə Soltan Dadaşov bunu Üzeyir bəyin razılığı ilə ayırdı. Odur ki, səhnələrdə üçlükdə çalmaq lazım idi. Toy məclisi olan səhnədə mənə və qavalçalan Xalıq Babayevə milli paltar geyindirdilər. Qız toyunu biz qurtarandan sonra orkestr başlayırdı çalmağa. Bu cür gərgin məşqlərdən sonra getdik Moskvaya.



Azərbaycan Dövlət Filarmoniyasının, Opera və Balet teatrının birgə çıxışı. Soldan ikinci Bəhram Mansurov (1938)



Opera və balet teatrının kollektivi. İkinci cərgədə sağdan ikinci Bəhram Mansurov (1929)

Operanın uvertürası çalınıb qurtarandan sonra alqışlarla pərdə açıldı. Tamaşa başlananda xalq çalğı alətləri orkestrinin, ələlxüsus tarın, kamançanın səsini eşidəndə o qədər əl çaldılar ki, nə deyim... «Arşın mal alan»da aşağıdakı ifaçılar iştirak edirdilər. Əsgər - Bülbül, Süleyman - Hüseynağa Hacıbabəyov, Soltan bəy - Ələkbər Hüseynzadə, xala - Məryəm Babayeva, Vəli - Əhməd Anatollu, Telli - Həqiqət Rzayeva. Həqiqət xanımın çox güclü səsi vardı. Vəli ilə Tellinin duet səhnəsindən sonra tamaşaçılar onları səhnədən buraxmaq istəmirdilər. Beləliklə, «Arşın mal alan»ı çox böyük müvəffəqiyyətlə yola saldıq. Bu barədə mətbuatda, qəzetlərdə çox məqalələr çap olundu. Mən bu məqalələrin bəzilərini indi də saxlamışam. Təəssüflənirəm ki, hamısını toplaya bilməmişəm. Ümumiyyətlə, çıxışlarımız barədə yazan musiqişünas Georgi Xubov «Pravda» qəzetində Qurban dayı ilə məni xüsusi qeyd etmişdi. Dekadada «Nərgiz» və «Şahsənəm» operalarını mənimlə Qurban dayı birgə müşayiət edirdik. Yadımdadı, «Şahsənəm» operasının rejissorluğunu edən Cəfər Cabbarov və Adil İsgəndərovla birgə işlərimiz uğurla qarşılandı.

Moskvada olarkən mənim və qavalçalan Xalıq Babayevin müşayiəti ilə Zəhra Rəhimova «Ceyran bala», Xurşud Babayeva «Sevgilim» mahnılarını, Şirzad Hüseynov isə «Kürdü-şahnaz» muğamını qramafon valına yazdırdım.

Yekun konserti Böyük teatrda oldu. Xor, orkestr, bütün kollektivlər hamısı orada idi. Orada mənimlə Qurban Primov oxuyanları müşayiət edirdik. Qurban dayı Həqiqət və Hüseynağanı müşayiət edirdi. Həqiqət xanım «Yaylıq», Hüseynağa isə «Yaxan düymələ» mahnısını oxudu. Mən, kamançaçalan Hafiz Mirzəliyev və qavalçalan Yusif Şeyxovla Ələvsət Sadıqovun oxuduğu «Ərak» təsnifini müşayiət etdik. Yekun konserti çox böyük müvəffəqiyyətlə keçdi, bizim şənimizə


ВРЕМЕННЫЙ
ПРОПУСК № 316
на право входа в здание
филиала ГАБТ
Союза ССР
Действителен до 13
Апреля 1938 г.
Вход с под'езда № 3


Фамилия Мансуров
Имя и отч. Бахрам Сулейманович
Должность
ПРОДЛЕН
до
Директор
Директор филиала ГАБТ


Вход с под. № 21
БОЛЬШОЙ
ТЕАТР
СОЮЗА
ССР.
Под'езд №
Пропуск № 2530
На 15 Апреля 1938 года
Тов. Мансуров Б. С.
Комендант


УПРАВЛЕНИЕ ПО ДЕЛАМ ИСКУССТВ
при СНК АзССР
УДОСТОВЕРЕНИЕ
Дано участнику декады азербайджанского искусства
в Москве Мансурову Бахраму Сулейману
(фамилия, имя и отчество)
Должность Гарт. оркестра Госопера
Подпись коего удостоверяется.
(подпись)
Нач. управл. по делам искусств
Секретарь


AzSSR XQS jarəndə
İNÇƏSƏNƏT İŞLƏRİ İDARƏSİ
VƏSİQƏ
Moskvada Azərbaycan inçəsənət de
joldaş Mansyrov Bohrom
sylejmanoğlı
(familiyası, adı və atasının adı)
Vəzifəsi Dev. opera arxestor artisti
joldaşın imzası təsdiq olunur.
(imzası)
İnçəsənət İşləri İdarəsi nəzəlnikt
Katin

Moskvada keçirilən dekadanın sənədləri (1938)

Пролетарии всех стран, соединяйтесь!

КОМИТЕТ ПО ДЕЛАМ ИСКУССТВ при СНК СОЮЗА ССР

ДЕКАДА АЗЕРБАЙДЖАНСКОГО ИСКУССТВА

15 апреля 1938 г.

МОСКВА

ПРОГРАММА КОНЦЕРТА

«ИНГУШСКАЯ ЛЕЗГИНКА» (музыка А. А. Иоаннесяна) — исполняют пионеры-школьники: А. АКОПОВ, Г. АЙВАЗОВ, Е. ГЕЦУК, Ф. ЗЕЙНАЛ ЗАДЕ, М. ИЗРАИЛОВ, М. МАМЕДОВ, М. АВАНЕСОВ, М. ТАГИЕВ в сопровождении оркестра азербайджанских народных инструментов под управлением заслуженного деятеля искусств А. А. ИОАННЕСЯНА. Танец поставлен заслуженным артистом республики С. Н. КЕВОРКОВЫМ и В. И. ВРОНСКИМ.

«КЫЗЫЛ АСКЕР» (музыка композитора Уз. Гаджибекова) — исполняет хор филармонии под управлением народного артиста республики Уз. ГАДЖИБЕКОВА. Солисты хора — Э. ТОНИЕВ, А. БАГИРОВ и М. КУЛИЕВ.

«ДЖЕЙРАН БАЛА» (народный танец) — исполняют солистка филармонии Султан МАМЕДОВА и женская группа танцовального ансамбля в сопровождении женского оркестра народных инструментов. Танец поставлен ГАМЕР АЛМАС ЗАДЕ. Дирижер — заслуженный деятель искусств А. А. ИОАННЕСЯН.

«АРАК ТАСНИФ» (азербайджанский мугам) — исполняет солист оперы А. О. САДЫХОВ. Акомпанирует трио: МАНСУРОВ (тар), МИРЗАЛИЕВ (кеманча), ШЕЙХОВ (бубен).

«КРЕСТЬЯНСКИЙ ТАНЕЦ» из оперы «Наргиз» (музыка заслуженного деятеля искусств М. Магомаева) — исполняет балет оперы. Постановка — заслуженного артиста республики С. Н. КЕВОРКОВА и В. И. ВРОНСКОГО. Акомпанирует симфонический оркестр оперы. Дирижер — НИЯЗИ.

«КОЛХОЗ ЧЕЛЛАРЫ» (музыка композитора Уз. Гаджибекова) — исполняет хор филармонии под управлением народного артиста республики Уз. ГАДЖИБЕКОВА. Солисты хора — С. АЛИБАЛАЕВ, С. МАМЕДБЕЙЛИ, Х. БАБАЕВА, К. АМИРАСЛАНОВА и С. АЙРАПЕТОВА.

«АМАН НЭНЭ» (народная песня)

«БЯТЫ ШИРАЗ» (азербайджанский мугам) — исполняет оркестр народных инструментов и женский оркестр народных инструментов филармонии. Солистки оркестра — Р. ПАШАБЕКОВА и Т. АЛИЕВА. Дирижер — заслуженный деятель искусств А. А. ИОАННЕСЯН.

«ПЕСНЯ СЕРДЦА» (кантата композитора Караева. Слова поэта Расул Рза) — исполняют об'единенный хор филармонии и оперы, танцовальный ансамбль филармонии и симфонический оркестр. Танец поставлен заслуженным артистом республики С. Н. КЕВОРКОВЫМ и В. И. ВРОНСКИМ. Дирижер — А. ГАСАНОВ.

Художественный руководитель концерта — заслуженный артист республики И. ИДАЯТ ЗАДЕ.

Художники — Г. МУСТАФАЕВ, И. АХУНДОВ и Л. СУЛТАНОВ.

Ведет программу концерта РАСУЛ РЗА.



Zəhra Rəhimova, Bəhram Mansurov, kamançaçı Hafiz Mirzəliyev və İrşad Məmmədov (dəf) əsgərlər qarşısında çıxış edirlər (1944)

Kremldə ziyafət verdilər, sonra bizi yola saldılar. Yolüstü qatarımız Mahaçqalada dayandı. Vağzalda bizi elə bil böyük bayram şənliyi gözləyirdi. Oranın artistləri, partiya rəhbərləri və camaatı bizi çox böyük şənliklə, hərarətlə, məhəbbətlə qarşıladılar. Mahaçqala vağzalında bizim nümayəndə heyətimizdən olan İsmayıl Hidayətzadə, Bülbül, Hüseynağa Hacıbabəyov, Q.Almaszadə, H.Rzayeva, H.Sarabski, Ə.Sadıqov, aşıq Əsəd, aşıq Məmməd və başqaları qatardan düşüb onların artistləri ilə görüşdülər. Görüşdən sonra biz Bakıya yola düşdük.

Gecə saat 3-də Bakıya çatdıq. Vaxtın belə gec olmasına baxmayaraq vağzalda projektorları yandırmışdılar. Mənə elə gəlirdi ki, gecənin bu vaxtında vağzalda heç kəs olmaz. Amma tərsinə oldu. Vağzalda o qədər adam var idi ki... Camaat bizi qarşılamağa gəlmişdi.

1939-cu il noyabrın 17-də Opera və Balet Teatrının artistlərindən ibarət konsert briqadası ilə biz Samur-Dəvəçi kanalının tikintisinə gəldik. Konsert briqadamızın rəhbəri Bülbül, solistlərdən Sara Mirəliyeva, Qəmbər Zülalov və mən idim. Biz burada üç gün ərzində 30-dan çox konsert verdik. Çıxışlarımız çox böyük müvəffəqiyyətlə keçirdi. Hətta qonşuluqda olan kənd və rayonlardan da camaat bizim konsertlərə axışırdı. Bir çox kolxozçular, xüsusilə Qonaqkənd və Qusar rayonunun camaatı ilk dəfə idi ki, belə böyük incəsənət ustaları ilə görüşürdülər. SSRİ xalq artisti Bülbülün çıxışı camaatın əhval-ruhiyyəsini əməlli-başlı qaldırmışdı. Çünki Bülbül onların deputatı idi. Bir axşam tikinti iştirakçıları üçün konsert verməli idik. Konsertə bir saat qalmış bir dəstə pioner Bülbülün yanına gəlmişdi. Onlar Samur-Dəvəçi kanalı haqqında mahnı yazmışdılar, bu barədə böyük müğənninin fikrini bilmək istəyirdilər. Qulaq asdıq, mahnı da, melodiyası da çox gözəl idi. Bülbül dedi ki, yaxşı, bəs bunları kim müşayiət edəcək? Mən Bülbülə dedim ki, bəlkə biz? O, razılaşdı. Sonra biz pionerlərlə birlikdə mahnını hazırladıq.

1939-40-cı illərdə Şamaxıda olarkən bir cavan oğlanla məni tanış etdilər. Bu, aşıq Bilalın oğlu aşıq Ağalar idi. Onunla xeyli söhbət etdikdən sonra xahiş etdim ki, bir şey çalıb-oxusun. O, mənim

xahişimi yerinə yetirdi. Bir qədər onu dinlədikdən sonra aşıq Bilalın çalıb-oxuması gözümdə canlandı. Oğlunun da atasının yolu ilə getməsi məni çox sevindirdi.



Bülbül və Bəhram Mansurov
Samur – Dəvəçi kanalının açılışında (1939)

Aşıq Bilalı mən 1928-ci ildə Bakıda, Kommunist küçəsində, indiki Akademiyanın binasında keçirilən aşıqlar qurultayında görmüşəm. Aşıq Bilal ustad sənətkarlığı ilə yanaşı, həm də gözəl şair idi. Bir aşıq kimi onun ifaçılıq üslubu digər aşıqlardan çox fərqlənirdi. Əvvəla, onun çaldığı saz Tovuz aşıqlarının sazından deyildi, «cürə» saz idi. Başqa bir cəhəti isə o idi ki, aşıq Bilal sazı çala-çala səhnədə yavaş-yavaş gəzişirdi, digər aşıqlar kimi oynamırdı.

Bu illərdə əmim oğlu Ənvər Mansurov da öz çalğısı ilə dinləyicilərin, sənətsevərlərin böyük marağına səbəb olmuşdu. Ənvər Mirzə Mansur oğlu Mansurov (1917-1941) 1931-ci ildə Üzeyir Hacıbəyovun rəhbərliyi altında ilk notlu orkestrə gələndə hələ gənc idi. Ancaq bununla belə barmaqları tarın pərdələrinə çoxdan yatmışdı. Çünki tarzənlər ailəsindəki tərbiyə, sənətə məhəbbət onun ürəyindən barmaqlarına axmışdı. O, əsasən çalğını atası Mirzə Mansurdan öyrənmişdi. Onun möhkəm biləyi vardı, tarda çalğı texnikası yaxşı idi. Bir çox muğamları özünəməxsus şəkildə gözəl ifa edirdi: «Şur», «Rast», «Çahargah», «Segah», «Şüştər» kimi muğamlarda samballı mizrablar vurmaqla yanaşı, tarın pərdələrində yüksək texnika nümayiş etdirər, heç də virtouzluğu ilə özündən böyük sənətkarlardan geri qalmazdı. Mən onunla birgə bir neçə konsertdə iştirak etmişəm.

Otuzuncu illərdə Azərbaycan Dövlət Şərq orkestrində bir çox məşhur çalğıçılarla yanaşı əmim oğlu Ənvər də vardı. 1939-cu ilin oktyabrında Moskvada xalq musiqi alətləri ifaçılarının Ümumittifaq baxışı keçirilirdi. Bu baxışda iştirak etmək üçün Bakıda çalğıçıların müsabiqəsi elan edildi. Qurban Primov, Ənvər Mansurov, Zərif Qayıbov, Xosrov Məlikov və Hacı Məmmədov müsabiqənin laureatları olmuşdular. Baxışın qaliblərinin çalğısını vallara yazmışdılar. Ənvərin ifasında «Çahargah» və «Segah» muğamı da vala yazılmışdı.

O, musiqi texnikumunda tardan dərs deyirdi. Ənvər tarzən Əhsən Dadaşovun ilk müəllimi olub. Müharibə başlananda o da kiçik qardaşım Nadir kimi Vətənin müdafiəsinə getdi. Lakin geri dönmədi.

Qardaşım Nadir (1916–1972) də nəslimizdə tar çalmaq ənənəsini yaşadan tarzənlərdən biri idi. O, bu sənətə vurğunluğu atamdan öyrənmişdi, ömrünün sonunadək on bir simli tar onun əlindən düşmədi. O, müharibədən əvvəl Azərbaycan konsert birliyinin solisti idi. Adil Gəray, N.Məm-

mədbəyli, A.Ələsgərov, L.Abdullayev, A.Məlikov və başqaları ilə birgə çıxış edərdi. Qırxıncı illərin əvvəllərində onu hərbi xidmətə çağırdılar. O, hərbi hissədə də el sənətimizi təbliğ eləyərdi.

Nadir evə tez-tez məktublar yazardı. Bir gün məktubların arasında bir qəzetə rast gəldim: «Boyevaya trevoqa» qəzeti idi. Orada Nadir haqqında aşağıdakı sətirlər yazılmışdı: «N.Mansurov tarı əlinə aldı, onu silkələdi və simlərdə ecazkar bir nəğmə səsləndi. Bu, Azərbaycan dağlarının, Xəzərin ləpələrinin nəğməsi idi»... Müharibə qurtarandan sonra onun silahı yenə də tar oldu. O, bir müddət Mərkəzi Pionerlər evində tar müəllimi işlədi. Sonralar filarmoniyada və Azərbaycan Konsert Birliyinin heyətində ifaçı tarzən kimi yurdumuzun bütün rayonlarında konsertlər vermiş, bir çox xanəndə və ifaçıları müşayiət etmişdir.



Nadir Mansurov (1941)

1941-ci ildə Azərbaycandan bir qrup nümayəndə Moskvaya estrada artistlərinin festivalına gedirdik. Ora mənimlə müğənni Sara Qədimova, rəqqasə Leyla Cavanşirova (Leyla Bədirbəyli – red.) gedirdi. Münsiflər heyətinin böyüyü də Azərbaycan tərəfindən Səid Rüstəmov idi. Biz iyunun 21-də Bakıdan yola düşdük. Rostovda qatar dayandı. Gördük ki, çaxnaşmadır. Soruşduq nə olub? Dedilər ki, müharibə başlanıb. Qonşu vaqonda Mirbəşir Qasımov gedirdi. Getdik onun yanına ki, soruşaq, biz neyləməliyik. O dedi ki, necə deyilib, elə də eləyin. Biz də yola düşdük Moskvaya. Orada 5 gün yubandıq, sonra isə bizi Bakıya yola saldılar. Bakıda bizi briqadalara bölüb, hərbi hissələrə konsert verməyə göndərdilər. Bizim opera teatrından da çoxlarını çağırıb müharibəyə apardılar. Teatrın ehtiyacı olan adamlar ki, var idi, onlara «Bron» verdilər. Bron alanlar arasında mən də vardım.

Müharibə günlərində mənim tarım da süngüyə döndü. Onun səsi indi zavod, fabrik, kolxoz tarlasından, qospitallardan gəlirdi. Yaranmış təşviqat briqadalarının tərkibində biz Azərbaycanın bütün rayonlarında konsertlər verirdik. Əvvəlcə biz Salyana, sonra Prişib, Sabirabad, Əli-Bayramlı rayonlarına getdik. Briqadanın rəhbəri artist Hüseyn Rəfi idi, müğənnimiz Sara Qədimova. Hüseyn cəbhəyə, vətənə aid şerlər oxuyurdu, camaatın qəlbində inam yaradırdı ki, onlar heç də kədərlənməsinlər, onsuz da qələbə bizim olacaq.

1942-ci il oktyabrın 31-də məni 47-ci ordunun hərbi şurasının üzvü Əziz Əliyevin sərəncamına çağırdılar. Azərbaycan diviziyasının ştabı Quba rayonunda yerləşdiyindən, bizi bir aylığa oraya göndərdilər. Xanəndələrdən İslam Abdullayev, Şirzad Hüseynov, kamançaçı Daməd Abdullayev, mən və başqaları döyüşçülər qarşısında çıxış edirdik. Həmin döyüşçüləri buradan «416-cı» Azərbaycan diviziyasına göndərirdilər.

Qubadan Bakıya qayıtdıqdan sonra başqa briqada ilə Göyçay rayonuna yola düşdük. Briqadanın tərkibində artistlərdən Süleyman Tağızadə, Əli Zülalov, xanəndə İsgəndər və başqaları vardı. Biz



Bəhram Mansurov Azərbaycan mədəniyyət və incəsənət işçiləri arasında (Təbriz, 1941)

bu rayonun bütün kəndlərində konsertlər verdikdən sonra yenə Bakıya qayıtmalı olduq. Ucar vağzalında vaqonlara minmək qeyri-mümkün olduğundan bizi çətinliklə Ucar rayon daxili işlər rəisi Cəbrayıl Quliyevin köməyilə vaqonun damına mindirdilər. Gecə idi. Səhər dan yeri sökülənd gördüm ki, bir biz deyilik, bütün vaqonların damı adamla doludur. Biləcəri stansiyasına qədər gəldik, orada bizi düşürtdülər.

Bakıda qospitallarda yaralılar üçün konsertlər təşkil edilərdi. Onlara konsert verəndə gözlərim yaşla dolurdu. Görürdüm ki, birinin qolu yox, birinin qıçı. Qəhər məni boğurdu, müharibə baislərinə lənət yağdırırdım. O vaxtlar Suraxanıda mədəniyyət evini qospital eləmişdilər. Biz səhnədə konsert verirdik. Zalda yer olmadığından yaralılar hətta çıxıb səhnədə də otururdular. Biz bir mahnı vardı, onu oxuyub-çalandan sonra gördük əl çalırlar. Mənim gözüm sataşdı orta sıralara, gördüm ki, iki əsgər hərəsi bir əlini uzadıb əl çalır. Göz yaşımı saxlaya bilmədim...

Müharibənin ağır illərində – 1941–1943-cü illərdə mən Cabbar Qaryağdı oğlu ilə hərbi hissələrdə, qospitallarda birgə konsertlər vermişik. Yaşının səksəni keçməsinə baxmayaraq Cabbar əmi oxuduğu mahnılarla döyüşçüləri vuruş qabağı ruhlandırırdı.

Müharibə illərində Azərbaycanın mədəniyyət və incəsənət işçiləri İranla yaxından əlaqə



Бүтүн өлкələrin proletarları, birləşin! Пролетарии всех стран, соединяйтесь!

Азәрбайчан Коммунист (большевиклəр) Партиясынын Мəркəзи Комитети

ЦЕНТРАЛЬНЫЙ КОМИТЕТ

Коммунистической партии (большевиков) Азербайджана

№ 7/244 · 31 · октября 1941 г.

УДОСТОВЕРЕНИЕ.

Тов. Мансуров Б. командируется в распоряжение Члена Военного Совета 47-й Армии т. Алиева Азиза.

СЕКРЕТАРЬ ЦК КП(б) АЗЕРБАЙДЖАНА ПО ПРОПАГАНДЕ (МАМЕДОВ Г.)

saxlayardı. 1941-ci ildə eşitdik ki, bir qrup mədəniyyət və incəsənət xadimi İrana qastrol səfərinə yola duşur. Məqsəd həm oradakı sovet əsgərlərinə konsert vermək, həm də bir çox şəhərlərdə yerli camaat qarşısında çıxış etmək idi. O dövrlərdə tanınan çalıb - oxuyanlarımızın çoxu - Qurban Primov, Qəmər Almaszadə, kamançaçalan Qılman Salahov və başqaları İrana qastrola getmişdi. Yavər xanım Kələntərli də onların arasında idi. Onun oxumaları İranda o qədər marağa səbəb olmuşdu ki, qəzetlər xeyli vaxt bu ifaçının ustalığından, səsinin şirinliyindən yazdılar.

Həmin il opera teatrını Təbrizə qastrola göndərdilər. Təbrizə daxil olanda gözlərimin qarşısında köhnə Bakı canlandı. Köhnə Bakıda olduğu kimi Təbrizdə də dar küçələr, örtülü bazarlar, dəvə karvanları, faytonlar, su arabaları var idi. Təbrizə gələnlər arasında İsmayıl Hidayətzadə, Niyazi, Şövkət Məmmədova, Bülbül, Zəki Səfərov, Süleyman Rəhimov, Süleyman Rüstəm, Mirzə İbrahimov, Əziz Əliyev, Həqiqət Rzayeva, Qəmər Almaszadə, Əfrasiyab Bədəlbəyli və başqaları vardı.

Biz «Mənsuri-dövlənin» imarətində çıxış edirdik. «Qarı körpüsü»nün yanında, «Xurşid» teatrında opera tamaşalarını və konsertləri verirdik. Qeyd etməliyəm ki, Təbrizdəki «Xurşid» teatrının binasında əvvəl kişmiş anbarı yerləşirdi. Bizim oraya getməyimiz bu teatrın yenidən istifadəyə verilməsinə kömək etdi.

Bir gün İsmayıl Hidayətzadə məni yanına çağırıb dedi: «Gülxar Həsənovanı yəqin ki, tanıyırsan, səsinə qulaq asmısan, gənc müğənnini teatrımıza işə qəbul etmişəm. Onu baş rollara hazırlamaq lazımdır. Xahiş edirəm Gülxar ilə məşq et.



Cabbar Qaryağdıoğlu (1930-su illər)

Gülxarın məlahətli səsi, fitri istedadı və sənətə olan tükənməz həvəsi mənim xoşuma gəldi. Əsli rolunu məşq etdim. Gülxar xanım dediklərimə qulaq asıb, Əslinin partiyasını düzgün oxudu. Az vaxtda Əsli rolu hazır oldu, ilk tamaşa müvvəffəqiyyətlə keçdi. Üzeyir Hacıbəyov Əsli rolunun yeni ifaçısından çox razı qaldı və mənə dedi: «Bəhram, sağ ol, gənc müğənni ilə yaxşı məşğul olmusan. O bizim etimadımızı doğrultdu. Gülxarı Leyli, Sənəm, Ərəbzənginin rollarına hazırlamağı məsləhət görürəm».



Gülxar Həsənova və Bəhram Mansurov konsertdə çıxış zamanı (1959)

1942-ci ildə məni konsert briqadası ilə Kislovodskdan tutmuş Minvoda qədər olan qospitallara göndərdilər. Biz üç ayın ərzində Kislovodsk, Jeleznovodsk, Yessentuki və Lermontovkada yaralı döyüşçülər qarşısında konsert proqramı ilə çıxış elədik. Briqadanın tərkibində Xanlar Haqverdiyev, Tükəzban İsmayılova, Səfurə İsayeva, Qəmbər Zülalov, Məmmədsaleh Allahverdiyev də var idi. Həmin ilin qışında Hüseynqulu Sarabski, Hüseynağa Hacıbababəyov və mən Füzuli rayonuna getmişdik. Hüseynqulu Sarabski həmin rayonun deputatı idi. Biz Füzuli rayonunda olarkən oranın kollektivi «Leyli və Məcnun» operasını səhnəyə qoyurdu. Sarabskidən xahiş etdilər ki, Məcnun rolunda çıxış etsin. Lakin o, xəstə olduğundan onun əvəzinə H.Hacıbababəyov çıxış etdi. Tarda mən müşayiət edirdim. Məcnunun atasını yerli müğənni Ağabala Abdullayev oynayırdı. Onun oxumağı mənə böyük təsir bağışladı. O, bu rolu elə yaradırdı ki, elə bil o, doğrudan da Məcnunun doğmaca atası idi. Tamaşadan sonra mən ondan soruşdum ki, muğam yollarını kimdən öyrənmisən? Dedi ki, Seyid Şuşinskidən öyrənmişəm, onun hər çıxışını izləyirəm.

İllər ötdü, Ağabala Bakıya gəldi. Filarmoniya konsertlərində iştirak etdi. Əhməd Bakıxanov onu öz ansamblına çağırdı və Ağabalanın ifasında bir neçə muğamı lentə yazdırdı.

1941-ci il noyabrın 6-da Oktyabr inqilabının 26-cı ildönümü münasibətilə böyük konsert oldu. Konsertdə Bülbül, Q.Almaszadə, Bataşov, Knijnikov, Drozdov, H.Hacıbababəyov, A.Bünyadzadə, K.Kərimov, X.Şuşinski, X.Babayev (qaval), Ratner (f-no) və mən çıxış edirdik. Həmin il Yavər xanımı Stalinerə göndərdilər. O zaman əsgərlər buradan cəbhəyə yola düşürdülər. Orada Yavər xanım analar adından danışırdı, oğullara qüvvət, mətanət, ürəklərinə təpər diləyirdi. Yavər xanım onlar üçün bibisi oğlu Abbas Səhhətin «Vətən» şerini oxuyardı, şirin nəfəsi ilə cəbhəyə gedənlərimizin ürəyinə bir güc, təzə bir qüvvət gətirərdi.

Həmən ildə Gəncəyə gedib orada mərkəzi parkda tamaşalar verdik. Burdakı qastrollarımız ay



Seyid və Xan Şuşinskilər (Şuşa, 1934)

yarım çəkdi. Bakıya gələndən sonra bizi Lənkərana yola saldılar. Briqadanın tərkibində Hüseynağa Hacıbababəyov, Sona Mustafayeva (Bağırova - red.), artist Hüseyn Rəfi, aşıq Qədir Tovuzlu, akrobatlar Qafar və Ənvər, kamançaçalan Daməd Abdullayev və qavalçalan Xalıq Babayev daxil idi. On günlük konsertdən sonra Astaraya yola düşdük. Astarada yeddi günlük konsertdən sonra Lerik rayonuna getmək ərəfəsində Bakıdan teleqram aldıq ki, H.Hacıbababəyovu və Sona Mustafayevanı təcili Bakıya çağırırlar. Konsert nömrəmiz az olduğundan Hüseyn Rəfi Məşədi İbad, mən isə Rüstəm bəy rolunda duetlə çıxış etdik. Konsertin nömrəsi yenə də çatışmadığından proqrama bir nömrə də artırmalı olduq. Odur ki, bu dəfə də mən akrobatlarla iki nömrə göstərməli olduq. Tamaşaçıları ən çox maraqlandıran o idi ki, tarzəni gah Rüstəm bəy rolunda, gah da akrobatik nömrələrdə çıxış edən görürdülər.

O ərəfədə Lerikə yol çəkirdilər, ona «hərbi yol» deyirdilər. O yolu çəkən bizim əsgərlər idi. Bizi ora göndərdilər ki, onlar üçün konsert verək, əsgərlər də ruhlansınlar. Orada məni tanıyan yoldaşlar deyirdilər ki, sağ olsun Bəhram, bizim toylarımızı da aparıb, indi də dalımızcan buralara gəlib. Sevinirdim, qürrələnirdəm ki, heç olmasa az da olsa, Vətənin bu günlərində öz tarımla mən də nəsə edirəm...

1944-cü ildə Yavər Kələntərli və Şirzad Hüseynovla Xudata qastrola getmişdik. Briqadanın tərkibi üç nəfərdən ibarət olduğundan, konsert daha maraqlı keçsin deyə, biz xalq mahnıları ilə birlikdə operalardan duetlər də səsləndiririk ki, bu da tamaşaçıların çox xoşuna gəlirdi. Odur ki, bizi səhnədən buraxmaq istəmirdilər. Xudatdan Bakıya qayıdan kimi Böyükağa Ağababayev məni telefonla filarmoniyaya çağırıb xəbər verdi ki, hazırlaş, İrana qastrola gedirsən. Bu mənim İrana ikinci səfərim idi. Biz təyyarə ilə Tehrana uçduq. Orada bir ay konsertlər verdikdən sonra İranın Qəzvin, Rəşt, Ənzəli, Ərdəbil, Nəmin, Sərab, Təbriz, Mərənd, Xoy, Mani, Şapur, Rizayi, Üşno, Mehabad, Miyandab, Marağa, Azərşəhr və başqa şəhərlərdə də çıxış elədik. Biz, xalq kütlələri ilə yanaşı Qızıl Ordu əsgərləri qarşısında da maraqlı konsert nömrələri göstərirdik. Konsertlərdən sonra bir gün təsadüfən Laləzar xiyabanında Mirseyid Mirbabayevlə rastlaşdım. Atamdan eşitmişdim ki, xanəndə Mirseyidin əsli Bakıdandır. O, hələ uşaq ikən onun səsini, oxumağını eşidənlər heyranlıqlarını gizlədə bilmirmiş, deyirmişlər ki, bu səs, bu oxumaq vergidir. Mirseyidin böyük qardaşı İbrahim mərsiyəxan imiş, istəyirmiş ki, Mirseyid də bu yolla getsin. O isə sənət vurğunu olduğundan xanəndəliyə başlayır. Az keçmir şöhrəti hər yana car olur. O vaxtın adlı-sanlı

çalğıçıları ilə bir dəstədə tez-tez Abşeronun toy və şənliklərində görünür. O çağın məşhur səsyazma firmaları onun sorağını alır. «Pate-Rekord», «Ekstafon» səsyazma şirkətləri onun vallarını böyük tirajla buraxır. Bu vallar əl-əl gəzir, tezliklə nadir nüsxələrə dönür. Bakı kəndlərindəki toylardan birində Mirseyidin ifasına heyran qalan bir sahibkar ona torpaq sahəsi bağışlayır. Mirseyid xərc çəkib quyu qazdırır. Bəxti gətirir, quyusundan güclü neft fontan vurur...

Mirseyid çox qocalmışdı, ayaqüstü söhbət elədik, Vətəni, gəncliyini xatırlayanda dolxusundu. Görüş qısa oldu, ayrıldıq.

Mirseyid muğamlarımızı çox gözəl bilirdi. Təəssüf ki, tez gəldi, tez də getdi.

Bizim İrana səfərimiz dörd ay çəkdi. Konsert briqadamız əlli nəfərdən ibarət idi. Solistlərdən Hüseynağa Hacıbabababəyov, Əlövsət Sadıqov, Xan Şuşinski, İdris Ağalarov, Zəhra Rəhimova, Ağababa Bünyadzadə, Əfrasiyab Bədəlbəyli, Qəmər Almaszadə, Sara Qədimova, Hacı Məmmədov, Məmmədağa Muradov, sazçı qızlar ansamblı, rəqs truppası və başqaları briqadanın tərkibində idilər. Briqadanın rəhbəri Əliağa Babayev idi.

Saz çalan qızlar ansamblında əlində saz tutmuş, əyninə çərkəzi kostyum geymiş balaca qəşəng bir oğlan uşağı var idi, o, ortada oturardı. «Azərbaycan», «Çalpapaq» və başqa xalq mahnılarının solo hissələrini oxuyurdu. Bu oğlanın oxumağı bir möcüzə idi. Mən hələ belə gözəl oxuyan ikinci bir uşaq eşitməmişdim. Bu oğlan Arif Məmmədov idi. İranda onu o qədər sevirdilər ki, onu Arif yox, «Arifxan» çağırırdılar. Təbriz şəhərində konsertimiz vardı. Arifə dedilər ki, bir muğam da oxusun. Arif dedi ki, Bəhram müəllim müşayiət etsə, oxuyaram. Bizim o zaman balaca olan bu Arifimiz bir «Mənsuriyyə» oxudu ki, nə deyim... Konsertdən sonra ona çoxlu qiymətli hədiyyələr verdilər.

Mən həmişə demişəm ki, Arifə o səsi, o oxumağı təbiət bəxş edib. Onu o vaxt eşidənlər, indi də deyirlər ki, Arif necə gözəl oxuyardı, onun oxumağı bir möcüzə idi. Arif yeri gələndə tar, skripka, ud, kamança, piano çalırdı.

İranda qastrolda olarkən bizim bədii rəhbərimiz Əfrasiyab Bədəlbəyli idi. O həm də konserti idarə eləyirdi.

Mən Əfrasiyab Bədəlbəylini lap cavan vaxtlarından tanıyırdım. O əmimgilə tez-tez gələrdi. Əfrasiyab, əmim



Soldan: Əlövsət Sadıqov, Bəhram Mansurov, Hafiz Mirzəliyev, İrşad Məmmədov İranda (1944)

Mirzə Mansurdan tar çalmağı öyrənərdi. Bundan başqa həm də onun atası Bədəl bəy atam Məşədi Süleymanla və əmim Mirzə Mansurla dost idi. Onlar həmişə Bədəl bəyin xeyirxahlığı barədə çox təəssüratla danışırlar. Sonralar isə, 1930-cu ildən başlayaraq Opera və Balet Teatrında Əfrasiyab Bədəlbəyli ilə bir yerdə işləmişəm. O zaman o da, mən də cavan idik. O, məndən beş yaş böyük idi, Leninqradda oxuyurdu. Bakıya tez-tez gəlirdi və dirijorluq edirdi. Əvvəllər «Əsli və Kərəm», «Aşıq Qərib», «Leyli və Məcnun», sonralar isə «Şah İsmayıl» və başqa operalara, eləcə də balet tamaşalarına dirijorluq edərdi.

1941-ci ildə Təbrizdə qastrol səfərində olanda bizim muğam operalarının dirijoru maestro Əfrasiyab idi. İranda tamaşalarımız çox gözəl keçirdi. Bu barədə mətbuatda verilən yazılar və şəkillər mənim şəxsi arxivimdə vardır.

Çoxdan arzuladığımız gün - Qələbə günü gəlib çatdı. Acılı-kədərli, gözyaşlı günlər bir daha getsin, qayıtmasın. Müharibədə iştirak edənlərə partiya və hökumətimiz layiqli mükafatlar vermişdi. Arxa cəbhədə xidmətlərimə görə məni də bir çox fəxri fərmanlar, medallar və təşəkkürnamələrlə təltif etdilər.

Çox dostlar, tanışlar getdilər, qayıtmadılar. Onların arasında Azərbaycan ifaçılıq sənətinin nümayəndələri də vardı....

Az sonra onları səhnədə başqaları əvəz etdi.

1947-ci ilin may ayında müğənnilərdən Yavər Kələntərli, Xanlar Haqverdiyev, Qəmbər Zülalov, rəqqasə Fira Xəlilova və kamançaçı Tələt Bakıxanovla birgə Kür çayının sahillərinə, Muğan-Gəncəli kəndinə və o ətrafdakı rayonlara gedərək kolxozçulara xidmət göstərmişik.



Soldan: Əfrasiyab Bədəlbəyli, Bəhram Mansurov, Əbülfət Əliyev (Göygöl, 1957)

Tələt Bakıxanovun hələ kiçik vaxtından kamançaya olan böyük həvəsi mənim xoşuma gəlmişdi. O, mənim gözlərim qabağında yetkinləşib, gözəl kamança çalanlardan biri olmuşdur. Tələt xalq musiqisinin hər bir nöqtəsini dərindən mənimsəməkdən ötrü məndən daim soruşar, öyrənərdi. O, istedadlı kamançaçı olmaqdan əlavə, gözəl insandı. Tələtin bir ifaçı kimi gözəl xüsusiyyətlərindən biri odur ki, o, kamançanı başqa alətlərlə çox dəqiq kökləyir, onun



Soldan: Xanlar Haqverdiyev, rəqqasə, Yavər Kələntərli, Qəmbər Zülalov, Bəhram Mansurov və Tələt Bakıxanov qastrol konsertlərində (1947)

çalğısında xaric səslər əmələ gəlmir. Onun kamançasının tembri də başqadır, güclü və yumşaq, qulağa yatımlı səsdir. Xanəndə oxuyanda tarzən mizrabı sarı simə vurur, kamança da dəm saxlayır. Tələtin çalğısında bu an elə gözəl alınır ki, elə bilirsən kamançanın yanında bir balabançı dəm saxlayır. Bunu hər kamançaçı bacarmır.

1950-ci illərin əvvəllərində Kirovabad Dövlət Dram Teatrının göstərdiyi tamaşalar tamaşaçıları o qədər də təmin etmirdi. O zaman həmin teatrın dirijoru Məmməd Bürcəliyev bizim opera teatrından kömək istəyib dedi ki, gəncəlilərimiz istəyirlər onların öz artistlərinin ifasında «Leyli və Məcnun», «Əsli və Kərəm», «Aşıq Qərib» tamaşaları göstərilsin. Buna görə də incəsənət idarəsinin rəisi Hökumə Sultanova məni yanına çağırtdırıb, Gəncə teatrına köməklik göstərməyi, onları çətin vəziyyətdən çıxarmağı tapşırdı.. «Bu işi ancaq sən bacararsan», - dedi. Mən opera müğənniləri Həqiqət Rzayeva və Xanlar Haqverdiyevlə Gəncəyə gedib, orada mükəmməl işə başladım. Axşam-səhər gərgin məşqlər keçirirdik. Çox çəkmədi ki, dram artistlərini operaya uyğun hazırlayıb, orada doqquz tamaşa verdikdən sonra Bakıya qayıtdıq. On səkkiz aydan sonra bizi ikinci dəfə Gəncəyə dəvət etdilər. Bu dəfə mən Gülxar Həsənova və Əlövsət Sadıqovla getdim.

Hazırladığımız dram artistləri ilə yenə də məşqlərə başladıq, on bir tamaşa verdik. Baş rolları bizim opera artistlərimiz oynayırdılar. Mənə tapşırılan bu iş, çox da asan iş deyildi. məlum şeydir ki, dram artistlərini opera üçün hazırlamaq, səsləri bölmək, muğamları oxumaq, onların yerini dəyişmək çox çətin işdir. Bundan əlavə simfonik orkestri də tək tar ilə mən özüm əvəz edirdim. Odur ki, yerli qəzet mənim zəhmətimi nəzərə alıb yazırdı: «Musiqi rəhbəri, dirijor Bəhram Mansurovun zəhməti və ifaları diqqətə layiqdir».



Азәрбајҹан ССР ХКС ҺӘҺӘ Инҹәсәнәт Ишләри Идарәси
Управление по делам искусств при СНК Азербайджанской ССР

М. Ш. Ахундов адына Азәрбајҹан Дөвләт Ленин ордонлу опера
вә балет театры
Азербайджанский Государственный ордена Ленина театр оперы
и балета им. М. Ш. Ахундова.

БӨЈҮК ОКТЯБР СОЦИАЛИСТ РЕВОЛЮЦИЯСЫНЫН
XXVI ИЛДӨНҮМҮНӘ
ҺӘСР ОЛУНМУШ
ТӘНТӘНӘЛИ КОНЦЕРТИН ПРОГРАММАСЫ
ПРОГРАММА ТОРЖЕСТВЕННОГО КОНЦЕРТА
ПОСВЯЩЕННОГО
XXVI ГОДОВЩИНЕ ВЕЛИКОЙ
ОКТЯБРЬСКОЙ СОЦИАЛИСТИЧЕСКОЙ
РЕВОЛЮЦИИ

6 НОЯБР
НОЯБРЯ 1943 ИЛ

1. а) „Днепр һаггында маһны"—мусигиси Фрадкинаплар.
б) „Халг Комиссарына анд"—мусигиси Д. Шестаковичиндир.
Ифа эдирләр Азәрб. ССР әмәк. арт. Лопаткин Р. М. вә Дөвләт операсынын хору. Дирижорлуг әдир Азәрб. ССР әмәкд. инҹәсән. хадими Гроссман Я. А.
2. Азәрбајҹан мугаматлары—Ифа эдир Азәрб. ССР халг артисти Хан Шушински.
3. Случай с куклой—Эксцентрик рәгс.
Ифа әдир Елена Мордвинова вә Вилли Карлин.
4. „Бу сәнәт дейил"—Сатира вә юмор.
Ифа эдирләр Маргарита вә Гораци Балабан.
5. Оперетталардан арнялар вә жанр маһнылары—
Ифа әдир Наталия Исаенко.
6. Тофиг Гулиевин бәдии раһбәрлийилә Каспи һәрби Флотилиясы Чазынын чыхышы
а) „Дәниз нечиләри"—мусигиси Кацыплыр.
Ифа эдирләр Горски, Шварцман вә Весенин.
б) „Фриц вә Таня—Ифа эдирләр Розенблат вә Эйвазов.
в) „Вал'с—мус. Штраусундур. Мусиги тәртибаты Т. Гулиевиндир.
Ифа әдир Румянцева.
г) Гопак—Украина рәгси. Гурулушу С. Доронининдир.
Ифа эдир БҮТҮН ЧАЗ.
Чалырлар: тарда—Мансуров Бәһрам, тавалда—Бабаев Халыг, ровлда—Ратнер Л. И. вә Борис Мандрус.
Харичи тәртибаты рәссам Әнвәр Алмасзадәниндир.
Программаны идарә эдир Азәрб. ССР әмәкдар инҹәсәнәт хадими Терегулова Лейла.

Bir gün biz Qazaxda konsert verirdik. Burada xatirini istədiyim Səməd Vurğun da iştirak edirdi. Konsert zamanı mən onu salonda görəndə sevincim yerə-göyə sığmırdı. O, diqqətlə muğama qulaq asır, hərdən qaşları çatılırdı. Konsertdən sonra böyük şair məni yanına çağırıb hal-əhval tutdu və gözəl musiqimiz haqqında söhbət açdı: «Bəhram, bizim musiqimiz şəfa bulağına bənzəyir. Adam onu dinləyəndə hər şeyi unudur, özünü başqa aləmdə hiss edir. Amandır, bu çalğını vallara, lentə yazdır. Qoy sənət əsəri kimi yaşayıb, gələcək nəsillərə yadigar qalsın. Bu yolda hər nə kömək lazım olsa, mən hazıram. Sənin sənətin gözəldir, insanı heyran edir».

Əllinci illərin ortalarında Tiflisdən qramzapisə gəlmişdilər. Onda mən «Mahur-hindi» və «Bayatı-İsfahan» muğamlarını solo ifa edib vallara yazdırdım. Qramzapisin işçiləri Tiflisdən 1959-cu ildə yenə də Bakıya gəldilər. Bu vaxt mən Zülfüdən xahiş etdim ki, gedək səsini yazdıraq. Razılaşdı. Biz «Mahur-hindi» muğamını, «Süsən sünbül», bir də «Mən gedirəm Zəngilana» mahnılarını vala yazdırdıq.

Mən Zülfü Adıgözəlovu 1928-ci ildən tanıyırdım. O vaxt Bakıya təzəcə gəlmişdi. Onun konsertlərinə radiokomitədə (indiki Sabir bağının yanındakı Akademiyanın binasında) qulaq asardıq. Orada Qurbanla çalıb-oxuyurdular. Camaat yığışardı Sabir bağına, oradakı radio reproduktorlarla ona qulaq asırdılar. Mən də ona çox qulaq asmışam. Sonralar onunla birgə işləmişik. Abşeronda Zülfü Adıgözəlova çox böyük hörmət vardı. Belə ki, kimin övladı oğlan olurdu, adını Zülfü qoyurdu. Bu, ona sevgidən, hörmətdən irəli gəlirdi. 1938-ci ildə Moskvada keçirilən ongünlük zamanı onun səsini birinci dəfə vala yazdılar. O vaxt o, Qurban Primovun müşayiəti ilə «Rast» dəstgahını oxuyurdu.

1952-ci il idi. Günlərin bir günündə mənə dedi ki, işin yoxdursa, Şamaxıya, toya gedəcəyik, orada Bəhmən adında bir dostum var, onun oğlunun toyudur. Dedim: «Gedək də». Zülfü, mən, bir də bir nəfər kamançaçalanla getdik Şamaxıya. Toy sahibinin həyəti magistral yolun qırağında idi,

nə isə... Keçdik əyləşdik, axşam toy başladı. Bu məclisdə Şamaxıdan Zülfüqar adında bir xanəndə də var idi. O, Mirzə Məhəmmədhəsənin tələbələrindən idi. Biz bir az çalıb-oxuyandan sonra sərpayı gəlib mənə dedi ki, istəyirik Mirzəni yad edək. Baş üstə - deyə çevrilib Zülfüyə dedik ki, «Şur» istəyirlər. Zülfü elə təzəcə başlamışdı «Şur»u oxumağa, sərpayı yenə gəlib dedi ki, istəyirik Mirzəni yad eləyək. Dedim, axı Mirzə həmişə «Şur» oxuyardı. Bəs siz necə deyirsiniz? Dedi ki, bizim bir oxuyan var, o oxumaq istəyir, biz onunla Mirzəni yad eləyirik. Zülfü yerindən durdu ki, o adam gəlib otursun. Gözləyirəm ki, görüm indi kim gələcək. Bir də gördüm ki, arıq, qoca bir kişi gəlib yanımızda oturdu. Mən bu kişini bayaqdan görürdüm. Görürdüm ki, aş süzür, xörək bişirir. Mən ondan soruşdum ki, əmi can, nə oxuyacaqsınız? Dedi ki, «Şur». Biz «Şur»u başladıq. Başladıq, nə başladıq... Bu qoca kişi nə oyun çıxarırdı «Şur»un üstündə, burda nələr oxuyurdu... Muğamın bütün hissələrini oxuyurdu, özü də bir şöbədən başqa şöbəyə təsniflə keçirdi. Bizə heç rəng çalmağı da qoymurdu... O bütün dəstgahı oxudu. Zülfü dedi ki, bu kişi belə oxuyursa, gör Mirzə Məhəmmədhəsən necə oxuyan imiş. Zülfü ilə mən bir çox konsertlərdə birgə çıxış etmişik. Hər dəfə də sürəkli alıqışlarla qarşılanmışıq. Mən həmişə fikirləşirdim ki, bu cür adamlar qocalır, gedir, nə üçün bunların səslərini vala yazmasınlar? Sonra axtaracaqlar, tapa bilməyəcəklər. 1963-cü ildə ikinci dəfə Zülfü ilə vala yazılmışıq.



Zülfü Adıgözəlov, Bəhram Mansurov (1964)



Bəhram Mansurov (1949)

Günlərin bir günü Əfrasiyab Bədəlbəyli mənə dedi: «Solistlərimiz, Bəhram, yaşa dolur, qocalır. Necə bilirsən, biz cavan kadrlar hazırlayaq, ya yox?» Dedim: «Bu çox gözəl fikirdir, bu barədə elə mən özüm də düşünürəm». Əfrasiyab həmişə istəyirdi ki, baş rolda iştirak edənlər ortaboylu cavan qızlar və oğlanlar olsunlar. Ona görə də mənə deyirdi ki, Bəhram, göz-qulaqda ol, yaxşı səsi, boy-buxunu olan, bizim teatra yarayan gəncləri tapan kimi teatra cəlb elə. Qulaq asaq, yarasa, teatra götürərik. Dörd-beş muğam operamız gedir, oxuyanlarımız isə azdır. Mən böyük həvəslə axtarıb gənc oxuyanları tapırdım, hazırlayırdım, qulaq asır, bəyənir, teatra qəbul edirdilər. Bunların çoxu indi mənim üçün xatirədi. Yadımdadı, bir gün konsert zamanı



Məmmədxan Bakıxanov, Əbülfət Əliyev və Bəhram Mansurov (4 may 1950)

filarmoniyanın xorunda solist Rübabə Muradovanı gördüm. Onun oxumağına, boy-buxununa diqqət yetirdim. Gördüm ki, bizim operalarımız üçün çox münasibdir. Sabahı gün durub getdim Rübabəgilə. Onun həyat yoldaşı Tələtlə söhbət edib fikrimi ona dedim. Dedim ki, icazə verin, mən Rübabəni aparım opera teatrına, baş rollarda oynamağa. Ərinin etiraz etməsinə baxmayaraq, qaynatası dedi ki, Bəhram Məşədi Süleymanın oğludur. Dədə-babadan burda, İçərişəhərdə bizə qonşudurlar. O ki, məsləhət bilir, Rübabə, dur get Bəhramla teatra. Mən Rübabəni teatra apardım, Əfrasiyabla danışdım, bir «Mahur-hindi» muğamı çalıb Rübabəni oxutdurdum. Əfrasiyab qulaq asdı, çox xoşuna gəldi. Dedi: «Bəhram, sən bunu hardan tapmısan, əladır! Bundan yaxşı Leyli olar, sən tez məşqlərə başla». Beləliklə, Rübabəni teatra götürdük. Mən onu baş rollara hazırladım. Məşqlər zamanı gördüm ki, Rübabənin Leylisi o biri Leylilərdən fərqlənir. O, əsərin qəhrəmanına xas olan bütün xüsusiyyətləri ustalıqla tutmuşdu. Leylinin həyəcanlarını sxematik yox, yaşayaraq təcəssüm etdirirdi.



Bəhram Mansurov sənət dostları ilə Gəncədə qastrol zamanı (1948)



Əbülfət Əliyev, Sara Qədimova, Bəhram Mansurov (1957)

Nə isə... Leyli üzərində məşqimiz uğurlu oldu, elə ilk tamaşadan Rübabə Muradova sənətsevərlərin məhəbbətini qazandı, onların sevimli sənətkarlarından biri oldu.

1957-ci ildə opera səhnəmizə yeni «Leyli», yeni «Məcnun» gəldi. Bunlar Sara Qədimova və Əbülfət Əliyev idi.

Sara Qədimovanın yaradıcılığı əhatəli və çoxcəhətlidir. O, böyük yaradıcılıq yolu keçmiş və qabil sənətkar səviyyəsinə yüksəlmişdir. Onun sənəti ecazkar azəri musiqisinin həmişə ətir saçan gülüstanına bənzəyir. Bu gülüstanda rəngarəng mahnılar, muğamlar, təsniflər, aşıq havalarından ibarət musiqi inciləri tapa bilərsiniz. O, yüzlərlə mahnını gözəl ifa etməklə bərabər, zəngin muğamlarımızı da ustalıqla oxuyur. Sara xanım başqa qadın müğənnilərimizdən fərqli olaraq «Bayatı-Şiraz», «Mahur-hindi» kimi çoxşaxəli muğamlarımızı məharətlə ifa etmiş və demək olar ki, böyük hünər göstərmişdir. Çünki bu muğamları oxuyan xanəndənin yüksək səs diapazonu, qabil sənətkarlığı və məharətli ifaçılığı olmalıdır. Mən Saranın ifasında «Şur» dəstgahını çox bəyənirəm. İstedadlı müğənni bu muğamı bacarıqla ifa edir. Muğamları gözəl bildiyinə görə biz Sara Qədimovanı 1957-ci ildə opera teatrımıza dəvət etdik. Kollektivimiz Əbülfət Əliyevi və Sara Qədimovanı baş rollara hazırladı. Hər iki müğənni teatr kollektivinin etimadını doğrultdu. Sara məsləhətlərimizə qulaq asdı. O, ilk dəfə olaraq Leyli rolunda çıxış etdi. Sara Qədimovanın Leylisi sadə, səmimi, eyni zamanda cazibədar idi. Müğənni rolun daxili sarsıntılarını, sevdiyi oğlana olan saf məhəbbətini gözəl səsi, xoşa gələn oyunu ilə tamaşaçılara çatdıra bildi. İlk müvəffəqiyyətdən ruhlanan gənc aktyor məhəbbət oduna yanıb külə dönən nakam Əslinin obrazını da ustalıqla yaratdı və yaxşı aktyor qabiliyyətinə malik olduğunu sübut etdi. Mən Sara xanımın sənətindən danışarkən bir cəhəti də qeyd etmək istəyirəm. O, həmişə repertuarını yeni əsərlərlə zənginləşdirir, öz üzərində səylə, inamla, yorulmadan çalışır. Neçə illər bundan qabaq mən onunla «Şur» dəstgahını məşq edəndə bir daha bunun şahidi oldum. O yaşa dolsa da, oxumaqdan doymur, dönə-dönə məşq etməkdən, öyrənməkdən yorulmurdu. Əlbəttə, Sara xanımın zəhmətkeşliyi, sənətinə olan sonsuz məhəbbəti bizim gənc müğənnilər üçün örnək olmalıdır. Zəhmət bahasına yaradılan hər nə varsa,



qəşəng və gözəl olar. Müğənninin söz seçmək bacarığı da diqqətəlayiqdir. O, Nizaminin, Füzulinin, Vaqifin, Səməd Vurğunun, Vahidin qəzəllərini aydın və çox səlist oxuyur. Sara qəzəl, qoşma və mürəkkəb tərkibli şerləri muğamların ruhuna uyğun şəkildə seçib oxuyur ki, bu da dinləyiciyə xoş gəlir.

O vaxtlar Əbülfət Əliyevin çox gözəl, məlahətli səsi vardı. Hətta görkəmli şairimiz Əliağa Vahid məşhur bir qəzəlində bizim də adımızı çəkibdir:

Bəhram Mansurov, Əbülfət Əliyev (1951)

Vahid, istərsən əgər musiqidən zövq alasan,
Məclisində həm Əbülfət, həmi Bəhram olsun.

M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının xüsusi briqadası Ağdam rayonuna qastrola hazırlaşırdı. Briqadanın tərkibinə mən, əməkdar incəsənət xadimi Soltan Dadaşov və başqaları daxil idilər, Kollektiv yola düşməzdən əvvəl teatrın direktoru Fikrət Əmirov briqadanın üzvlərinə dedi: «Həm ticarət, həm ziyarət. Qastrolda olarkən teatrımız üçün bir-iki nəfər gənc müğənni seçin. Qarabağda gözəl səsi olan istedadlı cavanlar çoxdur». Direktorun məsləhəti ilə Soltan Dadaşov və mən razılaşdıq. Doğrudan da teatrın gənc müğənnilərə ehtiyacı vardı. Moskvada keçiriləcək Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə görkəmli bəstəkar Üzeyir Hacıbəyovun «Leyli və Məcnun» operasını tamaşaya qoymaq fikrindəydik. Teatrda baş rollarda oynamaq üçün istedadlı müğənnilər tələb olunurdu. Ağdamda qastrolda olarkən yerli xanəndələr barədə çox söhbət etdik. Hamı Bakir Haşımovun



Bəhram Mansurov sənət dostları ilə filarmoniyada (1951)

adını çəkdi. Bakirlə şəhər mədəniyyət evində görüşdük. Mən tarı kökləyib, ondan bir «Rast» oxumağını xahiş etdim. O, muğamı məharətlə oxudu. Mən Soltan Dadaşova: «Səsdən səsi var, boy-buxunu da ki, öz yerində, əsl Məcnundur durub» - deyə pıçıldadım. İndi də İbn Sələmi axtarmaq lazım idi. İbn Sələmi axtarmaq o qədər də çətin olmadı. Rayonun Qiyaslı kəndində yeddiillik məktəbin müəllimi Şahmalı Hacıyev (xanəndə Ş.Kürdoğlu - red.) yoxlamadan keçdi. Biz Bakıya qayıtdıq. Bir neçə gündən sonra teatrın direktoru adından Ağdam Rayon Partiya Komitəsinin üstünə teleqram göndərdik. Teleqramda həmin gənclərin tezliklə Bakıya, opera teatrına göndərilməsi xahiş edilirdi... Onlar teatra asanlıqla qəbul olunmamış, böyük imtahan keçmişlər. Bəstəkar Fikrət Əmirov, xanəndə Seyid Şuşinski, Mehdi Məmmədov, mən və başqalarından ibarət münsiflər heyəti Bakir Haşımova və Şahmalı Hacıyevə bir neçə muğam oxutdurub qulaq asdıq. Onlardakı gözəl, məlahətli səs hamının xoşuna gəldi. Bakir Haşımovu Məcnun, Şahmalı Hacıyevi isə İbn Sələm rollarına hazırlamağı qərara aldıq.



Rübabə Muradova və Bəhram Mansurov konsertdə çıxış edərkən (1959)

1958-ci ildə doğma opera teatrımızın 50 illik yubileyi təntənə ilə keçirildi. Bu yubiley gecəsində operalardan hissələr, parçalar ifa olunurdu. İfaçılar arasında qocaman müğənnilərimizlə, səhnə ustalarımızda yanaşı, mənim son zamanlarda hazırladığım gənc müğənnilərdən Rübabə Muradova, Sara Qədimova, Əbülfət Əliyev, Qulu Əsgərov, Simuzər Hətəmova, Kamil Hüseynov, Bakir Haşımov, Şahmalı Hacıyev və başqaları da çox böyük müvəffəqiyyətlə çıxış edirdilər.



Bəhram Mansurov və Qulu Əsgərov Kərəm rolunda (21 noyabr 1961)

...1959-cu ildə Moskva şəhərində Azərbaycan SSR ədəbiyyatı və incəsənəti ongünlüyü keçirildi. 1938-ci ildə keçirilmiş birinci ongünlükdən bu ongünlüyün fərqi onda idi ki, qocaman, məşhur ifaçıları indi artıq gənc müğənnilər əvəz edirdi. Onlar öz sənət borclarını həmin ongünlükdə yerinə yetirmiş, alqışlarla, hörmətlə öz doğma yurdları Azərbaycana üzüağ qayıtmışdılar.

...1961-ci ildə Qulu Əsgərov Məcnun rolunda çıxış etdi. Qulu bu obraz üzərində işlərkən nəinki



М. Ф. Ахундов адына Ленин орденли Азәрбайчан Дөвләт

ОПЕРА вә БАЛЕТ ТЕАТРЫ

Базар күнү 17 феврал 1958 чи ил



ТАМАША, Азәрбайчан ССР халг артисти

Һүсейнгулу САРАБСКИНИН

вәфатынын 12-чи илдөнүмүнә һәср эдилир

Үзейир Һачыбәйов

ЛЕЙЛИ вә МӘЧНУН

4 пәрдәли опера

Либреттосу Ү. Һачыбәйовундур

Лейли - САРА ГӘДИМОВА (Азәрбайчан ССР вәмәдәр артисткасы)
Мәчнун - ӘБҮЛФӘТ ӘЛИЕВ
Ибн-Сәлам - Һүсейнов Камил
Нофәл - Бадиров Мүрсәл
Лейлинин анасы - Һәтәмова Симузәр
Лейлинин атасы - Бағыров Мәммәдтағы (Азәрбайчан ССР халг артисти)
Мәчнунун анасы - Мәммәдова Зейнәб
Мәчнунун атасы - Зүлалов Гәмбәр
Зейд - Әскәров Гулу

Тарда соло чалыр - Бәһрам Мансуров (Азәрбайчан ССР вәмәдәр артисти)

Дирижор - ҺӘСӘНОВ Ә. Һ. (Азәрбайчан ССР вәмәдәр мәмәдәр ишчиси)
Режиссор - ДАДАШОВ С. Б (Азәрбайчан ССР вәмәдәр мәмәдәр ишчиси)
Рәссам - АЛМАСЗАДӘ Ә. Һ.
Балетмейстер - ДИЛБАЗИ Ә. (Азәрбайчан ССР вәмәдәр артисткасы)

Театрын баш дирижору - АБДУЛЛАЕВ К. Ч. Театрын баш режиссору - МӘММӘДОВ М. Ә.

Тамаша ахшам саат 8-дә башланыр

Билетләр сәһәр саат 11-дән күндүз саат 2-йә кими вә ахшам саат 5-дән 9-дәк театрын

görkəmli bəstəkarın yaradıcılığını, musiqi materiallarını, həmçinin «Leyli və Məcnun» poemasının yarandığı tarixi dövrə aid məlumatları belə öyrəndi. O, Məcnun rolunun əvəzsiz ifaçısı Hüseynqulu Sarabskinin oyunu haqqında materiallar da toplamışdı. Gənc müğənni özünəməxsus xüsusiyyətləri olan bu mürəkkəb obrazı dərk etmək üçün xeyli zəhmət çəkdi. Ona mən və Soltan Dadaşov, teatrımızın başqa qocaman ifaçıları köməklik göstərirdik. Bu illərdə Qulunun tərəf-müqabili, yəni Leyli rolunun ifaçısı Rəsmiyyə Sadıqova olub. SSRİ xalq artisti Niyazi, Azərbaycan SSR əməkdar incəsənət xadimi Şəmsi Bədəlbəyli və mən Rəsmiyyə Sadıqovanın istedadını yüksək qiymətləndirib onu 1962-ci ildə M.F.Axundov adına Opera və Balet Teatrına baş rolda çıxış etmək üçün dəvət etmişdik. O, bizim ümidlərimizi doğrultdu. Bir müddətdən sonra Rəsmiyyə Sadıqova ilə birgə bu tamaşada Mais Salmanov iştirak etdi.



(soldan) Hüsnü Qubadov, Bakir Haşıiov, Mais Salmanov, Bəhram Mansurov "Leyli və Məcnun" operasının fasiləsi zamanı (1929)

Gənclərin çoxunda müəyyən bir sahədə istedad olur. Ən başlıcası onu inkişaf etdirməkdir. Mais Salmanov bizim teatra işləməyə gələndə operada çıxış etmək haqda təsəvvürü belə yox idi. Məlahətli, xoşa gələn səsi olsa da, ifa etdiyi mahnıları, xüsusən muğamları dinləyicilərə çatdırmaqda çətinlik çəkirdi. Mən gənc müğənni ilə ciddi məşğul olmağa başladım.



(soldan) Əbülfət Əliyev, Bəhram Mansurov və Qəmbər Zülalov "Şah İsmayıl" operasının fasiləsi zamanı (1957)

Onun səsi, xoş zəngulələri, aktyor olmaq həvəsi məndə belə bir inam yaratdı ki, Mais gələcəkdə əsl sənətkar olacaqdır. O, öz üzərində səylə çalışdı, gərgin məşqlər onu yormadı. Opera teatrımız üçün əsas olan muğamların bütün incəliklərini öyrəndi. Ayrı-ayrı apardığımız məşqlər səmərəsiz qalmadı. Mais Kərəmi, Məcnunun musiqi partiyasını, müxtəlif muğamları məharətlə oxudu. Bu sahədə teatrımızın rejissorları və aktyorlarının təcrübəsindən istifadə etdi, onlardan dəyərli məsləhətlər aldı. Onu da deyim ki, Mais sənətinin vurğunudur. O, öz



(sağdan) Bəhram Mansurov, Əli Mehdiyev (1964)

üzərində çalışmaqdan, sənətkarlığını yüksəltməkdən yorulmur. Məhz bunun nəticəsidir ki, muğamlarımızın ifaçılıq texnikasını yaxşı bilir, onun ayrı-ayrı hissələri arasında əlaqə yaradır. Gənc müğənnini dinləyiciyə sevdirən daha bir cəhəti qeyd etmək istəyirəm. Mais oxuduğu qəzəlləri doğru-dürüst tələffüz edir, dinləyiciyə çatdırır. Opera aktyoru üçün isə bu keyfiyyətlər çox vacibdir. Məhz bunun nəticəsidir ki, Maisin ifa etdiyi Məcnun rolunu hamı bəyənir. Mən deyə bilərəm ki, gənc müğənni bizim etimadımızı doğrultmuşdur.

Həmin vaxt Məcnun rolu üçün biz Əli Mehdiyevi də hazırladıq. Əli Mehdiyevin şaqraq səsi, yaxşı boy-buxunu Məcnun surəti üçün çox əlverişli idi. Bu rolun hazırlanmasını ona tapşıranda Əlinin necə sevindiyi indiyə qədər yadımdadır. Lakin çalışmaq lazım idi. Əli bir an rahatlıq bilmədən öz üzərində işlədi, qocaman xanəndələrin təcrübəsini öyrəndi və istəyinə nail oldu. Əli Mehdiyev Məcnun rolunu cəmi on günə öyrənmişdi. Lakin bu on gün səhərdən axşamadək gərgin məşqlər, nigaran dəqiqələr, böyük zəhmət deməkdi. Biz onunla hər sözün, hər misranın üstündə dəfələrlə dayanır, hər bir hərəkətin mənasını açmağa çalışırdıq. Əli rejissorun göstərişinə çox dəqiqliklə əməl edir, hər şeyə maraq göstərirdi.

Günlərin bir günündə bizim evdə Fikrət Əmirov və Firudin Şuşinski ilə əyləşib musiqidən söhbət eləyirdik, bu dəmdə qapı döyüldü. Qapını açıb gördüm ki, gələn Seyid Şuşinskidir. Dedim: «Fikrət müəllim, yaxşı oldu, Ağa da gəldi, onu bir oxutdurub qulaq asarıq, qocalığına baxma, səsi yerindədir. Bəlkə mümkün oldu, səsini lentə də yazdıq. Sonra o lenti vala köçürtdürərik». Fikrət: «Bu çox yaxşı olardı» dedi. Elə bu söhbətdə maqnitofonu qurduq, mənim «Mahur hindi»m çalınırdı, Ağa da ona diqqətlə qulaq asırdı. Birdən Ağa «Mahur-hindi»ni zildən «Bərdaşt» eləyib oxudu. Gördüm Fikrət razılıq hissilə mənə baxır. Mən Fikrət müəllimə dedim ki, səsyazma studiyasını dörd saatlığa bizə versin. Razı laşdıq. Seyidə əvvəlcə «Çahargah» oxutduq. O, muğamı «Mənsuriyyə» ilə zildə «Bərdaşt» edəyib, sonra «Arazbarı», «Osmanlı», «Heyratı-Kabili» oxudu. 1963-cü il idi. Seyid Şuşinskinin onda 74 yaşı vardı. O oxumaq indi bizim üçün əvəzsiz yadigardı.



(soldan) Bəhram Mansurov, Fikrət Əmirov, Firudin Şuşinski (1975)

Heç yadımdan çıxmaz. 1950-ci ilin əvvəllərində məni və Seyid Şuşinskini Bakının



Seyid Şuşinski, Bəhram Mansurov (1963)

Kürdəxanı kəndində böyük bir toy məclisinə dəvət elədilər. Orada çox böyük həvəskar musiqi biliciləri və musiqiçilər vardı. Onlardan Hacı Murad, Məşədi Hüseynağa, Məşədi Məzahir, Kəblə Hüseyn, Vəzir və başqaları bizim klassik muğamlarımızı çox sevir, gözəl də bilirdilər. Onlar bizim klassik oxuyanlarımıza böyük qiymət verirdilər. Nə isə... Axşam saat 10-a 10 dəqiqə qalmış bizi çağırdılar toy yerinə. Seyiddən «Çahargah» oxumasını xahiş etdilər. «Çahargah» da Seyidin ən çox xoşladığı, oxuduğu muğamlardan biri idi. Biz «Çahargah» dəstgahına başladıq. Seyid «Çahargah» dəstgahını düz bir saat on beş dəqiqə oxudu. Elə sakitlik idi ki... Seyidin bir adəti də vardı, oxuyanda üzündə təbəssüm olardı. Seyid «Çahargah»ı oxuyub qurtarandan sonra mənə dedi ki, bu yaxın illərdə heç belə «Çahargah» oxumamışdım. Toyun sərpayısı dedi ki, camaat, bu «Çahargah» bizə bəsdir, heç olmasa, 10-12 il bizim qulağımızdan çıxmayacaq. Xahiş edirəm, heç kəs inciməsin, daha çalğı olmayacaq. Nə ağanı oxutduracağıq, nə də balabançılar çalacaq. Bununla da toy bitdi... Mən Cabbar əmidən sonra ona bərabər xanəndə Seyidi bilirəm. Çünki o, Cabbarın tələbəsi idi. O, həm də qəzəl seçməkdə mahir idi. Deyirdi ki, xanəndə üçün ən böyük şərtlərdən biri muğama görə qəzəl seçməyi bacarmaqdır. Seyid ustad sənətkar idi. 1963-cü ildə televiziyada mənim və kamançaçı Vaqo Melkumovun müşayiəti ilə Seyid Şuşinski 74 yaşında, ömrünün son illərində «Mahur», «Çahangah», «Arazbarı», «Osmanlı», «Heyratı», «Mənsuriyyə», dəstgah və zərb muğamlarını, «Məni-dori» təsnifini oxudu...



Sərvər İbrahimov, Kamil Əhmədov, Seyid Şuşinski, Bəhram Mansurov, Qurban Primov, Məmmədağa Ağayev, Tələt Bakıxanov, Qəmbər Zülalov, filarmoniyanın bağında (25 oktyabr 1963)

Mən həyatımda çox xanəndəni müşayiət etmişəm, çoxlu muğam və mahnılar yazdırmışam, mənim «Melodiya» firması ilə əməkdaşlığım çox yaxşı olub. Bir dəfə firma-



Müğənni Tələt Qasımov Bəhram Mansurovun ansamblı ilə səsyazma studiyasında yazılış zamanı (1971)

nın nümayən dələri mənə dedilər ki, biz sizin və başqa sənətkarların ifalarını lentə, vala yazırıq. Amma yaxşı olardı ki, siz bir ansambl düzəldəydiniz. Onların bu təklifi məni düşündürdü. Çox götür-qoydan sonra solistlərdən ibarət bir xalq çalğı alətləri ansamblı yaratdım: tarzənlərdən Sərvər İbrahimov, Məmmədağa Muradov, Firudin Ələkbərov, kamançaçalanlardan Tələt Bakıxanov, Elman Bədəlov, klarnet çalanlardan Bəhruz Zeynalov və Mübariz Atayev, balabançılardan Çingiz Zeynalov, Möhsün Mövsümov, qarmonçalan Musa Həsənov, Böyükağa Muradov (nağara) bu ansamblın üzvləri idilər.

Bu ansambl əsasən müğənniləri qramzapis etmək və onların ifalarını lentə yazmaq üçün təşkil olunmuşdu. Ansamblın müşayiəti ilə biz Seyid Şuşinski, Zülfü Adıgözəlov, Zeynəb Xanlarova, İslam Rzayev, Şövkət Ələkbərova, Gülxar Həsənova, Rübabə Muradova, Əbülfət Əliyev, Yaqub Məmmədov, Nəriman Əliyev, Hacıbaba Hüseynov, Baba Mirzəyev, Qaraxan Behbudov, Vəli Məmmədov, Razi Şükürov, Nazim Çələbiyev, Ramiz Hacıyev, Heybətulla Balayev, Hüsnü Qubadov, Əli Mehdiyev, Mayis Salmanov, Ağababa Novruzov, Sara Qədimova, Canəli Əkbərov, Bayram Məmmədov, Ağaxan Abdullayev, Nisə Mustafayeva, Rəsmiyyə Sadıqova, Simuzər Hətəmova və başqa müğənniləri müşayiət etmişik.



(soldan) bəstəkar Nəriman Məmmədov, Bəhram Mansurov və Hacıbaba Hüseynov "Çahargah" muğamını nota salarkən (8 yanvar 1967)

1964-cü ilin dekabrında filarmoniyanın solisti, müğənni Əlibala Səfərovun ifasında mənim ansamblımın müşayiəti ilə bir neçə muğam, təsnif və xalq mahnılarını qrammafon vallarına yazdırdıq. Əlibala özünəməxsus bir



Bəhram Mansurov, Vəli Məmmədov (1971)

şirinliklə oxuyan müğənnidir. Onun ifasında «Dəşti», «Rast», «Bayatı-kürd», «Mirzə Hüseyn segahı» muğamları, «Bəh-bəh», «Gəl-gəl» və bir sıra başqa xalq mahnıları gözəl səslənib.

Muğam sənətini dərindən öyrətdiyim müğənnilərdən biri də Hacıbaba Hüseynovdur. Hacıbabanın özünəməxsus yaradıcılıq yolu var. Doğrudur, onun səsi o qədər də qüvvətli deyil, lakin xoşagələndir. O, muğamın hissələrini düzgün öyrənmək, ifaçılıq mədəniyyətini artırmaq üçün muğam ustası Mirzə Mansur Mansurovdan, Əhməd Bakıxanovdan və məndən bilmədiklərini soruşub-öyrənərdi. O, klassik xalq xanəndələrini ifaçılıq yolu ilə oxuyur, çünki Hacıbaba Cabbar Qaryağdı oğlu, Seyid Şuşinski, Ələsgər Abdullayev və Zülfü Adıgözəlov kimi məşhur xanəndələrin özlərinə və qrammafon vallarına dəfələrlə yorulmaq bilmədən qulaq asıb. 1964-1966-cı illərdə rəhbərlik etdiyim ansamblın müşayiəti ilə onun oxuduğu bir çox muğam və təsnifləri qrammafon vallarına yazdırmışam.

Ansamblımız qadın müğənnilərdən ən çox Rübabə Muradovanı müşayiət edib. O, «Mahur», «Qatar», «Şur», «Çahargah», «Zabul», «Dəşti» muğam və təsniflərini, «Gəl bizə yar», «Görürəm səni», «Getdim ki, getdim», «Şəhla gözlü» və s. mahnıları çox gözəl ifa etmişdilər.

Müğənni üçün şirin və mələhətli səsin olması ən böyük xoşbəxtlikdir. Yaxşı musiqi təhsili görmüş müğənni Vəli Məmmədov belə xoşbəxtlərdəndir. O, təmiz və mələhətli səsə malikdir. Mən Vəlini tarzən kimi bir neçə dəfə müşayiət etmişəm, professional ifaçıdır, səsini necə işlətməyi yaxşı bilir. Söz seçmək qabiliyyətinə isə söz ola bilməz. Nəfəsində klassik muğam ifaçılarının nəfəsi duyulan bu müğənninin oxumaları emosional təsir gücünə malikdir. Onun oxumağının təsirinin 1959-cu ildə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə bir daha şahidi oldum. Vəli Məmmədovun Çaykovski adına konsert salonunda usta-



(soldan) Qaraxan Behbudov, Bəhram Mansurov və Elman Bədəlov (16 oktyabr 1983)

lıqla ifa etdiyi «Şahnaz» muğamı əsl saflıq təcəssümü idi. Elə bu saflığa görə onu sevib alqışlayıram. Məhz belə gözəl səsə malik olmasını nəzərə alaraq, mən onu rəhbərlik etdiyim ansambla dəvət etdim, mahnılarını vala yazdırdım.



Dostlarımla Ağdam rayonuna getmişdim. Bir el şənliyində yaxşı səsi olan xanəndə dostum İmranı görəndə çox sevindim. Ötən günlər dəftərini vərəqlədik, səsinin qalıb-qalmadığını soruşdum. O, mənə cavab vermədi, bizi evinə dəvət etdi. Çay-çörəkdən sonra üzünü mənə tutub dedi: «Mənimlə işin yoxdur, sən bir bu oğlana qulaq as». Qamətli bir oğlan yanıma gəldi. Adını soruşdum. «Qaraxan» – dedi. Qaraxan utanırdı, yanaqları pörtmüşdü. Tar, kaman dilə gəldi, onun utanmağından əsər-əlamət qalmadı. Qaraxan elə bil musiqidən güc aldı. O, muğam və bir neçə mahnı oxudu. Qaraxanın yumşaq və məlahətli səsi xoşuma gəldi. Ona dedim ki, mütləq Bakıya gələrsən, məktəbdə oxumalısan. Qaraxan mənim məsləhətimə qulaq asdı. Bakıya gedib musiqi məktəbinə daxil oldu. Konsert salonlarında həvəslə çıxış etdi, tamaşaçılar tərəfindən rəğbətlə qarşılandı. Mən də öz növbəmdə gənc müğənni ilə ciddi məşğul olmağa başladım. Muğamlarımızın oxunma yollarını ona öyrətdim. O, səylə, böyük həvəslə öz üzərində çalışmağa başladı. Düzünü deyim ki, onun musiqiyə olan tükənməz həvəsi məni heyran etmişdi. Oxumaqdan, musiqi dinləməkdən heç vaxt yorulmurdu. Onun səsi xoşagələndir, ürəyə yatır, qəlbləri oxşayır. O, bizim ansamblın müşayiəti ilə «Bayatı-Şiraz», «Mirzə Hüseyn segahı», «Çahargah», «Qarabağ şikəstəsi», «Apardı sellər Saranı» muğam və mahnılarını çox məharətlə oxuyub.



Yaqub Məmmədov, Bəhram Mansurov (1963)

Bir gün yolumu filarmoniyaya tərəf saldım. Bizim tarçalan yoldaşlardan bir nəfər dedi ki, Ağcabədidən bir oxuyan gəlib, yaxşı səsi var, «Çahargah»ı əla oxuyur. Filarmoniyaya gəlib zalda əyləşdik. Bizim Xəlil adında tarçalan bir yoldaşımız var idi. Ona dedim: «Xəlil, sən çal, biz qulaq asaq», Xəlil Yaqub üçün «Çahargah» çaldı. Yaqub Məmmədov oxudu. Mən gördüm ki, bunun səsi əla səsdir, oxumağı da çox yaxşıdır, özü də muğam yolları ilə oxuyur. Oxuyub qurtarandan sonra mən ondan soruşdum: «Sən Bakıda qalacaqsan, yoxsa Ağcabədiyə qayıdacaqsan?» «Yox, getməyəcəyəm, Bakıda qalmağa gəlmişəm» dedi. Sonra mən uzun illər onunla yoldaşlıq elədim. Onu məclislərdə, şənliklərdə, radioda çox müşa-iyət etmişəm. Yaqubun qüvvətli, məlahətli, ürəyəyatan səsi, gözəl ifaçılıq qabiliyyəti var. O həm də sadə, səmimi



Haşım Kələntərli (ortada) sənət dostları ilə (12 iyun 1974)

və mehriban insandır. Xalq sənətkarı üçün bu, vacib keyfiyyətdir. Elə buna görə də xanəndə Yaqub Məmmədov hər yerdə hörmətlə qarşılanır və sənəti yüksək qiymətləndirilir. Bu da hər oxuyana nəsib olmur. Xalqın hörmətini qazanmaq sənətkar üçün ən böyük mükafatdır. Mən onun «Mənsuriyyə»sini, «Müxalif»ini dinlədikdə Cabbar Qaryağdı oğlu, Seyid Şuşinski, Zülfü Adıgözəlov kimi keçmiş xanəndələrimizin hamısı gəlir dayanır gözümün qabağında. Axırıncı gələn xanəndələrdən Yaqub yaradıcı xanəndə sayılır. Yaqub əsl xanəndədir. Onun səsində çox yanıqlıq, həzinlik, adama toxunan məlahət var. Mən Yaqubun ifasında «Mənsuriyyə» zərb muğamını çox bəyənirəm. Şirin ləhcə, şaqraq zəngulələr, xoş avaz, aydın tələffüz adama xoş gəlir, muğamı da, onun gözəl ifasını da dinləyiciyə sevdirir. Bu, hər xanəndəyə qismət olmur. Böyük müğənnimiz Seyid Şuşinski deyərdi ki, kimin «Mənsuriyyə»ni oxumağa gücü çatmırsa, qoy «Çahargah»a yaxın durmasın, bunun üçün çox böyük ustalıq, əsl qabiliyyət, səs və nəfəs lazımdır. Yaqub bu deyilən keyfiyyətlərə malikdir və bu çətin muğamı ustalıqla oxuyur.

Yaqubdan danışdım, yadıma Əlyusif, Mütəllim, Haşım düşdü. Əlyusif oxuyanda həmişə Seyid Şuşinskini yad eləyirəm. O «Çahargah»ı elə oxuyurdu ki, elə bil Seyidin özüydü. Mən o vaxt onunla Kürdəmirdə toy şənliklərində çox olmuşam. O, yaxşı xasiyyətli, gözəl insan idi. Muğamı çox yaxşı bilirdi. Axır vaxtlar Əlyusif Qəniyev aşıq Şakirin dəstəsilə işləyirdi. Aşıq Şakir muğam sənətini, oxumağın çox hissəsini ondan öyrənmişdi. Həmçinin aşıq Məmmədağa muğamları öyrənməkdə ondan çox istifadə edib. Odur ki, onlar çalıb-oxuyanda muğam parçalarından da istifadə edirlər. Bunlar hamısı Əlyusifin zəhmətinin nəticəsidir. Onların ailəsində oxumaq nəsildən-nəslə keçibdi. Əlyusifin atası Süleyman da dövrünün yaxşı oxuyanlarından idi. Bir qardaşı da vardı, Rza adında. Hərdən Bakıya gələr, filarmoniyada konsertlər verərdilər. Amma Əlyusif başqa



Mütəllim Mütəllimov, Bəhram Mansurov (5 aprel 1967)



Bəhram Mansurov (1950)

aləm idi. O, «Mahur-hindi», «Çahargah», «Segah-Zabul» muğamlarını çox gözəl oxuyardı.

O zamanlar mən Haşım Kələntərli ilə çox konsertlərdə olmuşam. Onun «Kəsmə şikəstə»si, «Kürdü-Şahnaz»ı, «Bayatı-Şiraz»ı özünəməxsus idi və xalqımız tərəfindən bəyənilirdi. Haşımın «Segah» muğamı başqa oxuyanlardan xüsusilə fərqlənirdi. Çünki bu muğamda «Segah-Zabul», «Xaric-Segah», «Mirzə Hüseyn segah»ı var idi ki, bunlar müəyyən yerlərdə çalınır. Haşım isə bu muğamı ayrı bir pərdədə oxuyur. Elə ona görə də bu «Segah» indiyə qədər «Haşım Segah»ı adlanır. Bu «Segah» «Şah pərdə»dən başlayır, mütləq solo çalınır. A.Zeynallı adına musiqi məktəbində həmin «Segah»a «Yalxın segah»ı adı qoyublar...

Yadımdadır, xanəndə Mütəllim Mütəllimovun və Fərzəli Ağcabədilinin çıxışlarını Bakıda xüsusi maraq və səbirsizliklə gözləyirdilər. Bunların əvvəlcə öz çalğıçıları vardı, sonra bizim müşayiətimizlə oxumağa başladılar.

Mütəllim qəzəl seçməkdə başqalarından fərqlənirdi, onun boğazının xırdalığı, şirinliyi o biri müğənnilərdə yoxdur, səsinin tembri çox qüvvətlidir. Mütəllim bizim muğam ifaçılığına Mütəllim kimi gəldi. O, oxumaq yollarını Cabbar Qaryağdı oğlu, Seyid Şuşinski, Şəkili Ələsgərdən öyrənmişdi. Onlar haqqında sadəcə «xanəndə» sözünü işlətmək düz deyil, əgər demək mümkünsə, onlar muğam sənətini, musiqi elmini yaşadan canlı «muzeylər» idilər.



Sara Qədimova, İran müğənnisi İlahə xanım, Bəhram Mansurov (2 dekabr 1964)

Mütəllim də bu böyük xanəndələrin hərəsindən bir şirinlik götürmüş, ancaq tamam təzə, yeni üslubda oxuyurdu. Camaatımız Mütəllimi lap çox sevirdi. Xüsusən Abşeronda az toy olardı ki, ora Mütəllimi çağırmasınlar.

Hərdən məndən soruşurlar ki, keçmiş muğam ifaçıları ilə

bugünküləri müqayisə etmək olar, ya yox? Sözün düzü, belə suallara cavab verməkdən həmişə qaçmışam. Çünki, belə suala cavab vermək təşəbbüsünün özü belə o gözəl xanəndələrin ruhuna hörmətsizlikdir.

O zaman səhnə akustika texnikası inkişaf etməmişdi, nə mikrafon vardı, nə də ayrı bir şey. Amma səs vardı, ürəkdən oxumaq vardı. Mən bu gün müğam ifaçıları arasında keçmiş ifaçılarımızla müqayisə edilə biləcək xanəndə görmürəm. Əlbəttə, Xan Şuşinskidən başqa.

Xalq üçün sənəti sənətkar yaşadır. Xalq üçün yaxşı sənətkar qızıl xəzinəsinə bənzəyir. Çünki xalqın əsrlərdən bəri ürək qanı ilə yaratdığı sənət incilərini ən yaxşı sənətkarlar yaşadırlar. Xan Şuşinski məhz belə sənətkarlardandır. Xalq arasından çıxmış bu istedadlı müğənni qədim el sənətinin ən layiqli təbliğatçılarındandır.

1930-cu ildə Qarabağdan Bakıya qastrol səfərinə gələn konsert briqadasının tərkibində iki qardaş da vardı: İsfəndiyar oxuyar, Allahyar isə tar çalardı. Hər ilin yay-payız aylarında Bakıya qastrola gələn, Qarabağ musiqiçilərinin şöhrətini ucaldan bu qardaşlar olub. Böyük hörmət və rəğbət qazanmış Xanın konsertinə baxmaq o zaman hər bakılıya qismət olmurdu. Onlar Bakıya gələndə adətən «Şərq» mehmanxanasına düşərdilər. Hər dəfə Xangilin yanına gedər, bəzən səhəri orada açardım. Onlar gedənə kimi günlərimiz bir yerdə keçirdi. Xanın əsl adı İsfəndiyar idi. O, bir gün Qarabağda böyük bir toy məclisində o qədər gözəl oxuyur ki, oradakı qonaqlar ona «Xan» adı verirlər. Yəni «Bundan gözəl səs ola bilməz» deyirlər.

Mən də bir tarzən kimi Xangilin dəstəsində iştirak edirdim. Bir dəfə mehmanxanadan çıxıb filarmoniyaya yollandıq. Axşam konsertimiz olacaqdı. Bakıdakı konsertlərdə Xan oxuyanda bütün musiqi azarkeşləri bilet üstündə az qala dava edirdilər. Hətta bir konsertdə camaatı sakitləşdirməkdən ötrü filarmoniyaya atlı milis dəstəsi gəlmişdi. Salona yol tapa bilmədik. Məni və Allahyarı pəncərədən içəri keçirdilər... Yenə də həmişəki kimi alqış səsləri salonu lərzəyə gətirmişdi. «Xan! Xan!» kəlmələri əzəmətlə səslənirdi... Qaraqaş, qaragöz, ucaboylu müğənni səhnəyə qalxdı. Bayaqkı nidaları lirik zəngulələr əvəz etdi.



Xan Şuşinski, Bəhram Mansurov (3 avqust 1973)

Biz hamımız, hətta Qurban Primov da ona hörmət əlaməti olaraq, «Xan əmi» deyirdik. 1957-ci ilin yay günlərinin birində Xan əmi bizə telefonla zəng edib məni evlərinə çağırdı. Getdim. Gördüm ki, Xan əmigildə qonaqlar var - Zirə kəndindən gəl-



Xan Şuşinski və Bəhram Mansurov

mişdilər. Xan əmi mənə dedi ki, Bəhiş bala, bu kişilər mənlə səni istəyirlər. Allahyarın da pulunu verirlər, nə deyirsən?

Razılıq verdim. Avqust ayında getdik Zirəyə, toy başlandı. Balabançılar dəstəsi çaldı, camaat oynadı. Axşam saat onun yarısında sərpayı elan etdi ki, camaat, on beş dəqiqəlik tənəffüs verilir. Sonra heç kəs yerindən tərpənməyəcək. Çünki «Şur» dəstgahı başlanacaq: Xan oxuyacaq, Bəhram çalacaq. Bəli, başladıq, nə başladıq... Düz bir saat on dəqiqə çalıb-oxuduq. Çoxlu alqışdan sonra balabançılar çalmaq istədikdə onları saxladılar və bizdən xahiş etdilər ki, bir «Vağzalı» çalın - biz çaldıq, bəy oynadı. Bir qədər tənəffüs etdikdən sonra bizdən müsiqimizin «gəlini» olan «Bayatı-Şiraz» dəstgahını dinləmək arzusunda olduqlarını dedilər. Xan əmi «Bayatı-Şiraz»ın «Üzzal» yerində döndərdi «Xaric segah»a - orada elə gözəl zəngulələr, xırdalıqlar elədi ki, hamı heyran qaldı.

Xanın böyüklüyü onda idi ki, onun pərəstişkarları bir qrup dinləyici deyildi. Xan Moskvaya, Azərbaycan incəsənəti ongünlüyünə gedəndə çoxları bəlkə də tərəddüd etmişdi, amma bütün millətlərin nümayəndələri toplaşan Kremlin Qurultaylar sarayında Xanın zənguləsi o qədər doğma, o qədər ürəyəyatan səslənmişdi ki, sürəkli alqışlar uzun müddət ara verməmişdi.

Xanın ifasında üstün cəhətlər çoxdur. Bunlardan biri də sənətkarın milli xalq zəminindən mükəmməl bəhrələnməsi ilə bağlıdır. Muğamlarımızın, xalq mahnılarımızın təravətini, hikmətini qoruyub saxlamaq, gələcək nəslə çatdırmaq hər sənətkara nəsib olmur. Bu baxımdan Xan Şuşinskinin «Qızıl fonda» daxil olan lent yazıları musiqi tariximizi tədqiq edənlər üçün ən qiymətli mənbədir. Onun ifasında «Rast», «Çoban-bayatı», «Segah», «Şur», «Kürdü-Şahnaz», «Heyratı», «Mirzə Hüseyn segahı», «Mahur-hindi», «Bayatı-Qacar», «Qarabağ şikəstəsi» kimi muğamlar, «Alma almaya bənzər», «Əlində sazın qurbanı», «Qara tellər», «İrəvanda xal qalmadı», «Nə halətdir» kimi onlarca mahnı və təsniflər həyata əbədi vəsiqə almış və uzun illər bizim yol yoldaşımız olmuşdur.


SIMFONIK QONSERTLƏRİ
I D A R Ə S İ
MYDAFƏƏ EVİ
BINASЬNDA
BAKЬ ŞURASЬ
BXMŞ
1935 II
MEVSIMI
15 və 17 nojabrda
BƏJYK ŞƏRQ QONSERTI
Iştrak edirlər:
Xalq xanəndəsi
XAN ŞUŞINSKIJ
tarda calьr ALLAHJAR
ÇAHAN TALЬŞЬNSQAJA
MYNƏVVƏR KƏLƏNTƏRLI
ZYLFYƢAR SARIJEV
MANSUROV BƏHRAM

Bəlkə də çoxları bilmir ki, Xan özü «Şuşanın dağları», «Al yanağında», «Ay qəşəng ceyran», «Ay gözəl» kimi mahnılar müəllifidir. Xan bu mahnıları xalq üslubunda, xalq nəfəsində elə gözəl cilalayıb ki, qüsur tutmağa adamın dili gəlmir.

Fikrimcə, həyata ömürlük vəsiqə alan, daim bizim yol yoldaşımız olan mahnıların uzunömürlü olması üçün müğənni əsas müəllif olmalıdır. Müğənni ilk ifaçısı olduğu mahnıya, muğama öz möhürünü elə vurmalıdır ki, ikinci ifaçının müəlliflik hüququna lüzum qalmasın. Təsadüfi deyildir ki, bir mahnının bir neçə ifaçısı olduğu halda həmişə onun yaxşı ifaçısı yada düşür, yad edilir. Bax, Xanın ifasında eşitdiyimiz muğam, mahnı və təsniflərə şərik çıxanlar bu məsuliyyəti hiss etsələr də, hələ Xan zirvəsinə yüksələ bilməmişlər.



Bəhram Mansurov televiziyada çəkiliş zamanı (1967)

...1956-cı ilin yay aylarının birində evə gələndə həyat yoldaşım Münəvvər xanım mənə dedi ki, kinostudiyaya zəng vur, səni axtarırlar. Mən ora zəng etdim. Rejissor Hüseyn Seyidzadə mənə dedi ki, səni Xan ilə «Məşədi İbad» kinosuna çəkəcəyik. Mən etiraz elədim, dedim ki, Xan qardaşı Allahyar Cavanşirovla oxuyur, siz Xanı onunla çəkin. Dedi, biz səni çəkəcəyik.

Mən kinostudiyaya getdim. Rejissor mənə dedi ki, çox tar çalanlara baxmışıq, bizi razı salmayıb. Söhbət qurtardı, rejissor Hüseyn Seyidzadə dedi ki, Bəhram, sabah saat on birdə burda ol, özünlə orta yaşlı bir kamança çalan da götür gəl.

Hansı kamançaçını dedimsə, razılaşmadı. Axırda Tələt Bakıxanovu apardım. Ona da razılaşmadılar ki, cavandır, olmaz. Çox danışdıqdan sonra dedim: «Azərbaycanın musiqi tarixində deyilir ki, kamançaçalan həmişə cavan olmalıdır. Ona görə ki, adətən kamança tarın dalınca gəlir, tarın çalğısını təkrar edir və o həm də oxuyan üçün dəm saxlayır ki, tonallığı tutsun», Beləliklə, razılaşıb məni, Xanı və Tələti milli geyimdə, «O olmasın, bu olsun» kinofilmində Məşədi İbadın Rüstəm bəyin qonaqlığındakı səhnəsində, «Kürdü-Şahnaz» muğamını çalıb-oxuyarkən filmə çəkdilər.



Xan Şuşinski, Bəhram Mansurov və Tələt Bakıxanov "O olmasın, bu olsun" filmində (1956)

Mən Xana qədər çox oxuyanlar görmüşəm. Lakin Xan sənətə öz nəfəsi ilə gəlib,



“Leyli və Məcnun” operasının fasiləsində (1960)

onun öz dəst-xətti olub, oxuma manerası başqalarından tamamilə seçilib. Ona qulaq asan dinləyici heç zaman dodaq büzüb deməyib ki, Xan filankəsi yamsılayır, filan müğənni kimi oxuyur. Bir sözlə, Xan həmişə öz sənətində orijinal olub, onun ifaçılığı müasir oxuyanlarımız üçün örnəkdir.

1965-ci il idi. Teatrımızın rejissoru Soltan Dadaşov konservatoriyanı yenicə bitirmiş Flora Kərimovanı Leyli roluna dəvət etdi. Biz onunla ilkin məşqlərə başladıq. Məşq zamanı görürdüm ki, Flora yaman sıxılır. Ona dedim: «Qızım, gəl sənlə belə şərtləşək. Sən Soltan müəllimin verdiyi məsləhətlərə, onun göstərdiyi hərəkət və mizanlara riayət elə. Mən tar çalım, sən isə lazım olan muğamları ürəyində oxu. Çünki Flora bu vaxtacan muğam oxumamışdı. Biz həm teatrın səhnəsində, bəzən də bizim evdə məşqlər edirdik. Bir müddət keçəndən sonra soruşdum: «Qızım, özünü hazır bilirsənmi?» Dedi: «Bəli, hazıram». Floranın Leylisi pis alınmadı. Xüsusən, Leylinin şamla söhbəti səhnəsində o çox füsunkar görsənirdi.

O, bir növ ərəb qızlarına oxşayırdı. Flora bizim səhnəmizdə cəmi 6 tamaşa oynadı, özü də «Leyli və Məcnun» operasında Leyli rolunda. Sonra o, opera səhnəsini tərk etdi...

O müddətdə Floranın tərəf-müqabili Arif Babayev idi. Bir gün Ağdama opera teatrı ilə qastrola getmişdik. Tamaşalararası boş vaxt olanda oranın musiqi həyatı ilə maraqlanırdım. Bir gün Ağdamın özfəaliyyət ansamblının çıxışı zamanı boy-buxunlu, qədd-qamətli bir oğlanın oxumağı xoşuma gəldi. Bu, Arif Babayev idi. Konsertdən sonra ona yaxınlaşıb səsindən xoşum gəldiyini dedim və onu opera teatrına dəvət etdim. Çox keçmədi ki, o, Bakıya gəldi. Biz onunla operanın direktorunun kabinetində görüşdük. Direktor dedi: «Ümidvaram ki, o bizim etimadımızı doğruldacaq». Mən Ariflə bir neçə gün məşğul oldum. Düzü, gəncin bulaq kimi çağlayan səsi, vurduğu rəngarəng zəngulələr, çalışmaq həvəsi məni heyran etdi. Kərəmin bütün melodiyalarını, müxtəlif muğamları gənc xanəndə məharətlə oxudu. Arifin səs diapazonu genişdir, bütün pərdələri asanlıqla tuta bilir. Üzeyir bəy deyirdi ki, operada aktyor muğam pərdəsini olduğu kimi, daha doğrusu, yazılan kimi tuta bilmirsə, o bizə yaramır. Çünki



Mikayıl Abdullayev, Flora Kərimova, Bəhram Mansurov (23 dekabr 1965)

onda obrazın psixologiyası tamaşaçıya tam çatmaz. Arif öz üzərində səylə işləyir, muğamata yaxşı bələddir. Onun yaxşı aktyor olmasının bir səbəbi də burasındadır ki, ürəyi səsindədir, yəni ürəklə oxuyur. Əruzu müntəzəm öyrənir, qəzəlləri aydın, təmiz tələffüz edir. Bunlar hamısı opera teatrı üçün vacibdir. Arif artıq muğamda, opera sənətində bişib, bərkiyib, səhnəyə həmişə inamla çıxır. Arifin səsi çox duzludur, adamı tez ələ alır, xırdalıqlardan, guşələrdən ustalıqla istifadə edir.



Flora Kərimova, Bəhram Mansurov Arif Babayev "Leyli və Məcnun" operasının fasiləsində (23 dekabr 1965)

Səhnəmiz çox leylilər, çox məcnunlar görüb. Hərdən məndən soruşurlar ki, yaxşı, Bəhram, bu gördüyün Leylilərdən, Məcnunlardan ən yaxşı hansı olub? Sözün düzü, belə suala cavab vermək mənim üçün çətindir. Çünki hər bir müğənni, istər Leylini, istər Məcnunu oynayan ifaçı çalışıb ki, bu rola ürəklə yanaşsın. Bu müğənnilərdən heç birini bir-birindən ayırmaq olmaz, hərəsi sənət aləmində bir iz qoyub gedibdi. Bayaq Arif haqqında dedim, Arif əsasən istedadlı müğənnimiz Zeynəb Xanlarovanın tərəf-müqabili olub.



Arif Babayev, Bəhram Mansurov, Elman Bədəlov (12 fevral 1980)

Zeynəb Xanlarova Leyli rolunu məlahətlə, çox gözəl ifa edir və tamaşaçıların yadında qalır. İndi də Zeynəb xanım səhnəmizdə Leyli rolunu oynayanda tamaşaçı zalında bir dənə boş yer görmək mümkün olmaz. Bu da hamısı Zeynəb xanımın bu rolu tamaşaçıya daha dolğun çatdırması ilə əlaqədardır. Biz Zeynəb xanımla çox məşqlər



Bəhram Mansurov və Zeynəb Xanlarova "Leyli və Məcnun" operasının fasiləsində (19 mart 1977)

etmişik, həm səhnədə, həm də bizim evdə. Son illərdə ən müvəffəqiyyətli Leyli obrazını yaradanlardan biri Zeynəb Xanlarova sayılır. Üzeyir Hacıbəyovun anadan olmasının 100 illiyi ərəfəsində bəstəkarın bir çox əsərləri vala yazılırdı. Onun ən məşhur əsəri olan «Leyli və Məcnun» operasını bütünlüklə biz Zeynəb Xanlarova və Arif Babayevin ifasında 1985-ci ilin əvvəlində vala yazdırdıq.

Azərbaycanda Sovet hakimiyyəti qurulduğu ilk illərdə bir sıra adamlar muğamı, xalq çalğı alətlərini məişətdən çıxarmağa çalışırdılar. Lakin bir çox ziyalılarımız, demək olar, bütün musiqiçilərimiz muğamın və tarın müdafiəsinə qalxdılar. Ü.Hacıbəyov, Ə.Bədəlbəyli, C.Qaryağdı oğlu, Q.Primov və bir çox başqaları xalq musiqimizin və çalğı alətlərimizin xalqımızın ayrılmaz bir hissəsi olduğunu sübut etdilər.

Üzeyir bəy deyirdi ki, Avropa musiqisini öyrənmək çox vacibdir. Bizim musiqimizin tərəqqisi bundan asılıdır. O, xalq musiqiçiləri arasında tarda klassik Avropa bəstəkarlarının əsərlərini ifa etməyə etiraz edənlərin səhv etdiklərini sübut etmək məqsədilə bir təcrübə keçirtdi. Zalda musiqi biliciləri əyləşmişdilər. Səhnədə isə pərdənin arxasında müxtəlif pərdəli iki tarda eyni bir əsər çalınırdı. Zalda əyləşənlər gərək bu iki tardan hansı birinin muğam ifaçılarının o dövrki tar pərdələrinə və konservatoriyada notlu əsərlərin ifası üçün istifadə olunan pərdələrə aid olduğunu ayırd edəydilər. Çünki musiqiçilərin mübahisəsinə səbəb olan əsas məsələ ondan ibarət idi ki, bir qisminin fikrincə, muğam tarında Avropa musiqisini çalmaq olmaz. Digər musiqiçilər isə bu fərziyyəni inkar edib, tarda pərdələrin yerlərini bir qədər dəyişib, hər hansı bir xalqın musiqisinin ifa olunmasını mümkün hesab edirdilər. Nəticədə xalq musiqiçilərinin cavabları göstərdi ki, onlar hər iki tarda çalınan əsərin səslənməsindəki az miqdarlı fərqi hiss etməmiş və bir-birindən ayıra bilməmişlər. Beləliklə, Üzeyir bəy tar pərdələrindəki xromatik sistemin xalq musiqisinə



Qurban Primov və Bəhram Mansurov (1959)

xələl gətirmədiyini və muğamlarımıza pis təsir etmədiyini sübut etdi. Həmin vaxtlarda Üzeyir bəyin yazdığı «Azərbaycan xalq musiqisinin əsasları» adlı elmi əsər bu sahədə görülmüş ən böyük nailiyyətdir.



Soldan: Hacı Məmmədov, Bəhram Mansurov, Əliağa Quliyev (1964)

Azərbaycan operalarında tarın rolu Ü.Hacıbəyovun «Leyli və Məcnun» operası ilə başlanır. Azərbaycan xalqı «Leyli və Məcnun»la nəfəs alır. Bu opera xalqımızın ana südüdür. Ü.Hacıbəyov «Leyli və Məcnun» operasında tarı həm milli kolorit, həm milli dramaturgiya xüsusiyyətlərinin açılması, həm də zərurətdən doğan bir alət kimi işlətmişdir. Başqa xalqların simfonik yaradıcılığında bu və ya digər xalq çalğı alətlərsiz keçinmək mümkündürsə, «Leyli və Məcnun» operasında tarsız keçinmək mümkün deyil. Bu da əsərdə muğamdan geniş istifadə olunmasından və improvizasiya xüsusiyyətləri əsasında qurulmasından irəli gəlir.

Azərbaycanda bir çox tarzənlər məşhur olub. Onların arasında ən çox mənim ürəyimə yatan tarzən Əhsən Dadaşov idi.

1938-ci il idi. Mənim əmim, Azərbaycan SSR əməkdar incəsənət xadimi Mirzə Mansurun oğlu Ənvər Mansurov Musiqi Texnikumunda muğamdan dərs deyirdi. O, bir gün gəlib mənə dedi ki, mənim bir tələbəm var, gəl bir ona qulaq as, gör nə istedaddır. Mən gedib bu tələbəyə qulaq asdım, çox xoşuma gəldi. Bu, Əhsən Dadaşov idi. Onu dinlədikcə, onun musiqini qavramasından hiss etdim ki, o, gələcəkdə yaxşı sənətkar olacaq.

Doğrudan da, bir neçə ildən sonra o, peşəkar, mahir tarzən oldu. Ə.Dadaşov Üzeyir Hacıbəyovun təşkil etdiyi notlu orkestrdə və üçlükdə çalmaqdan daha da məşhurlaşdı. Sonralar Əhsən xalq çalğı alətlərindən ibarət ansambl təşkil etdi. O, bu ansamblla ciddi məşğul olur, ansamblın repertuarını daim zənginləşdirir, ona yeni rənglər, dəramədlər əlavə edirdi. Elə buna görə də onun rəhbərlik etdiyi ansambl gözəl səslənir və müğənnilərimizin çoxu bu ansamblla çıxış etmək istəyirdilər.

Əhsən axtarışlar aparmaqdan, çalışmaqdan yorulmurdu. Ənvər Mansurovun yetişdirmələrindən biri olan Əhsən Dadaşov öz müəllimini o qədər çox istəyirdi ki, o, hətta öz oğlunun adını da Ənvər



Bəhram Mansurov və Əhsən Dadaşov (6 noyabr 1959)

qoymuşdu. Müəllimi Ənvər Mansurov müharibədə həlak olandan sonra Əhsən daim onun xatirəsini yad edər, əmim Mirzə Mansurun yanına gələr, ona təsəlli verərdi. Mirzə Mansur da Əhsəni çox istəyərdi, o hər dəfə Əhsəni görəndə elə bilirdi ki, oğlu Ənvəri görür. Əhsən həmişə Mirzə Mansurdan muğamlar, rənglər, dəramədlər, tarın pərdələri, simlərin köklənməsi və sairə barədə soruşardı. O, əmimin maraqlı söhbətlərindən doymazdı. Ümumiyyətlə, Əhsən, Mansurovlar məktəbinin yetişdirməsidir. Əhsən Dadaşovun orkestrlə çaldığı əsərlər, səslənəcək və elə bilirəm ki, xalqımızın qəlbində daim yaşayacaq.

Mən tarı o qədər sevirəm ki... Bizim tarın səsi bütöv bir simfonik orkestrin səsinə bərabərdir. Xaricdən gələn qonaqlar belə tarın səsinə məftun olurlar...

1967-ci il fevral ayının 21-də Azərbaycan Bəstəkarlar İttifaqından SSRİ xalq artisti Fikrət Əmirov telefonla mənə xəbər verdi ki, UNESKO-nun nümayəndələri radioda sənin də lent yazılarına qulaq asıblar, sənինlə görüşmək istəyirlər, qonaqları qəbul et. Həmin günün axşamı onlar bizə gəldilər. Onları Elmira Abbasova, Nəriman Məmmədov və bir də moskvalı tərcüməçi qadın müşayiət edirdilər. Qonaqlar iki nəfər idi, hər ikisi də Fransadan. UNESKO-nun nümayəndələri olan bu qonaqlardan biri Beynəlxalq Müqayisəli Musiqi Tədqiqatı İnstitutunun baş direktoru, Şərq musiqisinin alimi Alen Danielu, o birisi isə onun assistenti, baş elmi katib Jak Kloarek idi. Bunlar gəlib əyləşdilər. Elmira xanım dedi ki, bunlar folklor musiqisi axtarırlar. Bilmək istəyirlər ki, qədimdə muğamlarımız nə cür olub və nə sayaq çalınıb. Mən onlar üçün keçmiş oxuyub-çalanlarımızın vallarını səsləndirdim, dinlədikləri muğam, təsnif və ifaçılar barədə məlumat verdim. Sonra qonaq mənə dedi ki, olar siz də bir şey çalasız, qulaq asaq? Mən onlar üçün əvvəlcə «Bayatı-



Azər Rzayev, Fikrət Əmirov, Cövdət Hacıyev, Bəhram Mansurov (1984)



Alen Daniyelu

Şiraz» muğamını çaldım. Çalğı zamanı qonağın həyəcanlandığını hiss elədim. Soruşdum ki, qonaq niyə belə narahatdır? Tərcüməçi cavabında: – Deyirlər ki, biz «Bayatı-Şiraz»ın bu cürəsini eşitməmişik. Dedim, doğrudur, bu cürəsini çətin onlar eşidə bilər. Çünki mən babam Məşədi Məlikdən, atam Məşədi Süleymandan, əmim Mirzə Mansurdan öyrəndiyim muğamı çalırdım. Sonra qonaqların xahişi ilə «Mahur-hindi» dəstgahını çaldım. Onlar məni çox diqqətlə dinləyirdilər. Bizim gözəl musiqimizə heyran qalmışdılar. Müxtəsər... Bunlar məndən 4 dənə də muğam eşitdilər. UNESCO-nun nümayəndələri öz vətənlərinə qayıtdıqdan sonra bizim Bəstəkarlar İttifaqına yazdılar ki, UNESCO-nun kolleksiyasına daxil etməkdən ötrü Mansurovun ifasında muğamların lent yazısını bizə göndərməyinizi xahiş edirik. Fikrət Əmirovun və Tofiq Quliyevin köməkliyi ilə Tbilisiyə getdim, orada bu muğamları lentə yazdırdım. Elmira Abbasova bu barədə ön söz yazdı, beləliklə, qədim musiqimiz olan muğamlarımız tarın ifasında UNESCO-nun kolleksiyasında təmsil olundu. UNESCO xətti ilə Berlinin «Baren-Reiter» firması tərəfindən 1971-ci ildə «Musiqi antoloqiyasi» seriyasından «Azərbaycan», 1975-ci ildə isə Hollandiyanın «PHİLİPS» firması tərəfindən «Musiqi atlası» seriyasından «Azərbaycan, muğam, tar, Bəhram Mansurov» adlı valları istehsal olundu, dünyanın bir çox ölkələrində yayıldı. Azərbaycan muğamlarını, Azərbaycan tarını dünya xalqları arasında bir daha şöhrətləndirdi.

Mən İranın tanınmış müğənnisi Hümeyra xanımla məktublaşırdım. 1968-ci il noyabrın 2-də Tehrandan gəlmiş cavab məktubunda o yazırdı: «Möhtərəm və əziz ağaye Mansuri! Çoxlu salam-kəlamdan sonra deməliyəm ki, hər şeydən əvvəl uzaq yoldaş Sovet ölkəsinin, xüsusilə Opera və Balet Teatrının görkəmli səhnə ustaları və nümayəndələri ilə tanış olduğuma görə çox xoşhalam... Ağaye Mansuri, çox xoşhalam ki, məktubunuzda özünüzün və yoldaşlarınızın işindən söhbət etmiş və peşənizi bizə tanıtmısınız. Sizin İran radiosuna qulaq asdığınızı bilirəm... Bilirsiniz ki, ərim Pərviz ölkəmizin ən böyük çalğıçılarından biridir. Bir qayda olaraq onun əsərləri və musiqisi ilə də radio vasitəsilə tanış olmusunuz. Təzə evləndiyimizdən xarici bir ölkəyə, uzaq səfərə çıxmaq xəyalındayıq. Əgər əziz qonşumuzun, dostumuzun ölkəsi olan Sovet İttifaqını görməyə fürsət düşsə, Sizinlə və Sizin ölkənizin başqa görkəmli sənətkarları ilə tanış olsam, çox şad olaram. Sizin gözəl torpağınızın və mənim ölkəmin musiqisinin kökü və



Jak Klarek



İran müğənnisi Hümeyra xanımın B.Mansurova avtoqrafı ilə göndərdiyi şəkil (1968)

əsasının təqribən bir cür olduğunu və yaxud bir-birinə çox yaxınlığını bildiyimdən mənim və ərimin böyük Sovet sazəndələrinə və musiqi əsərlərinə, xüsusilə Əmirova böyük marağımız var. Mən sizin böyük sənətkarınız Rəşid Behbudovun Tehrandakı konsertini, maraqlı verilişlərini və ürəkaçan səsini heç vaxt unutmayacağam. Hər halda, ağaye Mansuri, ümidvaram ki, Tehranda, yaxud da sizin gözəl ölkənizdə sizi görməyə, sizinlə və sizin həmkarınızla tanışlığa müvəffəq olarıq. Uzaqdan-uzağa sizə və dostlarınıza salam göndəririk. İran radiosunun müğənnisi Hümeyra xanım».

Fikrət Əmirov ilk dəfə olaraq «Şur» və «Kürd-Ovşarı»nı simfonik muğam kimi dünyaya tanıtmışdı. O, mənim çalğımda ən çox «Bayatı-Şiraz»ı xoşlayırdı. Dəfələrlə bizim evə gələndə bu muğama mənim ifamda qulaq asırdı. Günlərin bir günü o mənə dedi ki, Bəhram, istəyirəm gedim Şiraza, Sədinin gəzdiyi yerləri gəzəm, sonra da istəyirəm «Bayatı-Şiraz» simfonik muğamını yazım. Bu işdə sən gərək mənə mütləq kömək edəsən. Dedim: «Nə lazımdırsa, mən hazır». Doğrudan da bir müddət keçəndən sonra biz birgə işləməyə başladıq. Mən tarda «Bayatı-Şiraz»ın ayrı-ayrı hissələrini çalır, o, diqqətlə qulaq asır, improvizə edir və bu keçidləri simfonik orkestr üçün əlaqələndirirdi. Bir müddət keçəndən sonra qəzetdə onun belə bir yazısına rast gəldim. «Bəhram Mansurov Azərbaycan xalq musiqisini ürəkdən sevən, ona böyük hörmət edən və hətta deyərdim ki, keşiyində bir əsgər kimi inamla dayanmış sənətkarlarımızdandır. Tarzən Bəhramın əsl mənada öz mizrabı, öz sarı simi və özünəməxsus olan güclü biləngi vardır. Mən dəfələrlə onun məlahətli çalğısından, xanəndələrimizi ustalıqla müşayiət etməyindən xeyli ləzzət almışam. Yeri gəlmişkən demək istyəirəm ki, Bəhramın bir xüsusiyyəti də vardır ki, onu respublikamızın başqa tarzənlərindən ayırd etmək çox çətin deyil. Çünki onun öz üslubu, daha doğrusu, öz sənət mənliyi vardır.



Fikrət Əmirov və Bəhram Mansurov "Gülüstan Bayatı-Şiraz" simfonik muğamı üzərində işləyərkən



Baba Mirzəyev, Bəhram Mansurov, Nəzakət Məmmədova "Leyli və Məcnun" operasının fasiləsində (2 yanvar 1971)

İnsan öz sənətini sevməli, onunla yaşayıb, sənəti yaşatmalıdır.

1971-ci ildə «Leyli və Məcnun» operası iki istedadlı gəncin iştirakı ilə oynanıldı. Leyli rolunu Nəzakət Məmmədova, Məcnun rolunu isə Baba Mirzəyev ifa edirdilər..

Nəzakət Məmmədovaya mən birinci dəfə televiziya ilə qulaq asmışam. O, «Mahur-hindi» muğamı üstündə bir mahnı oxuyurdu. Gördüm ki, bu qızın səsi çox yaxşıdır.

Səhərisi gün Nəzakətin sorağıyla Asəf Zeynallı adına musiqi məktəbinə gəldim. 1968-ci il idi. Bəzi yoldaşlardan xəbər aldım ki, dünən televizorda bir qız oxuyurdu, o kimdir? Məqə dedilər ki, o, Nəzakət Məmmədovadır, Gəncədən gəlib, özü də Hacıbaba Hüseynovun tələbəsidir. Orada tapşırdım ki, teatra, yanıma gəlsin. Nəzakət teatra gəldi. Dedim, sən heç nədən qorxma, musiqi qavrama qabiliyyətin çox yaxşıdır. Mən onu ürəkləndirdim, teatra gəlməyə söz verdi. Onda mən ona dedim: «Məşqə bizə gələrsən. Səni əvvəlcə Leyli roluna hazırlayacağam ki, teatrda yoxlamada hazır olasan, çaşmayasan». O, məşqlərə gəlirdi. Mən ona operamızda oxunan muğamların hamısının oxunma qaydalarını öyrətdim. Bir neçə vaxt hazırlıqdan sonra dedim ki, indi daha hazırsan, gələrsən teatra. O, teatra gəldi, ona qulaq asdılar. Baxış zamanı hamı tərəfindən bəyənildi və opera teatrına bir solist kimi qəbul edildi. Bundan sonra isə teatrda gərgin məşqlərə başladıq. Baba Mirzəyev Məcnun, Nəzakət Məmmədova isə Leyli rollarına hazırlandı.



Bəhram Mansurov (1971)

Nəzakət Məmmədova oynadığı rolların öhdəsindən bacarıqla gəlirdi.

Hayıf ki, Nəzakət Məmmədova



(soldan) Məmmədağa Muradov, Əbülfət Əliyev, Əliağa Quliyev, Bəhram Mansurov İran musiqiçiləri-müğənni Məsudi, Mehdi Xalidi (violin) və tarzən Fərhəng Şərif ilə görüşdə (2 dekabr 1964)

aramızdan çox tez getdi. Onun yaratdığı unudulmaz obrazlar, oxuduğu muğamlar, təsnif və mahnılar xatirimizdə daim səslənəcək, qəlbimizdə həmişəlik qalacaq. Bu isə o deməkdir ki, Nəzakət Məmmədovanın adı və səsi yaşayacaq.

Baba Mirzəyev də özünü istedadlı bir opera artisti kimi göstərmişdi. Onun oynadığı rollar mürəkkəb və rəngarəngdir. O, rolun böyük-kiçikliyindən asılı olmayaraq obraza böyük ustalıqla girir. Babanın Məcnun rolundakı çıxışı mənə Hüseynqulu Sarabskinin oynayıb-oxumasını xatırladır. Məsələn, Nofəlin gəlişi pərdəsində «Bayatı-Şiraz»ı oxuyarkən ustalıqla fortedən pianoya gətirib çıxarması və yaxud Məcnunun ölən pərdəsində sürünə-sürünə Leylinin qəbrini axtararkən üzünü yerə qoyub «Bayatı-kürd», «Bayatı-əcəm» oxuması, uzanan yerdə belə bir yüksək notları məharətlə ifa etməsi Babanın müsbət cəhətlərindən biridir. Baba, Üzeyir Hacıbəyovun yazdığı kimi bütün notları çox dəqiqliklə ifa edir. Onun səsi böyük diapozona malikdir.



Bəhram Mansurov (1971)

Bəzi oxuyanlar elə

düşünürlər ki, səsi var, muğamları da bilir, opera aktyoru ola bilər, özü də baş rolda çıxış etmək istəyir. Ancaq bu belə deyil. Gənclərlə uzun müddət işləyib, onları rollara hazırlamaq lazım gəlir.



Operada tamaşa zamanı (1977)

Tar ifaçılığı da belədir. İndi bizim yaxşı tar çalanlarımız var. Muğamları da gözəl çalırlar. Operada işləyən tarçalan gərək muğamatı yaxşı bilsin. Burada işin məsuliyyəti ondadır ki, tarçalan tək çalır, yanında konsertdəki kimi, kamançaçı yoxdur. Ona görə də operada tar çalmaq konsert çalğısından qat-qat çətindir. Çünki konsertdə sənin köməkçin - kamançaçalan var. Tarçalan çaşanda kamançaçı ona kömək edir. Amma operada belə deyil, gərək oxuyanı oxutdurasan, O, səhnədə gəzdikcə, sən gərək ştrixlər tapasın. Tarçalanın gərək sağ əli güclü ola. Mizrabı simə elə samballı vurmalısan ki, səsi bütün zalı tutsun, artist səni eşitsin, çünki sənlə onun arasında xeyli məsafə var. Özü də tar «lya» kökündədir, buna «boş kök» deyirlər. Ancaq konsert çalğısına gəldikdə çalğıçılar muğamları standarta döndəriblər. Onlar bilmirlər ki, bir muğamın formasını saxlamaq şərtilə yeni gəzişmə və guşələrlə başqa cür çalmaq olar . Konsertdə sən oxuyanın dalınca getməlisən, operada isə əksinə. Çünki ona yolu sən göstərməlisən. Çalışmalısan ki, onu çaşdırmayasan, əgər o çaşsa, mizanını da itirər. Odur ki, tarçalan gərək usta ola.

Tarın simfonik orkestrdə olmağı çox böyük hadisədir. Onu Üzeyir bəy «Koroğlu»da orkestrlə birgə səsləndirib. Simfonik orkestrlə tar çalındıqda adama o qədər ləzzət eləyir ki, Üzeyir bəyin bu işi əvəzsizdir. Mən istərdim ki, bizim muğam operalarında tarın səsi həmişə gəlsin.

1971-ci il aprel ayının 12-də M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında mənim anadan olmağımın 60 illiyi, yaradıcılıq və pedaqoji fəaliyyətimin 40 illiyi münasibətilə yubiley gecəsi keçirildi. Salon tamaşaçı ilə dolu idi. Bir dənə də olsun boş yer yox idi. Səhnənin bir tərəfində, hündür bir yerdə xalılar döşənmiş və güllərlə bəzədilmiş üç kreslo qoyulmuşdu. Mən səhnəyə daxil oldum. Keçib əyləşdim. Mənim sağımda respublikanın xalq artisti Ağababa Bünyadzadə, sol tərəfimdə isə SSRİ xalq artisti Firəngiz Əhmədova əyləşmişdi.

Gecədə Azərbaycan SSR əməkdar incəsənət xadimi, professor Əşrəf Abbasov, Teatr



Ağababa Bünyadzadə,
Bəhram Mansurov,
Firəngiz Əhmədova
(12 aprel 1971)

Cəmiyyətinin sədr müavini Hüseyn Mollazadə, filarmoniyanın bədii hissə müdiri Cahangir Məmmədov, filarmoniyanın direktoru Kərim Kərimov, Musiqili Komediya Teatrı adından Niyaz Şərifov, müğənni Gülxar Həsənova və başqaları cıxış etdi.

Gülxar xanım öz çıxışını şerlə bitirdi:

Bugünkü məclisinə ustadımız Xan da gəlib,
Yığılıb ətrafına bir neçə xanəndə gəlib,
Bəstəkarlar, tarzənlər, bir də müəllim dostların,
Sizi təbrik etməyə çox gözəl bir anda gəlib...

Sonra isə sözü mənə verdilər.

Fasilədən sonra ikinci hissə başladı. Bu bədii hissədə bizim muğam operaları çalınırdı. Tarda onları mən müşayiət edirdim.



1971-ci ildə yazıçı-jurnalist Hacı Ağayevin ssenarisi əsasında haqqımda «Çalır Bəhram Mansurov» adlı musiqili-sənədli film çəkildi. Həmin filmin rejissoru və operatoru Nəriman Şıxəliyev idi. Bu film mənim həyat və yaradıcılığımdan bəhs edirdi.

...Mən, 1974-cü ilin yanvarın 15-də UNESKO-dan bir məktub aldım. Məktubda yazılırdı ki, onlar mənim ifamda



bütün Azərbaycan muğamlarının lent yazılarını istəyirlər. «Musiqi atlası» adı altında bir plastinka da çıxarmaq fikrindədirlər. Mən də Bəstəkarlar İttifaqının köməkliyi ilə doqquz muğamı lentə yazdırıb UNESKO-ya göndərdim.



Üzeyir bəyin ölməz operalarını ifa edəndə düşünürəm ki, müəllif salondadır. Adəti üzrə əllərini çənəsinə dayayıb musiqiyə qulaq asır. Mən də şövqlə, ilhamla ifaya başlayıram. Onun haqqında xatirə danışmaq, bu böyük sənətkarı yad etmək mənim üçün nə qədər fərəhlidir.

Mən operada, filarmoniyada maraqlı görüşlərdə Üzeyiri görürdüm, şirin söhbətlərinə qulaq asırdım.

Heç yadımdan çıxmaz. Otuzuncu ildə respublikamızın ucqar kəndlərin-



Qaryagin (indiki Füzuli) rayonunda qastrolda olarkən. Sağdan 1-ci Hüseynqulu Sarabski, 4-cü Hüseynağa Hacıbabəyov, 5-ci Bəhram Mansurov (11 mart 1942)

dən birinə, Qaradonluya konsert verməyə gedirdim. İsti hava, arabanın cırıltısı, uzun yol bizi əldən salmışdı. Qəflətən güllə səsi eşidib arabaları saxladıq. Əli silahlı qaçaqlar qabağımızı kəsdilər. Tüfəngləri bizə tuşlayıb qışqırdılar:

- İndi də bura gəlirsiniz ki, bizim abır-həyamızı tökəsiniz. Biriniz də salamat qalmayacaqsınız.

Qorxudan dinmədik. Bu vaxt Hüseynqulu Sarabskinin ağlına nə gəldisə, mənə işarə elədi ki, çal. Mən «Leyli və Məcnun» operasından bir parça çaldım, qarmonçalan da mənə qoşuldu. Məcnu- nun naləsi ətrafa yayıldı. Qaçaqlar tüfənglərini aşağı salıb qulaq asmağa başladılar. Biz çalıb oxuya-oxuya yola düşdük. Musiqi qaçaqların ürəyini yumşaltmışdı. Onlar arxamızca baxa-baxa qaldılar. Üzeyir Hacıbəyovun ölməz musiqisi bizi qaçaqların əlindən qurtardı.

Üzeyir bəy xalq musiqisinə, xalq çalğı alətlərinə, xüsusən tara ürəkdən bağlı idi. Dahi sənəkar yaxşı bilirdi ki, tar xalqımızın ən çox sevdiyi musiqi alətidir. Tar babalarımızın yadigarıdır.

...Teatrda «Şah İsmayıl» operası gedirdi. Tamaşa qurtarandan sonra bir nəfər mənə yaxınlaşıb əlimi sıxdı və mənə tamaşadan aldığı böyük zövq üçün minnətdarlığını bildirdi. Bu, Bakıya qastrola gəlmiş Estoniyanın xalq artisti, dirijor Roman Matsov idi. O, öz təəssüratını mənimlə bölüşdü, orkestr ilə solo tarın vəhdəti barədə verdiyi suallara cavab verdim. O, dedi ki, hər hansı bir yerdə mən qastrolda olarkən həmin yerin milli musiqi mədəniyyətilə tanış olmaq üçün vaxt ayırmağa çalışıram. Sonralar o, hər dəfə Bakıya gələndə bizə də baş çəkərdi. Mən də öz növbəmdə Azərbaycan musiqisinin sirləri ilə onu tanış edərdim.



Soldan: Musa Mirzəyev, Roman Matsov, Bəhram Mansurov (1978)

1975-ci ildə Müslüm Maqomayevin

anadan olmasının 90 illiyi təntənə ilə qeyd edildi. Biz həmin il dekabrın 20-də Moskvada İttifaqlar Evinin sütunlu salonunda bir konsert verdik. Konsertdə Müslüm Maqomayevin «Şah İsmayıl» operasından Ərəbzəngi ilə Şah İsmayılın dueti ifa olundu. O vaxt Ərəbzəngini Rübabə Muradova, Şah İsmayılı Arif Babayev ifa edirdi. Mən isə tarda onları müşayiət edirdim. Dirijor Ramiz Məlikaslanov idi.

Qeyd etmək istəyirəm ki, bu operada tara çox geniş yer verilib. Misal üçün birinci pərdədə tar orkestrlə birlikdə rəmmalı müşayiət edir. İkinci pərdədə bəstəkar tarın gözəl bir lirikası olan «Segah» muğamını götürüb salıb Şah İsmayılla Gülzarın görüşünə. Sonra tardan istifadə olunub Ərəbzəngi pərdəsində, Oradakı Ərəbzəngi cəngavərdir, burada muğamın «Ərak» pərdələri çalınır, oxunur. Sonra 3-cü və 4-cü pərdələrdə atası Şah İsmayılı göndərir ki, bir şah başı gətirib gəlsin. Şah İsmayıl isə onun əvəzində Gülzarı gətirib gəlir. Bu zaman atası Aslan şah qəzəblə acıqlanır. Burada yenə də tarın həzinliyindən istifadə olunub. «Şikəstə» çalınır və xırda-xırda oxunur. Operada tar çox böyük təravətlə səslənir. Hər dəfə tarın səsi çıxanda qulağa gözəl bir ahəng gəlir.

...Bir gün qapının zəngi çalındı. Qapını açdıqda, əllərində tar tutmuş xarici qonaqları gördükdə bunların məqsədlərini dərhal başa düşdüm. Azərbaycana qastrol səfərinə gəlmiş bu polşalı musiqiçilər bizim milli musiqi aləti olan tar ilə maraqlanmış, özləri üçün mağazadan tar almış, tar haqqında ümumi məlumat, çalınma qaydasını öyrənməkdən ötrü mənim yanıma gəlmişdilər. Bu musiqiçilər Polşanın «Skaldı», «Ekstra-Ball» və «Komanband» estrada ansambllarının üzvləri idilər.

Mənim Azərbaycan, tar haqqında söhbətlərim, eləcə də çalğım onlarda elə maraq oyatdı ki, hətta onların gitara çalanı Yarek Smetana tarı tutmaq və necə çalmaq qaydasını nisbətən öyrənə bildi. O, tarda bir parça öz musiqilərindən çaldı. Mənimlə olan bu ilk görüş onlar üçün çox maraqlı oldu. Onlar məndən çox razı olduqlarını bildirib, avtoqraflarını yazıb mənə verdilər və getdilər. Onlar Polşaya qayıtdıqdan sonra məni yenə də unutmurlar, hər il yeni il münasibəti ilə təbrik məktubları göndərirlər.



Polşanın "Extra Ball" və "Koman Band" qruplarının üzvləri ilə görüş zamanı (1976)

Sonra eşitdim ki, Polşanın Krakov şəhərindəki məşhur «Pod Yaşurame» klubunda polşalı qonaqlar Azərbaycana olan səfərlərindən yadigar olaraq özləri ilə apardıqları tarı və mənim tarda solo yazılmış vallarımı nümayiş etdiriblər.



Polşanın "Skaldovie" qrupunun üzvləri – Yarek Smetana və Yan Budzyaşek ilə (1975)

1975-ci ilin avqust ayında UNESKO-dan daha bir məktub aldım. Məktubun mətni belə idi:

«Əziz cənab Mansurov! Bu il noyabrın 15-dən 21-nə qədər Bağdadda Şərq xalqlarının musiqi simpoziumu keçiriləcək. Həmin simpoziumda çıxış etmək üçün Azərbaycandan Sizi dəvət edirik. Xahiş edirik bu konsertlərdə çıxış etmək üçün özünüzlə milli Azərbaycan geyimi də gətirəsiniz. Cənab Danielu və mən Sizinlə bir daha görüşməyə çox şad olarıq.

Hörmətlə Jak Kloarek».

1975-ci ildə UNESKO tərəfindən mənim ikinci valım buraxıldı. Bu valda mənim ifamda 57 dəqiqə səslənən 7 muğam yazılmışdır. Val çox nəfisdir. Onun üstündə Bakının mənzərəsi, Azərbaycan xalq musiqi alətləri, memarlıq abidələrimiz, milli ornamentlərimiz və mənim şəklim təsvir olunub. Valın o biri üzündə isə Azərbaycan musiqisi, zəngin muğamlarımız barədə, tar, mənim həyat və yaradıcılığım barədə məqalə verilmişdir. Bu val UNESKO xətti ilə dünyanın bir



1971-ci ildə «BAREN REİTER» şirkəti tərəfindən Almaniyada buraxılan val



1975-ci ildə «PHILIPS» şirkəti tərəfindən Hollandiyada buraxılan val



Bəhram Mansurov və Almaniyalı musiqişünas Yurqen Elsner (1975)

çox ölkələrinə yayılmışdır. Val Hollandiyanın məşhur «PHİLİPS» firması tərəfindən istehsal olunub. Valın üzərində bu sözlər yazılıb: «Azərbaycan, muğam, tar, Bəhram Mansurov».

Bizim keçmiş oxuyub-çalanlarımız muğamı necə qoruyub-saxlayıb, bizə çatdırıblarsa, biz də eləcə qoruyub saxlamalıyıq. Muğamlarımız da abidələr kimi yaşamalıdır. Çox sağ olsun bizim bəstəkarlar ki, muğamdan istifadə edirlər, simfoniyalar yazırlar, bütün dünyaya yayırlar. İndi bizim muğamlarımızı dünya tanıyır. Qərb ölkələrindən musiqimizlə tanış olmağa can atanlar çoxdur. Biri elə Berlindən gələn professor, doktor Yurgen Elsner. O, bizim muğamlarla çox maraqlanır. O, bir dəfə mənə dedi ki, mən 5 il İraqda olmuşam. İraq muğamlarını bilirəm. Mən ona dedim: «İraqda təmiz muğam yoxdur». Mənim bu sözlərimdən alim tutuldu. «Onlar «Bayatı-Şiraz»ı başlayıb çalır, bir vaxt görürsən ki, «Çahargah» oldu. Bu, düzgün deyil. Amma bizim muğam ayrı cürdür. Tarın birinci pərdəsindən başlayır ta axırıncı pərdəsinə qədər gedir. Bu cür dəstgah halında bir saat, saat yarım çalınır». Professor təəccüb qalmışdı. Dedim: «İndi sizə göstərəcəyəm», Mən çalanda bu kişi məəttəl qaldı, ayağa durub, mənim tarımı alıb o yan-bu yanına baxıb dedi: «Bəs bunun elektronu harasındadır, tarın harasına qoşulub?» Dedim: «Biz elektronla çalmırıq. Bu, Azərbaycan tarıdır». Dedi: «Axı, tar bu cür səs verə bilməz...» Tarı yenə əlinə alıb diqqətlə baxdı və dedi: «Sizin muğam Şərqdə hamısından güclüdür».

SSRİ Bəstəkarlar İttifaqının dəvəti ilə ölkəmizə gəlmiş və respublikamızın musiqi həyatı ilə yaxından tanış olmuş məşhur macar bəstəkarı və musiqişünası İştvan Rayç ilə biz də görüşdük. O da bir çox xarici musiqiçilər kimi bizim muğamlarla maraqlanırdı. Mən ona muğamlarımızın tarixindən, ifaçılarından danışıb, sonra isə onun üçün bir neçə muğam çaldım. Rayç vətəninə qayıtdıqdan sonra mən ondan belə bir məktub aldım: «Mən sizin evinizdəki görüşü heç vaxt unutmuram. Artıq Macarıstanda çoxları sizin sənətlə tanışdır. Sizin mənə bəxş etdiyiniz o qiymətli valları artıq çoxları dinləmişlər. Siz elə indi də mənim yadımdasınız, məktubu yazdıqca sizin çalğınızı dinləyirəm. Sağlıqla qalın. Hörmətlə, İştvan Rayç».



Macar bəstəkarı İştvan Rayç və Bəhram Mansurov (10 dekabr 1976)

1976-cı il mayın 25-də məni Azərbaycan Dövlət Universitetinin «Estetik və etik tərbiyə klubu»na dəvət etdilər. Bu kluba tarzən Həbib Bayramov, qaboyçalan Kamil Cəlilov, xanəndələrdən Əbülfət Əliyev və Canəli Əkbərovla getmişdik. Biz musiqinin gözəlliyini burada əyani surətdə



Maestro Niyazi ilə görüş zamanı (12 aprel 1979)

nümayiş etdirmiş, gəncləri onu dərk etməyə, ona qovuşmağa səsləmişik.

SSRİ xalq artisti, dirijor Niyazi ilə belə bir söhbətimiz oldu. Mən ona dedim ki, atanın yazdığı «Aşıq Qərib» operasının bəzi parçaları vallara yazılıb. Gəlsənə biz bütün operanı «Melodiya» firması Bakıya gələndə yazaq? O mənimlə razılaşdı. Ümumittifaq «Melodiya» firmasının Bakıya gəlmiş səsyazma briqadası 15 günlük zəhmətdən sonra «Aşıq Qərib» operasını lentə yazdı. Sonralar maestro Niyazi bu barədə belə demişdi:

- Opera və Balet Teatrının səhnəsində «Aşıq Qərib»in tamaşası son zamanlar çox bəsit və solğun idi. Bu əsəri müasir bəstəkarlıq texnikası ilə təqdim etmək çoxdankı arzumu həyata keçirməyi sürətləndirdi. Burda Bəhram Mansurov, Şövkət Ələkbərova, Əbülfət Əliyev, Zeynəb Xanlarova, Simuzər Hətəmova, Səməndər Rzayev, Əminə Yusifqızı, Baba Mirzəyev, Firudin Mehdiyev, Şahmar Quliyev, Canəli Əkbərov və Azərbaycan xor kapellasından ibarət yaradıcı heyət çıxış edirdi. İfaçılıq bacarığına görə onlar musiqinin və dramaturji obrazın öhdəsindən çox məharətlə gəldilər. İfaçılar əsərdə istifadə olunmuş muğamları təmiz oxuyub, dürüst çatdırır, xalq musiqi çeşməsinin saflığını göstəriblər. Görkəmli sənətkarımız Bəhram Mansurov operanın tar partiyasının öhdəsindən bacarıqla gəlib. Onun çalğısı əsərin dramatik üslubu ilə gözəl səslənir. Əsas müşayiətçi alətin - tarın partiyasını da xüsusi zövqlə işləmişəm. Bütün dəstgah nömrələrində tarın səsi «Şikəstə»lərdə simfonik orkestrin tərkibində mələhətlə eşidilsin deyə, onun üçün akkordlar, ayrı-ayrı polifoniya hasil edən səslər yazmışam. Müxtəlif alətlərdə bu səslər müşahidə olunmuşdur. Məlumdur ki, hər hansı bir muğamın guşə əsası harmoniya və tonal xüsusiyyətlə bağlıdır. Xalq musiqisi ifaçılığımızda züy tutmaq, dəmsazlıq bəsit xarakter daşıyırsa, burada bütöv bir orkestr istər oxuyan üçün, istərsə də müşayiətçi tarzən üçün dəm saxlayır. Tarzənin çalğı yoluna uyğun olaraq orkestr dirijorun işarəsi ilə lazımi məqamda harmoniyanı dəyişdirir.

Həmin il sənətşünaslıq namizədi Elmira Abbasovanın «Sovetskiy kompozitor» nəşriyyatı tərəfindən mənim haqqımda yenicə bir kitabı buraxıldı. «Tarzən Bəhram Mansurov». Bu kitabda mənim həyat və yaradıcılığımdan bəhs edilir.

Bizim evdə bir arxiv var, musiqi arxivi. Onu mənim həyat yoldaşım Münəvvər xanım öz zəhməti ilə düzəldib. Ev arxivinin bütün eksponatları musiqimiz ilə əlaqədardır. Musiqi arxivində

çoxlu tarixi sənədlər var. Böyük rus müğənnisi Şalyapinin, Cabbar Qaryağdı oğlunun, İslam Abdullayevin, Qurban Primovun, Məcid Behbudovun, Həqiqət Rzayevanın və digər böyük sənətkarların valları arxivimi bəzəyir. Arxivdə İranın görkəmli sənətkarları Ağa Tahirzadənin, Ağa Hüseynqulu xanın, Dərviş xanın, Bağır xanın nadir patefon valları da, dəyərli sənət əsərləri də saxlanılır.



Bəhram Mansurov və həyat yoldaşı Münəvvər xanım (1976)

Mən və həyat yoldaşım Münəvvər xanım bu arxivi özümüz üçün yox, gələcək nəsillər üçün yaratmışıq. İndi ömrümüzün kamil bir vaxtıdır. Birgə çıxış etdiyimiz dostlar, tanışlar artıq aramızdan seyrəlib. Ancaq onların sənət ömründən çoxlu yadigarlar qalıb.

Sverdlovskdan Bakıya dramaturq Vladimir Balaşov gəlmişdi. O Sergey Yesenin haqqında pyes yazırdı. Əsərdə Cabbar Qaryağdı oğlunun da obrazı var idi və müəyyən hadisələr görkəmli sənətkarlarımızın həyatı ilə bağlı idi. V.Balaşov bizə gəldi, mən Cabbar haqqında bildiklərimi ona danışdım, onun ifasında bir neçə qrammofon valını köçürüb verdim və məsləhət gördüm ki, tamaşa zamanı onun oxumağını səsləndirsin. Bir neçə müddətdən sonra ondan aldığım məktubda Vladimir yazırdı ki, hazırlanmış tamaşada Cabbarın ifasında ona verdiyim lentlərdən istifadə olunub.

1977-ci ildə UNESKO-dan mənə yeni bir dəvətnamə gəldi. Bu dəfə onlar məni «İslam xalqlarının musiqi festivalı»nda konsertlə çıxış etməyə dəvət edirdilər. Bu konsertlər dünyanın müxtəlif ölkələrində nəzərdə tutulurdu. Belə ki, konsertlər may ayında Fransada (Paris), iyunda Cənubi Amerikada (Karakas) və iyul ayında Çexoslovakiyada (Brno) olmalı idi.



Vladimir Balaşov, Bəhram Mansurov (1977)

Hər belə bir dəvətnamə məndə iftixar hissi oyadırdı. Çünki bu, Azərbaycan musiqisinin qələbəsi idi. Bu musiqi çoxlarını heyran etmişdi. Ona görə də dünyanın hər bir yerində onu dinləmək arzusunda idilər.

UNESKO-nun qərarı ilə oktyabrın 2-dən 7-dək Səmərqənddə ilk dəfə Şərq xalqlarının muğam simpoziumu keçirilirdi. Simpoziumda Qazaxıstanın, Orta Asiya respublikalarının, Azərbaycanın musiqi mədəniyyəti xadimləri ilə yanaşı, Əlcəzairdən, Tunisdən, Çexoslovakiyadan, Mərakeşdən, Hindistandan, Polşa-



Bəhram Mansurovun müxtəlif illərdə buraxılmış val və kompakt diskləri

dan... yüzlərlə ifaçı və musiqişünas Səmərqəndə toplaşmışdı. 1978-ci ilin oktyabrında təşkil olunan Beynəlxalq muğam simpoziumu Səmərqəndin «Şerdor» mədrəsəsində keçirilirdi. Gündüz bəstəkarların və musiqişünasların məruzələri dinlənilirdi. Axşamlar isə ifaçılar öz xalq musiqilərini nümayiş etdirirdilər. Bu böyük məclisdə respublikamızı musiqişünaslardan Elmira Abbasova, Ramiz Zöhrabov, Nərminə Əliyeva, Lüdmila Karaqiçeva, Sürəyya Ağayeva, Zemfira Qafarova, Sənubər Bağırova, bəstəkarlardan Nəriman Məmmədov və Nazim Əliverdibəyov, ifaçılardan xanəndə Canəli Əkbərov, kamançaçalan Tələt Bakıxanov təmsil edirdilər.



Canəli Əkbərov, Bəhram Mansurov, Tələt Bakıxanov (Səmərqənd, 1983)

Mən əvvəlcə «Mahur-hindi» muğamını solo ifa etdim. Sonra isə mənim və Tələt Bakıxanovun muşayiəti ilə xanəndə Canəli Əkbərov «Bayatı-Şiraz» dəstgahını oxudu.

Bu çıxışlarımız simpoziumun dinləyiciləri tərəfindən böyük hərarətlə qarşılandı. Hətta tamaşaçılar ayaq üstə durub gurultulu alqışlarla bizim təkrar çıxışımızı tələb edirdilər. Odur ki, biz proqramdan əlavə «Heyratı» zərb muğamını da çalıb-oxuduq.

Simpozium qurtarana qədər Səmərqənddə hamı Azərbaycan muğamının zirvədə durduğundan danışırdı. Bu barədə «Muzıkalnaya jizn» jurnalının 23-cü nömrəsində də yazılmışdır. Yeri gəlmişkən, mən bir çıxış barədə də sizə danışım.

Moskvalı tanınmış musiqişünas Viktor Sergeyeviç Vinoqradov simpoziumun yekun yığıncağında öz çıxışında dedi ki, Azərbaycan muğamları bəstəkarlar tərəfindən məharətlə işlənilir. Bu simpoziumda Fikrət Əmirovun orkestr üçün yazdığı «Gülüstan-Bayatı-Şiraz» simfonik muğamı, Nazim Əliverdibəyovun xor üçün işlədiyi «Bayatı-Şiraz» əsəri çox gözəl səsləndi. Odur ki, belə qiymətli muğamları qoruyub saxlamaq lazımdır. Məsələn, necə ki, bizim Şostakoviçimiz var, eləcə də Bəhram Mansurovumuz var. Deməli, simfoniya da yaşamalıdır, muğam da.

Sonralar bir çox musiqişünaslar mənimlə məktublaşmağa başladılar. Bu məktublardan birinin məzmunu belə idi:

«Mən Sizin çalğınızı hələ simpoziumdan əvvəl eşitmişəm. Siz Moskvada olarkən. Demək olar ki, elə o vaxtdan mən Sizin çalğınızın pərəstişkarıyam. Mən böyük məmnuniyyətlə Sizin çalğınızı solo və üçlükdə yenə də dinləyərdim.



Moskva filarmoniyasının baş dirijoru Dmitriy Klyatenko ilə (1980)

Dekabrın 19-da Kuybışevdə SSRİ xalqlarının musiqi festivalı keçiriləcək. Mən çox istərdim ki, Siz bu festivalda çıxış edəsiniz. Sizin əzəmətli ifanızı bir də eşidəydim. Mən həmin festivalın təşkilat komissiyasının üzvüyəm və Azərbaycan Bəstəkarlar İttifaqından xahiş edəcəyəm ki, Sizi üçlükdə çıxış edəcəyiniz dostlarınızda birlikdə Kuybışevə ezamiyyətə göndərsinlər. Ümidvaram ki, Sizinlə yenə də görüşəcəyik.

Hörmətlə: Moskva Dövlət Konservatoriyasının folklor kafedrasının müdiri, musiqişünas Vyaçeslav Şurov».

Digər moskvalı musiqişünas Vladimir Zak öz məktubunda belə yazır: «1978-ci ilin ən əlamətdir hədisisəni mən Sizin Səmərqənddə keçirilən simpoziumdakı çıxışlarınızı hesab edirəm. Bu, vətənimizin musiqi həyatında ən böyük hadisələrdən biridir. Sizin böyük ustalıqla rəhbərlik etdiyiniz bu ansambl və muğamlarınız həqiqətən təkraredilməzdir».



Vyaçeslav Mixayloviç Şurov

Səmərqənd şəhərində Beynəlxalq muğam simpoziumu keçiriləndə Ramiz Zöhrabov «Mənsuriyyə»dən danışdı. Elə burada - Çexov adına teatrda məruzədən sonra biz «Mənsuriyyə»ni çalıb-oxuduq. Tamaşaçılar «Mənsuriyyə»ni çox hərarətlə qarşıladılar, Axşam isə «Şerdor» mədrəsəsində çıxış etdik. Burada mən əvvəlcə «Mahur-hindi» muğamını çaldım. Tamaşaçılar bu muğamı çox gözəl qarşıladılar. Sonra Canəli Əkbərov «Bayatı-Şiraz» muğamını oxudu. Yarıda, xanəndənin zəngulə vuran yerlərində o qədər əl çaldılar ki,

hətta «Üzzal» qurtarandan sonra da tamaşaçılar ayaq üstə durub alqışlayırdılar. Biz bu muğamı da çalıb-oxuduqdan sonra onların xahişi ilə bu dəfə «Heyratı» zərb muğamını çalıb-oxuduq.

Həmin ilin dekabr ayında biz Kuybışev şəhərində keçirilən «Bəstəkar və folklor» SSRİ xalqlarının musiqi festivalına dəvət olunduq. Bu festivalda bəstəkar Nəriman Məmmədov, xanəndə Canəli Əkbərov, kamançaçalan Şəfiqə Eyvazova və mən də iştirak edirdik.



Tallinn filarmoniyasının baş dirijoru Leo Tarmoviç Normet (1977)

Biz burada Azərbaycan muğamlarını çalıb-oxuduq. Bu çıxışımız da böyük müvəffəqiyyətlə qarşılandı. Bu çıxışlarımızla biz bir daha Azərbaycan muğamlarının yüksək zirvədə durduğunu festivalda sübut etdik.

Bizim bu çıxışlarımız televiziya ilə nümayiş etdirildi. Sonra isə «Melodiya» firması mənim ifamda «Vilayəti-dilkəş», Şəfiqə Eyvazovanın ifasında «Çahargah», Canəli Əkbərovun ifasında isə «Rast» muğamlarını qrammafon vallarına köçürməkdən ötrü yazıb apardılar.

1974-cü ildə gördüm ki, filarmoniyanın qabağında afişa var: Xanəli Əkbərov, Canəli və qardaşı ailəvi konsert verəcəkdilər. Mən də o konsertə qulaq asmağa getdim. Mən Canəlinin atası Xanəli Əkbərovu 1934-cü ildən tanıyıram. Lənkəranа toy məclisinə dəvət olunmuşdum. Mənə dedilər ki, xanəndələr və kamançaçalan ordan olacaq. Mən də söz verdim, getdim. Həmin toyda üç-dörd oxuyan vardı. O oxuyanlardan biri də Xanəli Əkbərov idi. Cavan oğlan idi. Onunla tanış oldum. Xanəli çox gözəl «Mirzə Hüseyn segahı» oxudu. Onun dolu və qəşəng səsi vardı. Elə oxuyurdu ki, bu səs o boyda toyxananı doldurmuşdu. O oxuduqca, fikirləşirdim ki, bunun gələcəyi lap böyük xanəndə ola bilər...



Canəli Əkbərov, Bəhram Mansurov, Şəfiqə Eyvazova (1978)

Sonralar - 1945-ci ildə qardaşım Nadir Lənkərana getdi. Nadirlə Xanəli orada yoldaş olub, toy məclislərində, konsertlərdə birgə çox çıxış ediblər.

Nə isə... Konsertdə Canəli bir «Mahur-hindi» oxudu, çox xoşuma gəldi. Bizim operada da «Leyli və Məcnun» elə «Mahur-hindi» ilə başlanır. Ürəyimdə dedim ki, bu nə yaxşı



Bəhram Mansurov (1978)

oldu. Məcnunun birini də tapdım. «Mahur-hindi»dən sonra bir «Heyratı-Kabili» və təsnif oxudu. Mən fikrimi cəlb edib gəldim evə, qət elədim ki, səhər gedim teatrın müdiriyyəti ilə danışım, bu cavanı götürək teatra. Getdim, danışdım. 1976-cı ildə onu opera teatrına götürüb gəldim.

Bundan sonra Canəli opera teatrında çalışmağa başladı. Onun ilk böyük rolu Şah İsmayıl oldu. Ondan sonra Canəli «Leyli və Məcnun» operasında İbn Səlam və sonra Məcnun obrazını yaradıb.

1978-ci ildə bəstəkar Nəriman Məmmədov mənim çalğımla Hacıbaba Hüseynovun ifasında «Rast» muğamını nota köçürmüş və bu yazı Moskvada çap olunmuşdu.

Bu illərdə mənə UNESKO-dan məktublar gəlirdi ki, onlar da məni bəzi festivallara, görüşlərə dəvət edirdilər.

Parisdə «Mariya Stüart» teatrının direktoru cənab Jan-Xristian Qrinvald məni Paris teatrında solo konsertlərlə çıxış etməyə dəvət etmişdi. UNESKO-nun xətti ilə keçiriləcək bu konsert ölkələrimiz arasındakı dostluğun yeni təzahürü idi.

UNESKO-dan gəlmiş məktubların əsasında C.Cabbarlı adına «Azərbaycanfilm» kinostudiyası «İncəsənət, №4» kino-jurnalında «Tarın dünya səfəri» süjetində mənim xaricə dəvətlərimi əks etdirmişdi.

Mən gənc ifaçıların sənətinə, ilk addımlarına həmişə qayğı ilə yanaşmışam. Gənclər arasında ən çox bəyəndiyim ifaçılar Ramiz Quliyev, Şəfiqə Eyvazova və Kamil Cəlilovdur.

İndi doğma respublikamızın hər yerində gözəl istedada və yaxşı ifaçılıq qabiliyyətinə malik yüzlərlə gənc ifaçı fəaliyyət göstərir. Onlar həm zəngin muğamlarımızı, həm də müasir əsərlərimizi məharətlə ifa edirlər. Mən o musiqiçilərlə fəxr edirəm, sevinirəm ki, xalq sənəti yaşayır, onun qabil ifaçıları yetişir. Belə ifaçılardan biri də Ramiz Quliyevdir. O, sözün əsl mənasında mahir tarzəndir. Mən Ramizə filarmoniyada, radioda, mavi ekranda



Bəstəkar Nəriman Məmmədov,
Bəhram Mansurov və Hacıbaba Hüseynov
"RAST" muğamını nota salarkən (1978)

dəfələrlə qulaq asmışam, hər dəfə də onun çalğısından razı qalmışam. Ramiz Quliyevin öz sənət yolu, müasir tələblərə cavab verən çalğı texnikası var. Onun ifasında obrazlı ifadə, məlahətli ahəng, yumşaq temp və incə çalğı texnikası çox xoşa gəlir. Ramiz səhnədə özünü sakit aparır və dinləyiciləri dərhal ifa etdiyi musiqi nömrəsinə cəlb edə bilir. Ramiz muğamlarımızı da ustalıqla çalır. Tarın geniş imkanlarından istifadə edərək, alətin dolğun və samballı səslənməsinə nail olur. Məhz bunun nəticəsidir ki, muğamlar onun ifasında yüksək estetik qüvvə ilə səslənir və Ramiz, onun dərin mənasını dinləyicilərə ustalıqla çatdırır. Ramiz Quliyevin ən gözəl xüsusiyyətlərindən biri də sevdiyi sənəti hörmət bəslədiyi mahir ifaçılardan öyrənməsidir. O, öyrənməkdən yorulmur.



Nəriman Əliyev, Bəhram Mansurov, Tələt Bakıxanov (1974)

Söhbət kamançadan gedəndə həmişə Şəfiqə Eyvazova mənim gözümün önündə durur, ona görə ki, o, əsl kamança çalandır. Onun ifasını eşidəndə keçmiş kamançaçalanlar mənim gözümün qabağına gəlir. Nəyə görə? Ona görə ki, o, xalq musiqisini çox yaxşı mənimsəyib.

...Yay aylarının birində Buzovnada, bağda xanəndə Nəriman Əliyev məni Kamil Cəlilovla tanış etdi. O vaxtlar artıq Kamilin ifasında «Bayatı-kürd» muğamını eşitmişdim. Bu tanışlıq bizi bir-birimizə möhkəm bağladı. Kamil tez-tez yanıma gələr, ifa edəcəyi muğamlar barədə məsləhətlər alardı. Bax, elə Kamilin bir sənətkar kimi üstünlüyü ondadır ki, o daim axtarır, öyrənir, axı, muğamat elə bir dəryadır ki, onu ömür boyu öyrənmək lazımdır. Özü də Kamil muğamları milli musiqi alətimizdə deyil, klassik tərkibli orkestrin fəal üzvü olan qaboyda çalır. Deməli, Kamil ən yaxşı xanəndə və sazəndələrimizin - Seyid Şuşinskinin, Mansur Mansurovun, Əhməd Bakıxanovun ənənələri əsasında yeni və orijinal bir ifaçılıq yolu, ifaçılıq üslubu yaradıb. Mən qaboyun simfonik orkestrdə tutduğu mövqeyin nə qədər böyük olduğunu yaxşı bilirəm. Onun incə, məlahətli səsi bəstəkarlarımızı cəlb edir. Bu alətdə yüksək professional zirvədə böyük zövq ilə muğam çalmaq, qaboyu Azərbaycan dilində danışmağa məcbur etmək, şübhəsiz, Kamilin fərdi sənətkarlığı nəticəsində başa gəlmişdir. Yaxşı



Kamil Cəlilov və Bəhram Mansurov (1974)



Bəhram Mansurov sənət dostları ilə (5 aprel 1967)

deyiblər: «Ustad yanında tərbiyə alan ustad olar». Kamilin qiyamət müəllimi var: Azər Abdullayev. O, çox gözəl sənətkar, alicənab insandır. Azər müəllim milli ifaçılıq sənətimizi beynəlxalq miqyasda təmsil edən ilk qaboyçalandır.

Müxtəlif illərdə radionun fondu üçün bir çox müğənniləri müşayiət etmişəm. Bunlardan Mütəllim Mütəllimovu, Fatma Mehrəliyevanı, Yavər Kələntərlini, Zülfü Adıgözəlovu, Sara Qədimovanı, Əbülfət Əliyevi, Xanlar Haqverdiyevi, Ələvsət Sadıqovu, Gülxar Həsənovanı, Şövkət Ələkbərovanı, Məmmədəli Əliyevi, Nəriman Əliyevi, Əlibaba Məmmədovu, Əli Mehdiyevi, Tələt Qasımovu, Nəzakət Məmmədovanı, Baba Mirzəyevi , Canəli Əkbərovu və bir çox başqalarını göstərə bilərəm.

Əlibaba Məmmədovun yaradıcılığı ilə mən lap çoxdan, yəni onun filarmoniya səhnəsinə gəldiyi vaxtdan - 1949-cu ildən tanışam. O vaxt biz dəfələrlə birgə çıxışlar etmişik. Yaxşı yadımdadır, bir dəfə Əlibaba «Şur» oxudu. Müğənni dəstgahı elə bacarıqla, ustalıqla oxudu ki, bütün məclis heyran qaldı. Sonralar da Əlibaba ilə birgə çıxışlarımız olub, onun hər bir çıxışı dinləyicilər tərəfindən hərarətlə və rəğbətlə qarşılanıb. Çünki o, dinləyiciləri həmişə nəzərə alır. Hansı muğamı, hansı mahnını harada, kimin üçün oxuduğunu yaxşı bilir. Elə ona görə də Əlibaba dinləyiciləri tezliklə ələ alır, onların hisslərinə hakim kəsilir. Cabbar əmi deyirdi: «İfaçının ən yaxşı xüsusiyyətindən biri də söz seçmək bacarığının olmasıdır». Bu xüsusiyyət Əlibabada vardır. Onun yaradıcılığında diqqəti cəlb edən keyfiyyətlərdən biri də yüksək səhnə mədəniyyətinin olmasıdır. Məhz bu keyfiyyətlərinə görə də xalq Əlibabanı sevir və xətrini həmişə əziz tutur...



Əlibaba Məmmədov, Bəhram Mansurov (1979)

...Sizə bir əhvalat danışım. Bir gün Xan Şuşinski ilə məni Zirə kəndinə el şənliyinə çağırmışdılar. Yaxından tanıdığım bir neçə yaşlı kişi məndən xahiş elədi ki, muğamı axıra qədər çalım. Məclisdə Xan ha istədi ki, «ayaq» verim, qurtarsın, olmadı, kişilərə söz vermişdim. Axırda dəstgah qurtarandan sonra Xan kimi gözəl, büllur səsi olan xanəndə nə desə yaxşıdır? - «Bəhram, düzdür, dədəmi yandırdın, amma mənim özümə də ləzzət verdi. Çoxdan idi ki, dəstgah oxumurdum».



Xan Şuşinski, Bəhram Mansurov (1959)

Əlbəttə, müasir xanəndələrimiz savadlıdır. Bəziləri konservatoriya qurtarıb, ifa texnikaları da pis deyil. Amma səs diapozonu və muğamı dərindən bilmək cəhətdən nöqsanları çoxdur. İndiki xanəndələrin bəziləri muğamı bütöv oxumağa səsi olmadığından, tarın bir-iki pərdəsində qoşma oxumaqla birtəhər başlarını girləyirlər. Amma həm muğamın özünə, onun ruhuna uyğun, necə deyirlər, «sümüyünə düşən» qəzəli var. Muğam əruz vəzninin qayda-qanunları ilə uyarlı olduğundan klassik poeziyanı bilmək lazımdır. Çalğıçılarımız da təxminən eyni vəziyyətdədir. İfaçılıqla çalğı musiqisi həmişə qoşa addımlayıb, bir-biri ilə bağlı olub. Gərək yaxşı dəstgah oxuyanlarımız olsun ki, çalanlar da onları müşayiət edib kamilləşsinlər. Səsi olmayan xanəndələr muğamı yarımçıq qoyub tez mahnıya keçir, bəzən də təsnif mahnı ilə qarışdırılır. Belə vəziyyətdə çalğıçılardan da çox şey gözləmək olmaz.

Bizim muğamların canı oxumaqdır. Dəstgah başlayanda tarzən gərək bir an belə xanəndəni unutmasın. Xanəndə oxuyarkən çox da gəzişmək olmaz, yoxsa oxumağın arası soyuyar. Xanəndəni müşayiət edərkən tarzən ölçü hissini gözləməlidir. Amma indiki müasir çalğıda bu yoxdur. Məsələn, xanəndə oxuyur, çalan o qədər çalır ki, xanəndənin nə oxuduğu yadından çıxır. Bizim oxuyub-çalmaqda o qədər gəzişmək yoxdur. Oxuyanın dalınca gedib, onu müşayiət etmək lazımdır. Artıq pərdəyə, zilə gedib çala bilməzsən. Çünki, bəlkə xanəndə oranı oxumayacaq. Mən klassiklərimizdən belə öyrənmişəm, belə görmüşəm, belə də ifa edirəm.



Bəhram Mansurov (1984)

Əsrin ritmi, intonasiyası qərb alətlərinə marağı artırıb. Bu tamamilə təbii bir işdir. Qərb alətlərindən istifadə etmək zamanın səsinə səs verməkdir, amma harada, gərək bunu bilək. Məsələn deyək ki, Gülarə Əliye-



İraq bəstəkarı Xəlil İbrahim, Bəhram Mansurov (1981)

vanın rəhbərlik etdiyi «Dan ulduzu» instrumental ansamblının professional səviyyəsi, alətlərin bir-birini tamamlaması, dinləyicilərin zövqünü oxşaması aydın başa düşülür. Məhz buna görə də bu kollektivin adı instrumental ansambldır - xalq çalğı alətləri ansamblı yox!

İndi zövqlər dəyişib, artıq bu gün ifaçılardan başqa keyfiyyətlər tələb olunur. Keçmişdə xanəndə dəstgahı tamamkamal oxuyub qurtarmayınca ondan əl çəkməzdilər. İndi elə ki, xanəndə mahnının arasında bir parça muğam oxudu, alqış səslərindən yer-göy titrəyir. Bu getdikcə vərdiş şəklini alır, milli muğam sənəti əskilir, kiçilir, parçalanır. Asəf Zeynallı adına Musiqi Məktəbinin tar sinfini qurtaranların əksəriyyəti tarı yerə qoyub gitara çalırlar. Bəlkə xalqımız gitaranı daha çox xoşlayır? Şəxsən mən buna inanmıram!

İfaçı üçün ən başlıca keyfiyyət sənətə vurğunluq, ürəklə çalmaqdır. Əgər musiqi sənin canına, qanına hopmayıbsa, ürəyindən gəlməyirsə, tarı ələ almağa dəyməz, Yaxşı deyiblər: «Yanmasan, yandıra bilməzsən».

Mənim gördüyüm tarzənlərdən ən çox xoşuma gələni bütöv, güclü mizrab vurmağı, dolğun çalmağı, hətta tarı sinəsində tutmağı ilə də ən yaxşısı Qurban Primovdur. Onun oturuşunda-duruşunda, çalğısında nə isə möcüzəli bir şey vardı.

Bir gün filarmoniyada gənc aşıqların konserti idi. Durub getdim ora. Mən aşıq Mirzəni, aşıq Əsədi, aşıq Məmmədi görmüşəm. Burda 1928-ci ildə aşıqlar qurultayı olub, indiki Akademiyanın binasında. Azı 300-400 aşıq gəlmişdi Azərbaycanın bütün rayonlarından. Birinci yerləri aşıqlardan Əsəd, Mirzə, Məmməd tutmuşdu. Orda çalıb-çağıran aşıqlardan aşıq İbrahim vardı (yüz yaşında öldü), ona Qaraçı oğlu İbrahim də deyirdilər. Əla aşıq idi, əla da saz çalırdı. Sonra aşıq İslam Yusifov vardı. Özü çox qoca idi o vaxt, oxumağı yox. Aşıq Qara vardı... Nə isə, çox aşıqlar görmüşəm. Onların çalıb-oxumağı bambaşqa idi. Çünki qədim yolda, muğam yolunda çalırdılar. O çalğıları indiki aşıqların heç birində görmürəm.



Bəhram Mansurov (1976)

İndi zurnaçı çalır, balabançı çalır, aşıqlar da nağara ilə oynayırlar. Aşıqlar heç belə oynamayıblar qabaq. Onların oynamağı da ayrı idi, geyimləri də. Hüseyn Saraclı, Şakir, Kamandar, Əmrahdır o aşıqların yadigarları.

Mən 1941-ci ildən qısa fasilələrlə Asəf Zeynallı adına orta musiqi məktəbində muğamdan dərs deyirəm. Bütün bu illər boyu mənim çoxlu tələbələrim olub. Onlardan Faiq Çələbiyev, Valeh Rəhimov və Vamiq Məmmədəliyevdən çox şey gözləyirəm. Çünki onlar bu neçə ildə, hətta məktəbi bitirdikdən sonra da mənim yanıma tez-tez gəlib-getmiş, muğamların sirrinə demək olar ki, tam yiyələnmişlər. Onu da qeyd etmək istəyirəm ki, bu tarzənlərdən hər birinin özünəməxsus şirin barmaqları, gözəl çalğısı vardır.

Kiçik oğlum Elxan da deyəsən mənim kimi tarzən olacaq. O, konservatoriyanın xalq çalğı alətləri şöbəsinin tar sinfini bitirib. Özü də on beş ilə yaxındır ki, opera teatrında mənimlə çiyin-çiyinə çalışır. Oğlum olduğuna görə demirəm, ifaçılığı, muğamları, musiqini duymağı yaxşıdır. O da digər tələbələrim kimi muğamı məndən öyrənib.



Elxan Bəhram oğlu Mansurov



Bəhram və Eldar Mansurovlar Teymurləngin məqbərəsində (Səmərqənd, 1983)

...Azərbaycan xalqının ürəyəyatan, gözəl xalq musiqisi vardır ki, bu da əsasən muğamlarımızdan ibarətdir. Keçmiş ifaçılarımız muğamlarımızın təmizliyini çox gözəl qoruyublar, onları dəstgah şəklində səlis və düzgün ifa ediblər. Belə oxuyub-çalmaqlar onlardan bizə yadigar qalıb, biz keçmiş nəslin izini, ətrini onlardan alırıq. Hər halda indiki gənc ifaçılarımız da özlərinə borc bilib, bu ənənəni qorumalıdırlar ki, gələcək nəsillərə də xalqımızın folklorunu olduğu kimi təmiz yetirsinlər.

Mən sizə bir-iki misal çəkəcəyəm. Almaniya Demokratik Respublikasında, Berlinin Humboldt adına universitetinin professoru, doktor Yurgen Elsner muğamlar mövzusunda olan elmi işi ilə əlaqədar 5 il Bağdadda bu mövzu ilə məşğul olmasına baxmayaraq, bizim evdə olarkən ona sübut etdim ki, Azərbaycan muğamları dünyanın başqa xalqlarının muğamlarından üstündür. Bunu 1978-ci ildə UNESCO xətti ilə Səmərqənddə keçirilən Şərq xalqlarının muğam və musiqişünaslıq simpoziumunda Elsner özü də təsdiq etdi.

Simpoziumda «Bayatı-Şiraz» dəstgahını oxuyub-çalmaqdan ötrü bizə 20 dəqiqə vaxt verdilər. Mən xahiş etdim ki, vaxtı bir az



Səmərqənd simpoziumunda iştirak edən Azərbaycan musiqiçiləri (1983)

artırın, çünki bu vaxt bizim çıxışımız üçün çox azdır. Dedilər: «Yox, bundan artıq vaxt verə bilmərik, çıxışlar çoxdur».

Əvvəlcə mənim çıxışımı elan etdilər. Mən solo «Mahur-hindi» muğamını ifa etdim. Sonra isə «Bayatı-Şiraz»ı başladıq. «Bayatı-Şiraz»ın «Üzzal» yerlərində Canəli Əkbərov zəngulələrlə elə oxudu ki, muğam qurtarandan sonra dünyanın 24 ölkəsindən «Şerdor» mədrəsəsinə toplaşan musiqi alimlərinin hamısı ayaq üstə durmuşdular, əl çalıb təkrar çıxışımızı tələb edirdilər. Bundan sonra məndən nə qədər xahiş elədilər ki, yenə də bir şey çalın, dedim, yox, mən axı sizə dedim, bizə çox vaxt verin, vermədiniz. Axır ki, olmadı, əl çəkmədilər. Biz yenə səhnəyə çıxdıq, bir zərb muğam - «Heyratı-Kabili» çalıb-oxuduq. Biz səhnədən düşüb gələndə İraq muğamları üstündə elmi iş aparan həmən bu doktor Yurgen Elsner gəlib məni qucaqlayıb dedi ki, maestro, Sizin bugünkü çıxışınız muğamlarınız haqqında söylədiklərinizi bir daha sübut etdi.

Simpoziumda məlum oldu ki, bizim Azərbaycan muğamları zirvədə durub. Nəyə görə? Təmizliyinə görə! Hamımızın, eləcə də gənclərimizin borcudur ki, muğamlarımızı təmiz saxlasınlar. Çünki onu gələcək nəslə indiki gənc ifaçılarımız təhvil verəcəklər. Mən yaşa dolmuşam, bildiklərimin də hamısını təhvil vermişəm. Çalışmalıyıq ki, bu ənənəni təmizliyi ilə nəsilbənəsil ötürək.



Bəhram Mansurov (1980)

Evdə oturmuşdum, radioda konsert gedirdi. Diktor elan etdi ki, «Segah» oxuyur...

Qulaq asdım, düzü, xoşuma gəlmədi. Ürəyimdə dedim: məgər «Segah»ı belə oxuyarlar? Gərək o gənc, Ələsgəri görəydi...

Mərdəkanda toyda idim. Bura üç musiqi dəstəsi dəvət olunmuşdu. Zurnaçı dağlı Mehdinin dəstəsi, şəkili Ələsgərlə tarzən salyanlı Şirin, bir də Əhədlə mən. Toyun şirin yerində Ələsgərə «Segah» sifariş verdilər. O, elə bir «Segah»



(soldan) Kərim Kərimov, Xan Şuşinski, Fikrət Əmirov, Qurban Primov, Bəhram Mansurov, Mirzə Mənsur Mansurov, Yavər Kələntərli, Seyid Şuşinski, Həqiqət Rzayeva, Münəvvər Mansurova (19 iyun 1963)

başladı ki, hamı mat qaldı. Birdən gördüm Əhəd Əliyev ağlayır. Dedi: «Apar məni Ələsgərin qabağına». Xahişinə əməl etdim. O, qızıl zəncirli iri cib saatını çıxarıb uzatdı Ələsgərə. Ələsgər götürmək istəmədi. Ancaq Əhəd təkidlə saatı ona verdi. Sonradan mən Əhədə dedim ki, sən hər «Segah»da bir qızıl saat bağışlasan, axırı necə olar? O dedi: «Bu «Segah» başqalarına bənzəməz. Nəinki qızıl saatımı, bütün dövlətimi də verərdim Ələsgərin «Segah»ına».

19-cu əsrin ikinci yarısında bütün sazəndələr, xanəndələr Tiflis şəhərinə yığılardılar. Odur ki, indi çalıb-oxunan bu «Laçın» havası ki, var, gürcülər ona «Avara» deyirlər. Bu da ondan irəli gəlib ki, orada duxanlar, yəni zirzəmilər vardı, onlar orada yeyib-içər və bu havaya qulaq asarmışlar. Bu havanı çox xoşladıqlarından onu gürcü dilinə tərcümə eləyiblər. Ələsgər Abdullayev də həmən o «Avara»nı elə orada gürcü dilində oxuyub, yazdırıb plastinkaya; həmin plastinka mənim arxivimdə vardır. Bizimlə gürcülərin oxumaqlarının fərqi ondadır ki, bizdə oxumaq yerləri qurtaran kimi çalmaq yerləri var, onu da ki, indi çalmırlar, oxumağın axırını təkrar edirlər. Amma orada, gürcülərdə ayrı cürədir. Əslində «Laçın» havası bizimkidir. Özü də bu havanın tarçalanı Şirin Axundov idi. Tiflisdə azərbaycanlılar çox olduğuna görə bizim mahnılar orada çox sevilirdi. Odur



Rəssam Oqtay Şıxəliyevin çəkdiyi Bəhram Mansurovun portreti

ki, çox da oxunurdu. Bu mahnıların bəzilərini gürcü dilinə tərcümə eləyib oxuyurdular. Bəzi mahnılarımız isə yarısı gürcü, yarısı Azərbaycan dilində vallara yazılırdı. Məsələn, Ələsgər Abdullayevin oxuduğu «Kedexanazi» mahnısı... Orada əvvəli oxunub Azərbaycan dilində, yarıdan sonra isə oxunub gürcü dilində. İndi həmin havanı bizim «Aşıq Qərib» operasının ikinci pərdəsində xor oxuyur, çox gözəl də səslənir.

Bizim musiqi ədəbiyyatımızda «zərb» muğamlar adı ilə qeyd olunan musiqinin «Şikəstə»lərlə qarışdırılması məsələsi var. «Şikəstə»lərin «zərb» muğamlar sırasına qatılması məsələsi musiqisevərləri çox maraqlandırır. Onu deyim ki, «zərb» muğamlar hərbi yürüş marşlarından yaranıb. Yüksək səsə malik olan xanəndələrimiz bu yürüş marşı çalındıqca, onun sədaları altında oxuyublar və beləliklə də «zərb» muğamlar əmələ gəlib «Zərb» muğamların «dəstgah» muğamlarından fərqi ondadır ki, bu muğamlar ritm ilə çalınır. Həm də «zərb» muğam dəstgah muğama ona görə bənzəmir ki, dəstgahlar bir saat, saat yarım çalınıb-oxunur, zərblər isə uzağı on-on beş dəqiqə.

«Zərb» muğamın musiqisi əsasən dinləyicidə mərdlik hissləri aşılayır. Götürək elə «Heyratı-Kabili» muğamını. Bu adların hər ikisi Əfqanıstanın böyük şəhərləri olan Herat və Kabil şəhərlərinin adı ilə bağlıdır. Mənə elə gəlir ki, bu, Əfqanıstanın qədim hərbi yürüş marşıdır ki, orada yaranıb və onlar bunu yalnız hərbi yürüş kimi çalardılar. Ola bilər ki, yürüş eləyəndə bunun oxumağı da olub. Adətən həmişə yürüşə gedəndə marşlarda oxumaq da olubdur.

Azərbaycanda 19-cu əsrin ikinci yarısında yaşayan bizim xanəndə və sazəndələrin təşəbbüsü nəticəsində bu marşı muğamla əlaqələndirib «zərb» muğam halına salıblar. Azərbaycanda bu muğamın iki adı var: «Heyratı-Kabili» və «Ərak-Kabili».

«Zərb» muğam igidlik timsalıdır, o elə ifa olunmalıdır ki, gərək insanı mərdliyə ruhlandırsın. Üzeyir Hacıbəyov «Leyli və Məcnun» operasında «Heyrat-Kabili»dən Nofəlin ariyasında istifadə etmişdir.



Bəhram Mansurov İçəri şəhərdə, babası Məşədi Məlik bəyin mülkünün qarşısında (1981)



Bəhram Mansurova müxtəlif illərdə həsr olunmuş kitablar və notlar



Bəhram Mansurov böyük oğlu Eldarla "Dəraməd və rənglər"i nota salarkən (1979)

Azərbaycanda bu muğam çox inkişaf edib. Ona görə ki, bizim xanəndələr çox güclü səsə malik olduqlarından bu «zərb» muğamlarını böyük ustalıqla oxumuşlar. Belə ki, Şərq ölkələrinin heç birində bu muğamı bizimkilər kimi oxuyan olmayıb. Məsələn, Cabbar Qaryağdı oğlunun ifasında «zərb» muğamlarımız çox gözəl səslənirdi. 1914-cü ildə «Heyratı-Kabili» zərb muğamı onun ifasında Varşavada qrammafon valına yazılıb. Cabbardan qabaq oxuyub Hüsü, sonra Əbdülbağı Bülbülcan, Məşədi İsi... «Heyrat-Kabili» muğamını Cabbar Qaryağdı oğlu çox təkmilləşdirib. Cabbardan sonra həmən bu «Heyrat-Kabili»nin gözəl ifaçısı Seyid Şuşinski olub.

Bizim Qarabağ xanəndələrinin o qədər güclü, zil səsləri olub ki, onlar həmin bu yürüş marşını oxumaqla muğam çərçivəsinə salıblar. Həm bu muğamı, həm də muğam oxumağını iki yerə bölüblər. Birinci hissə oxumaqla qurtaranda, ikinci hissə çalğı ilə başlanır. Ona görə ki, oxuyan tonallığı yaxşı tutsun, xaric oxumasın. İkinci hissəni də oxuyub qurtaranda «ayaq» verirsən. Sonra isə bu muğamın iki bənddən ibarət təsnifi oxunur və bununla qurtarır. Bəzi xanəndələr bu oxumağa uyğun «Kürdü-şahnaz» oxuyur və bununla da muğamı tamamlayırdı. İndi müasir dövrdə bu muğama «Mani» deyirlər.



Əbülfət Əliyev, Bəhram Mansurov, Hacı Məmmədov (20 avqust 1948)

«Kürdü-şahnaz» oxumaqdan ötrü gərək hökmən «Osmanlı» oxunaydı. «Osmanlı» oxunmasa, «Kürdü-şahnaz»ın pərdəsini rahat tutmaq olmurdu. Amma istəsəydin «Segah» oxumağa, onda gərək «Arazbarı»nı çalıb-oxuyaydın, Onda «Segah»ı tutmaq daha rahat olurdu. İkisi bir yerdə gedəndə, demək, bu «Şahnaz» üçündür. «Kürdü-şahnaz»ın üstünə «get-



Həqiqət Rzayeva və Bəhram Mansurov (1963)

məkdən» ötrüdür, ona görə ki, «Osmanlı», məqamca «Şahnaz»a yaxındır.

«Arazbarı» zərb muğamı deyil. Düzdür, biz onu qəbul eləmişik, adını zərb muğamlarla yanaşı çəkirik. Amma bu düzgün deyil. Çünki «Arazbarı»da muğam oxunmur, çalınır, sözlər təsnif kimi, mahnı kimi oxunur. Belə ki, «Osmanlı»dan başqa, digər zərb muğamların mətni qəzəllərlə oxunur. «Arazbarı» muğamının mətnində isə 9 və 13 hecalı misralar növbələnir. «Arazbarı» bütünlüklə təsnifə bənzər vokal-instrumental əsərdir. Doğrudan da ilk baxışda adama elə gəlir ki, «Arazbarı»nın yalnız adı muğamdır. Amma oxumağı ilə ritmik cəhətdən təzad təşkil etməsə də, onun müstəqil melodik xətti var. Burada da xanəndə oxuyur, nəfəs arası instrumental müşayiət öz inkişafını davam etdirir.

Onu da deyim ki, «Arazbarı» çox vaxt «Osmanlı» ilə birlikdə ifa olunur. Məqamca bu iki zərbin uyuşa bilməsi nəticəsində lirik «Arazbarı» qəhrəmanı «Osmanlı» ilə birləşir. «Arazbarı» zərbi aşıq musiqisinə çox yaxındar. Aşıqlar ona «Pişro» deyirlər. Məsələn, məclis başlananda aşıqlar onu çalırlar, o, çox böyük təmtəraqla səslənir. Cəbrayıl rayonunda Arazbar kəndi vardır, bu, oranın oxumağıdır, adı da o yerin adından götürülmüşdür.

Sizə bir hadisə danışım. Seyidlə məni bir dəfə şəhərdə toy məclisinə dəvət etmişdilər. Dedilər: «Ağa, çoxdandır səni eşitmirik, bizi bir qonaq elə «Arazbarı», «Osmanlı», «Rahab» dəstgahına». Ağanın «Arazbarı» oxumağı məlumdur. Onun «Osmanlı»sı da ürəyi deşir zil pərdələrdə oxumağı ilə. Sonra da «Rahab»... Ağa başladı, nə başladı, bir saat yarıma yaxın bunları oxudu. Qurtarandan sonra əl çaldılar, çox razılıqlar elədilər. Dedilər: «Ağa, daha qavalı yığışdır, bunun üstündən bizə



Hacıbaba Hüseynov, Bəhram Mansurov, Tələt Bakıxanov (1977)

heç nə lazım deyil, çox sağ ol, bizə bu kifayətdir. Amma xahiş edirik Bakıya tez-tez gələsən, çoxdan idi ki, gəlmirdin. Görünür getsən, yenə bir ildən sonra gələrsən, eybi yoxdur, bu oxumağın bir il bizə bəsdir».



Opera teatrında Rac Kapurla görüş zamanı (1956)

Bizim zərb muğamları tutduqları mövqeyə görə 2 yerə ayırmaq olar: müstəqil zərb muğmlar, dəstgah daxilində işlənən zərblər.

Maraqlıdır ki, dəstgah daxilində ifa edilən «Səba-şəms», «Mənsuriyyə» zərb muğamları sadəcə olaraq zərbsiz də çalıb-oxuna bilər. Nəyə görə? «Çahargah» dəstgahında «Hissar» şöbəsi «mayə»nin yeni inkişaf mərhələsinin bir növ təkrarıdır. Əgər «Mənsuriyyə» zərb muğam şəklində ifa edilməsə, bu şöbədə «mayə»nin üçüncü dəfə təkrarı olar. Keyfiyyətcə yeni musiqini inkişafın özü tələb edir. Çünki «Mənsuriyyə» cəng meydanı, qələbə deməkdir. Bizim aşıqlar bu muğamı «Mansırı» adı ilə oxuyurlar. Aşıq Hüseyn Saraclı həmən bu «Mansırı»nı çalıb-oxuyub və vala yazdırıbdır.

Sizə bu «Mənsuriyyə» ilə əlaqədar xatirələrimdən birini danışmaq istəyirəm. Abşeron kəndlərində toy şənlikləri əsasən yay fəslində olardı. Kəndlərdə adət idi ki, belə şənliklər zamanı axşamçağı saat 5-6 radələrində camaat kəndin qırağında, xırmanın ətrafında gəlib əyləşərdilər. Başqa günlərdə oraya gələndə belə yığıncağa «Axşam ixtilatı» deyirdilər. Kəndin bütün ağsaqqalları, cavanları buraya yığışardı. Çünki, bu toy şənliklərində kəndin həvəskar pəhləvanları bəzən qurşaq tutub güləşərdilər. Bir tərəfdə üç stul bizim üçün, o biri tərəfdə isə üç stul zurnaçılar üçün qoyulardı. Orada əyləşən kimi bizə



Alim Qasımov, Bəhram Mansurov və Elman Bədəlov (8 avqust 1982)



Yavər Kələntərli, Bəhram Mansurov, Tələt Bakıxanov (1976)

«Mənsuriyyə»ni sifariş verərdilər. Orada qanun belə idi ki, biz «Mənsuriyyə»ni çalıb-oxuyurduq, camaat da yavaş-yavaş bu xırmanın dövrəsinə yığılırdı.

1930-35-ci illərdə mən Cabbar Qaryağdı oğlu ilə yoldaş olmuşam. Cabbar əmi ilə mən konsertlərdə, el şənliklərində, belə məclislərdə də həmişə çox çalıb-oxumuşuq. Demək istəyirəm ki, buradakı toy məclisində biz çalıb-oxuyub qurtaran kimi zurnaçılar qurşaq tutan pəhləvanlar üçün həmən bu «Mənsuriyyə» yolunda cəngi çalırdılar. Ondan sonra həmən «Çahargah» yolunda bir oyun havası çalınırdı, qalib gələn pəhləvan oynayırdı. Bununla da «Axşam ixtilatı» qurtarardı. Bu iş əsasən ona görə belə ertədən qurulurdu ki, ağsaqqallar gecə toyxanaya gəlmirdilər ki, cavanlar onlardan utanıb çəkinməsinlər. Odur ki, ağsaqqallara hörmət əlaməti olaraq belə bir toplanış ertədən olurdu.

«Səba-şəms» «Şur» dəstgahının zil şöbəsidir. Bu muğam zərblə çalınanda daha da canlanır. Bunun mənası «səhər günəşi» deməkdir. Yəni səhər açılır, günəş çıxır, həyat canlanır. «Səba-şəms» zərbi özündə bir neçə şöbəni cəmləşdirir. Burada «Səba-şəms»dən savayı «Hicaz», «Sarənc» şöbələri, «Qəməngiz» guşəsi ifa edilir. Dəstgahın bu «Səba-şəms» zərbinə düşməyi ona görədir ki, xanəndə üçün nəfəs almağa imkan yaransın.

Ovşar, Ağcabədi rayonunun yaxınlığında yer adıdır. «Ovşarı» zərbi burada yaşayan ovşarların oxumağıdır. Bunun oxuması «Şüştər» üstündədir, zil yerdədir. Sonralar bundan bizim balabançı dəstələri də istifadə ediblər.

«Heydəri» zərbini çoxdandır ki, çalıb-oxumurlar. Mən onu gənc xanəndə Alim Qasımova öyrətmişəm



Leyla Bədirbəyli, Bəhram Mansurov, Səkinə İsmayılova Dram Teatrının 110 illik yubiley gecəsində



Bəhram Mansurov ailəsi ilə:
Münəvvər xanım, Aydın, Elxan, Eldar (1971)

və onun ifasında lentə yazdırmışam. Bu zərb muğamı - «Heydəri»ni mən bir dəfə Cabbar. Qaryağdı oğlu oxuyanda eşitmişəm. Onda mən ona sual verdim ki, Cabbar əmi, bəs niyə bu «Heydəri»ni oxumurlar? O da dedi ki, ona səs lazımdır, səsi olanlar da tənbəllik eləyib oxumurlar. Dedim: «İndi oxuyarsan, qulaq asım görüm nə sayaqdır?» Cabbar əmi oxudu. «Şüştər» üstündə idi. Onu çox uzatsan, 3 dəqiqə oxumaq olar. O da zərb muğam hesabındadır. Sonralar erməni bəstəkarı Tiqranyan «Anuş» operasında «Heydəri»dən istifadə edibdir. **Bu, bizim zərb musiqimizdir!**

Atamdan, əmimdən eşitdiyim «Üzzal» zərb muğamı vardı. Onu mən özüm «Hümayun» dəstgahında ifa edib lentə yazdırmışam.

Hərdən eşidirəm ki, deyirlər «Çoban-bayatı» adlı zərb muğamımız olub. Bu düz deyil. «Çoban-bayatı»nı ilk dəfə tarda Qurban Primov çalıb, Cabbar əmi onun müşayiəti ilə bu muğamı oxuyubdur. Qurban dayı bu muğamı konsertlərdə solo çalanda, aradabir ritmik hava çalardı. Bu əslində təsnif idi. Bu təsnifin adı «Seyid Abbası»dır. Həmin təsnifi Hüseynqulu Sarabski oxuyardı.

Bir də eşitmişəm deyirlər ki, «Salami» zərb muğamı da olub. «Salami» nə zərb muğamı, nə də muğam guşəsidir. «salami» oyun havasına oxşar bir şeydir. Bu «Salami» bir neçə hissədir. Məsələn, «Bayatı-Qacar»dan başlanır. «Şikəsteyi-fars»a qədər gəlir. Keçmiş xanəndələrdən Məşədi Məmməd bunu oxuyardı. Sonralar «Salami»ni Əhməd və Məmmədxan Bakıxanovlar çalıblar. İndi «Salami»ni nə çalan var, nə də oxuyan.

«Şikəstə»lərlə bağlı onu deyə bilərəm ki, «Şikəstə» şikəst sözündən götürülmüşdür. Yəni sınıq, qırılmış,, kövrək, məzlum, əzilmiş, yazıq deməkdir. Onun oxunması da, çalınması da yanıqlı, təsirli olmalıdır. Çünki bu sözün mənası bunu tələb edir. Odur ki, burada ən həzin və dərin duyğular, kövrək hisslər ifadə olunur. Ona görə də «Şikəstə»ləri hər müğənni oxuya bilmir, o, hər oxuyanda alınmır. Oxuyanın səsində məlahət, həzinlik olmalıdır ki, oxuduğu təsirli olsun. Onu lirik oxumaq lazımdır.

«Şikəstə»ləri «zərb» muğama qatmaq düzgün deyil. Çünki «zərb» muğam mərdlik rəmzini ifadə edirsə, «Şikəstə» onun əksini - zəiflik rəmzini ifadə edir.

Bu «Şikəstə»ləri xalqımız bir növ «bayatı»ların üstündə qurubdur. Bu «Şikəstə»lər ancaq Azərbaycan xalqına məxsusdur. «Şirvan şikəstəsi», «Sarıtorpaq şikəstəsi», «Kəsmə şikəstə», «Qarabağ şikəstəsi», «Mirzəcanı şikəstəsi»... «Şirvan şikəstəsi»nin ən gözəl ifaçısı aşıq Şakirdir. Bu «Şikəstə» «Zabul» muğamı üstündə gedir və yarandığı yerin adı ilə bağlıdır. «Sarıtorpaq şikəstəsi»ni də aşıq Şakir gözəl oxuyub. Şamaxıda Sarıtorpaq məhəlləsi vardır ki, bu da oranın oxumağıdır. Bu «Şikəstə» də «Zabul-segah» pərdəsindən başlanır. «Sarıtorpaq şikəstəsi»ni Yavər xanım və Haşım Kələntərlilər gözəl oxuyardılar.

«Kəsmə şikəstə»ni əsasən Bakıda oxuyardılar. Əvvəllər bunun ən yaxşı ifaçıları Yavər xanım və Haşım Kələntərlilər idi. Onları camaat elə bu «Şikəstə»yə görə bir az da çox sevərdi. «Kəsmə şikəstə»ni sonralar bizim indiki müğənnilərdən Fatma Mehrəliyeva çox gözəl oxuyub. O da «Şikəstə»də özünəməxsus dəyişikliklər edib, o yan-bu yanını artırıb. Onun ifasında bu «Şikəstə» çox məlahətli, çox həzin və şirin alınır, səsi qəlbə toxunur, qulaq asdıqca, dinləmək istəyirsən.

Hər adamın «Şikəstə» oxumağı düzgün deyil. Oxuyan bilməlidir ki, əgər onda alınmırsa, oxumasın, çox da ona deyirlər ki, oxu...

«Mirzəcanı şikəstəsi»ni aşıq Əsəddən, aşıq İbrahim Qaraçı oğlundan eşitmişəm. Sonralar o şikəstəni Üzeyir Hacıbəyov nota salıb, «Koroğlu» operasında ondan istifadə eləyibdir. Bu operada Həsən xanın məclisinin qonağı olan Əhsən paşa Koroğlu oxuyandan sonra deyir ki, aşıq, indi bir şikəstə. O zaman Koroğlu həmin «Şikəstə»ni oxuyur.



Əbülfət Əliyev, Bəhram Mansurov, Fərhad Dadaşov radioda konsert zamanı (1949)

«Qarabağ şikəstəsi»ni atam Süleymandan öyrənmişəm. Mirzə Sadığın çalğısını atam mənə çatdırıb. Bu «Şikəstə»də Mirzə Sadığın çox gözəl xalları olub, cingənə simlərə mizrabı vura-vura orada çox şirinliklər eləyib. Özü də bir növ «Şahnaz», «Müxalif» yolunda çalınır ki, bir az da həzin, yanıqlı çıxsın.

«Qarabağ şikəstəsi» Qarabağda yaranıb. Bunun Cabbar Qaryağdı oğlu, Hacı



Bəhram Mansurovun təltif olunduğu Orden və Medalları



Şahmalı Hacıyev (Kürdoğlu) və Bəhram Mansurov (1958)

Hüsü, Keçəçi oğlu Məmməd kimi gözəl ifaçıları olubdur. Bu «Şikəstə»yə çox məlahətli, güclü, təsirli səs lazımdır. 1929-cu ildə mən «Qarabağ şikəstəsi»ni Keçəçi oğlu Məmməd oxuyanda görmüşəm. O, bu «Şikəstə»ni oxuyanda o qədər nəfəs verirdi ki, adamın lap ürəyi çəkilirdi ki, görəsən bu indi dayanar, ya yox.

«Qarabağ şikəstəsi»nin ən gözəl ifaçılarından biri də qarmonçalan Abutalıb idi. Bakıda onunla bir məclisdə olmuşam. O, tar da çalardı. Seyid Şuşinski ilə yoldaş idilər. Mən hələ Abutalıb kimi «Şikəstə» çalan görməmişəm. Heç xəyalıma da gəlmir ki, o cürə «Şikəstə» çala bilərlər. O, elə çalırdı ki, adam heyran qalırdı.

Bu axırlarda «Qarabağ şikəstəsi»nin çalğısını dəyişdiriblər. Əvvəllər «Qarabağ şikəstəsi» yanıqlı, təsirli ifa olunardı, ona görə də qəşəng çıxardı. Amma sonra doktor İoanesyan onu dəyişib saldı bizim orkestrə, necə ki, indi səslənir **(bunun «Şikəstəyə dəxli yoxdur, bu, çox kobuddur!).** Özü də bu «Şikəstə»ni hər adam da oxuya bilmir, müəyyən xanəndələr oxuyurlar.

«Rast» muğamı dəramədlə, yəni «Novruz-rəvəndə» ilə başlanır. «Novruz» təzə, «Rəvəndə» rəvan, düz yol deməkdir. «Novruz-rəvəndə» ilə «bərdaşt» eləyirsən, gəlib düşürsən «Mayeyi-rast»a. «Mayeyi-rast» qurtaranda gəlib düşür «Üşşaq» şöbəsinə. «Üşşaq» aşiqlərin cəmi deməkdir. «Üşşaq»dan keçir «Hüseyni»yə . «Hüseyni» gözəl, zərif deməkdir. «Hüseyni»dən sonra gəlir «Vilayəti». Bu, vilayət, ölkə deməkdir. «Vilayəti»dən sonra oraya bir parça da ayrı hissə əlavə olunub, adı «Dilkəş»dir (bu şöbəni muğama bizim qocaman, məşhur xanəndəmiz Seyid Şuşinski salmışdır). «Dilkəş», yəni ürəkaçan deməkdir. Bundan sonra gəlir «Xocəstə» şöbəsi. Bununla xanəndələr «Şikəsteyi-fars»la «Segah»ın oxuyub-çalınmasını birləşdiriblər, şirin nəfəslərini, şirin boğazlarını qarışdırıblar, bununla da məlahətli, ürəyəyatan bir muğam şöbəsi əmələ gəlmişdir ki, ona da «Xocəstə» deyirlər. «Xocəstə»dən sonra gəlir «Xavəran» şöbəsi. Bu ad yer adından götürülmüşdür. «Xavəran» «Ərak» şöbəsinə keçiddir, yol açır. «Ərak»dan sonra gəlir «Pəncgah» şöbəsi. «Pəncgah» «Rast» dəstgahının beşinci hissəsi hesab olunur. «Pəncgah»dan sonra gəlir «Rak» şöbəsi. Mən bu «Rak» sözünün mənasını çox axtarmışam, alimlərimizdən də xəbər almışam. Heç kəs mənə dürüst cavab verə bilməyib. Kürdəxanıda bir alim var, Məşədi Hüseynağa adında, mən ondan soruşdum ki, bu «Rak»ın mənası nədir, nə deməkdir? Dedi: «Bu saat lüğəti verərəm, özün oxuyarsan». O, bir kitab gətirib açdı, mənə dedi: «Gəl, oxu». Bu, köhnə, qədim lüğət kitabı idi. «Rak» sözünün mənası orada üç cürə yazılmışdı: həm iynənin saplanan yeri, həm qoçun



Alim Qasımov, Bəhram Mansurov, Tələt Bakıxanov Səmərqənd simpoziumunda çıxış zamanı (1983)

buynuzlarının arası, həm də doğanaq. Biz hər halda musiqiyə uyğunlaşan o iynənin saplanan yerini götürmüşük. Ona görə ki, «Rast» dəstgahının «Pəncgah» şöbəsinin qurtaracağında bu «Rak» çalınır. «Rak»dan verir «Qərai» şöbəsinə. «Qərai» bir yerdə dayanmaq, qərar tutmaq deməkdir. «Qərai»ni çalıb, gəlib düşürük «Rast»a. «Rast»ı «Dehri» ilə bağlayırıq, yəni «Rast»a düşəndə «Dehri» çalırsan. Dehri Hindistanda Dehli şəhərinin yaxınlığındakı yer adıdır. «Dehri» şöbəsi «Rast» dəstgahını tamamlayır.

«Şur» muğamının adı şur sözündən götürülmüşdür. «Şur» fars kəlməsidir, qarışıqlıq, şənlik deməkdir.

Əvvəllər «Şur» dəstgahının şöbələri başqa cürə idi. Məsələn, «Şur-şahnaz» olmayıb, «Şəhr-aşub» adında şöbə çalınardı. O şöbədən də gəlib düşürdün düz «Səba-şəms»ə. Amma hal-hazırda «Şəhr-aşub» şöbəsinin yerinə «Şur-şahnaz» çalırlar. Sonra «Şahnaz-xara», «Bayatı-türk», «Şikəsteyi-fars», «Əşiran» çalınır. Beləliklə, biz bu «Şur» dəstgahını dəyişmişik, qədimdəkindən ayırmışıq. Bu «Şur», Azərbaycanda yaranıb, belə də inkişaf edib.

Bu dəyişikliklər xanəndələrin səs «quruluşundan» əmələ gəlir. 19-cu əsrin xanəndələri çox güclü səsə malik olublar. Ona görə də indi bəmdə oxunan bir çox şöbələr o vaxt onların səsləri ilə əlaqədar olaraq zildə oxunardı. Məsələn, «Şur» dəstgahının «Sərənc» şöbəsindən sonra oxunardı: «Dügah», «Zəmin-xarə», «Şah Xətai», «Guşeyi-bayatı-Qacar», oradan ayaq verilirdi, gəlirdi «Nişibi-fəraz». «Naşibi-fəraz»dan sonra da gəlib düşürdü «Şur»a, bununla da dəstgah tamam olurdu.



Bəhram Mansurov və İraqın məşhur ud ifaçısı Salah əl Mehdi (Səmərqənd, 1983)

«Bayatı-türk» - bu şöbənin adı Azərbaycanla bağlıdır. Bərdənin yaxınlığında Bayat kəndi vardır ki, orada bayatlar yaşayıblar.

«Hicaz» 2 cürədir: «Hicaz-Əcəmi» və «Hicaz-Ərəbi». «Hicaz-Əcəmi» biz azərbaycanılara, «Hicaz-ərəbi» ərəblərə aiddir. Ərəb ölkəsində Hicaz muxtar vilayəti vardır ki, bu da oranın oxumağıdır.

«Sarənc» - ona «Sarəng»də deyirlər. «Sərənc»in zil yerinə «Qəməngiz»deyilir, yəni qəm gətirən. «Qəməngiz»dən sonda «Nişibi-fəraz»gəlir. «Nişibi-fəraz» aşağı-yuxarı deməkdir. Xanəndə bu hissədən sonra ayaq verib, «Mayeyi-şur»a düşür.



Bəhram Mansurov ailəsi ilə (1971)

«Şəhr-aşub» şödəsini atam Məşədi Süleymandan öyrənmişəm. O danışardı ki, «Səba-şəms»ə düşməzdən əvvəl «Şəhr-aşub»u çalıb-oxuyarmışlar. 1923-29-cu illərdə atam Məşədi Süleymanın musiqi məclislərinə gələn xanəndə Məşədi Mövsüm həmişə «Şur»da «Səbai-şəms»dən əlavə «Şəhr-aşub» şöbəsini ifa edərmiş. Sonra xanəndələr «Hicaz» pərdəsində «Bayatı-kürd», «Dəşti», «Gövhəri», «Mehdi zərrabi» və nəhayət, «Sarənc»də bəmə düşürdülər. «Sarənc»dən sonra «Zəmin-xarə» ilə dəstgah bitirdi. Dəstgahın ən ləzzətli yeri «Səba-şəms»dən başlanırdı. Lakin indiki «Şur»da «Səba-şəms» dəstgahın axırına düşür, xanəndə «Səba-şəms» yerinə çatdığı vaxt artıq yorulur, muğamın yüksək mərhələsi bir qədər solğun çıxır.



Bəhram Mansurov və Moskvalı musiqişünas Mixail Tarakanov (1982)

«Əbu-əta» İranda yayılmış muğamdır. Biz o hissənin yerinə «Sarənc» çalıb-oxumuşuq. «Əbu-əta» «Dilkəş» ilə çox yaxındır, bir pərdədədir, çalğıları «Şur» yolundadır.

«Dəşti» avaz etibarilə «Bayatı-kürdə yaxındır. Onun adı Azərbaycan muğamları sırasına müasir dövrdə qoşulub. Əvvəllər «Dəşti» «Şur» köklü muğamlarda, o cümlədən «Bayatı-kürd»də guşə kimi ifa olunub. Xanəndələrimiz «Dəşti»ni sərbəst muğam kimi də ifa ediblər.

«Şur» dəstgahını keçmişdən ta indiyə kimi cürbəcür variantlarda çalıblar. Lap qədimdə «Şur»u «Bərdaşt»la başlayardılar. «Maye»də bir az «Şur» oxunurdu, sonra keçib «Şəhr-aşub» oxunurdu, burdan da düz gəlirdilər «Səbai-şəms»ə, bunu da çalıb düşürdülər «Hicaz»a.

19-cu əsrin axırlarında «Şur»u başqa bir variantda çalardılar. «Şur»un «Maye»sini çalıb qurtarandan sonra burada çoxlu xırda hissələr vardır ki, onları da çalıb-qurtardıqdan sonra «Şur-şahnaz», «Dilkəş», «Bayatı-türk». «Dügah», «Bayatı-Qacar», «Şikəsteyi-fars», «Əşiran», «Səba-şəms» gəlirdi. Bu şöbə və guşələr not hesabı ilə cərgə ilə bir-birinin ardınca gəlirlər. Xanəndə «Səba-şəms»də bir ağız oxuyandan sonra zərb çalınır, sonra o, «Hicaz»a keçir. «Hicaz»dan sonra bəzən «Bayatı-kürd», bəzən «Dəşti», bəzən də «Şah Xətai» oxuyurdular. Ordan da gəlib düşürdülər «Sarənc»ə, sonra üstünü - «Qəməngiz» oxuyurdular. «Qəməngiz»dən sonra ayaq verirdilər, təzədən gəlib düşürdülər «Dügah»a, «Zəmin-xarə»yə, oradan da ayaq verirdilər «Nişibi-fəraz»a və bununla da «Şur» tamamlanırdı.

Biz, yaşlı nəsil, Şəkili Ələsgər, Cabbar əmi, Seyid kimi, Mirzə Mansur kimi sənətkarlardan görüb-götürmüşük. Bu barədə gənclərimizin vəziyyəti bir qədər çətindir. Şübhəsiz, bizim də vəzifəmiz bildiyimizi onlardan əsirgəməmək, gənclərə kömək etməkdir. Əlbəttə, gənc ifaçılarımızın çalmağında, oxumağında qüsurlar az deyil. Bəziləri «Mahur» muğamını tamamilə «Rast» muğamı kimi çalır. «Zəmin-xarə»sini «Bayatı-Qacar»dan ayırmaq olmur. Öyrənmək heç zaman gec deyil. Lakin bilməyib baş girləmək yaramaz.

«Nəva-Nişapur» muğamı barədə onu deyə bilərəm ki, «Şur» muğamına yaxındır. «Şur» dəstgahınan bərdaştını «Nəva» ilə başlayırsan. Buna baxmayaraq «Nəva-Nişapur» özü müstəqil kiçik bir dəstgahdır.



Bəstəkar Oqtay Rəcəbov və Bəhram Mansurov "Məktəblilərin Musiqi Klubu" verilişində (1981)

«Nişapur» Xorasan əyalətində şəhərdir. Bu muğam hissəsi də həmin şəhərdə oxunduğundan o yerin adı ilə adlanır. Bu iki yerdə oxunan kiçik muğam hissələrini birləşdirib eləyiblər «Nəva-Nişapur» dəstgahı. «Nəva-Nişapur» dəstgahı bu hissələrdən ibarətdir: «Nəva» bəmdə, sonra isə zildə çalınır. «Nişapur» «Pəhləvi», «Kərküki», «Nəva» və yenə «Nişapur» ilə muğam tamamlanır.

«Şur» kökündə olan muğamlardan «Şahnaz» və «Rahab»ı göstərə bilərik. «Şahnaz» muğamı iki cür ifa olunur. Birinci, «Kürd-şahnaz» adlanır. «Kürd-şahnaz»ın şöbələri bunlardır:



Mehdi Məmmədov, Maqsud Məmmədov, Əflatun Nemətov, Bəhram Mansurov, Nicat Məlikov, Məmməd Quliyev opera teatrında bədii şurada (1973)

«Şahnaz», «Şahnaz-xara», «Kürd», «Şəqqi-şahnaz» və «Azərbaycan». Bu muğamı daha çox qadın xanəndələri ifa edirlər. İkinci isə «Şahnaz» adlanır. Burada bütün şöbələr «Kürdü-şahnaz»da olduğu kimidir. Təkcə «Kürdü» şöbəsi buraxılıb.

«Rahab» muğamı «Şur» ailəsinin ən maraqlı, eyni zamanda nadir ifa olunan bir üzvüdür. «Şur»a avazca çox yaxın olan bu muğamı həmişə ustad xanəndələr ifa edirlər. «Rahab»ı yaxşı bəm səsi olan pəsxan xanəndələr oxuyurlar. «Rahab»ın şöbələri bunlardır: «Bəzmigah», «Rahab», «Dilrüba» və «Əmiri».

«Şüştər» muğamının adı İranda - İsfahan və Şiraz şəhərləri arasında yerləşən eyni adlı yerin adı ilə bağlıdır. «Şüştər» muğamında klassik xanəndə və sazəndələrimiz «Əmiri». «Şüştər», «Məsnəvi», «Moləvi», «Bidad» şöbələrini ifa edirlər. «Əmiri» şöbəsi xanəndələr tərəfindən «Bərdaşt» əvəzində oxunurdu. Maraqlı cəhəti də bu idi ki, «Əmiri»ni «Rahab» kimi başlayıb, sonra «Şüştər»ə keçirdilər. Bu muğamın gözəl ifaçılarından biri Ələsgər Abdullayev olub. «Şüştər»in müasir xanəndələr tərəfindən az ifa olunmasının əsas səbəblərindən biri muğamın həm texniki, həm də nəzəri cəhətdən mürəkkəbliyidir. Bütün bunlara baxmayaraq xanəndələrimizin ifasında «Şüştər» muğamının gözəl lent yazıları vardır.

«Segah» muğamı Qafqazda, o cümlədən, Azərbaycanda inkişaf etmiş və çox sevilən muğamlardan biridir. Bu muğam o qədər qəlbə yatımlı, şirin və məlahətlidir ki, sazəndə və xanəndələr onu xüsusi məharətlə ifa edirlər. «Segah» məhəbbət tərənnüm edir, yanıqlıdır, qəmlidir, safdır.

Şərq ölkələrində «Segah»ın yalnız bir növdən ibarət olduğu halda, Azərbaycanda «Segah»ın



Bəhram Mansurov televiziyada "Leylilər" verilişində (1984)

bir neçə növü vardır: «Zabul-segah», «Orta segah», «Mirzə Hüseyn segahı», «Xaric segah» və i. a. Bütün bu segahların hər biri ayrı-ayrılıqda bitkindir, müxtəlif ucalıqlarda və pərdələrdə səslənir. «Segah» həmişə adicə «Segah» adlanıb. Onu dəstgah halında deməyiblər. «Zabul-segah» dəstgah hesab olunur. «Zabul» dəstgahının daxilində çalınan «Segah»a «Orta segah» deyilir. «Zabul» və «Segah» muğamları ayrı-ayrı çalındıqda dəstgah hesab olunmnur. Amma «Zabul-segah» deyəndə bu məlum şeydir ki, dəstgahdır. «Zabul-segah» dəstgahı digər «Segah»lardan ən böyüyü sayılır. Çünki biri o birinin «bəm» və «zil»ini tamamlayır. Tarın birinci pərdəsindən başlayır, ta axırıncı pərdəsinə qədər gedir. «Segah» bu dəstgahın daxilində bir şöbə kimidir. «Segah»ı bütün pərdələrdə çalmaq və oxumaq olar. O baxır kim onu nə sayaq qavrayır.

«Segah»ın müxtəlif varianlarındakı adlarının izahı xanəndələrin səslərinin gücü ilə əlaqədardır. Məsələn, qocaman müğənnimiz Haşım Kələntərli not hesabı ilə «sol» kökündə, muğam dili ilə desək, «Zabul» pərdəsində oxuyurdu. Onun səsi orada işlədiyinə, yaxşı səsləndiyinə görə həmişə deyirdilər ki, «Haşım segahı» çal. «Haşım segahı» təkdir. Amma şirindir. Onun əvvəli, sonrası muğam yolu ilə düz gəlmir. Bu «Segah»ın variantları cürbəcürdür. Məsələn, Qarabağ xanəndələrinin səsləri çox güclü və çox məlahətli olduğundan onlar həmişə «Yetim segah» oxuyublar. Həmən «Yetim segah» sözünün mənasını atam Məşədi Süleymandan soruşduqda, o mənə deyərdi ki, atasız-anasız uşağa yetim deyirlər. Bu «Segah»ın da ətrafında muğam şöbələri yoxdur, təkdir, bir tarın mayəsində çalınır - bəmdə və zildə. Ona görə də «Yetim segah» adlanır. «Xaric segah» da həmçinin, bu cür bir bəmdə, bir də zildə çalınır. Yerləri ayrı olduğuna görə ona «Xaric segah»

deyirlər. Bizim ustad tarzənimiz Mirzə Sadıq həmin «Yetim segah»a «Müxalif» və «Məsnəvi» şöbələrini əlavə edib ki, bu «Segah» böyüsün, genişlənsin, «yetimlikdən» çıxsın. Mirzə Salıq bu əlavələrdən sonra Mirzə Hüseyn adlı bir xanəndə ilə məclisdə bu «Segah»ı çalıb-oxuyurlar. Xanəndə elə gözəl oxuyur ki, muğam onun adı ilə «Mirzə Hüseyn segahı» adlanır. «Mirzə Hüseyn segahı» başlanır «Müxalif»lə, sonra gəlir «Məsnəvi» - «Segah»ın mayəsi, sonra «Zil-segah» çalınır, «Şikəsteyi-fars», «Mübərriqə» ilə ayaq verilir.

«Zabul-segah»da «Zabul», «Mübərriqə», «Manəndi-müxalif», «Muye», «Segah», «Məxlut», «Xavəran», «Ərak», «Hissar», «Müxalif», «Tərkib», «Məsnəvi» və «Zabul» ilə tamamlanır.

«Yetim segah»ı qarabağlı İslam Abdullayev o qədər gözəl oxuyardı ki, ona «Segah İslam» deyərdilər. Bu «Segah»ı Cabbar əmi də yaxşı oxuyardı, amma «Yetim segah»ı İslam Abdullayev kimi oxuyan yox idi. «Haşım segah»ı Haşımdan qabaq Üzeyir Hacıbəyov «Əsli və Kərəm» operasında birinci pərdədə «sol» yerində istifadə edib. Məsələn, el arasında asan olmaqdan ötrü deyərdilər ki, «Haşım segah»ı çal. «Haşım segah»ı deyəndə məlum olur ki, hənsı pərdədən çalacağam. Oxuyan həmişə o yerdə oxumur, bir də görürsən ki, səsi düz olmur, deyir başqa pərdədə çal. Bu o demək deyil ki, indi kim oxudu, desin ki, bunu mən yaratmışam. Yox, «Segah» çoxdan yaranmış bir muğamdır. Ola bilər ki, Sarabski də onu oxuyub qəşəngləşdirib. Bu ayrı məsələdir. Amma yaradıb? Yox!. Bu muğam ondan çox-çox qabaq yaranıb. İfaçılıqda demək olar ki, bunu filankəs gözəl oxuyub. Yoxsa «Segah» bizim bu yaxın əsrdə yox, çox-çox qədimdə yaranmış muğamdır.

«Çahargah» muğamının adı demək olar ki, bir çox Şərq xalqlarının musiqisində vardır. «Çahargah» özü qəhrəmanlığı, şücaəti, igidliyi tərənnüm edir. «Çahargah» kəlməsi fars sözündən götürülmüşdür. «Çahar» - dörd deməkdir, «gah» isə fars dilində isimlərin axırına gəlib, zaman, yer mənası verən şəkilçidir. «Çahargah» muğamının mənasını iki cür söyləyirlər. Birinci odur ki, bu muğam əsasən 4 böyük şöbədən ibarətdir: «Cövhəri», «Hissar», «Müxalif», «Mənsuriyyə». Bir də başqa



Bəhram Mansurov aşıqlar qurultayında (1984)

bir rəvayət vardır ki, «Çahargah» ilin fəsillərindən götürülmüşdür: yaz, yay, payız, qış.

Başqa bir rəvayətə görə keçmişdə iki qəbilə bir-biri ilə düz gəlmirmişlər. «Çahargah»ın başlanğıcı həmin qəbilələrin arasında barışıq üçün danışıq aparılmasını göstərir. Qəbilənin biri çox tərs olur, barışığı qəbul etmir. Qəbul eləməyəndə «Bəstə-Nigar» çalınıb oxunur. Rəqib tərəfi xoşluqla razılığa gətirmək istəyirlər. Lakin tərəf-müqabil barışıqla razılaşmır və bu zaman iki qəbilənin arasında «Hissar» çəkilir, başlanır car çəkilməyə. Bu vaxt «Müxalif» oxunur. «Müxalif»dən sonra «Qərra» çalınır, sonra burada «Müxalif» (müxalif - zidd, əks, uyğun olmayan deməkdir) başlanır, düşmən üzə-üzə dayanır, burada müharibə başlanır, cənglə zərb «Mənsuriyyə» çalınır. Meydan qızışır, sərkərdə nərə çəkir və bu zaman «Üzzal» çalınır. Tərəf-müqabil məğlub olur. Həmən «məğlub» da bu vaxt oxunur. «Çahargah»a ayaq verilir, müharibə qurtarır. «Məğlub» «Çahargah»ın sonudur.

«Bayatı-Şiraz» muğamlarımızın gəlinidir. «Bayatı-Şiraz» müstəqil muğam kimi yalnız keçən əsrin axırlarından mövcuddur. Bundan əvvəl «Bayatı-Şiraz», «Bayatı-İsfahan» dəstgahında bu şöbələr çalınardı: «Bərdaşt». «Gərduniyyə», «Nişibi-fəraz», «İsfahanək», ««Bayatı-İsfahan», «Xosrovan», «Nühif», «Hacı-yuni», «Naleyi-zəmbur», «Məsnəvi», «Pəhləvi», «Bayatı-kürd», «Qatar», «Bayatı-əcəm», «Gəbri», «Baba Tahir», «Azərbaycan», «Əbül-çəp», «Bayatı-Şiraz», «Xavəran», «Üzzal», «Dilrüba» və nəhayət, «maye»yə ayaq verilirdi.



Bəhram Mansurov Qəndab Quliyeva ilə «Muğam axşamı»nın çəkilişində (1984)

Sonralar bu 22 şöbə və guşədən ibarət «Bayatı-İsfahan» dəstgahından «Bayatı-kürd» şöbəsi ayrılır. «Bayatı- kürd»ü müstəqil dəstgah şəklində ilk dəfə Cabbar Qaryağdı oğlu ifa edib. Onun oxuduğu «Bayatı-kürd» muğamı eşidənlərin hafizəsində həmişəlik həkk olunubdur. Cabbarın oxuduğu «Bayatı-kürd»dən indiyədək heç kəsdə eşitməmişəm. Beləliklə, «Bayatı-İsfahan» dəstgahından «Bayatı-kürd» ayrıldıqdan sonra, yerdə qalan hissələr «Bayatı-Şiraz» muğamını təşkil edir. Müasir «Bayatı-Şiraz» muğamında bu şöbələr ifa edilir: «Bərdaşt», «Nişibi-fəraz», «Bayatı-İsfahan», «Zil bayatı-Şiraz», «Xavəran», «Üzzal» və bununla da ayaq verilir. «Mayə»də qurtarır.



Bəhram Mansurov və həyat yoldaşı Münəvvər xanım Mansurova

Azərbaycan musiqisindən fərqli olaraq İran musiqisində mövcud olan «Bayatı-İsfahan» dəstgahı öz adını dəyişməmişdir. Bizim «Bayatı-Şiraz» muğamına İranda «Bayatı-İsfahan» deyirlər. «Bayatı- Şiraz» və «Bayatı-İsfahan» muğamlarında olan maraqlı faktlardan biri də odur ki, İran musiqisində «Bayatı-Şiraz» «Bayatı-İsfahan» dəstgahına daxildir. Azərbaycan musiqisində isə tərsinə - «Bayatı-İsfahan» «Bayatı- Şiraz» dəstgahına daxildir. «Bayatı-İsfahan» böyük şöbə olduğuna görə onu təsniflə oxuyub qurtarırdılar. Əsas fərqlərdən biri də odur ki, bizim xanəndələr çox hünərli oxuyan olublar. Onlar «si» kökündə oxuyurlar. Onların öhdəsindən gələk çox çətin işdir, zil pərdələrdə oxuyurlar. İran xanəndələri isə «lya» kökündə oxuyurlar. Odur ki, «Bayatı-Şiraz 19-cu əsrin ikinci yarısından bu yana inkişaf eləyib, özü də Azərbaycanda! Beləliklə, «Bayatı-İsfahan» ayrıdır, «Bayatı-Şiraz» ayrı.

Nə üçünsə «Bayatı-kürd» muğamı xanəndələrimiz tərəfindən çox nadir hallarda ifa edilir. «Bayatı-kürd»ü ancaq instrumental ifada eşidirik. Qeyd edim ki, olduqca qüvvətli və zil səsə malik olan Cabbar Qaryağdı oğlu «Bayatı-kürd»də 10 şöbə və guşə ifa edərdi. Həmən şöbələr bunlardır: «Hacı-yuni», «Naleyi-zəmbur», «Məsnəvi», «Pəhləvi», «Bayatı-kürd», «Qatar», «Bayatı-əcəm», «Kəbri», «Baba Tahir», «Azərbaycan».

Klassik xanəndələrimizdən Seyid Şuşinskinin ifasında «Bayatı-kürd» muğamı vaxtı ilə lentə

yazılıb. Müasir ifaçılardan isə bu muğamı gənc xanəndə Alim Qasımov gözəl oxuyur. Onun ifasında bu muğamı mənim muşayiətimlə üçlükdə vala da yazdırmışıq.

«Hümayun» muğamı ifaçılıq təcrübəmizdə o qədər də çox işlənməyən dəstgahdır. «Rast», «Şur», «Segah», «Bayatı-Şiraz» kimi muğamlara nisbətən «Hümayun»u daha az xanəndə və sazəndənin ifasında eşitmək olar. Bəlkə buna görə də onun bəzi guşələri unudulub, muğam cılızlaşıb və hətta xarakterini də bir qədər itirib. «Hümayun» deyəndə nəsə bir əzəmət, vüqar, qürur düşünülməlidir. Çünki «Hümayun» adı altında ustadlarımız şahanəlik başa düşüblər və bizə də tövsiyyə ediblər. Ancaq indi çalınan bəzi «Hümayun»larda kədər, qəm elə həddə çatıb ki, elə bil matəm musiqisidir. İndiyədək Azərbaycanda tanınan «Hümayun» iki cür ifa edilib. Bunlardan biri «İran Hümayun»u, ikincisi «Qafqaz Hümayun»u adı ilə tanınıb. «İran Hümayun»u daha yığcamdır və bəmdə ifa edilir. Onun diapozonu kiçikdir. «İran Hümayun»u bu şöbələrdən ibarətdir: «Hümayun», «Bayatı-feyli», «Məsnəvi», «Tərkib».

«Qafqaz Hümayun»u daha genişdir və nisbətən zildə ifa edilir. Onu çalıb-oxumaq hər xanəndənin, hər sazəndənin işi deyil. «Qafqaz Hümayun»unu ustadımız Mirzə Sadıq düzəldibdir.

Vaxtı ilə mən bizim evdə bu «Hümayun»u oxuyan Əbdülbağı Zülalovu görmüşəm. Bir də Hacı Hüsü oxuyub. Onlardan sonra mən bu «Hümayun»u oxuyan görməmişəm. Müharibədən sonra birinci dəfə «Hümayun» oxuyan Əbülfət Əliyev olub. O oxuyan «Hümayun», «İran Hümayun»u yolundadır, bəmdədir, ayrı pərdədir. Bundan sonra camaatımız başladı yavaş-yavaş «Hümayun» sifariş verməyə. O biri xanəndələr də məcbur oldular xırda-xırda öyrənməyə. Odur ki, indi «Hümayun» da oxuyurlar. Amma bu «Hümayun» ki, biz çalıb-oxuyuruq, bunu heç kim oxuyub-çalmır. Çünki bu çətindir, bunun pərdələri dəyişir. mən dörd aya yaxın bu «Hümayun»u Alim Qasımovla məşq edib ona öyrətmişəm. «Qafqaz Hümayun»unun şöbələri bunlardır: «Hümayun», «Feyli», «Məsnəvi», «Tərkib»,



Bəhram Mansurov, Hamlet Qurbanov, Gülxar Həsənova, Eldar Mansurov (1973)

«Bidad», «Saqinamə», «Üzzal», «Məxluq», «Dilruba», «Bəxtiyari».

Biz bu muğam üçün Mirzə Sadığa borcluyuq. «Hümayun»dan başqa o, bir-iki muğamın da yerini dəyişib. Məsələn, «Rahab»ın yerini dəyişib ki, bizim Azərbaycan oxuyanları üçün oxumağa imkan olsun.



Bəhram Mansurov

Bizim bəzi ifaçılar «Hümayun» dəstgahında «Mayə» şöbəsindən sonra «Şüştər»in də «Mayə»sini çalırlar, sonra isə «Tərkib»... Amma dəstgah içərisində yeni bir dəstgah doğru deyil. Çünki «Hümayun»un «Maye»sindən sonra yenə «Mayə» ifa etmək, ondan tamamilə uzaqlaşmaq deməkdir. Elə bil «Hümayun»un «Mayə»si «Şüştər» dəstgahı üçün giriş vəzifəsi daşıyır. «Hümayun»un öz yeri var, «Şüştər»in öz yeri. Ancaq bir məsələ var ki, «Hümayun»un və «Şüştər»in səs düzümü uyğun gəlir. Buna görə də bəzi xırda guşələrin hər iki muğamda təkrar edilməsinə yol verilir. Məsələn, elə mən özüm də «Hümayun»da «Bidad» guşəsini çalıram. «Bidad» özü-özlüyündə «Şüştər» muğamına ziddir. Lakin muğamın əsas şöbəsi olan «Mayə»nin təkrarı səhvdir. Bir də bilirsiniz, bu dediklərimi mən özümdən icad etməmişəm. Mən də öz ustadlarımdan - əmim Mirzə Mansurdan və atamdan öyrənmişəm və bildiklərimi də gənc xanəndə və sazəndələrimizə deyirəm. Onlar da özləri üçün nəticə çıxarsınlar.

Bəzi muğamlarımızda oxunan «Saqinamə» barədə də bir neçə söz demək istəyirəm. «Saqinamə»lər itməkdə olan musiqi parçalarındandır. Hal-hazırda iki «Saqinamə» qalıb, biri «Şur»da, o birisi isə «Hümayun»da. «Saqinamə» sözü Şərq poeziyasından gəlib. «Məsnəvi», «Gərayili» muğam şöbələri kimi. Atam danışardı ki, keçmişdə muğamları saat yarım, iki saat oxuyardılar. Camaat yorulmasın deyə, orada bir «Saqinamə» çalardılar. «Saqinamə» çalınan vaxtı görürdün ki, məclisdə bir canlanma başlayırdı, qulluqçular isə əllərində məcməyi, məclsdəkilər üçün çay, şərbət, su gətirib paylayırdılar. Bir növ məclis əhlinə kiçik istirahət verilirdi və sonra yenə də dəstgahın davamı çalınırdı. Bu «Saqinamə»lər demək olar ki, o vaxtı bütün dəstgah muğamlarımızda olub.

Yadımdadı, Abşeronun toy məclislərində Cabbar Qaryağdı oğlu dəstgahların içərisində çox vaxt «Saqinamə» oxuyurdu. Mən ona deyəndə ki, Cabbar əmi, atamdan eşitmişəm ki, bu

«Saqinamə»ləri ancaq sazəndələr çalıblar, heç yerdə oxumayıblar, o, mənə belə dedi: «Bunların musiqisi gözəldir, çox xoşuma gəlir. Gələcəkdə bu havalar yaddan çıxmasın deyə, onlara söz qoşmuşam, həm də oxumaqla daha yaxşı çıxır», «Saqinamə»lər təsnifə oxşar havalardır.

Arzularım, niyyətlərim böyükdür. Ömürdən, taledən şikayətlənə bilmərəm. Xoşbəxtəm. Xoşbəxtəm ona görə ki, öz sevincimi, xoşbəxtliyimi xalqımla bölüşürəm. Gənclərə, tələbələrimə, oğlanlarıma baxıb düşünürəm, görəsən, onlar mənim qoyduğum mirası - musiqini mənim kimi təbliğ edəcəklərmi?

Operada mənimlə çiyin-çiyinə çalışan Elxanıma baxıram, görəsən...

Arzular bir ömrə sığmır.

Ömür qıysa...

SON SÖZ ƏVƏZİ

...Bu da son səhifə, hörmətli oxucular. Bakının şərəfli və şöhrətli, sayılıb - seçilən nəsillərdən olan Mansurovların tarixi ilə tanış oldunuz. Xatirələr cığırıyla başladı dastan - yazıldı dastan. Millətə qürur, ləyaqət nümunəsi oldu Mansurovlar. Həyatda ağlı-qaralı günləri dəfələrlə yaşayan nəsil taleyin ağır zərbələrindən sarsılmayıb, əyilməyib. Əksinə, daha da mübariz olub, layiqincə şərəfini qoruyub. Qədim Odlar diyarının, doğma Bakını dünyada ucaldan neçə-neçə şəxsiyyətlərin adı məhz Mansurovlar nəsli ilə bağlıdır. Onların arasında bu kitabın müəllifini ayrıca qeyd etmək istərdim.

Bəs, nəslin dastanını kim qələmə alıb? Tanış olun - kitabın müəllifi, mahnıları dillər əzbəri olan görkəmli bəstəkar Eldar Mansurovdur. Kitab 25 illik gərgin axtarışların, yuxusuz gecələrin, narahat gündüzlərin şirin bəhrəsidir. Nəslinin tarixinə olan sonsuz sevgisi, marağı onu arxivlər, muzey və kitabxanalarda tədqiqatlar aparmağa, nadir fotoşəkillər, sənədlər toplamağa səbəb oldu. Eldar Mansurov neçə - neçə ağsaqqal və tarixçilərlə görüşüb onların söhbət və xatirələrini qələmə almışdır.

Uzun və maraqlı yolçuluğa başladı Eldar, təbii ki, çətinliklərlə də rastlaşdı. Axı, sənədlərin bir hissəsi XVII əsrə bağlanırdı ki, onların da ətraflı öyrənilməsinə ehtiyac var ildi. 1600-cü illərdən baş alan nəslin tarixini yazmaq sizə heç də asan gəlməsin. Ən əsası keçmiş və müasir dövrün tarixi reallıqlarını nəzərə almaq lazım idi.

Kitab yalnız Mansurovların salnaməsi deyil. Müəllif nəslin tarixi fonunda həm də doğma Bakının keçmişindən söz açır. Şəhərin inkişafı, sənaye mərkəzi və o dövrün neft paytaxtı kimi formalaşması yazılarda təsvir olunur. Mansurovların ailə arxivindəki nadir şəkillər isə oxucuları bir növ 100-150 il geriyə, köhnə Bakıya səyahətə dəvət edir.



Eldar Bəhram oğlu Mansurov (2010)

Köhnə Bakı, İçərişəhər mühiti Eldarın babası Məşədi Süleyman bəy və atası Bəhram Mansurovun xatirələrində ətraflı əks olunub. Yaşadıqları dövrün yadda qalan, əlamətdar hadisələri qələmə alan nəslin bu görkəmli nümayəndələrinin yazılarında o illər gözümüzün önündə yenidən canlanır.

Milli musiqimizin tacı sayılan muğam dedikdə, təbii ki, ilk növbədə Mansurovların adı çəkilir. Axı, muğam sənəti bilavasitə bu nəslin tanınmış nümayəndələri tərəfindən öyrənilib, tədqiq olunub, təkmilləşib və bu günümüzə qədər qorunub. Eldar muğamlarımızın keşiyini çəkən Mansurovlar nəslində, tarzən Bəhram Mansurovun ailəsində boya-başa çatıb, böyük məktəb keçib, nəslinin layiqli davamçısı olub.

Təsadüfi deyil ki, muğam mövzusu bəstəkarın əsərdərində önəmli yer tutur. Atasının əziz xatirəsinə həsr etdiyi «Bəhramnamə» əsəri Eldar Mansurov yaradıcılığında növbəti mərhələ oldu. Bir zamanlar Bəhram Mansurovun ifa etdiyi muğamlardan istifadə edərək, bəstəkar yeni janr - simforokmuğam« yaratdı. Bu yenilik tək ölkəmizdə deyil, həm də dünyanın bir çox ölkələrində musiqisevərləri heyran etdi.

Bəstəkarın daha bir uğuru «Bayatılar» mahnısıdır. Onlarla ölkələrdə, onlarla ifaçılar tərəfindən, müxtəlif dillərdə səslənən bu mahnı ona dünya şöhrəti gətirdi. Yaradıcılığının əsas hissəsini təşkil edən mahnılar xalqımız tərəfindən yüksək qiymətləndirilir və sevə-sevə dinlənilir.

Eldar Mansurov klassik janra da müraciət edib və bir çox əsərlər yaradıb. Belə ki, bəstəkar «Kleopatra» və «Olimp» baletlərinin, 5 simfoniya, 2 simfonik poema, violin və orkestr üçün konsert, «Mahur-hindi» simfonik muğamının, kamera-instrumental və xor əsərlərin, həmçinin xeyli sayda filmlərə və teatr tamaşalarına yazılmış musiqilərin müəllifidir.

Bəstəkar həm də elmi fəaliyyətlə məşğul olub. Bir tədqiqatçı kimi, milli muğamların tarixi ilə maraqlanıb. Musiqişünas qismində ilk dəfə Səmərqənddə keçirilmiş Beynəlxalq simpoziumda məruzə ilə çıxış edib. Muğamlar haqqında məqalələri dəfələrlə Fransa, Almaniya və Rusiyanın nüfuzlu elmi nəşrlərində çap olunub.

O, 1981-ci ildən SSRİ və Azərbaycanın Bəstəkarlar, 1999-cu ildən isə Kinematoqrafiya ittifaqlarının üzvüdür. Yaradıcılığı və sənət uğurları diqqətsiz qalmayıb. Hazırda əməkdar incəsənət xadimi Eldar Mansurov Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin katibi kimi milli müsiqimizin inkişafı naminə çalışır.

Müdriklər buyurublar ki, dünyada ən çətin iş yaxşı ad qazanmaqdır. Ona sahib olanlar özlərindən sonra nəsli üçün sanki bir abidə ucaldırlar. Alicənablığı, mədəniyyəti və ləyaqəti ilə Mansurovlar həmişə və hər işdə hamıya nümunə olub. Təsadüfi deyil ki, dördüncü əsrini yaşayan Mansurovlar nəslinin gerbində bu sözlər yazılıb: «Bonus nomen et Honor», yəni «Yaxşı ad və ləyaqət!».

Pənah Rüstəmzadə

Mündəricat

Ön söz 7
Mansurovlar 8
Xatirələr 100
Ömür qıysa 174
Son söz əvəzi 283

Eldar Bəhram oğlu Mansurov

MANSUROVLAR

Texniki redaktor
Mehri Xanbabayeva

Üz qabığının rəssamı
Zöhrab Cabbarov

Dizayn
Kamran Nəcəfov

«Çaşıoğlu» Elm-İstehsalat Firmasında hazırlanmışdır.